ƏLLİNCİLİK İLAHİYYATI

CİLD 1

# Tanrının vahidliyi

DAVID K. BERNARD

# Əllincilik İlahiyyatı

# Tanrının Vahidliyi

CİLD 1

David K. Bernard

# Tanrının Vahidliyi

Müəllif: David K. Bernard

Müəlliflik hüququ © 1983, 2000 Müəllif David K. Bernard
Nəşr tarixi: 1983, 1984, 1985, 1986, 1987, 1989, 1990, 1991, 1992, 1993,
1994, 1995, 1997, 1998, 1999, 2003, 2004, 2006, 2007, 2010, 2012.
Yenidən işlənmiş nəşri: 2001
Kitabın üst qabığının dizaynının müəllifi Paul Povolni

Bu kitabdakı bütün sitatlar, başqa cür göstərilmədiyi təqdirdə, Bibliyanın Kinq Ceymz tərəfindən edilmiş (King James tərcüməsi) tərcüməsindən götürülmüşdür.

Bütün hüquqlar qorunur. “Word Aflame Press” nəşriyyatının əvvəlcədən icazəsi olmadan bu nəşrin heç bir hissəsi çoxaldıla, elektron sistemdə saxlanıla və ya hər hansı bir formada və ya hər hansı bir vasitə ilə, elektron, mexaniki, fotokopiya, səsyazma və ya başqa şəkildə ötürülə bilməz. Qısa sitatlar ədəbi rəylərdə istifadə oluna bilər.

Amerika Birləşmiş Ştatlarında çap olunmuşdur
Nəşriyyatı tərəfindən çap edilmişdir.

WORD AFLAME PRESS
8855 Dunn Road, Hazelwood, MO 63042
www.pentecostalpublishing.com

---

Nəşr məlumatları Konqres Kitabxanasının kataloquna daxil edilmişdir
Bernard, David K., 1956
-
Tanrının Vahidliyi.

(Əllincilik ilahiyyatı seriyaları; cild
1)
Biblioqrafiya: hissə.
1. Tanrı. 2. Üçlük— Mübahisəli ədəbiyyat. 3. Tanrı—
Sadəlik.
4. Vahidlik doktrinası (Əllincilizm)
1. Titul. 11. Seriyalar: Bernard, David K., 1956–
Əllincilik ilahiyyatı seriyaları; cild. 1.
BT102.1339 1986 231'.044 86-19051
ISBN 0-912315-12-1

# KONNİYYƏ

## MÜNDƏRİCAT

**Müqəddimə 5**
**Ön söz 10**
**1. MƏSİHÇİ MONOTEİZMİ 13**
Monoteizmin tərifi. Əhdi-ətiq öyrədir ki, yalnız bir Tanrı var. Əhdi-cədid (incil) öyrədir ki, yalnız bir Tanrı vardır. Nəticə.
**2. TANRININ TƏBİƏTİ 23**
Allah Ruhdur. Allah görünməzdir. Allah hər yerdə mövcuddur. Tanrının bədəni varmı? Allah hər şeyi biləndir! Allah hər şeyə qadirdir! Tanrı  əbədidir. Tanrı dəyişməzdir (dəyişilməzdir). Tanrı fərdiliyə, şəxsiyyətə və rasionallığa malikdir. Tanrının mənəvi (əxlaqi) xüsusiyyətləri.Teofaniyalar (Tanrının şəxsən zühur etməsi). Rəbbin mələyi. Məlkisedeq. Alovdakı 4-cü adam. Əhdi-cədiddə teofaniyalar varmı? Nəticə.
**3. ALLAHIN ADLARI VƏ TİTULLARI 43**
Bir adın əhəmiyyəti. Əhdi-ətiqdəki Allahın adları və ya titulları. Yehovanın mürəkkəb adları. Adının tədricən açıqlanması. İsa adı.
**4. İSA TANRIDIR 57**
Əhdi-Ətiq İsanın Allah olduğuna şəhadət edir. Əhdi-cədid İsanın Tanrı olduğunu bəyan edir. Tanrı İsa kimi bədəndə təzahür etdi. Kəlam. İsa yer üzündə ömrünün başlanğıcından Tanrı idi. İlahiliyin sirri. İsa bədəndə gəlimş (inkarnasiya olmuş) Atadır. İsa Yehovadır. Yəhudilər başa düşürdülər ki, İsa Özünün Tanrı olduğunu iddia edir. İsa Taxtda Oturandır. İsa Məsihin vəhyi. İsa

Tanrının bütün xüsusiyyətlərinə və üstünlüklərinə malikdir. Nəticə.
**5. TANRININ OĞLU 92**
İsa və Məsihin mənası. Məsihin ikili təbiəti. Məsihçiliyin tarixi doktrinaları. İsanın bütöv (tam), lakin günahsız olan bir insan təbiəti var idi. İsa günah edə bilərdimi? Bibliya terminologiyasındakı Oğul. Tanrının Oğlu. İnsan oğlu. Kəlam. Doğulmuş Oğul və ya Əbədi Oğul? Oğulun başlanğıcı. Oğulluğun bitməsi. Oğul üçün məqsədlər. Oğul və yaradılış. İlk doğulan. İbranilərə 1: 8-9. Nəticə.
**6. ATA, OĞUL VƏ MÜQƏDDƏS RUH 135**
Ata. Oğul. Müqəddəs Ruh. Ata Müqəddəs Ruhdur. İsa Məsihin Tanrısı Atadır. İsa Məsihin İlahisi (Tanrısı) Müqəddəs Ruhdur. Ata, Oğul və Müqəddəs Ruh. Matta 28:19. 1 Yəhya 5:7. Tanrı üç təzahürlə məhdudlaşırmı? Nəticə.
**7. ƏHDİ-ƏTİQ İZAHATLARI 158**
Elohim. Yaradılış 1:26. Digər cəm əvəzlikləri. Vahidin mənası (İbrani dilində Exad deməkdir). Teofaniyalar. İbrahimə görünmə. Rəbbin mələyi. Oğul və Məsihə aid digər istinadlar. Tanrının kəlamı. Tanrının hikməti. Müqəddəs, müqəddəs, müqəddəs. Tanrı (Allah) və ya Rəbb sözlərinin təkrarlanması. Rəbbin Ruhu. Rəbb Allah və Ruhu. Əzəldən Var Olan və İnsan Oğlu. Yehovanın yaxını. Nəticə.
**8. ƏHDİ-CƏDİD İZAHATLARI: İNCİL 184**
Anlamaq üçün dörd vacib yardım. Məsihin vəftizi. Göylərdən gələn səs. Məsihin duaları. "Allahım, Allahım!

Nə üçün Məni tərk etdin?" Tanrıçılıqdakı şəxslər arasında bilik ünsiyyəti? Matta 28:19. İsanın öncədən mövcudluğu. Oğul Atadan göndərildi.Tanrıçılıqdakı şəxslər arasındakı sevgi? Ata və Oğul arasındakı digər fərqlər. İlə bağlayıcıları ilə olan ayələr. İki şahid. İsmin cəm şəklinin istifadəsi. Tanrıçılıqdakı şəxslər arasındakı söhbətlər? Başqa bir təsəlliverici. İsa və Ata yalnız məqsəddə birdirlərmi? Nəticə.

**9. ƏHDİD-CƏDİD İZAHATLARI: HƏVARİLƏRİN İŞLƏRİ KİTABINDAN VƏHY KİTABINA QƏDƏR 215**

Tanrının Sağ tərəfi (əli). Məktublarda salamlar. "Həvarinin vəsatət duası". Məktublardakı və Vəhydəki digər üç istinad. Tanrının tamlığı (dolğunluğu). Filipililərə 2: 6-8. Vəhy 1:1. Allahın yeddi ruhu. Vəhy 5-də olan Quzu. Nəyə görə Tanrı Müqəddəs yazının «çaşdırıcı» ayələrinin olmasına izn verib? Nəticə.

**10. KİLSƏ TARİXİNDƏ VAHİDLİYƏ İNANANLAR 253**

Həvarilikdən sonrakı dövr. Vahidlik-ikinci və üçüncü əsrlərdə hakim olan inam. Modalist monarxiançılıq. Dördüncü əsrdən bu günə qədər vahidlik konsepsiyasına inananlar. Modalist monarxianizm: erkən kilsə tarixində vahidlik konsepsiyası

**11. TRİNİTARİZM: ANLAYIŞI VƏ TARİXİ İNKİŞAFI 273**

Üçlük doktrinasının tərifi. Triteizmlə bağlı problemlər. Tabeçilik ilə bağlı problemlər. Bibliyaya aid olmayan terminlər. Trinitarizmin tarixi inkişafı. Bütpərəst köklər və paralellər. Həvarilikdən sonrakı inkişaf prosesləri. Tertullian: Məsihçi Trinitarizmin Atası. Digər Erkən

Trinitaristlər. Nikeya Şurası. Nikeyadan sonra. Atanasian Etiqad toplusu. Həvarilərin etiqad toplusu. Nəticə.
**12. TRİNİTARİZM: QIYMƏTLƏNDIRMƏ 305**
Bibliyadan olmayan terminologiya. Şəxs və şəxslər. Üç. Triteizm. Sirr. İsa Məsihin ilahiliyi. Ziddiyyətlər. Trinitarizmin qiymətləndirilməsi. Üçlük doktrinası Vahidlik konsepsiyası ilə ziddiyyət təşkil edir. İmanlı Cəmityyətin (Kilsənin) sıravı üzvü nəyə inanır? Nəticə.
**13. NƏTİCƏ 321**
**BİBLİOQRAFİYA 328**
**MÖVZU GÖSTƏRİCİSİ 333**

## CƏDVƏLLƏR

**Tanrının mənəvi təbiəti ....................................32**

**Tanrı üçün Əhdi-Ətiq adları ...............................46**

**Yehovanın mürəkkəb adları.............................50**

**İSA YEHOVADIR (I) ..........................................77**

**İSA YEHOVADIR (II) .........................................79**

**İSA VƏHY KİTABINDA.......................................85**

**İSA TANRININ MƏNƏVİ (ƏXLAQİ) TƏBİƏTİNƏ MALİKDİR ........................................................ 89**

**İsa Məsihin ikili təbiəti .................................... 94**

***Kai* sözünün istifadəsi...................................225**

**Koloslularda İsanın tam ilahiliyi bəyan edilir..233**

**Trinitarizm və Vahidlik müqayisəli formada..... 314**

## Önsöz

Bu kitab Əllincilik teologiyasında yazılmış silsilə kitabların birinci cildidir. Dəyər verdiyimiz fundamental bibliya həqiqətlərinin hərtərəfli, müfəssəl öyrənilməsinə və izahatına, sözün həqiqi mənasında, bir ehtiyac var və bu silsilə həmin ehtiyacı ödəməyə kömək etmək üçün hazırlanmışdır. Hazırkı cild Tanrıçılıq barədə ətraflı müzakirəni bir kitabda cəmləməyə çalışır. Bu, Allahın vahidliyini (təkliyini) və İsa Məsihin mütləq ilahiliyini təsdiqləyir. Silsilədəki digər cildlər *Yenidən Doğulma*, *Müqəddəslik Axtarışında* (mənim anam Loretta A. Bernard ilə birlikdə yazılmışdır) və *Praktik Müqəddəslik: İkinci Bir Baxış* kitablarıdır.

Bu kitabın məqsədi sadəcə bir məzhəbin ehkamı barədə təlim vermək deyil, lakin Allahın Kəlamını öyrətməkdir. Ümid edirəm ki, hər bir insan bu materialı dua edərək Bibliyada ifadə edilmiş fikirlərlə müqayisədə öyrənəcəkdir. Kitabda oxuculara Bibliya həqiqətlərini axtarmağa kömək etmək üçün bir çox ayələr iqtibas edilmişdir. Eyni zamanda, etiraf edirəm ki, əgər Allahın bizim üçün olan açıqlamalarının (vəhylərinin) düzgün dərk edilməsini istəyiriksə, hamımız Allahdan istəməliyik ki, zehnimizi məsh etsin və Öz Kəlamını aydınlaşdırsın. Yazılı qanun öldürür, Ruh isə həyat verir (II Korinflilərə 3:6). Allahın Ruhu bütün həqiqətləri bizə öyrədəcək və hər həqiqətə yol göstərəcək (Yəhya 14:26; 16:13). Son nəticədə Allah İsa Məsihin həqiqətən kim olması barədə açıqlama (vəhy) verməlidir (Matta 16: 15-17).

Allahın Vahidliyi (Təkliyi), Missisipi ştatının Cekson şəhərindəki Cekson Xidmətlər Kollecində sistematik teologiya və kilsə tarixinin tədrisi prosesində bir neçə illik araşdırma, tədqiqat və təcrübəyə əsaslanır. Mən əlyazmanı oxuduğuna və təkmilləşdirilməsi üçün çoxsaylı təkliflər (bunların çoxu qəbul edildi) verdiyinə görə, xüsusilə də anama təşəkkür edirəm. Bu silsilə kitabının mətninin yığılmasında kömək edən həyat yoldaşım Conniyə, eləcə də bu silsilə kitabın ərsəyə gəlməsində məni ruhlandırmaq, kitabı çap etmək və təşviq etmək üçün göstərdiyi köməyə görə atam möhtərəm Elton D. Bernarda minnətdaram. 1-6-cı fəsillərdə Bibliyanın öyrətdiyi məsihçi monoteizmi barədə müsbət doktrina təqdim olunur. Bu təlim bu gün ümumi olaraq təkallahlılıq kimi tanınır. 7-9-cu fəsillərdə etirazların cavablandırılması və əks şərhlərin təkzib edilməsi məqsədi ilə Müqəddəs Yazıdakı çoxlu sayda ayələr müzakirə olunur. 10-cu fəsildə, həvarilərin dövründən indiki dövrümüzə qədər təkallahlılığın tarixinə dair çoxsaylı araşdırmaların nəticəsi qeyd olunur. 11-12-ci fəsillərdə trinitarizm doktrinası, tarixi mənşəyi, inkişafı və təkallahlılıq inancından fərqlənən yollar izah olunur. Nəhayət, 13-cü fəsildə qısa bir xülasə və nəticə təqdim olunur. Bibliyaya aid olmayan məlumat mənbələrini sənədləşdirmək və oxunaqlığı qoruyub saxlamaq üçün hər fəslin sonunda qeydlər yerləşdirilmişdir. Biblioqrafiyada istifadə olunan bütün mənbələr, eləcə də təkallahlılığa aid olan bir sıra kitablar sadalanmışdır. Həmçinin, kitabda istifadə olunmuş

mühüm teoloji terminlərin tərifləri izahlı lüğətdə verilmişdir. Başqa cür göstərilməyibsə, yunan və ivrit sözlərinin mənaları Ceymz Stronqun müəllifi olduğu Bibliyanın Mükəmməl Uyğunluq İzahlı Lüğətindən (Strong's Exhaustive Concordance of the Bible) verilmişdir. Bibliyanın müxtəlif tərcümələri üçün aşağıdakı qısaltmalardan istifadə olunur: King James Version üçün KJV, Revised Standard Version üçün RSV, New International Version üçün NIV və The Amplified Bible üçün TAB. Başqa cür qeyd olunmayıbsa, bütün biblik iqtibaslar KJV-dəndir.

Bu kitabın məqsədi bu nəsildə Allah Kəlamının həqiqətlərini bərqərar etməkdə iştirak etməkdən ibarətdir. Bunda məqsəd məsihçi təkallahlılığını (monoteizmi) - Bibliyanın vahid Allah haqqında təlimini təsdiq etməkdir. Bunu etməklə mən İsa Məsihi hər şeydən üstün tutmaq niyyətindəyəm. İnanıram ki, İsa bədəndə zühur edən Allahdır, ilahilik bütün dolğunluğu (tamlığı ilə) ilə bədəncə Onda yaşayır və biz Onda tamıq (Koloslulara 2: 9-10).

# 1 Məsihçi MONOTEİZMİ

*"Dinlə, ey İsrail! Allahımız Rəbb yeganə Rəbbdir." (Qanunun təkrarı 6: 4)."Allah birdir" (Qalatiyalılara 3:20).*

Bir Allah var. Yalnız bir Tanrı var. Bu doktrina Bibliyada əsas yer tutur, çünki həm Əhdi-Ətiq, həm də Əhdi-Cədid (İncil) bunu açıq və ciddi şəkildə öyrədir. Bu mesajın sadəliyinə və Bibliyanın təqdim etdiyi aydınlığa baxmayaraq, Allahın varlığına inananların çoxu bunu başa düşməyiblər. Hətta məsihçi dünyasında bir çox insan, o cümlədən ilahiyyatçılar bu gözəl və vacib mesajı dərk etməyiblər. Məqsədlərimiz bu problemi həll etmək və Allahın vahidliyi haqqında bibliya doktrinasını təsdiqləmək və izah etməkdir

## Monoteizmin tərifi

Yalnız bir Tanrıya inam monoteizm (Təkallahlılıq) adlanır. Bu söz iki yunan sözündən yaranmışdır: monos tək, vahid, bir; teos isə Tanrı deməkdir. Monoteizmi qəbul etməyən hər kəs aşağıdakılardan biri kimi təsnif edilə bilər: ateist - Allahın varlığını inkar edən şəxs; aqnostik - Allahın varlığının bilinməyən və bəlkə də bilinməz olduğunu iddia edən şəxs; panteist - Allahı təbiət və ya kainatın qüvvələri ilə bərabərləşdirən şəxs; ya da politeist - birdən çox Allaha inanan şəxs. Diteizm-iki tanrıya inam, politeizmin bir formasıdır və triteizm - üç tanrıya inamdır. Dünyanın əsas dinləri arasında üçü monoteistdir: iudaizm, islam və məsihçilik. Özlərini məsihçi adlandıranların sırasında, Tanrıçılığın təbiəti ilə bağlı bir neçə fikir ayrılığı vardır. Trinitarizm adlanan bir görüşə görə Tanrıçılıqda üç aşkar şəxsin - Allah Ata, Allah Oğul və Allah Müqəddəs Ruh olduğu, ancaq üçünün bir Tanrı olduğu təsdiq edilir (Fəsil 11-ə baxın). Trinitarizm sıralarında iki ifrat meyli aşkar etmək olar. Bir tərəfdən bəzi trinitaristlər Tanrıçılıqda üç aşkar şəxsin nə demək olduğu barədə diqqətlə inkişaf etdirilmiş bir anlayışa malik olmadan Allahın birliyini vurğulayır. Digər tərəfdən, üç özünüdərk varlığın olmasına inanan digər trinitaristlər üçlüyün üç olduğunu vurğulayırlar və onların görüşləri əslində triteistdir.

Trinitarizmlə yanaşı binitarizm doktrinası da var. Bu doktrina Müqəddəs Ruhu ayrı bir şəxs kimi təsnif etmir, lakin Tanrıçılıqda iki şəxsə inamını ifadə edir. Bir çox

monoteistlər həm trinitarizmin, həm də binitarizmin Bibliyanın ciddi monoteizm təlimini zəiflətdiyini qeyd ediblər. Onlar Tanrının şəxslərə bölünməməsini və Allahın mütləq olaraq bir olduğunu təsdiq edirlər. Ciddi təkallahlılığa (monoteizmə) inananlar iki sinfə bölünürlər. Bir sinif yalnız bir Tanrının olduğunu təsdiq edir, ancaq bu və ya digər şəkildə İsa Məsihin tam tanrılığını inkar edirlər. Bu görüş erkən kilsə tarixində samosatlı Pavel kimi dinamik monarxistlər və Ariusun rəhbərlik etdiyi Arianlar tərəfindən təqdim edilirdi. Bu qruplar İsanı yaradılan bir tanrı, tabe bir tanrı, kiçik tanrı və ya yarıilahi mövqeyinə qədər kiçildirdilər.
Həqiqi monoteistlərin ikinci sinfi bir Allaha inanır, lakin həmçinin ilahiliyin tam olaraq İsa Məsihdə zühur etdiyinə inanırlar. Ata, Oğul və Müqəddəs Ruhun Allahın insanlara göstərdiyi təzahürlər, rejimlər, idarələr və ya münasibətlər olduğuna inanırlar. Kilsə tarixçiləri Noetus, Praksis və Sabellius kimi erkən kilsə rəhbərlərinin malik olduqları bu fikri təsvir etmək üçün modalizm və modalist monarxizm terminlərindən istifadə etdilər. (10-cu fəslə baxın.) Bu gün həm Allahın bölünməz vahidliyinə və İsa Məsihin tam ilahiliyinə inananlar inanclarını təsvir etmək üçün tez-tez "Vahidlik" terminini işlədirlər. Onlar həmçinin “Tək Allah” və “İsa Adı” ifadələrini sifət kimi istifadə edirlər ki, özlərini fərqləndirsinlər. Opponentləri isə bəzən “İsa Yalnız” və “Yeni Məsələ” kimi yanlış və aşağılayıcı ifadələrdən istifadə edirlər ("İsa Yalnız" yanlışdır, çünki trinitaristlərə görə bu, Atanın və

Müqəddəs Ruhun inkar edilməsini nəzərdə tutur. Bununla birlikdə, vahidliyə inananlar Ata və Ruhu inkar etmirlər, əksinə Ata və Ruhu İsanın Ruhu olan bir Tanrının fərqli rolları kimi görürlər). Xülasə, Məsihçi dünyası Tanrıçılığın dörd əsas görüşünü ortaya qoydu: (1) trinitarizm, (2) binitarizm; İsa Məsihin tam ilahiliyini inkar edən ciddi monoteizm və (4) İsa Məsihin tam ilahiliyini və ya Vahidliyi təsdiq edən ciddi monoteizm. Tanrıçılığa dair insanların bir sıra inanclarını araşdırdıqdan sonra, gəlin Allahın Kəlamının - Bibliyanın bu mövzuda söylədiklərinə baxaq.

**Əhdi-Ətiq öyrədir ki, yalnız bir Tanrı var.**

Vahid Tanrı doktrinasının klassik ifadəsinə Qanunun təkrarı 6: 4-də rast gəlinir. "Dinlə, ey İsrail! Allahımız Rəbb yeganə Rəbdir."Müqəddəs yazıların bu ayəsi yəhudilər üçün imanın ən fərqləndirici və vacib bir ifadəsinə çevrildi. İbrani dilində həmin ifadənin ilk sözündən sonra onu Şema adlandırırlar və tez-tez İngilis dilində "Dinlə, ey İsrail! Allahımız Rəbb yeganə Rəbdir" kimi sitat gətirirlər. (NİV-ə də baxın.) Ənənəvi olaraq, dindar bir yəhudi ölümündən əvvəl bunu deməklə imanını iqrar etməyə çalışırdı. Qanunun təkrarı 6:5-də Allah əvvəlki ayədə ifadə olunmuş fikri vahid və yeganə bir Tanrı kimi Ona tam inam və məhəbbət göstərməyi tələb edən bir əmrlə davam etdi: “Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə sev.” Qanunun təkrarı 6:4-5 ayələrinə Tanrının verdiyi əhəmiyyətə diqqət yetirməliyik. Bu ayələrin ürəklərdə yerləşdirilməsini (6-cı ayə), gün boyu uşaqlara

öyrədilməsini (7-ci ayə), ələ və alına bağlanılmasını (ayə 8) və evlərin qapı çərçivələrinə və darvazalarına yazılmasını (ayə 9) əmr edir. Bu gün ortodoks yəhudilər dua edərkən sol qollarına (bazu önü) və alınlarına tefillin (filakteriya) bağlamaqla, qapılarına və darvazalarına mezüzza qoymaqla bu əmrlərə itaət edirlər. Tefillin bədənə dəri qayışları ilə bağlanmış kiçik qutular, mezüzzalar isə tumar formalı qablardır. Hər iki növ qabın içərisində müəyyən təmizlənmə mərasimlərinə riayət etmiş saleh adam tərəfindən qara mürəkkəblə yazılmış ayələr (Müqəddəs yazıdan) olur. Müqəddəs Yazı ayələri, adətən, Qanunun təkrarı 6:4-9; 11:18-21; Çıxış 13: 8-10 və 13:14-16 ayələrindən ibarət olur. Yuxarıdakı məlumatları topladığımız Yerusəlimə səfər zamanı[1] tefillin almağa çalışdıq. Ortodoks yəhudi taciri məsihçilərə tefillini satmadıqlarını söylədi və dedi ki, məsihçilər Müqəddəs yazının bu ayələrinə inanmır və bunlara lazımi hörmət göstərmirlər. Qanunun təkrarı 6:4-dən sitat gətirdiyimizi və buna tam riayət etdiyimizi izah etdikdə onun gözlərinə işıq gəldi və o, tefillinə diqqətlə və hörmətlə yanaşacağımız şərti ilə onu bizə satacağını vəd etdi. Onun narahatlığı yəhudilərin vahid Tanrı anlayışına olan hədsiz hörmət və inam dərinliyini göstərir. Bununla yanaşı, həm də aydın olur ki, tarix boyu yəhudilərin məsihçiliyi rədd etməsinin əsas səbəbi monotesit mesajın təhrif edilərək qavranılmasıdır.

Bir çox digər Əhdi-Ətiq ayələri ciddi monoteizmi həqiqətən də təsdiqləyir. On əmr, "Məndən başqa

allahların olmasın" ayəsi ilə başlayır (Çıxış 20: 3; Qanunun təkrarı 5: 7). Tanrı bu əmrini, Özünün qısqanc Allah olduğunu bildirərək vurğuladı (Çıxış 20: 5). Qanunun təkrarı 32:39-da Tanrı Ondan başqa tanrının olmadığını söylədi. Rəbb kimi heç kim yoxdur və Ondan başqa Tanrı yoxdur (II Samuel 7:22; I Salnamələr 17:20). Yeganə Tanrı odur (Zəbur 86:10). Yeşaya peyğəmbərin kitabında Tanrı barədə güclü təsvir ifadələri vardır:
"Sizsiniz Mənim şahidlərim, seçdiyim qullarım,
Belə ki Məni tanıyıb, Mənə arxalanasınız,
Mənim O olduğumu anlayasınız.
Məndən əvvəl Allah mövcud olmayıb,
Məndən sonra da olmayacaq.
Mənəm Rəbb, yalnız Mənəm,
Məndən başqa qurtarıcı yoxdur" (Yeşayə 43:10-11).

«Mən birinciyəm, Mən sonuncuyam,
Məndən başqa Allah yoxdur" (Yeşayə 44:6).

"Məndən başqa Allah varmı?" (Yeşayə 44:8)

"Bütün şeyləri yaradan, göyləri təkcə yayan,
Təkbaşına yer üzünü sərən Rəbb mənəm" (Yeşayə 44:24).

"Məndən savayı heç kim yoxdur,
Rəbb Mənəm, başqası yoxdur" (Yeşayə 45:6).

"Məndən başqa Allah,

Ədalətli Allah və Qurtarıcı yoxdur.
Məndən başqası yoxdur.
Ey yer üzünün qurtaracağınadək hər yerdə yaşayanlar,
Mənə tərəf dönün və xilas olun!
Çünki Mən Allaham və başqası yoxdur!" (Yeşayə 45:21-22).
"Qədimdən bəri olan hadisələri xatırlayın,
Çünki Allah Mənəm, başqası yoxdur,
Mənəm Allah, Mənə bənzəri yoxdur!" (Yeşayə 46:9)
"Mən Öz İzzətimi heç kimə vermərəm" (Yeşayə 48:11; həmçinin baxın: Yeşayə 42:8)

"Ey keruvlar üstündə əyləşən Ordular Rəbbi olan İsrailin Allahı! Bütün dünya padşahlıqlarının Allahı yalnız Sənsən. Göyü və yeri Sən yaratmısan" (Yeşayə 37:16).
"Hamımızın atası bir deyilmi? Bizi eyni Allah yaratmadımı?" (Malaki 2:10).
"Rəbb bütün dünyanın padşahı olacaq. O gün yalnız Rəbb və Onun adı ucalacaq" (Zəkəriyyə 14:9).
Bir sözlə, Əhdi-Ətiq Tanrı barəsində Onun vahid olması baxımından danışır. Bibliyada dəfələrlə Tanrıya "Müqəddəs biri" (Zəbur 71:22; 78:41; Yeşaya 1:4; 5:19; 5:24) deyilir, lakin heç vaxt "müqəddəs iki", "müqəddəs üç" və ya "müqəddəs çox" deyilmir. "Bəzi trinitaristlərin Tanrının vahidliyi haqqında Əhdi-Ətiq doktrinası ilə əlaqədar olan ümumi bir fikri budur ki, Allah yalnız bütpərəst tanrılara qarşı Öz vahidliyini vurğulamaq istəyir, amma bununla belə O hələ də çoxluq şəklində

mövcuddur. Ancaq bu ehtimal doğru olsaydı, Allah bunu niyə açıqlamadı? Niyə yəhudilər “şəxslərin” teologiyasını dərk etmədilər, ancaq mütləq monoteizmdə israr edirdilər? Gəlin buna Allahın nöqteyi-nəzərindən baxaq. Tutaq ki, Allah, Tanrıçılıqdakı çoxluqda hər hansı bir inamı istisna etmək istədi. O, o zaman mövcud olmuş terminologiyadan istifadə edərək bunu necə edə bilərdi? Öz mesajını xalqına çatdırmaq üçün hansı güclü sözlərdən istifadə edə bilərdi? Bu barədə düşünəndə, mütləq vahidliyi təsvir etmək üçün mövcud olan ən güclü dildən istifadə etdiyini başa düşəcəyik. Yeşayə peyğəmbərin kitabından verilmiş əvvəlki ayələrdə biz "heç kim, heç kəs, mənim kimi heç kim, məndən başqa heç kim, tək mən" və "bir" kimi söz və ifadələrin işlədilməsini qeyd edirik. Şübhəsiz ki, Allah tanrıda heç bir çoxluğun olmadığını bundan daha aydın göstərə bilməzdi. Bir sözlə, Əhdi-Ətiq Allahın say etibarı ilə tamamilə vahid olduğunu təsdiqləyir.

## Əhdi-Cədid (İncil) öyrədir ki, yalnız bir Tanrı vardır

İsa Qanunun təkrarı kitabından 6:4 ayəsini qəti şəkildə öyrətdi və bunu bütün əmrlərdən birincisi adlandırdı (Mark 12: 29-30). Əhdi-Cədid vahid Tanrı haqqında Əhdi-Ətiq təlimini irəli sürür və bu mesajı dəfələrlə açıq şəkildə təkrarlayır.

“Çünki bir Allah var və O, saleh sayacaq” (Romalılar 3:30).
“Bir olan Allahdan başqası yoxdur” (I korinflilər 8:4)
“Bizim üçünsə bir Allah – Ata var” (I korinflilər 8:6).

“Allah isə birdir” (Qalatiyalılara 3:20).
“Hamının Allahı və Atası birdir” (Efeslilərə 4:6)
“Çünki bir Allah vardır” (I Timotey 2:5)
“Sən Allahın bir olduğuna inanırsansa, yaxşı edirsən. Cinlər də buna inanır və əsirlər!” (Yaqub 2:19)
Yenə də İncil Allahı “Müqəddəs olan biri” adlandırır (I Yəhya 2:20).
“Budur, göydə bir taxt qurulub, taxtda da Biri oturub” (Vəhy 4:2).
Sonrakı fəsillərdə Əhdi-Cədiddəki monoteizmi daha dərindən araşdıracağıq, lakin Əhdi-Cədidin əvvəlki ayələri Əhdi-Cədidin bir Allah barədə öyrətdiyini təsdiqləmək üçün kifayətdir.

## Nəticə

Gördüyümüz kimi, bütün Bibliya ciddi bir monoteizmi (təkallahlılığı) öyrədir. Allahın xalqı həmişə tək bir tanrı mesajı ilə tanınıb. Allah İbrahimi millətinin və atasının tanrılarını tərk etməyə və vahid həqiqi Tanrıya ibadət etməyə hazır olduğuna görə seçdi (Yaradılış 12:1-8). Allah İsrailləri hər dəfə başqa tanrılara ibadət etməyə başladıqları zaman cəzalandırdı və politeist ibadət Allahın, nəhayət, onları sürgünə göndərmələrinin əsas səbəblərindən biri idi (Həvarilərin işləri 7:43). Xilaskar dünyaya bir millət (İsrail) vasitəsilə və bir din (İudaizm) vasitəsilə gəldi ki, bu dində xalq, nəhayət, özlərini politeizmdən təmizləmiş oldular. Onlar tamamilə monotist idilər. Bu gün Allah yenə də Ona monoteist ibadəti tələb edir. Biz kilsədə imanla İbrahimin varisləriyik

və bu yüksək məqam, İbrahimin Allahına eyni monoteist iman gətirməyimizi tələb edir (Romalılara 4:13-17). Dünyadakı məsihçilər olaraq, biz yalnız bir həqiqi və yaşayan Tanrının olduğu mesajı izzətləndirməkdən və bəyan etməkdən heç vaxt vaz keçməməliyik.

Son qeyd

Fəsil 1

1. Noyabr 1980-cı il, Yerusəlim, İsrail. Həmçinin baxın: Ser Norman Anderson, Nəşr., Dünya Dinləri, 4-cü nəşr. (Grand Rapids: Eerdmans, 1975), 73, 77.

# 2 TANRININ TƏBİƏTİ

*"Allah ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidir" (Yəhya 4:24)*

Tanrının vahidliyi barədə araşdırmamızı davam etmək üçün Tanrının təbiəti haqqında daha çox məlumat əldə etməyimiz vacibdir. Əlbəttə ki, kiçik insan ağlımız Allah haqqında biliklərin hamısını ortaya çıxarda və ya başa düşə bilməz, lakin Bibliyada Allahın malik olduğu bir çox vacib xüsusiyyətlər və atributlar təsvir edilmişdir. Bu fəsildə biz Allahı Allah edən - Onun təbiətinin vacib bir hissəsini təşkil edən bəzi atributları müzakirə edəcəyik. Biz həmçinin Allahın Öz təbiətini bəşəriyyətə, xüsusən də

görünən təzahürləri ilə açıqladığı bəzi yolları da araşdıracağıq.

## Allah Ruhdur

İsa bu həqiqəti Yəhya 4:24-də elan etdi. Bibliya bunu ardıcıl olaraq, Yaradılış 1:2-dən ("Allahın Ruhu suların üzündə dolaşırdı") Vəhy 22:17-dək ("Ruh da, gəlin də deyir:"Gəl") açıqlayır. İbranilərə 12: 9 Allahı ruhların Atası adlandırır. Ruh nədir? Vuebsterin lüğətində bu sözün izahatına aşağıdakılar daxildir: “Fövqəltəbii, qeyri-cismani, rasional varlıq, adətən, insanlar üçün görünməz, ancaq istədiyi vaxt görünə biləcək gücə malikdir. . . qeyri-cismani və ya qeyri-maddi bir varlıqdır.[1] "Ruh kimi tərcümə olunan ibrani sözü" ru ah” deməkdir və bu söz külək, nəfəs, həyat, qəzəb, qeyri-müəyyənlik, səma bölgəsi və ya rasional varlıq ruhu mənasını verə bilər. Ruh, nəfəs kimi tərcümə olunan yunan sözü hava axını, nəfəs, əsən külək, briz, ruh, qəlb, həyati prinsip, meyl, mələk, cin və ya Tanrı mənasını verə bilər.[2] Hər üç izahat ruhun cismani bədəninin və sümükləri olmadığını vurğulayır (Luka 24:39). Eynilə, İsa Tanrının Ruhunun əti və qanı olmadığını bildirdi (Matta 16:17). Beləliklə, Bibliyada Tanrının Ruh olduğu deyildikdə, insanlar tərəfindən fiziki olaraq görünə və ya toxuna bilinməyəcəyi mənasını verir. Ruh olaraq, O, fiziki bədəni olmayan ağıllı, fövqəlbəşər bir varlıqdır.

## Allah görünməzdir

Tanrı Ruh olduğundan, insanlara görünə bilən bir şəkildə özünü göstərmək istəməsə, görünməzdir. Tanrı Musaya dedi: "Üzümü isə görə bilməzsən, çünki Məni görən adam sağ qalmaz" (Çıxış 33:20). "Heç kim heç vaxt Allahı görməmişdir" (Yəhya 1:18; I Yəhya 4:12). Onu insanlardan heç kəs görməyib və görə də bilməz. (I Timoteyə 6:16). İncil bir neçə dəfə Tanrını görünməz kimi təsvir edir (Koloslulara 1:15; I Timoteyə 1:17; İbranilərə 11:27). İnsanlar Tanrını müxtəlif formalarda peyda olduğu zaman görə bilsələr də, heç kim birbaşa Tanrının görünməz Ruhunu görə bilməz.

## Allah hər yerdə mövcuddur

Tanrı Ruh olduğuna görə, O, eyni zamanda hər yerdə ola bilər. O, həqiqətən hər yerdə mövcud olan yeganə Ruhdur; çünki cinlər, mələklər kimi digər ruh varlıqlar, şeytanın özü yalnız müəyyən yerlərdə ola bilərlər (Mark 5:10; Yəhuda 6; Vəhy 20:1-3). Tanrı hər yerdə mövcud olsa da, biz onu təbiət, cism və ya dünyanın qüvvələri (hansı ki, panteizm ola biləcək) ilə bərabərləşdirə bilmərik, çünki həqiqətən də Onun fərdiliyi, şəxsiyyəti və zəkası vardır. Məbədin həsr olunmasında Süleyman peyğəmbər: "Budur, Sən göyə və göylərin göyünə sığmazsan" deyib dua edərkən (I Padşahlar 8:27; bax 2 Salnamələr 2: 6; 6:18) Tanrının hər yerdə mövcudluğunu qəbul etdi. Tanrı, 'göylər mənim taxtımdır, yer ayaqlarımın altındakı kətildir' deyərək Özünün hər yerdə mövcud olduğunu elan etdi

(Yeşaya 66: 1; baxın Həvarilərin işləri 7:49). Pavel Rəbbin "heç birimizdən uzaq olmadığını" təbliğ etdi, axı biz Onda yaşayırıq, hərəkət edirik və mövcuduq (Həvarilərin işləri)17: 27-28). Bəlkə də Allahın hər yerdə mövcud olmasının ən gözəl təsviri Zəbur 139:7-13-də verilmişdir: “Hara gedim ki, Ruhun orada olmasın? Hara qaçım ki, hüzurunda olmayım?
Əgər göylərə çıxsam, Sən oradasan, Ölülər diyarında yatsam, Sən oradasan. Qanad alıb gündoğana uçsam belə, Dənizi keçib günbatana qonsam belə, Sənin sağ əlin bələdçim olacaq, Sağ əlin məni qoruyacaq.
Desəm də: «Qoy zülmət məni bürüsün, İşıq batsın, ətrafım gecəyə dönsün», Sənin qarşında zülmət batar, Önündə gecə də gündüz kimi nur saçar. Nurun, zülmətin Sənin üçün nə fərqi var? Sən mənim daxili üzvlərimi yaratmısan, Mənə ana bətnində quruluş vermisən."
Əgər Allah hər yerdə mövcuddursa, niyə Bibliya Onu göylərdə olduğu kimi təsvir edir? Burada bir neçə səbəb var: (1) Bu, Allahın hər şeydən üstün olduğunu öyrədir. Başqa sözlə, O, insan anlayışından kənardadır və O, bu yer kürəsi ilə məhdudlaşmır. (2) Bu, Allahın düşüncə və fəaliyyət mərkəzinə, yəni Baş qərargahına aiddir. (3) Bu, Allahın birbaşa hüzuruna, yəni Allahın izzəti və qüdrətinin bütövlüyünə aiddir, heç bir fani insan bunu görüb sağ qala bilməz (Çıxış 33:20). (4) Həmçinin, bu, Allahın göydəki mələklərə görünən təzahürünə də aid ola bilər. Bu, Allahın hər yerdə mövcud olmaq xüsusiyyətinə malik olmaması demək deyildir, yəni Onun bir yer kürəsi ilə və ya bədənlə

məhdudlaşdığı anlamına gəlmir. Eynilə, Bibliyada Allahın yerə gəldiyi və ya kiməsə göründüyü söyləndikdə, bu, Onun hər yerdə mövcudluğunu kiçiltmir. Bu sadəcə o deməkdir ki, Onun fəaliyyətinin fokusu ən azından müəyyən bir insana və ya müəyyən bir vəziyyətə görə yer üzünə köklənib. Allah yer üzünə gələndə göylər boş qalmır. Həmişə olduğu kimi, göydəki qədər yenə ədalətlidir. O, eyni vaxtda göydə və yerdə və ya yer üzündə bir neçə məskənlərdə hərəkət edə bilər. Tanrının hər yerdə olduğunu tanımağımız və bunu insan təcrübəmizlə məhdudlaşdırmamağımız çox vacibdir.

## Allahın bədəni varmı?

Allah görünməz bir ruh və hər zaman hər yerdə mövcud olduğu üçün, şübhəsiz, bildiyimiz kimi Onun bədəni yoxdur. İnsanların Onu görə bilməsi üçün Əhdi-Ətiqdə Tanrı müxtəlif formalar və müvəqqəti təzahürlərlə zühur etdi. (Bu fəsildən sonra teofaniyalara (Allahın şəxsən zühur etməsinə) dair bölməyə baxın.) Lakin İsa Məsih doğulana qədər bibliyada Tanrının daimi bədən təzahürləri qeyd olunmur. Əlbətdə ki, Məsihdə Tanrı bir insan bədəninə sahib idi, indi isə izzətli, qeyri-fani insan bədəninə sahibdir. Allahın müvəqqəti təzahürləri xaricində və Əhdi-Cədiddə Tanrının Məsihdə nazil olması xaricində, gözlərə, əllərə, qollara, ayaqlara, ürəyə və Allahın digər bədən hissələrinə dair Müqəddəs yazılardan ayələr, məcazi dil və antropomorfizm nümunələridir (insanlar başa düşsünlər deyə insana xas olan xassə və

xüsusiyyətlərin xarici təbiət qüvvələrinə və başqa varlıqlara aid edilməsi).
Başqa sözlə, bibliya sonsuz Allahı sonu olan, limiti olan insan baxımdan təsvir edir ki, Onu daha yaxşı dərk edə bilək. Məsələn, Allahın ürəyi qan vuran bir orqanı yox, Onun intellekt və duyğularını ifadə edir (Yaradılış 6: 6; 8:21). Allah, göyün Onun taxtı, yerin isə ayaqlarının altındakı kətil olduğunu söylədiyi zaman, heç də hərfi mənada yer kürəsinə dirədiyi bir cüt ayağını deyil, hər yerdə mövcudluğunu təsvir etdi (Yeşaya 66:1). Allah sağ əli ilə göyləri sərdiyini söyləyəndə atmosferə uzanan böyük bir əli deyil, qüdrətli gücünü təsvir etdi (Yeşayə 48:13). "Rəbbin gözləri hər yerdədir" ifadəsi Allahın hər yerdə fiziki gözlərinin olması demək deyil, lakin Onun hər yerdə mövcud olduğunu və hər şeyi bildiyini göstərir (Süleymanın məsəlləri 15: 3). İsa cinləri Allahın barmağı ilə qovarkən, O, göydən nəhəng bir barmağı aşağı salmadı, əksinə, Allahın güdrətindən istifadə etdi (Luka 11:20). Allahın burnunun nəfəsi nəhəng səma burunlarından çıxan hərfi hissəciklər deyildi, lakin Qırmızı dənizi bölmək üçün Allahın göndərdiyi güclü şərq küləyi idi (Çıxış 15: 8; 14:21). Əslində, Allahın bütün görüntülərinin və fiziki təsvirlərinin hərfi təfsiri, Allahın qanadlara malik olması inamına gətirəcəkdi (Zəbur 91:4). Bir sözlə, Tanrı özünü bədən formasında göstərməyi qət etməyincə, biz inanırıq ki, Onun bir Ruh olaraq bədəni yoxdur və Tanrı bunu İsa Məsihin şəxsində etmişdir (Fəsil 4-ə baxın).

Bəziləri Əhdi-Ətiqdə Tanrının mələklər kimi digər ruh varlıqlara "görünən" bir ruh bədəninə sahib olduğunu söyləyirlər. Onlar bu fərziyyəni insan ruhlarının digər ruhlara görünən bir tanıma formasına sahib olması (Luka 16: 22-31) və bəzi ayələrdə göstərildiyi kimi, mələklərin və şeytanın əhdi-ətiqdə Allahın görünən bir təzahürünü görə bilməsi ilə əlaqələndiririrlər (I Padşahlar 22: 19-22; İş 1: 6). Lakin bunu etmək üçün Tanrıya ruh bir bədən lazım deyildi, çünki O, insanlara etdiyi kimi müxtəlif vaxtlarda da özünü digər ruhlara göstərə bilərdi. Müqəddəs Yazıların əsas bir ayəsində nəzərdə tutulub ki, Allah hər hansı yolla özünü göstərməyi qət etməyincə, hətta ruh varlıqlarına belə görünən deyil: "Allah bədəndə zühur etdi. . . mələklərə göründü "(I Timoteyə 3:16). Ən azından, əgər Tanrının hansısa bir ruh bədəni olsaydı, şübhəsiz ki, digər ruh varlıqlar bədənləri ilə məhdudlaşdıqları kimi, O, bu vücudla məhdudlaşmazdı, çünki o, həqiqətən də hər yerdə mövcud olmazdı. Məsələn, Allahın hər yerdə mövcudluğu o deməkdir ki, O, yer üzündəki insanlara və göydəki mələklərə eyni vaxtda görünə bilər. Həmçinin, biz dərk etməliyik ki, əhdi-cədid dövrlərində Tanrı Özünü İsa Məsih vasitəsilə tam şəkildə aşkar etməyi (göstərməyi) qət  etdi (Koloslulara 2: 9). Allahla İsanı ayırmaq ehtimalı yoxdur və İsadan kənarda görünən heç bir Tanrı yoxdur.

## Allah (hər şeyi) biləndir!

Zəbur 139:1-6 bizə öyrədir ki, Allah hər şeyi, o cümlədən hərəkətlərimizi, düşüncələrimizi, yollarımızı, sözlərimizi

bilir. Əyyub etiraf etdi: "Mən bilirəm ki, Sən hər şeyə qadirsən və Sənin istəyinin qarşısı alınmaz" (Əyyub 42: 2). Tanrı hər şeyi, o cümlədən gələcəyi qabaqcadan biləndir (Həvarilərin işləri 2:23). Hər yerdə mövcud olduğu kimi, hər şeyi bilmə yalnız Tanrıya məxsus bir xüsusiyyətdir. O, «yeganə müdrik Allahdır» (I Timoteyə 1:17). Bibliya insanların bütün düşüncələrini oxuya bilən, gələcəyi əminliklə görə bilən və bilinəsi hər şeyi bilən başqa bir varlığı (şeytan da daxil olmaqla) tanımır.

## Allah hər şeyə qadirdir!

Tanrı bibliyada dəfələrlə Özünü Qüdrətli olan adlandırır (Yaradılış 17:1; 35:11 və s.). O, bütün qüdrətə sahibdir və Allah icazə verməyincə heç bir varlıq hər hansısa bir gücdən istifadə edə bilməz (Romalılara 13:1). Yenə də yalnız Allah hər şeyə qadirdir, çünki yalnız bir varlıq bütün qüdrətə sahib ola bilər. I Timoteyə 6: 15-də Allah "mübarək və yeganə Hökmdar kimi, şahların Şahı və rəbblərin Rəbbi" kimi təsvir edilir. Göydəki Allahın müqəddəsləri “Haleluya: çünki Külli-İxtiyar Rəbb Allahımız səltənət sürür” deyə elan edəcəklər (Vəhy 19: 6). Allah Əyyub 38.41-də Öz böyük qüdrətini gözəl formada təsvir edir. Tanrının yeganə məhdudiyyətləri könüllü olaraq öz üzərinə qoyduğu məhdidiyyətlərdir və ya mənəvi təbiətindən irəli gələnlərə aiddir. O, müqəddəs və günahsız olduğundan, öz mənəvi xarakterinə sadiqdir. Buna görə də Allahın yalan danışması və ya Öz Kəlamına zidd getməsi mümkün deyil (Titus 1: 2; İbranilərə 6:18).

## Tanrı əbədidir

Allah əbədi, qeyri-fani və daimidir (Qanunun təkrarı 33:27; İşaya 9: 6; I Timotey 1:17). O, birinci və sonuncudur (Yeşaya 44: 6). Başlanğıcı olmayıb, axırı da olmayacaq; digər ruhi varlıqlar, o cümlədən insanlar gələcək baxımından qeyri-fanidirlər, yalnız Allah keçmişdə və gələcəkdə əbədidir.

## Tanrı dəyişməzdir (dəyişilməz)

Allahın xarakteri və xüsusiyyətləri heç vaxt dəyişmir: "Mən Rəbbəm, dəyişmirəm" (Malaki 3: 6). Doğrudur ki, Tanrı bəzən peşiman olur (İnsanlara münasibətdə davranışını dəyişir), amma bu yalnız onların öz hərəkətlərini dəyişdirdikləri üçün baş verir. Allahın təbiəti eyni olaraq qalır; yalnız Onun gələcək fəaliyyət kursu insanların dəyişikliklərinə cavab olaraq dəyişir. Məsələn, Ninevanın tövbə etməsi Tanrının həmin şəhəri məhv etmək planlarını dəyişdirməsinə səbəb oldu (Yunus 3:10). Həmçinin, bibliyada Allahın peşimançılığından Öz fikrini dəyişməsi mənasından daha çox kədər və qüssədən peşimançılıq çəkməsi mənasında danışılır (Yaradılış 6: 6).

## Tanrı Fərdiliyə, Şəxsiyyətə və Rasionallığa malikdir

Tanrı iradəsi (Romalılara 9:19) və zəkası olan (Yeşaya 1:18) bir varlıqdır. O, intellektual ağıla malikdir (Romalılara 11: 33-34). Tanrının duyğulara (emosiyalara) malik olması, insanların emosional varlıqlar olması faktından bilinir, çünki Allah onları Öz surətində yaratmışdır (Yaradılış

1:27). Tanrının vacib duyğusal təbiəti sevgidir, lakin Onun zövq, mərhəmət və ya şəfqət, günaha nifrət və salehliyə şövq kimi çoxlu hissləri vardır (Zəbur 18:19; 103:13; Süleymanın məsəlləri 6:16; Çıxış 20: 5). Tanrı hədsiz səbirlidir, amma qəzəblənə bilər (Zəbur 103: 8; Qanunun təkrarı 4:25). Allah kədərlənə bilər (Yaradılış 6:6) və Ona xeyir-dua vermək olar (Zəbur 103:1). Əlbəttə ki, Onun duyğuları hisslərimizi üstələyir, ancaq biz yalnız insan duyğularını izah edən terminlərdən istifadə etməklə Onu təsvir edə bilərik (Tanrının şəxsiyyəti və rasionallığı olan bir varlıq olmasına daha bir sübut üçün Allahın hər şeyi bilməsi və Onun mənəvi (əxlaqi) xüsusiyyətləri barədə danışan fəsildəki müzakirələrə baxın).

## Tanrının mənəvi (əxlaqi) xüsusyyətləri

"Allah məhəbbətdir" (I Yəhya 4: 8, 16). Sevgi Allahın mahiyyətidir, bu onun təbiətidir. Allahın bir çox digər keyfiyyətləri və xüsusiyyətləri vardır ki, onlardan çoxu onun məhəbbətindən qaynaqlanır.

## Tanrının mənəvi təbiəti

1. sevgi (I Yəhya 4: 8)
2. nur (I Yəhya 1: 5)
3. müqəddəslik (I Peter 1 :16)
4. mərhəmət (Zəbur 103: 8)
5. həlimlik (Zəbur 18: 35)
6. salehlik (Zəbur 129: 4)
7. yaxşılıq (Romalılara 2: 4)

8. kamillik (Matta 5: 48)
9. ədalət (Yeşaya 45: 21)
10. sadiqlik (I Korinflilərə 10 :13)
11. həqiqət (Yəhya 17: 17)
12. lütf (Zəbur 103: 8)

Tanrının bu mənəvi (əxlaqi) xüsusiyyətləri bir-birinə zidd deyil, amma harmoniyada fəaliyyət göstərir. Məsələn, Tanrının müqəddəsliyi günah etdikləri zaman insanları Allahdan dərhal ayırmağı tələb etdi. Sonra Tanrının salehliyi və ədaləti günah üçün cəza olaraq ölüm tələb etdi, amma Tanrının məhəbbəti və mərhəməti bağışlama istədi. Tanrı ədaləti və mərhəməti Qolqotada, yəni "Kəllə yeri" adlanan yerdə Məsihin ölümü və xilasla nəticələnən planla təmin etdi.
Məsihin günahlar üçün əhvi təmin edən qurbanını qəbul edəndə Tanrının mərhəmətinin faydalarından həzz alır və iman vasitəsilə bunu həyatımıza tətbiq edirik. Tanrının qurtuluş planını imanla qəbul edib itaət etdikdə, Tanrı Məsihin salehliyini bizə aid edir (Romalılara 3: 21-5: 21). Buna görə, Tanrı haqlı olaraq bizim günahımızı bağışlaya bilər (I Yəhya 1: 9) və Öz müqəddəsliyini pozmadan Onunla ünsiyyətimizi bərpa edə bilər.

Təqsirsiz, günahsız Məsihin ölümü və Məsihin salehliyinin bizə aid edilməsi Tanrının ədalətini və müqəddəsliyini təmin edir. Lakin Məsihin kəffarəsini rədd etsək, onda Tanrının hökmü ilə  tək qarşılaşmalı olacağıq. Bu

vəziyyətdə Onun müqəddəsliyi günahkar insanlardan ayrılmağı, ədaləti isə günahkar insanlar üçün ölüm tələb edir. Beləliklə, ədalət və mərhəmət müqəddəslik və məhəbbət kimi Allahın təbiətinin cəhətlərini tamamlayır, lakin ziddiyyət təşkil etmir. Əgər Tanrının sevgisini və mərhəmətini qəbul etsək, Onun ədalətini və müqəddəsliyini təmin etməyimizə kömək edəcəkdir. Əgər Tanrının sevgisini və mərhəmətini rədd etsək, yalnız Onun ədaləti və müqəddəsliyi ilə tək qarşılaşmalıyıq (Romalılara 11:22).
Əlbəttə ki, əvvəlki siyahı ilə Tanrının xüsusiyyətləri bitmir. Tanrı transendentdir (üstündür, əlçatmazdır) və heç bir insan Onu tam dərk edə bilməz. "Çünki Mənim fikirlərim sizin fikirləriniz deyil, sizin yollarınız Mənim yollarım deyil" Rəbb belə bəyan edir. “Çünki göylər yer üzündən nə qədər yüksəkdirsə, yollarım da sizin yollarınızdan, fikirlərim də sizin fikirlərinizdən o qədər yüksəkdir” (Yeşaya 55: 8-9). “Allahın zənginliyi nə böyük, hikməti və biliyi nə dərindir! Onun hökmləri necə də ağlasığmaz, yolları necə də anlaşılmazdır!Rəbbin ağlını kim dərk etdi? Ona kim məsləhətçi oldu?" (Romalılara 11: 33-34).

## Teofaniyalar (Tanrının şəxsən zühur etməsi)

Tanrının əhdi-ətiqdə özünü aşkar etməsinin və insanlara onların səviyyəsində münasibət göstərməsinin bir yolu teofaniyaların istifadəsidir. Teofaniya Tanrının görünən bir təzahürüdür və biz adətən bunun mahiyyət etibarı ilə müvəqqəti xarakter daşımasını düşünürük. Gördüyümüz

kimi, Tanrı insanlara görünməzdir. Özünü görünən etmək üçün fiziki formada zühur etdi. Heç bir insan Tanrının Ruhunu görə bilməsə də, Allahın təmsilçiliyini görə bilər. Aşağıda Tanrının əhdi-ətiqdə özünü göstərmək üçün seçdiyi bəzi yollar var. Allah İbrahimə bir görüntüdə tüstülənən soba, yanan lampa kimi, sonra isə insan kimi (Yaradılış 15:1,17; 18:1-33) göründü. Bu sonuncu hadisədə, Tanrı iki mələklə üç nəfər kişi şəklində peyda oldular (18:2) və İbrahimin verdiyi yeməkdən yedilər. Tanrı İbrahimlə danışarkən qalan iki mələk Sodoma getdi (Yaradılış 18:22; 19:1). Tanrı Yaquba yuxuda, sonra isə bir insan olaraq göründü (Yaradılış 28: 12-16; 32: 24-32). Sonuncu hadisə zamanı Yaqub həmin kişi ilə güləşdi və dedi: "Mən Tanrını üz-üzə gördüm". Bibliyada bu zühur "mələk" kimi təsvir edilir (Huşə 12:4).Tanrı Musaya izzət buludunda, Sinay dağında isə odda göründü, Hüzur çadırında onunla üz-üzə danışdı və üzünü (bütün izzətini) deyil, arxasını (qismən izzətini) ona göstərdi (Çıxış 24:12 - 18; 33: 9-11, 18-23). Tanrının üzünə və izzətinə aid olan bu iqtibaslar, ehtimal ki, Tanrının hüzuruna aid metaforadır və bir çox fərqli təzahürlərə tətbiq edilə bilər.

Tanrı Özünü bütün İsrailin gözü qarşısında ildırım, şimşək çaxması, bulud, şeypur səsi, tüstü, alov və zəlzələlər şəklində göstərdi (Çıxış 19: 11-19; Qanunun təkrarı 5: 4-5, 22-27). O, həm də izzətini göstərdi və bütün İsrailin gözü önündə hüzurundan od göndərdi (Levililər 9: 23-24; 10: 1-2). Əyyub Tanrını qasırğa içində gördü (Yeşayə 38:1;

42:5). Müxtəlif peyğəmbərlər Tanrının görüntülərini gördülər (Yeşaya 6; Ezekiel 1:26-28; 8:1-4; Daniel 7: 2, 9; Amos 9:1). Tanrı Yezekelə oda bürünmüş bir insan şəklində göründü. Danielə Əzəldən Var Olan kimi bir gecə görüntüsündə göründü. Müqəddəs yazının bir çox digər ayələri, Allahın kiməsə göründüyünü söyləyir, lakin bunu hansı tərzdə etdiyini təsvir etmir. Məsələn, Tanrı İbrahimə, İshaqa, Yaquba və Şamuelə göründü (Yaradılış 12: 7; 17:1; 26:2, 24; 35: 9-15; I Şamuel 3:21). Eynilə, Tanrı Sinay dağına enib Musa ilə durdu; Özünü İsrailin yetmiş dörd ağsaqqalına göstərdi; bulud dirəyində enib Musa, Harun və Məryəmin qarşısında dayandı; gecə Bilamın yanına gəldi; və iki dəfə Bilamla görüşdü (Çıxış 34:5; 24: 9-11; Saylar 12:4-9; 23:3-10, 16-24).Yuxarıda göstərilən zühurlara əlavə olaraq, çoxlarının Tanrının Özü olduğuna inandığı digər zühurlar barəsində də bibliyada qeyd edilir. Yeşua 5:13-15-də deyilir ki, qılıncı olan bir kişi Yeşuaya göründü və özünü "Rəbbin ordusunun başçısı" kimi təqdim etdi. Belə bir titulu olan şəxsin ona ibadət etdiyinə görə Yeşuaya məzəmmət etməməsi (Vəhy 19: 9-10; 22: 8-10-dan fərqli olaraq) faktı belə deməyə əsas verir ki, bu, həqiqətən də, Allahın bir zühuru idi. Digər tərəfdən, bu parçanın ifadə tərzi Yeşuanın Rəbbin ordusunun başçısına ibadət etmədiyi, ancaq başçının peyda olmasına görə Tanrıya ibadət etməsi ehtimalını ortaya qoyur.

## Rəbbin mələyi

"Rəbbin mələyi"nin çoxsaylı zühurlarının bəziləri, görünür, teofaniyalardır. Rəbbin mələyi Həcərə göründü, sanki Allah imiş kimi danışdı və Həcər tərəfindən Allah adlandırıldı (Yaradılış 16: 7-13). Bibliyada deyilir ki, Rəbbin mələyi yanan kolda Musaya göründü, lakin yazılıb ki, həmin hadisə zamanı Allah Musa ilə danışdı (Çıxış 3; Həvarilərin işləri 7: 30-38). Çıxış 13:21-də Rəbbin bulud dirəyində İsrailin qabağında getdiyini, Çıxış 14:19-da Allahın mələyinin bulud dirəyinin yanında olduğu deyilir. Rəbbin mələyi Hakimlər 2:1-5-də İsrailə göründü və Allah kimi danışdı. Hakimlər 6:11-24-də Rəbbin mələyinin Gideona görünməsi təsvir edilir və sonra yazılır ki, Rəbb Gideona baxdı. Yenidən Rəbbin mələyi Manoah və arvadına göründü və onlar Allahı gördüklərinə inandılar (Hakimlər 13: 2-23).

Rəbbin mələyinin digər ziyarətləri onların Tanrının təzahürü olub olmadığını göstərmir, baxmayaraq ki, çox vaxt insanlar belə olduğunu düşünürlər. Buna misal olaraq, Moriah dağında İbrahimə və Bilama görünən görüntüləri qeyd etmək olar (Yaradılış 22:11-18; Saylar 22: 22-35). Bəzən Rəbbin mələyi açıq şəkildə Tanrının təzahürü deyil, Rəbb Allahdan başqa ayrı bir varlıq olaraq təyin olunan bir mələkdir. Buna misal olaraq Davudla Zəkəriyyəyə olan görüntüləri qeyd etmək olar (II Şamuel 24:16; I Salnamələr 21:15-30; Zəkəriyyə 1: 8-19). (Əlavə müzakirə üçün 7-ci fəslə baxın.) Əhdi-Cədiddəki Rəbbin

mələyi, hər bir halda mələkdən başqa bir şey deyildir və şübhəsiz ki, İsa Məsih deyildir (Matta 1:20; 2:13; 28: 2; Həvarilərin işləri 8: 26).Müqəddəs Yazıların bütün bu ayələrini təhlil edərkən bəziləri deyirlər ki, Rəbbin mələyi həmişə Allahın birbaşa zühurudur. Lakin yuxarıda göstərilən bəzi hallar bu görüşü dəstəkləmir və onlardan ikisi əslində buna ziddir. Digərləri deyirlər ki, Rəbbin mələyi bəzi hallarda Allahın təzahürüdür, digərlərində yox. Bu ikinci baxış, Müqəddəs Yazılara uyğun gəlir.

Üçüncü bir fikir budur ki, Rəbbin mələyi heç vaxt Rəbb deyil, hər zaman, sözün həqiqi mənasında, bir mələkdir. Bu son fikri dəstəkləmək üçün mələklərin Tanrının ruporları, elçiləri və Tanrının agentləri olduğunu vurğulamaq olar. Başqa sözlə, Tanrı bir mələk vasitəsi ilə bir şey söyləsə və ya etsə də "Rəbb dedi" və ya "Rəbb etdi" demək düzgündür. Bu baxışa görə, mələklərin peyda olması şəklində Tanrının hər hansı bir addımının təsviri, sadəcə, Allahın mələk vasitəsilə hərəkət etdiyini qısa formada söyləmək üçün bir üsuldur. Bibliyanı yazıya alanlar, başlanğıcda mələyin birbaşa vasitəçi olduğunu açıqladığından, heç bir qeyri-müəyyənlik və ya uyğunsuzluq olmamalıdır. Bu baxımdan, Tanrının ziyarətini qəbul edən insanlar ya Tanrının Özünü gördükləri ilə bağlı imanlarında yanlışlığa yol verdilər və ya daha doğrusu, Tanrının onlarla danışmaq üçün bir mələkdən istifadə etdiyini və buna görə də mələk vasitəsilə Allaha müraciət etdiklərini qəbul etdilər. Bu üçüncü görüşü Rəbbin mələyini Rəbbin özü ilə

eyniləşdirən Müqəddəs yazı ayələri ilə uzlaşdırmaq üçün başqa bir yol var: yəni mələk gözlə görünsə də, Rəbb də görünməz vəziyyətdə orda idi. Buna görə, Rəbbin hərəkət etməsi və ya danışmasına aid iqtibaslar mələyi yox, sözün əsl mənasında, Rəbbi nəzərdə tutmuş olur.

Xülasə, məlum olur ki, əhdi-ətiqdəki Rəbbin mələyi həmişə Tanrının Özü deyildi. İnsan Rəbbin mələyinin əsla teofaniya olmadığını açıq şəkildə iddia edə bilər, amma Rəbbin mələyinin həmişə teofaniya olduğunu ciddi şəkildə iddia edə bilməz. Ən sadə izahat budur ki, "Rəbbin mələyi" ifadəsi bəzən Allahın bir teofaniyasına aid olur, lakin digər dövrlərdə adi bir mələkdən başqa bir şeyi ifadə etmir. Trinitarist bir alim üstünlük təşkil edən bu görüşü belə ümumiləşdirdi:

Əhdi-ətiqdə Rəbbin mələyi Tanrıdan fərqli olaraq (2 Şam. 24:16) yalnız Tanrının elçisi ola bilər (İbrani sözünün özü elçi deməkdir) və ya mələk Rəbbin özü ilə eyniləşib birinci şəxsdə danışan şəxs ola bilər....Əhdi-ətiq teofaniyalarına xas olan bir fikir budur ki, Tanrı kəskin olaraq təsvir edilə bilməz . . . Tanrı insanları birbaşa öz hüzurundan qorunmalı olduqları halda belə öz hüzurunu bildirməkdə sərbəstdir[3].

## Məlkisedeq

Çoxları Məlkisedeqi teofaniya hesab edir (Yaradılış 14:18). İbranilərə 7: 3-də deyilir ki, o, atasız, anasızdır, nəsil şəcərəsi yoxdur. Bu, onun insan şəklində Tanrı olduğunu

və ya sadəcə onun nəsil mənşəyi haqqında qeyd olunmadığı mənasını verə bilər. İbranilərə 7:4-də o, kişi adlandırılır. Bir kəsin Onun adi bir insan olduğunu və ya kişi şəklində Allahın bir teofaniyası olduğunu qəbul etməməsindən asılı olmayaraq, o, Məsihin prototipi və ya xəbərçisi idi (İbranilərə 7: 1-17).

## Alovdakı 4-cü adam

Şadrak, Meşak və Abed-Negonun sobaya atıldığı zaman alovda görünən dördüncü bir adamın teofaniya olduğunu təxmin etmək olar (Daniel 3:24-25). Bütpərəst padşah Navuxodonosor dedi: «Budur, mən odun içində əl-qolu bağlanmamış dörd nəfərin gəzdiyini görürəm. . . dördüncüsü isə Allahın Oğlu kimidir ”(Daniel 3:25). Ancaq orijinal dildə (arami dilində) Oğuldan əvvəl müəyyənlik artiklı yoxdur; yəni bu parçada Oğuldan əvvəl müəyyənlik "the" artiklı yoxdur. NIV və TAB bu ifadəni "tanrıların oğlu" kimi veriblər. Padşah bütpərəst terminlərdən istifadə edirdi və Allahın yeganə Oğlunun gələcəkdə doğularaq gəlişindən xəbəri yox idi. Çox güman ki, padşah bir mələk gördü, çünki bu təzahürü “mələk” kimi təsvir etdi (Daniel 3:28). Göründüyü kimi, “Tanrının oğulları” ifadəsi mələklərə aid ola bilər (Əyyub 38:7). Ən çoxu, Navuxodonosorun gördüyü şey yalnız Tanrının müvəqqəti teofaniyası ola bilər. Şübhəsiz ki, bu, əhdi-cədiddə təsvir olunan Tanrının Oğlu barədəki görüş deyildi, çünki Oğul doğulmamışdı və Oğulluq başlanmamışdı. (5-ci fəslə baxın).

## Əhdi-cədiddə Teofaniyalar varmı?

Əhdi-cədid, İsa Məsihdən başqa Tanrının insan şəklindəki teofaniyalarını qeyd etmir. Əlbətdə ki, Məsih teofaniyadan daha artıq idi; O, yalnız insan formasında peyda olan Tanrı deyildi, lakin real və tam insanlığa bürünmüş Tanrı idi. Matta 1:20, 2:13, 28: 2 və Həvarilərin İşləri 8: 26-dakı Rəbbin mələyi mələkdən başqa bir şey deyildi; bunun əksi olaraq heç bir dəlil yoxdur. Bu parçalarda mələyin İsa Məsih olmadığı aydın görünür. Bu, əhdi-ətiqdəki Rəbbin mələyinin həmişə Rəbbin Özü olmadığı qənaətinə uyğundur. Yeganə əhdi-cədid teofaniyası Məsihin vəftizindəki göyərçindir. (Göyərçin və onun peyda olmasının xüsusi səbəbi barədə tam müzakirə üçün 7-ci fəslə baxın.)Niyə əhdi-cədid teofaniyaları yoxdur? Səbəb ondadır ki, bunlara ehtiyac yoxdur. Allah İsa Məsihdə tam ifadə olunur. İsa Atanı tamamilə bəyan edir və tanıdır (Yəhya 1:18). İsa görünməz Allahın surəti, izzətinin nuru və şəxsiyyətinin surətidir (Koloslulara 1:15; İbranilərə 1: 3).

## Nəticə

Əhdi-ətiqdə Tanrı Öz təbiətinin cəhətlərini müxtəlif teofaniyalar vasitəsilə insanlara açmağı seçdi. Əhdi-cədid dövründə, teofaniyalar vasitəsi ilə Tanrının mütərəqqi vəhyi sona çatdı və teofaniyadan daha artıq olan Məsihdə kamil ifasını tapdı. Bu bizi 3-cü və 4-cü fəsillərə və İsanın əhdi-ətiqin tək Tanrı olması barədə böyük həqiqətinə doğru aparır.

## Son qeydlər

### FƏSİL 2

1. Vebsterin müəllifi olduğu Üçüncü Yeni Beynəlxalq İngilis dili lüğəti, tam variantı, 2198.

2.Ceymz Stronqun müəllifi olduğu Bibliyanın Mükəmməl Uyğunluq İzahlı lüğəti (Naşvill: Abinqdon, 1890).

3. Uilyam Dürness, Əhdi-Ətiq teologiyasındakı mövzular (Dauners Qrouv, Illinoys Ştatı.: InterVarsity Nəşriyyatı, 1979), 41-42.

# 3 Allahın adları və titulları

*"Və başqa heç kimdə xilas yoxdur; çünki səma altında insanlara verilmiş başqa bir ad yoxdur ki, onunla xilas ola bilək" (Həvarilərin işləri 4:12).*

Tanrını tam dərk edə bilməməyimizə baxmayaraq, Tanrı Özünü bizə göstərmək üçün bir neçə üsuldan istifadə etmişdir. Bu üsullardan biri özünü tanıtmaq üçün müxtəlif adların və və ya titulların istifadəsidir.

## Bir adın əhəmiyyəti

Bibliya dövrlərində, xüsusən Əhdi-Ətiq dövrlərində adların istifadəsi bizim dövrümüzdə olduğundan daha çox əhəmiyyət daşıyırdı. İnsanlar tez-tez şəxslərin xüsusiyyətləri, tarixi və ya təbiəti haqqında bir şey bildirmək üçün adlardan istifadə edirdilər və Tanrı da bunu edirdi. Beləliklə, Tanrı Abramın adını (ucalmış ata deməkdir) İbrahimə (çoxun atası), Yaqubun adını (topuq tutan, sıxışdırıb çıxardan) İsrailə (o, Tanrı kimi idarə edəcək) dəyişdirdi. Hətta Əhdi-Cədiddə İsa Şimon (eşitmə) adını Peterə (qaya) dəyişdi. İzahlı bibliyada (Amplified bible) Deyvis Bibliya lüğətindən, Ellikottun Bütöv bibliya üzrə şərhindən və Yeni bibliya lüğətindən 1-ci Padşahlar 8:43 ayəsinə dair qeyd Tanrı adının əhəmiyyətini göstərmək üçün sitat gətirilir: “Allahın adını bilmək. o sifətlərin, atributların təzahürünün şahidi olmaq və adın ifadə etdiyi xarakteri anlamaqdır. . . . Allahın adı, yəni Özünü açması(bildirməsi,aşkar etməsi). . . Bu ad, aşkar olunan xarakterin dolğunluğunda şəxsin fəal iştirakını göstərir. ” Baylor Universitetinin professorları Flanders və Cresson deyirdilər: "Qədim dövrlər üçün ad şəxsin bir hissəsidir, fərdin şəxsiyyətinin əlavəsidir”.[1]

Tanrı adlardan özünü mütərəqqi şəkildə aşkar etmək üçün bir vasitə kimi istifadə etdi. Məsələn, Çıxış 6: 3-də Allah dedi: "Mən İbrahimə, İshaqa və Yaquba, Külli-İxtiyar Allah adı ilə göründüm, ancaq YEHOVA adımla onlara özümü tanıtdırmadım." 4-8-ci ayələrdən aydın olur ki, İsrail üçün Yehova adının əhəmiyyəti, qurtuluş və xilasla əlaqəli idi.

Bilirik ki, İbrahim Yehova adını işlətdi (Yaradılış 22:14); lakin Tanrı ona xilasedici aspektdən bu adın tam mənasını açıqlamadı. Beləliklə, Çıxış 6:3-də Tanrı Öz xalqına yeni bir şəkildə özünü bildirəcəyinə (aşkar edəcəyinə) söz verdi. Yəni, öz adını xarakterinin və xüsusiyyətlərinin yeni bir anlayışı ilə assosiasiya etməyə başladı.
Öz xarakterini göstərmək üçün adlardan istifadə etməklə yanaşı, Tanrı öz hüzurunu göstərmək üçün öz adından istifadə etdi. Məbədin həsr olunmasında Süleyman Tanrının hər yerdə olduğunu və heç bir məbədə sığışmadığını etiraf etdi (I Padşahlar 8:27). Allah kainatı doldurduğundan Süleyman Məbədin, insan tərəfindən qurulmuş bir strukturun Onu necə sığışdıra biləcəyini soruşdu. Sonra Tanrıya verdiyi vədini xatırlatmaqla öz sualına cavab verdi: "Mənim adım orada olacaq" (I Padşahlar 8:29). Allahın hər yerdə mövcudluğu Məbədlə məhdudlaşa bilməsə də, Onun adı ilə ifadə olunan xarakterinin tamlığı orada yaşaya bilər. Süleyman "bütün xalqlar Sənin adını tanısınlar" deyə dua etməyə başladı (I Padşahlar 8:43). Bu fikir bir daha Tanrının adını Onun xarakterinin vəhyi (aşkar olunması) ilə əlaqələndirir. Tanrının Özü Öz adının anlayışını təbiətinin və qüdrətinin bildirilməsini ifadə etmək üçün istifadə etmişdir. Tanrı firona dedi: "Amma ona görə səni qoruyub saxladım ki, Öz gücümü sənə göstərim və adım bütün dünyaya elan edilsin"(Çıxış 9:16). Allahın adı həm onun səlahiyyətini, həm də gücünü təmsil edir. Məsələn, israilliləri aparan bir mələyin üzərində Öz adını qoymuşdur (Çıxış 23:21). Bu Mələk, ehtimal ki, Allahın bir teofaniyası idi, çünki bu parçada mələyin

Tanrının Özünün bütün səlahiyyətləri ilə hərəkət etdiyi ifadə edilir. Allahın adı aşağıdakıları ifadə edir: 1) Allahın hüzuru, (2) xarakterinin aşkar edilməsi (vəhyi), 3) Qüdrəti və (4) Onun Hakimiyyəti.
Tanrının Öz adına verdiyi vacibliyi göstərən bir neçə məqam var:
1. Tanrı Öz adı naminə qorxu (hörmət) tələb edir (Qanunun təkrarı 28: 58-59). İnsanlara Onun adını boş yerə çəkməmələrini əmr edir (Çıxış 20: 7).
2. Tanrı Öz xalqını Onun adını unutmamağa çağırır (Məzmur 44: 20-21; Yeremya 23: 25-27).
3. Tanrı Onun adını bilənlərə xeyir-dua vəd edir (Məzmur 91: 14-16). Onun adını düşünənlər üçün xeyir-dua var (Malaki 3:16). Onun adının əhəmiyyətini yadda saxlayaraq gəlin Əhdi-Ətiqdə Tanrı üçün istifadə olunan bəzi adları nəzərdən keçirək.

## Əhdi-Ətiqdəki Allahın adları və ya titulları

Aşağıda Əhdi-Ətiqdə Tanrını təmsil etmək üçün istifadə olunan əsas sözlərin siyahısı verilmişdir.[2]

### Tanrı üçün Əhdi-Ətiq adları

| Azərbaycanca | İbranicə | Müqəddəs yazı ayələri |
|---|---|---|
| 1. Allah | Elohim | Yaradılış 1:1 |
| 2. Allah | El | Yaradılış 14:18 |
| 3. Allah | Eloah | Nehemiya 9:17 |
| 4. Allah | Elah (Arami formsı) | Daniel 2:18 |

| | | |
|---|---|---|
| 5. Allah | YHVH (Yahveh) | Yaradılış 15:2 |
| 6. Rəbb | YHVH və ya YH | Yaradılış 2:4 |
| 7. YEHOVA | YHVH | Çıxış 6:3 |
| 8. Yahve | YH (Yah) | Zəbur 68:4 |
| 9. Rəbb | Adon | Yeşua 3:11 |
| 10. Rəbb | Adonai | Yaradılış 15:2 |
| 11. Var olan Mənəm | Eheyeh aşer Eheyeh | Çıxış 3:14 |
| 12. Mənəm | Eheyeh | Çıxış 3:14 |
| 13. Allah-Təala | EI-Elyon | Yaradılış 14:18 |
| 14. Görən Allah | El-Roiy | Yaradılış 16:13 |
| 15. Külli-İxtiyar Allah | EI-Şaddai | Yaradılış 17:1 |
| 16. Əbədi Allah | El-Olam | Yaradılış 21:33 |

El güc, qüdrət, qüdrətli və ya geniş mənada isə tanrı deməkdir. Eloah, güman ki, El sözündən yaranmışdır və həmişə ilahiliyə aid olur. Elah isə Eloah sözünün Arami (Xaldey) formasıdır. Elohim Eloah sözünün cəm formasıdır və Əhdi-Ətiq Tanrını bildirmək üçün digər sözlərlə müqayisədə daha çox bu sözdən istifadə edir. Bu halda İbrani sözünün cəmi Tanrının böyüklüyünü, əzəmətini və çoxsaylı xüsusiyyətlərini ifadə edən intensiv bir formadır. (Fəsil 7-ə baxın.) Bibliyada elohim kəlməsi saxta allahlara (Hakimlər 8:33), ruh varlıqlarına (I Şamuel 28:13) və insan hökmdarlarına və ya hakimlərə (Məzmur 82) aid işlənir. Bu hallarda "allah" və ya "allahlar" kimi tərcümə olunur. Adon, istər insan, istər mələk, istərsə də ilahi mənada hökmdar, rəbb və ya ağa mənasını verir. Adonai Adon

sözünün emfatik formasıdır və xüsusi olaraq Rəbbə (Tanrıya) aiddir.
Yahveh (Yehova) Əhdi-Ətiqdəki Tanrının xilasedici adıdır (Çıxış 6:3-8) və bu nadir adla vahid həqiqi Tanrı Əhdi-ətiqdə özünü bütün digər tanrılardan fərqləndirdi (Yeşaya 42: 8). Bu, Özü var olan və ya Əbədi olan deməkdir. Bu anlayış Tanrının Özü tərəfindən istifadə olunan "MƏN var olanam" və "Mənəm" ifadələrində də meydana çıxır. Flanders və Kresson izah edirdilər ki, Yahveh ibrani dilində "olmaq" felinin üçüncü şəxs formasıdır. Yahve "Odur" mənasını verir. Tanrı tərəfindən istifadə edildikdə fel forması birinci şəxsdə olur, ya da "Mənəm” formasında olur. Başqa sözlə, Yahve və “Mənəm” eyni felin müxtəlif formalarıdır. Bundan əlavə, hər iki variant passiv bir varlıqdan daha çox aktiv (bəlkə də səbəbkar və ya yaradıcı) bir varlıq mənasını verir.
İngilis dilində Yah bir dəfə KJV-də istifadə olunub və Yehova sözünün qısaldılmış formasıdır (Məzmur 68: 4). Yehova KJV-də dörd dəfə işlədilib (Çıxış 6: 3; Məzmur 83:18; Yeşaya 12: 2; Yeşaya 26: 4) və yalnız üç dəfə mürəkkəb adın tərkib hissəsi (Yaradılış 22:14; Çıxış 17: 15; Hakimlər 6:24) kimi istifadə edilib. Digər yerlərdə Kinq Ceymz (King James) tərcüməçiləri YHVH və ya onun qısaldılmış forması olan YH formasını göstərmək üçün Tanrı və ya Rəbb sözündən (böyük və kiçik hərflər) istifadə etdilər. Əksər hallarda onlar Rəbb sözündən istifadə etdilər (məsələn: Yaradılış 2:4-də olduğu kimi), yalnız

Adonai (Rəbb) sözü eyni ifadədə meydana çıxdıqda (məsələn: Yaradılış 15: 2) Allah sözündən istifadə ediblər. Rəbb sözünü YHVH-nin əvəzedicisi olaraq istifadə edərkən, sadəcə qədim yəhudi ənənəsinə əməl edirdilər. Həmin ənənəyə görə Müqəddəs Yazıların üzünü köçürdükəri və ya oxuduqları zaman YHVH sözünü Adonay ilə əvəz edirdilər. Bu adət ona görə yaranmışdır ki, yəhudilər  Allahın adını boş yerə çəkib Onun üçüncü əmrini pozmaq istəmirdilər (Çıxış 20: 7). Onlar hiss etdilər ki, Tanrının müqəddəs adını daim təkrar etməklə bu sözə çox adi və yüngül münasibət sərgiləməyə başlaya bilərlər. Tanrının adı o qədər müqəddəsdir ki, bu addan istifadə etməyə layiq deyildilər.İsa və həvarilər də bu adətə əməl edirdilər. Əhdi-cədiddə YHVH ilə əlaqəli Əhdi-ətiq Yazılarından sitat gətirilərkən Rəbb mənasını verən yunan kurios sözündən istifadə edilir (Matta 3:3; 4:7 və s.).Qədim ibrani dilində yazılı saitlərdən istifadə edilmədiyindən və yəhudilər müqəddəs adı dilə gətirməyi dayandırdıqlarından YHVH-nin orijinal tələffüzünün nə olduğunu heç kim bilmir. Malik olduğumuz yalnız dörd İbrani hərfidir (tetragrammaton adlanır) və adətən YHVH və ya JHVH kimi tərcümə olunur və Yahveh (İvrit) və ya Yehova (İngiliscə) kimi tələffüz edilir. Kitabın qalan hissəsində ənənəvi İngilis dili və KJV istifadəsinə uyğun olaraq Yehovadan istifadə edəcəyik.

## Yehovanın mürəkkəb adları

Allaha aid yuxarıdakı mənalara əlavə olaraq əhdi-ətiqdə Tanrını təsvir etmək və Onu daha da aşkar etmək üçün Yehovanın bir sıra mürəkkəb adlarından istifadə edilir. Bunlar aşağıdakı cədvəldə verilmişdir.[4] 1, 3 və 5 sıra nömrələri əksər ingilis dili versiyalarında bu cür ortaya çıxır; qalanları ibrani dilində verilib, lakin ingilis dilinə tərcümə olunub. Bundan əlavə, əhdi-cədiddə iki dəfə "Səmavi qüvvələrin Rəbbi" ifadəsindən istifadə edilir (Romalılara 9:29; Yaqub 5:4).

## Yehovanın mürəkkəb adları

| Ad | Müqəddəs yazı | Mənası |
|---|---|---|
| 1. Yehova-yireh | Yaradılış 22:14 | Rəbb görəcək (yəni, təmin edəcək,hazırlayacaq) |
| 2. Yehova-rafa | Çıxış 15:26 | Rəbb şəfa verəndir |
| 3. Yehova-nissi | Çıxış 17:15 | Rəbb bayrağımızdır (yəni qələbəmizdir) |
| 4. Yehova-m'kaddeş | Çıxış 31:13 | Rəbb təqdis edir |
| 5. Yehova-şalom | Hakimlər 6:24 | Rəbb sülhümüzdür |
| 6. Yehova-sabaoth | I Şamuel 1:3 | Ordular Rəbbi (yəni qüdrətli) |
| 7. Yehova-elyon | Zəbur 7:17 | Haqq Təala Rəbbi |
| 8. Yehova-raah | Zəbur 23:1 | Rəbb Çobanımdır |
| 9. Yehova-hoseenu | Zəbur 95:6 | Rəbb bizi yaradandır |
| 10. Yehova-tsidkenu | Yeremiya 23:6 | Rəbb salehliyimizdir |
| 11. Yehova-şammah | Yezekel 48:35 | Rəbb hazırdır (buradadır) |

## Adının tədricən açıqlanması

Əhdi-Ətiqdə görürük ki, insanların həyatında müxtəlif ehtiyaclar yarandıqca Tanrı Özü haqqında tədricən daha çox məlumatlar açıqlamış və özü barədə bu vəhyləri bildirmək üçün adlardan istifadə etmişdir. İbrahim qurban gətirmək üçün bir quzuya ehtiyacı olduqda, Tanrı Özünü Yehova-yireh, yəni təmin edən Rəbb kimi göstərmişdir. İsraillilərin qurtuluşa ehtiyacı olduqda, Tanrı Yehova adını açıqlamışdır. Əvvəllər bu adın qurtuluş və xilasla bağlı mənası, əhəmiyyəti açıqlanmamışdı (Çıxış 6: 3-8). İsrail xəstəliklərdən və naxoşluqlardan qorunmağa ehtiyac duyduqda, Tanrı özünü Yehova-Rafa, yəni şəfa verən Rəbb kimi göstərdi. İsrailə düşmənlər üzərində qələbə lazım olduqda, Tanrı Özünü Yehova-nissi kimi, yəni bayrağımız olan Rəbb, qələbəmiz olan Rəbb kimi göstərdi. Beləliklə, yuxarıda təsvir olunan adlar və titullar Tanrının təbiəti ilə bağlı vacib cəhətləri açıqladı. Lakim bunların heç biri Tanrının təbiəti haqqında tam vəhy deyil. Əhdi-ətiqdəki bir çox insan bunu başa düşdü; onlar Tanrı haqqında daha çox bilmək istədilər və Onun adını bilmək barədə istəklərini ifadə etdilər. Yaqub Penieldə (Tanrının zühuru) bir Şəxslə güləşəndə soruşdu: "Mənə adınızı deyin ki, dua edim" dedi. Tanrı Öz adını açıqlamadı, əksinə ona xeyir-dua verdi (Yaradılış 32:29). Şimşonun atası Manoah, Rəbbin mələyindən onun adının nə olduğunu soruşdu və bu cavabı aldı: "Adımın gizli olduğunu bildiyin halda niyə adımı soruşursan?" (Hakimlər 13:18). Agur peyğəmbər soruşdu: "Onun adı nədir və oğlunun adı nədir?"

Bilirsənmi? (Süleymanın məsəlləri 30: 4). Əgər burada o, Tanrıya müraciət edibsə, demək, o zaman gələcəyə baxırdı, Tanrının Oğul kimi görünəcəyi zaman hansı adla özünü göstərəcəyini bilməyə çalışırdı. Zəkəriyyə peyğəmbərlik etdi ki, Rəbbin bütün yer üzündə padşah olacağı bir vaxt gələcək və "o gün tək Rəbb olacaq, adı da bir olacaq" (Zəkəriyyə 14: 9).

## İsa adı

Vaxt tamam olduğu zaman, Tanrı Öz xalqının istəklərini təmin etdi və İsa adı vasitəsi ilə özünü bütün gücü və izzəti ilə göstərdi. İsa, Yehoşua (Saylar 13:16), Yeşua (Ezra 2: 2) və ya Yeşua (Çıxış 17: 9) kimi verilən ibrani adının yunan dilindəki ekvivalentidir. Həm Həvarilərin İşləri 7:45, həm də İbranilərə 4:8 göstərir ki, İsa Yeşua kimi eyni addır. (Bax: NIV).

İsa Yehova-Xilaskar, Yehova-Xilaskarımız, ya da Yehova xilaskardır deməkdir.5 Buna görə mələk dedi: “Bir Oğul doğacaq və onun adını İSA qoyacaqsan, çünki O, öz xalqını günahlardan xilas edəcəkdir”(Matta 1:21). İsa adının xilas ilə eyniləşdirilməsi tamamilə açıq-aşkar görünür, çünki ibrani dilində Yeşua sözü ibrani dilində xilas sözü ilə eynidir, çünki qədim ibrani dilində saitlərdə yazıda istifadə edilmirdi. Əslində, Stronqun müəllifi olduğu Bibliyanın Mükəmməl Uyğunluq İzahlı Lüğətində Yeşua Yeşuva kimi və ibrani dilindəki xilas sözü Yeşuvah kimi transliterasiya edilir. Başqaları Yehoşua, Yoşua və ya İsa adını alsalar da,

Rəbb İsa Məsih bu adla yaşamış yeganə birisidir. Əslində bu adın təsvir etdiyi yeganə birisi Odur.
İsa əhdi-ətiqdə verilmiş Tanrının bütün adlarının kulminasiyasıdır. Bu, bəşəriyyətə açılmış ən yüksək, ən uca bir addır. (Yehovanın yuxarıda göstərilən on bir mürəkkəb adının hamısının İsa tərəfindən yerinə yetirildiyini sübut etmək üçün 4-cü fəslə baxın.) İsa adı "Buna görə də xalqım mənim adımı biləcəkdir" (Yeşaya 52:6) dediyi zaman öz adının açıqlanması barədə vəd verən Tanrının adıdır. Bu, Zəkəriyyə 14: 9-da deyildiyi bir addır ki, Tanrının bütün digər adlarını əhatə edir və özündə birləşdirir.
Əhdi-cədid kilsəsi İsa adı ilə eyniləşdirilir. Əslində İsa dedi ki, Onun adı naminə bütün insanlar arasında bizə nifrət edəcəklər (Matta 10:22). İlk kilsə İsanın adına görə təqib edildi (Həvarilərin işləri 5:28; 9:21; 15:26) və onlar onun adı uğrunda əzab çəkməyə layiq sayılmağı özlərinə imtiyaz hesab etdilər (Həvarilərin işləri 5:41). Peter Məbədin Gözəl Qapı adlanan qapısındakı çolağın "Nazaretli İsa Məsihin adı ilə" şəfa tapdığını bildirdi (Həvarilərin işləri 4:10). Sonra bu qurtuluşun əldə edilməsində bu adın üstünlüyü və zəruriliyini izah etdi: "Başq heç kimdə xilas yoxdur: Çünki səma altında insanlara verilmiş başqa bir ad yoxdur ki, onunla xilas ola bilək" (Həvarilərin işləri 4:12) ). Həvari Pavel yazırdı: "Buna görə də Allah onu ucaltdı və ona bütün adlardan üstün olan adı bəxş etdi ki, göydə, yerdə və yerin altında olanların hamısı İsanın adına hörmətlə diz çöksünlər.”(Filipililərə 2: 9-10).

Bu adın uca məqamına görə, etdiyimiz və ya söylədiyimiz hər bir şeydə İsanın adına etibar etməyə çağrılırıq: "Sözdə və əməlldə nə etsəniz, hər şeyi Rəbb İsanın naminə edin" (Koloslulara 3:17) ). Biz İsanın adı ilə öyrədirik və vəz edirik (Həvarilərin işləri 4: 17-18; 5:28). Biz cinləri qovuruq, dillərdə danışırıq, fövqəladə güc və müdafiə alırıq və xəstələr üçün dua edirik - hamısını İsanın adı ilə edirik(Mark 16: 17-18; Yaqub 5:14). Əlamətlər və möcüzələr İsanın adı ilə edilir (Həvarilərin işləri 4:30). Biz İsanın adı ilə dua edirik və Tanrıya xahişlərimizi bildiririk (Yəhya 14:13-14; 16:23). İsanın adı ilə bir yerə toplaşırıq (Matta 18:20). İsanın adı ilə vəftiz edirik (Həvarilərin işləri 2:38).

Bu o deməkdir ki, İsanın adı bir növ sehrli bir formuladır? Xeyr. İsanın adının təsirli olması üçün Onun adına inanmalıyıq (Həvarilərin işləri 3:16). Biz bu adla təmsil olunanı tanımalıyıq və ona inanmalıyıq (Həvarilərin işləri 19: 13-17). İsanın adı bənzərsizdir, çünki digər adlardan fərqli olaraq sahibinin hüzurunu təmsil edir. Bu, Tanrının hüzurunu, gücünü və işini təmsil edir. İsa adını imanla söylədiyimiz zaman İsa Özü həqiqətən aranızda olu və işə başlayır. Qüdrət adın səslənməsindən irəli gəlmir, amma bu adın imanla söylənməsi, səsləndirilməsi Tanrının Kəlamına itaəti və İsanın işinə olan inamı nümayiş etdirir. Onun adını imanla çağırdığımız zaman, İsa hüzurunu nümayiş etdirir, işləri yerinə yetirir və ehtiyacı qarşılayır.

Buna görə də İsa adı ilə Tanrı Özünü tam şəkildə açır, göstərir. İsanı gördüyümüz, bildiyimiz, hörmət etdiyimiz,

iman etdiyimiz və qəbul etdiyimiz dərəcədə Ata Allahı görürük, tanıyırıq, hörmət edirik, inanırıq və qəbul edirik (Yəhya 5:23; 8:19; 12:44-45; 13:20; 14:7-9). İsanı inkar etsək, biz Atanı inkar edirik (I Yəhya 2:23), amma İsanın adından istifadə etsək, Atanı izzətləndiririk (Koloslulara 3:17).

Bibliyada əvvəlcədən xəbər verilmişdi ki, Məsih RƏBBİN adını elan edəcək (Məzmur 22:22; bax İbranilərə 2:12). İsa Atanın adını göstərdiyini və elan etdiyini təsdiq etdi (Yəhya 17:6, 26). Əslində, O, adını Atadan miras almışdı (İbranilərə 1:4). İsa Atanın adını necə göstərdi və elan etdi? O, Yehovaya məxsus olan işləri görməsi vasitəsilə adın mənasını açdı (Yəhya 14:10-11). Əhdi-ətiqdə Tanrı Öz xalqının ehtiyaclarına cavab verməklə öz təbiəti və adı haqqında tədricən daha çox məlumat açdığı kimi, əhdi-cədiddə də İsa möcüzələr, şəfa, cinləri qovma və günahların bağışlanması vasitəsilə Tanrının adını tam olaraq açdı.İsa öz işləri ilə Atanın adını elan etdi, çünki həmin işlər vasitəsilə əhdi-ətiqdəki Yehova olan Atanın inkarnasiyası (təcəssümü) olduğunu, həqiqətən də, sübut etdi. (Luka 7:19-22 ilə Yeşayə 35:4-6-ya baxın.) Peyğəmbərliklərə uyğun olaraq Tanrının qüdrətini nümayiş etdirməklə O sübut etdi ki, İsa Atanın adıdır.

Niyə İsanın adı Tanrının tam şəkildə açılmasıdır? Sadəcə, İsa Yehovadır və Atanın rolu daxil olmaqla, Tanrıçılığın bütün dolğunluğu İsada yaşayır (Koloslulara 2: 9). Bu böyük həqiqəti 4-cü fəsildə öyrənəcəyik.

## Son qeydlər

## FƏSİL 3

1.Henry Flanders, Jr. və Bryüs Kresson, Bibliyaya Giriş (Nyu-York: John Wiley and Sons nəşriyyatı, 1973), 61.

2. Anlayışlar və yazılışlar Ceymz Stronqun müəllifi olduğu Bibliyanın Mükəmməl Uyğunluq İzahlı lüğətindəndir.

3. Flanders və Kresson, 79.

4. Francis Derkə baxın, Məsihin Adları, 2-ci nəşr. (Minneapolis: Bethany Fellowship, 1969) 152-53; Ceymz Stronqun müəllifi olduğu Bibliyanın Mükəmməl Uyğunluq İzahlı lüğəti.

5. Marvin Vinsent, Əhdi-cədiddə Kəlam Tədqiqatları (1887; rpt. Grand Rapids: Eerdmans, 1975) 1:16; W. E. Vine, Əhdi-cədid Sözlərin İzahlı lüğəti (Old Tappan, N.J.: Fleming H. Revell, 1940), 274

# 4 İSA TANRIDIR

*“Çünki ilahi təbiətin bütün dolğunluğu bədəncə Məsihdə yaşayır” (Koloslulara 2:9).*

İsanın Tanrı olması faktı Müqəddəs yazıda Tanrının bir olması faktı qədər möhkəm şəkildə təsdiq edilmişdir. Bibliya İsanın tam Tanrı olduğunu və tam insan olduğunu öyrədir. Bu fəsildə biz birinci fikri müzakirə edəcəyik; 5-ci fəsildə isə ikinci fikri.

Növbəti bir neçə hissədə biz İsanın Tanrı olduğuna dair dəlilləri təqdim və müzakirə edəcəyik, bunları oxucuların rahatlığı üçün sıra sayı ilə nömrələyirik.

## Əhdi-ətiq İsanın Allah olduğunu şəhadət edir

1. Yeşaya 9:6 ayəsi İsanın Tanrı olduğuna dair ən güclü dəlillərdən biridir: "Çünki bizim üçün körpə doğuldu, Bizə oğul verildi, Hakimiyyət onun çiyinləri üzərində olacaq, Onun adı Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı olacaq..” Uşaq və oğul ifadələri inkarnasiyaya (təcəssümə) və ya "Qüdrətli Tanrının" və "Əbədi Ata"nın təzahürünə aiddir.

2. Yeşaya peyğəmbərlik etdi ki, Məsih İmmanuel, yəni "Tanrı bizimlədir" adlandırılacaqdır (Yeşaya 7:14; Matta 1:22-23).

3. Yeşaya Məsihi həm Yesseyin (Davudun atası) budağı, həm də Yesseyin kökü kimi təsvir etdi (Yeşaya 11:1,10; həmçinin Vəhy 22:16-a baxın). Cismən O, Yessey və Davidun nəslindən (budağından) idi, ancaq Ruhuna görə O, onların Yaradanı və həyat mənbəyi idi (kökü). İsa Məzmur 110:1-dən sitat gətirərkən fəriseyləri çaşdırmaq üçün bu anlayışdan istifadə etdi və əslində soruşdu: "Əgər Davud Məsihi "Ağa" adlandırırsa, necə olur ki, Məsih Davudun oğlu (nəsli) olur?" (Matta 22: 41-46).

4. Yeşaya 35:4-6 göstərir ki, İsa Tanrıdır: “....Budur, Allahınız .... gəlib sizə qurtuluş verəcək!". Bu parçada daha sonra deyilir ki, Tanrı gələndə korların gözləri açılacaq, karların qulaqları açılacaq, topallar sıçrayacaq və lalların dili danışacaq. İsa Müqəddəs yazının bu hissəsini özünə aid etdi (Luka 7:22) və əlbətdə ki, O, xidmətində bütün bunları etdi.

5. Yeşaya 40:3 bəyan edir ki, səhrada birinin səsi nida edir: "Rəbbin yolunu hazırlayın, çöldə Allahımızın keçəcəyi yerləri hamar edin." Vəftizçi Yəhya İsa üçün yol hazırlayarkən bu peyğəmbərliyi yerinə yetirdi (Matta 3: 3); buna görə İsa Rəbbdir (Yehova) və Tanrımızdır.
6. Mikeya 5:2 Məsihin Tanrı olduğunu sübut edir."Ey Bet-lexem Efrata....Mənim üçün İsrail üzərində Hökmdar səndən çıxacaq. Onun nəsli çox qədimlərə, zamanın başlanğıcına gedir." Beləliklə əhdi-ətiq açıq şəkildə gələcək Məsihin və Xilaskarın Tanrının Özü olacağını bildirir.

## Əhdi-cədid İsanın Tanrı olduğunu bəyan edir

1. Tomas İsanın həm Rəbb, həm də Tanrı olmasını etiraf etdi (Yəhya 20:28).
2. Həvarilərin İşləri 20:28 ayəsinə görə, kilsə Tanrının qanı bahasına, yəni İsanın qanı bahasına satın alınmışdır.
3. Pavel İsanı "Böyük Tanrı və Xilaskarımız İsa Məsih" kimi təsvir etdi (Tit. 2:13; NIV-də "Böyük Tanrımız və Xilaskarımız İsa Məsih" kimi verilmişdir).
4. Peter Onu "Tanrı və Xilaskarımız İsa Məsih" kimi təsvir etdi (II Peter 1: 1; NIV və TAB tərcümələrinin hər ikisində "Tanrımız və Xilaskarımız İsa Məsih" kimi verilmişdir).
5. Bədənlərimiz Tanrının məbədləridir (I Korinflilərə 3:16-17), lakin Məsihin ürəyimizdə yaşadığını bilirik (Efeslilərə 3:17).
6. Koloslular Kitabında Məsihin ilahi olması vurğulanır. "Çünki İlahi təbiətin bütün dolğunluğu bədəncə Məsihdə

yaşayır" (Koloslulara 2: 9; həmçinin 1:19 bax). Müqəddəs yazıların bu ayələrinə əsasən, İsa yalnız Tanrının bir hissəsi deyildir, amma Tanrı bütövlüyü ilə Onda yaşayır. Tanrıçılıqda bir neçə şəxs olsaydı, Koloslulara 2:9-a görə, hamısı İsanın bədən formasında sakin olacaqdırlar. Biz Onda tamıq (Koloslulara 2:10). Tanrıdan bizə lazım olanı yalnız İsa Məsihdə tapa bilərik. (Koloslulara 2: 9, eləcə də Məsihin ilahi olduğuna dair Koloslularda digər sübutlar haqqında daha ətraflı məlumat üçün 9-cu fəslə baxın.) Yekun olaraq bildiririk ki, Əhdi-cədid İsa Məsihin tam ilahiliyinə şəhadət edir.

## Tanrı İsa kimi bədəndə təzahür etdi

İsanın Tanrı olması fikri mütləq şəkildə Tanrının insan bədəni götürdüyünü göstərir. Əslində bu barədə bibliyada deyilir.

1. "Allah bədəndə zühur etdi, Ruh tərəfindən təsdiq olundu, mələklərə göründü, xalqlar arasında təbliğ olundu, dünyada imanla qarşılandı, izzətlə yuxarı qaldırıldı" (I Timoteyə 3:16; Tanının 16-cı ayənin mövzusu olduğunu bir daha təsdiq etmək üçün 15-ci ayəyə baxın). Tanrı bədəndə zühur (görünən oldu) etdi; Tanrı Ruh tərəfindən təsdiq edildi (doğru olduğu göstərildi); Tanrı mələklər tərəfindən görüldü; Tanrı dünyada imanla qarşılandı; Tanrı izzətlə yuxarı qaldırıldı. Bütün bunlar necə və nə vaxt baş verdi? İsa Məsihdə.

2. “Əzəldən Kəlam mövcuddur, Kəlam Allahda olub və Kəlam Allah olub. . . . Kəlam bəşər olub aramızda sakin

oldu"(Yəhya 1: 1, 14). Sözün hərfi mənasında, Kəlam (Tanrı) aramızda məskunlaşdı və ya çadır qurdu. Nə vaxt Tanrı aramızda çadır qurdu və ya Özünü bədənlə örtdü? İsa Məsihdə. Hər iki ayə İsanın Tanrı olduğunu, Onun cismən açıq-aşkar zühur etdiyini (aşkara çıxarıldığını, açıqlandığını, bilindiyini, nümayiş edildiyini, göstərildiyini) sübut edir.

Tanrı Rudur - əti və qanı yoxdur və bizə görünməzdir. Özünü bizə göstərmək və günahlarımıza görə günahsız qan tökmək üçün O, bəşər olmalı idi (bədən kəsb etməli idi). (Oğulun məqsədləri üçün daha çox fəsil 5-ə baxın.) İsa başqa bir Tanrı və ya Tanrının bir hissəsi deyildir, O, bədən kəsb edən, ancaq həmin Əhdi-ətiqdəki Tanrıdır. O, təcəssüm etmiş (inkarnasiya) Atadır; O, günahın insanla Tanrı arasında yaratdığı uçurumu aradan qaldırmaq üçün bədəndə gələn Yehovadır. Bir insan palto geyindiyi kimi O, insan kimliyini götürdü. Müqəddəs yazıların bir çox ayəsi elan edir ki, İsa Məsih özünü aşkar etmək və barışıq məqsədi ilə cismə bürünmüş Əhdi-ətiqdəki Tanrıdır.

3. "Allah, Özü ilə dünyanı barışdıranda Məsihin içində idi" (II Korinflilərə 5:19).

4. “Allahı heç bir zaman kimsə görməmişdir; Onu tanıdan (elan edən, aşkar edən), Atanın qucağında olub Özü Allah olan vahid Oğuldur ”(Yəhya 1:18).

5. "Qədimlərdə, müxtəlif vaxtlarda və tərzlərdə peyğəmbərlər vasitəsilə əcdadımıza xitab edən Allah, bu son günlərdə.......izzətinin nuru və mahiyyətinin tam surəti olan Öz Oğlunda bizə xitab etdi ”(İbranilərə 1: 1-3).

6. İsa “görünməyən Allahın surətidir” (Koloslulara 1:15; 2 Korinflilərə 4: 4).
7. O, bədənlə örtülmüş Allahdır (İbranilərə 10:20). İbrahim, "Allah quzunu özü hazırlayacaq" (Yaradılış 22: 8) deməklə, yəqin ki, öz sözlərinin tam mənasını başa düşmədən peyğəmbərlik etdi. Həqiqətən, Tanrı Özü üçün bir bədən hazırladı: "Qurban və sovqat istəmədin, amma Mənə bədən hazırladın" (İbranilərə 10: 5).
8. İsa evin bənnası (Ata və Yaradan Allah) idi və Onun evi üçün cavabdeh olan bir Oğul idi (İbranilərə 3: 3-6).
9. Öz yurduna gəldi və Öz xalqı da Onu qəbul etmədi (Yəhya 1: 10-11).

**Kəlam**

Incildən Yəhyanın müjdəsi 1-ci fəsil bədəndə zühur edən Tanrı anlayışını gözəl öyrədir. Əzəldən Kəlam (yunanca Loqos) mövcuddur. İnsanın sözü ondan ayrı bir şəxs olmadığı kimi, Kəlam da ayrı bir insan və ya ayrı bir tanrı deyildi. Daha çox Kəlam Tanrının fikri, planı və ya düşüncəsi idi. Kəlam başlanğıcdan Tanrı ilə idi və əslində Tanrının Özü idi (Yəhya 1:1). İnkarnasiya dünya başlamazdan əvvəl Tanrının düşüncəsində mövcud idi. Həqiqətən, Tanrının düşüncəsində Quzu dünya yaranmazdan əvvəl (1 Peter 1: 19-20; Vəhy 13: 8) öldürülmüşdü.Yunan dilində loqos elan edənin düşüncəsində mövcud olan bir ifadə və ya plan mənasını verə bilər - bir dramaturqun düşüncəsindəki bir pyes kimi - ya da səsləndirilən və ya başqa bir şəkildə ifadə edilən

fikir mənasını verə bilər- səhnələşdirilən bir pyes kimi. Yəhya 1 deyir ki, Loqos zamanın başlanğıcından Tanrının düşüncəsi kimi mövcud idi. Zamanın tamlığı gələndə Tanrı Öz planını həyata keçirdi. O, bu plana insan İsa Məsih şəklində bədən verdi. Loqos ifadə edilmiş Tanrıdır. Con Millerin dediyi kimi, Loqos "Özü danışan Allahdır".[1] Əslində TAB-da Yəhyanın müjdəsi 1:1 ayəsindəki son ifadə "Kəlam Allah olub" kimi tərcümə edilib. Flanders və Kresson deyirlər: "Kəlam Allah olub" ifadəsi özü özünü bildirmək,açmaq mənasını verir."[2]
Bu fikir daha sonra 14-cü ayədə qabarıq ortaya qoyulur. Həmin ayədə deyilir ki, inkarnasiya edilmiş (təcəssüm olunan) Kəlam Atanın yeganə oğlu kimi izzətə malik idi və 18-ci ayədə Oğulun Atanı elan etdiyi deyilir.
Yunan fəlsəfəsində Loqos kainatın idarəetmə prinsipi olaraq ağıl və ya müdriklik mənasını bildirir. Yəhyanın dövründə yunan düşüncəsinin təsiri altında olan bəzi yunan filosofları və ilahiyyatçıları (xüsusən İskəndəriyyənin yəhudi mütəfəkkiri Filo) Loqosu aşağı, ikinci dərəcəli tanrı və ya vaxtında Tanrıdan gələn emanasiya (aşağı olanın daha yuxarı olandan çıxması) kimi qəbul edirdilər.[3] Bəzi məsihçi heretiklər, o cümlədən Qnostisizmin ortaya çıxan forması artıq bu nəzəriyyələri öz doktrinalarına daxil edirdilər və buna görə də İsanı daha aşağı bir rola salırdılar. Yəhya bu təlimləri təkzib etmək və həqiqəti bəyan etmək üçün bilərəkdən öz terminologiyasından istifadə etmişdir. Kəlam Tanrıdan aşağı deyildi; bu Allah idi (Yəhya 1:1). Kəlam müəyyən bir

dövr ərzində Allahdan çıxmadı; O, başlanğıcda Allahla idi (Yəhya 1:1-2). Tanrının Oğlu İsa Məsih Kəlamdən başqa bir kəs deyildi və ya bədəndə zühur etmiş Allah idi. Qeyd edək ki, 1-ci ayədəki "ilə" kimi tərcümə olunan yunan sözü pros İbranilərə 2:17 və 5:1-də "aid, bağlı, məxsus" kimi tərcümə olunan eyni sözdür. Buna görə Yəhya 1:1-in mənasına aşağıdakılar daxil edilə bilər: "Kəlam Allaha aid idi və Kəlam Allah idi" və ya "Kəlam Allaha məxsus idi və Allah idi."

## İsa yer üzündə ömrünün başlanğıcından Tanrı idi

Tanrı İsa Məsih vasitəsi ilə bədəndə zühur etdi, amma Tanrı öz Oğlunun həyatında hansı məqamda yaşadı? Bibliya birmənalı şəkildə bəyan edir ki, Allahın tamlığı İsanın yer üzündə ömrünün başlandığı andan İsada idi.

1. Matta 1:23-də deyilir: "Budur, bakirə qız boylu qalacaq, bir oğul doğacaq və Onun adını İmmanuel qoyacaqdır. Bu isə Allah bizimlədir" deməkdir. O hətta doğuluşunda "Allah bizimlədir" demək idi.
2. Doğulduğu anda mələklər Ona səcdə etdilər (İbranilərə 1: 6), Şimon körpəni Məsih kimi tanıdı (Luka 2:26), Anna körpəni İsrailin xilaskarı olaraq gördü (Luka 2:38) və müdriklər uşağa səcdə qıldılar (Matta 2:11).
3. Mikeya 5:2-də ilahilik, Məsih Nazaretdə yaşayandan və ya İordaniyada vəftiz olunandan sonra yox, məhz Bet-Lexemdə doğulduğu andan Ona aid edilir.
4. Luka 1:35-də İsanın yer üzündəki həyatının başlanğıcından Tanrı olmasının səbəbi izah edilir. Mələk

Məryəmə dedi: "Müqəddəs Ruh sənin üzərinə gələcək və Haqq-Təalanın qüdrəti üstünə kölgə salacaqdır; buna görə də səndən doğulacaq Müqəddəsə Allahın Oğlu deyiləcəkdir." İsa bakirə qızdan dünyaya gəldi, İsanın nazil olması üçün hamiləlik Müqəddəs Ruhun təsiri ilə oldu. Buna görə ("bunun üçün"), O, Allahın Oğlu idi. Başqa sözlə, İsa Tanrının Oğuludur, çünki Onun bətnə düşməsinə kişi istəyi yox, Tanrı səbəb oldu. Tanrı, sözün hərfi mənasında, Onun Atası idi. "Allah dünyanı elə sevdi ki, yeganə Oğlunu ona verdi" (Yəhya 3:16). Doğulmaq ata olmaq, valideyn olmaq, dünyaya gətirmək və ya səbəb olmaq deməkdir. İsa bakirə Məryəmin bətnində Tanrıdan dünyaya gəldi.

Yeşaya 7:14 ayəsi də bakirənin boylu qalmasını bu şəkildə doğulan Oğulun Allah olmasını tanıması ilə əlaqələndirir. Başqa sözlə, bətnə düşmə anında Tanrı ilahi təbiətini qadının toxumunda yerləşdirdi. Doğulacaq uşaq həyatını və təbiətinin atalıq tərəfini bu zaman Tanrıdan kəsb etdi. Ana tərəfdən Məryəmin insani təbiətini kəsb etdi; ata tərəfdən (Tanrı, Yusif yox) Tanrının təbiətini kəsb etdi. İsa Öz ilahiliyini bətnə düşmə prosesi vasitəsilə əldə etdi; yəni sonradan Allahın bəzi hərəkətləri ilə ilahi olmadı. İsanın bakirə qızdan doğulması Onun ilahiliyini təsdiqləyir.

Bəziləri inanır ki, İsa həyatında müəyyən dövrdən sonra, məsələn, vəftizində Tanrının tamlığını (dolğunluğunu) əldə etdi. Bununla birlikdə, bakirə qızdan doğuluş və Luka 1:35 prizmasından bu cür ola bilməz. İsa həm Tanrı təbiətini, həm də bəşər təbiətini bətnə düşmə zamanı aldı. İsanın vəftizində bir göyərçin kimi Müqəddəs Ruhun onun

üzərinə enməsi Müqəddəs Ruhun vəftizi deyildi; İsa onsuz da Allahın bütün dolğunluğuna sahib idi (Koloslulara 2: 9). Əslində onun vəftiz edilməsi, digər məsələlər sırasında yer üzündə xidmətinin başlanması üçün simvolik bir məsh və ilahiliyinin Vəftizçi Yəhyaya təsdiqi kimi baş verdi (Yəhya 1:32-34). (İsanın vəftizi haqqında daha çox məlumat üçün 8-ci fəslə baxın.)

## Tanrıçılığın sirri

Allahın bəşər olması faktı ən gözəl, lakin Tanrı haqqında ən ağlasığmaz məsələlərdən biridir. "Kimsə inkar etməz ki, Allah yolunun sirri böyükdür: /Allah/ bədəndə zühur etdi" (1 Timoteyə 3:16). İsa nə vaxtsa olmuş və ya olacaq heç bir insana bənzəmir. O, tamamilə Tanrıdır və tamamilə insandır. (Fəsil 5-ə baxın.) İnsanların fikirlərində Tanrıçılığa dair problemlərin əksəriyyəti bu böyük sirdən irəli gəlir. Onlar Məsihin ikili mahiyyətini anlaya bilmirlər və Onun iki rolunu düzgün ayırd edə bilmirlər. Onlar Tanrının necə bir körpə şəkli kəsb etdiyini və insanlar arasında bir insan kimi yaşadığını anlaya bilmirlər.

Düzdür, möcüzəvi şəkildə bətnə düşmənin - Tanrı ilə insanın birliyinin Məryəmin bətnində necə baş verdiyini tam dərk edə bilmirik, amma bunu imanla qəbul edə bilərik. Əslində, İsanın bədəndə gəldiyinə inanmasaq, deməli, bizdə Məsihin əleyhdarının ruhu var (2 Yəhya 7), amma Məsihin bu doktrinasını qəbul etsək, həm Ataya, həm də Oğula malikik (2 Yəhya 9). Həm Ata, həm də Oğul Məsihdə aşkar olunur (Yəhya 10:30; 14: 6-11).

Tanrının bədəndə olmasının sirri yəhudilər üçün böyük bir büdrəmə daşı idi. Onlar İsanın insan olaraq necə Tanrı ola bildiyini heç vaxt anlaya bilmədilər (Yəhya 10:33). Tanrı olduğunu iddia etdiyi üçün Onu rədd etdilər və öldürmək istədilər (Yəhya 5:18; 10:33). Hələ bu gün də bir çox yəhudi bu səbəbdən İsanı qəbul edə bilmir. Söhbət zamanı bir ortodoks yəhudi ravvin dedi ki, İsanı Tanrı kimi heç vaxt qəbul edə bilməz.[4] Onun düşüncəsinə görə, Tanrı hər yerdə mövcud olan gözə görünməz Ruh olduğundan insanlar Onu heç vaxt görə bilməzlər və O, bədəndə görülə bilməz. Onun əsaslandırması bizə İsanın günlərindəki yəhudiləri xatırlatdı. Bu ravvin kimi, onlar da Tanrının necə hərəkət etməsi barədə biliyə əsaslanmayan öz düşüncələri ilə Tanrını məhdudlaşdırmağa çalışdılar. Bundan əlavə, onlar Məsihin tanrılığını elan edən Əhdi-ətiq yazıları barədə ciddi bir biliyə sahib deyildilər.

Sonsuz olan Tanrının bədəndə necə yaşaya bildiyini insan olaraq anlamaq çətin olsa da, Müqəddəs yazılar bunun belə olduğunu bəyan edir. Yaradılış 18-də Tanrının bir insan formasında İbrahimə görünməsini ravvinə xatırlatdıq. O, bunun onun üçün bir problem olduğunu etiraf etdi, ancaq antropomorfizm və ya məcazi dil baxımından fikrini izah etməyə çalışdı. Sonra Müqəddəs yazılardan Yeşaya 7:14; 9:6; Yeremya 23:6; və Mika 5:2 ayələrə istinad edib ona Məsihin Yehova Allah olmasını göstərdik. Bu ayələrin, güman ki, yanlış tərcümə olduğunu söyləməsindən başqa Ravvinin bir cavabı yox idi. O, həmin ayələri bundan sonra da araşdıracağına söz

verdi.Tanrıçılıqdakı "şəxslər"lə bağlı heç vaxt bir sirr olmamışdır. Bibliyada açıq şəkildə bəyan edilir ki, yalnız bir Tanrı vardır və bunun hamı tərəfindən başa düşülməsi asandır. Tanrıçılıq haqqında yeganə sirr, Tanrının bədəndə necə gələ bilməsi, İsanın həm Tanrı, həm də insan ola bilməsidir. Lakin bu sirrin həqiqəti iman gətirənlərə aşkar oldu. İsa Məsihin sirri dünya başlayandan bəri gizli saxlanılmış, lakin Əhdi-cədid dövründə aşkar edilmişdir (Romalılara 16: 25-26; Koloslulara 1: 25-27). Əhdi-cədiddəki bir sirr sadəcə Əhdi-ətiqdə başa düşülməyən, lakin bizə bildirilən Tanrının bir planıdır. Biz. . . Məsihin gizli sirrini dərk edə bilərik, bu sirr başqa nəsillərdə insan oğullarına, indi Məsihin müqəddəs həvarilərinə və peyğəmbərlərinə Ruh vasitəsilə açıldığı kimi açılmamışdı ”(Efeslilərə 3: 4-5).

Tanrının və Məsih olan Atanın sirrini bilə bilərik (Koloslulara 2: 2; NIV və TAB-a da bax). Əslində Pavel İsa Məsihdə Tanrının bütün müdrikliyinin, biliklərinin və dolğunluğunun yaşadığını deməklə bu sirri izah etdi (Koloslulara 2: 3, 9). Allahın sirrini bizə Allahın Ruhu açdı (I Korinflilərə 2: 7-10). Bu vəhy bizə Müqəddəs Ruhla nurlandırılan Allahın Kəlamı vasitəsilə gəlir (1 Korinflilərə 2: 7-10). Tanrının surəti olan Məsihin nuru ürəklərimizə nur saçdı (2 Korinflilərə 4:3-4). Buna görə də bibliyada tanrıçılıqla bağlı heç bir sirr və şübhəsiz ki, tanrıçılıqda şəxslərin sayı barədə heç bir sirr yoxdur. Yeganə sirr Məsihdir və O bizə aşkar edildi! Tanrının sirri və Məsihin sirri inkarnasiyada birləşir.Sadəcə, İsrailin Tanrısı yer

üzünə bədəndə gəldi. Bu sirr aşkar oldu və Tanrının kəlamı bəyan edir ki, bu, bu gün bizə bildirildi.
Tanrının və Məsih olan Atanın sirrini bilə bilərik (Koloslulara 2: 2; NIV və TAB-a da bax). Əslində Pavel İsa Məsihdə Tanrının bütün müdrikliyinin, biliklərinin və dolğunluğunun yaşadığını deməklə  bu sirri izah etdi (Koloslulara 2: 3, 9). Allahın sirrini bizə Allahın Ruhu açdı (I Korinflilərə 2: 7-10). Bu vəhy bizə Müqəddəs Ruhla nurlandırılan Allahın Kəlamı vasitəsilə gəlir (1 Korinflilərə 2: 7-10). Tanrının surəti olan Məsihin nuru ürəklərimizə nur saçdı (2 Korinflilərə 4:3-4). Buna görə də bibliyada tanrıçılıqla bağlı heç bir sirr və şübhəsiz ki, tanrıçılıqda şəxslərin sayı barədə heç bir sirr yoxdur. Yeganə sirr Məsihdir və O bizə aşkar edildi! Tanrının sirri və Məsihin sirri inkarnasiyada birləşir.Sadəcə, İsrailin Tanrısı yer üzünə bədəndə gəldi. Bu sirr aşkar oldu və Tanrının kəlamı bəyan edir ki, bu, bu gün bizə bildirildi.

## İsa bədəndə gəlmiş Atadır

Yalnız bir Tanrı varsa, Tanrı Atadırsa (Malaki 2:10) və İsa Tanrıdırsa, deməli, məntiqlə İsa Atanın təzahürüdür. İsanın birtəhər Tanrı ola biləcəyini və hələ də bədəndə gələn Ata olmadığını düşünənlər üçün əlavə Bibliya sübutlarını təqdim edəcəyik. Bu, İsanın Tanrı olduğunu daha çox sübut edəcəkdir. Əslində Müqəddəs yazıların iki ayəsi bu məqamı sübut etmək üçün kifayətdir.
1. Yeşaya 9:6 ayəsində Oğul əbədi Ata adlandırılır. İsa haqqında  peyğəmbərlik edilmiş Oğuldur və yalnız bir Ata

var (Malaki 2:10; Efeslilərə 4:6), buna görə İsa Oğulda nazil olmuş Allah Ata olmalıdır.
2. Koloslulara 2: 9 ayəsində elan edilir ki, bütün ilahilik tamlığı ilə İsada yaşayır. Tanrıçılığa Atanın rolu daxildir, buna görə Ata İsada sakin olmalıdır.
3. Bu iki ayəyə əlavə olaraq, İsa özü öyrədirdi ki, O, nazil olan Atadır. Bir dəfə İsa Ata haqqında danışarkən fəriseylər soruşdular: «Atan haradadır? İsa cavab verdi: "Siz nə Məni, nə də Atamı tanıyırsınız. Əgər Məni tanısaydınız, Atamı da tanımış olardınız" (Yəhya 8:19). İsa sözünə davam etdi: “Buna görə də sizə: "Günahlarınız içində öləcəksiniz" dedim. "Çünki Mən Oyam. Buna iman etməsəniz, günahlarınız içində öləcəksiniz" (Yəhya 8:24). Qeyd etməliyik ki, ayədə "o" kursivdə verilmişdir. Bu onu göstərir ki, orijinal yunan dilində belə deyildir, tərcüməçilər tərəfindən əlavə edilmişdir. İsa, həqiqətən də, Çıxış 3:14 ayəsindəki “Mənəm” (Mən Özlüyümdən Var Olanam) fikri ilə özünü eyniləşdirirdi. Onun mənasını anlamayan yəhudilər soruşdular: "Sən kimsən?" İsa cavab verdi: "Başlanğıcdan bu yana sizə nə dedimsə, Oyam" (Yəhya 8:25). Lakin "Onun Atadan bəhs etdiyini anlamadılar" (Yəhya 8:27). Başqa sözlə, İsa, Atanın, "Mən Özlüyümdən Var Olanam"ın vəhyi olduğunu və Onu Tanrı olaraq qəbul etmədikləri halda günahları içində öləcəklərini söyləməyə çalışdı.
4. Başqa bir yerdə İsa dedi: "Mən və Ata birik" (Yəhya 10:30). Bəziləri belə bir fikir irəli sürürlər ki, ər və arvad bir olduğu kimi, O, Ata ilə bir idi, necə ki, iki nəfər eyni bir

fikirdə olur. Bu təfsir İsanın əminliklə söylədiyi doğru fikrin qüvvəsini zəiflətməyə çalışır. Bununla birlikdə, digər ayələrdə İsanın öz bəşəriliyində yalnız Oğul olmadığını, həm də öz İlahiliyində Ata olduğu tamamilə təsdiqlənir.
5. Məsələn, İsa Yəhya 12:45 ayəsində "Məni görən Məni Göndərəni görür" dedi. Başqa sözlə, bir insan İsanın ilahiliyini görürsə, Atanı görür.
6. Yəhya 14:7 ayəsində İsa şagirdlərinə dedi: "Əgər Məni tanısaydınız, Atamı da tanıyardınız. İndidən Onu tanıyırsınız və görürsünüz". Bu fikri eşidən Filip, "Ya Rəbb, Atanı bizə göstər və bizim üçün bu kifayətdir" dedi (Yəhya 14:8). Başqa sözlə, İsanın onlara Atanı göstərməsini və bundan sonra məmnun qalmalarını istədi. İsanın cavabı belə oldu: "Xeyli vaxtdır sizinləyəm, Məni tanımadınmı, Filip? Məni görən Atanı görmüş olur; sən necə: "Atanı bizə göstər"- deyə bilərsən? İman etmirsənmi ki, Mən Atadayam, Ata da Məndədir? Mən sizə söylədiyim sözləri özümdən söyləmirəm, lakin Mənim daxilimdə duran Ata öz işlərini görür. Mənə iman edin ki, mən Atadayam, Ata da Məndədir; yoxsa heç olmasa o işlərə görə /Mənə/ iman edin "(Yəhya 14:9-11). Bu açıqlama razılıq əlaqəsindən çox uzağa gedir; bu fikir, Məsihin bədəndə zühur etmiş Ata olması iddiasından daha zəif başqa bir fikir kimi qəbul edilə bilməz. Bu gün bir çox insan kimi, Filip də Atanın görünməz bir Ruh olduğunu və bir insanın Onu görə biləcəyi yeganə yolun İsa Məsihin şəxsiyyəti vasitəsilə olacağını anlamamışdı.

7. İsa dedi: "Ata Məndədir, Mən də Atadayam" (Yəhya 10:38).8. İsa bütün qalib gələnlərin Atası olacağını vəd etdi (Vəhy 21: 6-7).
9. Yəhya 14:18 ayəsində İsa dedi: "Sizi yetim qoymaram; sizin yanınıza gələcəyəm. "Yetim" kimi tərcümə olunmuş Yunan sözü orfanosdur, bu söz Ceymz Stronqun müəllifi olduğu Bibliyanın Mükəmməl Uyğunluq İzahlı Lüğətində "Kədərlənmiş, hüzrlü ('Yetimlər'), yəni valideynsiz" mənalarında ifadə edilir. İsa deyirdi: “Sizi yetim qoymaram”(NIV və TAB) və ya “sizi atasız qoymaram: yanınıza gələrəm”. Bədəndə gəlmiş Ata kimi danışan İsa şagirdlərini atasız qoymayacağına söz verdi.
Aşağıda İsanın bədəndə gəlmiş Ata olduğuna dair əlavə sübut təqdim edən bəzi müqayisələr verilmişdir.
10. İsa Öz bədənini üç gündə ölülərdən dirildəcəyini vəd etdi (Yəhya 2:19-21), Peter isə Tanrının İsanı ölülərdən diriltdiyini təbliğ etdi (Həvarilərin işləri 2:24).
11. İsa bizə Təsəlliverici göndərəcəyini söylədi (Yəhya 16:7), eyni zamanda Atanın Təsəlliverici göndərəcəyini dedi (Yəhya 14:26).
12. Yalnız Ata insanları Tanrıya cəlb edə bilər (Yəhya 6:44), eyni zamanda İsa bütün insanları özünə çəkəcəyini söylədi (Yəhya 12:32).
13. İsa bütün iman gətirənləri son gündə dirildəcək (Yəhya 6:40), eyni zamanda Allah Ata ölüləri dirildir (həyat verir) və bizi dirildəcək (Romalılara 4:17; 1 Korinflilərə 6:14).

14. İsa iman edənin duasına cavab verəcəyinə söz verdi (Yəhya 14:14), eyni zamanda Atanın duaya cavab verəcəyini söylədi (Yəhya 16:23).
15. Məsih bizi təqdis edəndir (Efeslilərə 5:26), eyni zamanda Ata bizi təqdis edir (Yəhuda 1).
16. 1 Yəhya 3:1,5 ayələrində deyilir ki, Ata bizə məhəbbət göstərmişdir və günahlarımızı aradan qaldırmaq üçün zühur etdi, eyni zamanda bilirik ki, günahları aradan qaldırmaq üçün dünyada zühur edən Məsih idi (Yəhya 1:29-31). İsanın ikili bir təbiətə sahib olduğunu dərk etsək, bütün bunları asanlıqla başa düşə bilərik. O, həm Ruh və bədən, Tanrı və insan, həm də Ata və Oğuldur. İnsan tərəfdən O, İnsan Oğludur; İlahi tərəfdən O, Allahın Oğludur və bədəndə yaşayan Atadır. (Oğul haqqında daha çox məlumat üçün 5-ci fəslə və Ata, Oğul və Ruh haqqında məlumat üçün 6-cı fəslə baxın.)

## İsa Yehovadır

İsanın bədəndə gəlmiş Ata olduğunu göstərən Müqəddəs yazı ayələri İsanın tək Tanrı olduğuna dair sübutlarımızı tükətmir. Aşağıda verilmiş Müqəddəs yazıların on iki ayəsi İsanın Əhdi-ətiqdəki tək Tanrı olduğunu sübut edir.
1. Yeşaya 40:3-cü ayədə peyğəmbərlik edilir ki, səhrada bir səs nida edəcək: "Rəbbin (Yehovanın) yolunu hazırlayın"; Matta 3:3-cü ayədə deyilir ki, vəftizçi Yəhya bu peyğəmbərliyi yerinə yetirdi. Əlbəttə ki, Yəhyanın Rəbb İsa Məsihin yolunu hazırladığını bilirik. Yehova adı vahid Tanrının müqəddəs adı olduğundan, bibliyada İsrailin

Müqəddəsindən başqa heç kimə bu ad tətbiq edilməzdi; burada bu ad İsaya tətbiq olunur.
2. Malaki 3:1-ci ayədə deyilir: "Axtardığınız Xudavənd qəflətən Öz məbədinə gələcək. Görmək arzusunda olduğunuz Əhd Mələyi gələcək". Sözün hərfi mənasında məbədin və ya İsanın bədən məbədinin nəzərdə tutulmasından asılı olmayaraq bu, İsa tərəfindən yerinə yetirildi (Yəhya 2:21).
3. Yeremya 23:5-6 ayələri Davuddan gələn saleh bir budaqdan bəhs edir ki, bu da aydın şəkildə Məsihə aiddir və Onu "Salehliyimizin Rəbbi" adlandırır. (Eləcə də Yeremya 33:15-16 ayələrə baxın.) Başqa sözlə, İsa «Yehova Salehliyimiz"dır.
4. Yeşaya, Yehovadan bəhs edərək dedi: "Qolu qurtuluş gətirdi" (Yeşaya 59:16) və "qüdrətli əli ilə hökm sürəcək" (Yeşaya 40:10). Yeşaya 53:1-2 ayələrində Məsih Rəbbin qolunun vəhyi olaraq təsvir edilir. Buna görə Xilaskar İsa başqa bir tanrı deyil, dünyaya xilas gətirmək üçün Yehovanın insan bədənindəki bir davamıdır.
5. Yeşaya Rəbbin izzətinin bütün bəşərə görünəcəyi barədə peyğəmbərlik etdi (Yeşaya 40: 5). Yehova izzətini başqasına verməyəcəyini söylədiyi üçün (Yeşaya 42:8; 48:11) bilirik ki, bu peyğəmbərliyi yalnız Özünü aşkar etməklə yerinə yetirə bilərdi. Həqiqətən, Əhdi-cədiddə İsanın Atadan izzət aldığını görürük (Yəhya 1:14; 17:5). O izzət Rəbbidir (I Korinflilərə 2:8). İsa yenidən gələndə O, Atanın izzəti ilə gələcək (Matta 16:27; Mark 8:38). İsa Yehovanın izzətinə malik olduğu üçün Yehova olmalıdır.

6. Yehova dedi: "Buna görə xalqım mənim adımı tanıyacaq. O gün "budur, Mənəm" deyən Mən olduğumu başa düşəcək" (Yeşaya 52: 6). Eyni zamanda bilirik ki, İsa Atanı elan etdi, Atanın adını təzahür etdi və Atanın adını elan etdi (Yəhya 1:18; 17: 6; 17:26). İsa Rəbbin adını elan etdi (Məzmur 22:22; İbranilərə 2:12). Beləliklə, O, Yehova olmalıdır.
7. Rəbb dedi: "Hər diz önümdə çökəcək, hər dil mənə and içəcək" (Yeşaya 45:23). Pavel Müqəddəs yazının bu ayəsindən sitat gətirərək hamının Məsihin hökm kürsüsü qarşısına çıxacağını sübut etdi (Romalılara 14:10-11). Pavel həmçinin yazırdı: "Hamı İsanın adına hörmətlə diz çökməlidir" (Filipililərə 2:10).
8. Zəkəriyyə İsanın Yehova olduğuna inandırıcı bir sübut təqdim edir. Zəkəriyyənin kitabı 11:4 ayəsi ilə başlayan parçada "Allahım Rəbb" belə deyir: "Beləliklə, onlar məni otuz gümüş pula qiymətləndirdilər."
Zəkəriyyənin kitabı 12:10 ayəsində Yehova dedi: "Onlar Mənə – bədənini deşdikləri şəxsə baxacaq." Əlbəttə, otuz gümüş pula satılan və deşilmiş İsa idi (Matta 26: 14-16; Yəhya 19:34). Zəkəriyyə kitabı 12:8 ayəsi Məsihə istinad edərək deyir: "Davudun nəsli Allah kimi olacaq." Zəkəriyyə həmçinin yazırdı, "Allahım Rəbb və onunla birlikdə bütün müqəddəslər gələcək" və Onun bir çox xalqlara qarşı necə vuruşduğunu və Zeytun dağı üzərində necə ayaq qoyacağını təsvir etdi (Zəkəriyyə 14:3-5). Əlbəttə, biz bilirik ki, İsa padşahların Padşahı və Rəbblərin Rəbbi kimi xalqlara qarşı müharibə etmək üçün Zeytun dağına

qayıdacaq (Həvarilərin işləri 1:9-12; 1 Timoteyə 6:14-16; Vəhy 19:11-16).
9. Təhsilli yəhudi, Fariseylərin Fariseyi, məsihçilərin fanatik təqibçisi olan Pavel Dəməşqə gedən yolda Allah tərəfindən bir göz qamaşdırıcı işıqla vurulduqda soruşdu: "Sən kimsən, Rəbb?" Bir yəhudi olaraq, o yalnız bir Tanrının və Rəbbin olduğunu bilirdi və "Sən kimsən, Yehova?" deyə soruşurdu. Rəbb cavab verdi: "Mən İsayam" (Həvarilərin işləri 9: 5).
10. Musa Yehova Tanrı ilə bir araya gələndə, İbranilərə 11:26 ayəsində deyilir ki, Musa Məsih üçün çəkdiyi sitəmi (təhqiri) Misirin xəzinələrindən daha böyük sərvət saydı. Beləliklə, Musanın Tanrısı İsa Məsih idi.
11. Məzmur 68:18 ayəsində Yehovanın yüksək yerlərə qalxdığı və əsir etdiklərini Özü ilə oraya apardığı bir səhnə təsvir olunur, eyni zamanda bilirik ki, İsa yüksəyə qalxdıqda bir Ordu əsiri də Özü ilə apardı. Əslində Efeslilərə 4:7-10 ayələri bu peyğəmbərliyi İsaya tətbiq edir.
12. Vəhy 22:6 ayəsində deyilir: “Müqəddəs peyğəmbərlərin Allahı Rəbb öz mələyini Yəhyaya göndərdi”, lakin 16-cı ayədə deyilir: “Mən İsa öz mələyimi göndərdim ki, sizə şəhadət etsin”. İsanın tək Yehova Tanrı ilə eyniləşdirildiyi Müqəddəs yazılardan hələ çoxlu parçalar var. Aşağıda Yehovanı müəyyən yollarla təsvir edən ayələrin siyahısı İsanı eyni şəkildə təsvir edən ayələrlə cütləşdirilmişdir. Beləliklə, bu ayələrin hamısı bunu sübut edir ki, İsa Yehovadır.

## İsa Yehovadır (I)

| | Yehova | | İsa | |
|---|---|---|---|---|
| | Titul | Müqəddəs yazı | Titul | Müqəddəs yazı |
| 1. | Külli-İxtiyar | Yaradılış 17:1 | Külli-İxtiyar | Vəhy 1:8 |
| 2. | Mənəm | Çıxış3:14-16 | Mənəm | Yəhya 8:58 |
| 3. | Qaya | Zəbur18:2;28:1 | Qaya | 1 korinf 10:4 |
| 4. | Xilaskar | Zəbur 18:2 | Xilaskar | Luka 1:69 |
| 5. | Çoban | Zəbur 23:1;Yeşayə40:10-11 | Yaxşı Çoban, Böyük Çoban, Baş Çoban | Yəhya 10:11; İbranilərə 13:20; 1 Peter5:4 |
| 6. | Əzəmətli Padşah | Zəbur 24:7-10 | Əzəmətli (İzzətli) Rəbb | 1 Korinfl 2:8 |
| 7. | Nur | Zəbur 27:1; Yeşayə 60:19 | Nur | Yəhya 1:4-9; Yəhya 8:12; Vəhy 21:23; |
| 8. | Xilas | Zəbur 27:1; Yeşayə 12:2; | Yeganə Xilas | Həvarilərin işləri 4:10-12 |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Rəbbləri n Rəbbi | Zəbur 136:3 | Rəbblərin Rəbbi | Vəhy 19:16 |
| 10. | Müqədd əs olan | Yeşayə 12:6 | Müqəddə s olan | Həvarilərin işləri 2:27 |
| 11. | Qanun qoyan | Yeşayə 33:22 | Əhdi-ətiqin (birinci əhdin) vəsatətçi si (Qanun) | İbranilərə 9:14-7 |
| 12. | Hakim | Yeşayə 33:22; Mikeya 5:1 | Hakim | Həvarilərin işləri 10:42 |
| 13. | Birinci və Sonuncu | Yeşayə 41:4;44:6;48:1 2 | Alfa və Omeqa, Başlanğıc və Son; Birinci və Sonuncu | Vəhy 1:8; 22:13 |
| 14. | Yeganə Xilaskar | Yeşayə 43:11;45:21;60 :16 | Xilaskar | Titus 2:13;3:6 |
| 15. | Ruhani su verən | Yeşayə 44:3;55:1 | Həyat suyu verən | Yəhya 4:10-14; 7:38-39 |
| 16. | İsrailin Padşahı | Yeşayə 44:6 | İsrailin Padşahı, Padşahla | Yəhya 1:49, Vəhy 19:16 |

| | | | | |
|---|---|---|---|---|
| | | | rın Padşahı | |
| 17. | Yeganə Yaradan | Yeşayə 44:24; 45:8; 48:13 | Hər şeyi Yaradan | Yəhya 1:3; Koloslulara 1:16; İbranilərə 1:10 |
| 18. | Yeganə ədalətli Tanrı | Yeşayə: 45:21 | Ədalətli (Saleh) rəbb | Həvarilərin işləri 7:52 |
| 19. | Satınalan | Yeşayə 54:5;60:16 | Satınalan | Qalatiyalılara 3:13; Vəhy 5:9 |

## İsa Yehovadır (II)

| | Ad | İsa bizim: | Müqəddəs yazılardan ayələr |
|---|---|---|---|
| 1. | Yehova-İre (Rəbb təmin edir) | Qurban təqdim edən | İbranilərə 10:10-12 |
| 2. | Yehova-Rafa (Şəfa verən) | Şəfa verən | Yaqub 5:14-15 |
| 3. | Yehova-nissi (bayraq,qələbə) | Qələbə | 1 korinflilərə 15:57 |
| 4. | Yehova m’Kaddeş (təqdis edən) | Təqdis edən | Efeslilerə 5:26 |

| | | | |
|---|---|---|---|
| 5. | Yehova-şalom | Sülh | Yəhya 14:27 |
| 6. | Yehova-sabaot (Ordular Rəbbi) | Ordular Rəbbi | Yaqub 5:4-7 |
| 7. | Yehova-elyon (Ən yüksəklərdə olan) | Ən yüksəklərdə olan | Luka 1:32,76,78 |
| 8. | Yehova-raah (çoban) | Çoban | Yəhya 10:11 |
| 9. | Yehova-hoseenu (yaradan) | Yaradan | Yəhya 1:3 |
| 10. | Yehova-tsidkenu (salehlik) | Salehlik | 1 Korinflilərə 1:30 |
| 11. | Yehova-şammah (bizimlə olan, hazır olan) | Həmişə bizimlə olan, hazır olan | Matta 28:20 |

Yuxarıdakı siyahılar tam deyil, lakin İsanın Yehova olduğunu sübut etmək üçün kifayətdir. Yalnız bir Yehova var (Qanunun təkrarı 6:4), buna görə bu, o deməkdir ki, İsa Əhdi-ətiqidəki tək Allahdır.

## Yəhudilər başa düşürdülər ki, İsa Özünün Tanrı olmasını iddia edir

Yəhudilər Tanrının bədəndə necə gələ biləcəyini başa düşmədilər. Bir dəfə İsa onlara aşkar olan Ata olduğunu söylədikdə başa düşmədilər (Yəhya 8:19-27). Ancaq bir çox digər hallarda Onun Tanrı olduğunu iddia etməsini anlayırdılar. Bir dəfə İsa şənbə günü bir adama şəfa verdi

və bu işi Atasının adına yazdı, yəhudilər onu öldürməyə çalışdılar - yalnız Şənbə gününü pozduğu üçün yox, Tanrının Atası olduğunu söyləyərək özünü Allaha tay tutduğu üçün (Yəhya 5:17-18). Başqa bir vaxt İsa dedi ki, İbrahim Onun gününü gördüyündən sevindi. Yəhudilər bunun necə mümkün ola biləcəyini soruşduqda, İsa cavab verdi: "İbrahim olmazdan əvvəl Mən Varam". Yəhudilər dərhal Onun Var Olan Mənəm iddiasını anladılar - bu adla Çıxış 3:14 ayəsində Yehova özünü tanıtdırmışdı. Buna görə etdiyi küfrə görə onlar Onu öldürmək üçün daş götürdülər (Yəhya 8:56-59). İsa "Mən və Atam birik" dedikdə, yəhudilər küfr üçün Onu daşqalaq etməyə çalışdılar, çünki insan ikən Özünün Tanrı Ata etdi (Yəhya 10: 30-33). Atanın içində olduğunu deyəndə onlar Onu öldürməyə çalışdılar, çünki yenə də Özünü bədəndə gəlmiş Ata olduğunu iddia edirdi (Yəhya 10: 38-39).

İsa günahlarından iflic olan bir insanı bağışladıqda, yəhudilər onun küfr etdiyini düşündülər, çünki onlar bilirdilər ki, yalnız Tanrı günahlarını bağışlaya bilər (Yeşaya 43:25). Onların fikirlərini bilən İsa adama şəfa verdi və bununla ilahi qüdrətini göstərdi və ilahiliyini sübut etdi (Luka 5:20-26). Yəhudilər tək Tanrının olduğuna inanmaqda, günahları yalnız Tanrının bağışlaya biləcəyinə inanmaqda və İsanın bədəndə gəlmiş tək Tanrı (Ata və Yehova) olduğunu iddia etdiyini başa düşməkdə haqlı idilər. Onlar yalnız İsanın iddiasına inanmaqdan imtina etdikləri üçün səhv etdilər. Təəccüblüdür ki, bu gün bəzi insanlar nəinki Rəbbin həqiqi şəxsiyyəti (mahiyyəti)

barədə onun təsdiq etdiyi fikirləri rədd edir, hətta onun nəyi təsdiq etdiyini başa düşmürlər. Hətta İsaya qarşı çıxan yəhudilər belə, İsanın bədəndə gəlmiş Tanrı, Ata və Yehova olduğunu iddia etdiyini başa düşürdülər, lakin bu gün də bəziləri Müqəddəs yazıların bunu açıq şəkildə bəyan etdiklərini görə bilmirlər.

## İsa Taxtda Oturandır

Göydə bir taxt var və taxtda biri oturmuşdu. Yəhya bunu Vəhy kitabı 4:2 ayəsində təsvir etmişdir: "Elə o anda Ruhun hakimiyyəti altına düşdüm. Və budur, göydə bir taxt qurulmuş və taxtda Biri oturmuşdu". Şübhəsiz ki, bu Bir nəfər Tanrıdır, çünki taxtın ətrafında olan iyirmi dörd ağsaqqal Ona "Var olmuş, Var olan və Gələcək, Külli-İxtiyar Rəbb Allah müqəddəsdir, müqəddəsdir, müqəddəsdir!" deyə müraciət edirdilər (Vəhy 4:8). Bunu Vəhy kitabının 1:5-18 ayələri ilə müqayisə etdikdə, İsa və taxtda oturanın təsvirlərində diqqətəlayiq bir oxşarlıq görürük. "Var olmuş, Var olan və Gələcək, Külli-İxtiyar olan Rəbb Allah deyir: Mənəm Alfa və Omeqa, Başlanğıc və Son (Vəhy 1:8). 5-7-ci ayələrdən aydın olur ki, 8-ci ayədə danışan şəxs İsadır. Bundan əlavə, İsa aydın şəkildə Vəhy kitabı 1:11-18 ayələrinin mövzusudur. 11-ci ayədə İsa özünü Alfa və Omeqa, Başlanğıc və Son olan Biri kimi bildirdi. 17-18-ci ayələrdə İsa dedi: “Birinci və Axırıncı, və diri olan Mənəm, Ölü idim və budur, əbədi olaraq diriyəm, Amin. Ölümün və ölülər aləminin açarları Məndədir". Buna görə də Vəhy kitabının birinci fəslindən biz görürük ki, İsa Rəbb, Var

olmuş, Var olan və Gələcək Külli-İxtiyar Tanrıdır. Eyni təsviri şərtlər və adlar (titullar) İsaya və taxtda oturan şəxsə şamil edildiyindən taxtda oturanın İsa Məsihdən başqa bir şəxsin olmadığı aydın görünür.
Bu yekun nəticə ilə bağlı əlavə bir dəstək var. Vəhy kitabının 4:11-ci ayəsində bizə taxtda Olanın Yaradan olduğu söylənilir və İsanın Yaradan olduğunu bilirik (Yəhya 1:3; Koloslulara 1:16). Bundan əlavə, taxtda Olan izzət, şərəf və güc almağa layiqdir (Vəhy kitabı 4:11); oxuyuruq ki, öldürülmüş Quzu (İsa) güc, sərvət, hikmət, qüdrət, şərəf, izzət və xeyir-dua almağa layiqdir (Vəhy 5:12). Vəhy kitabı 20:11-12 ayələrində deyilir ki, taxtda Olan Hakimdir və bilirik ki, İsa hamının Hakimidir (Yəhya 5:22, 27; Romalılara 2:16; 14:10-11). Başa düşürük ki, Vəhy 4-cü fəsildə İsa taxtda Olandır. Vəhy 22:3-4 ayələri Allahın və Quzunun taxtından bəhs edir. Bu ayələr bir taxtdan, bir üzdən və bir addan bəhs edir. Buna görə də Allah və Quzu bir üzü, bir adı olan və bir taxtda oturan bir varlıq olmalıdır. Həm Tanrı, həm də Quzu olan yeganə şəxs İsa Məsihdir. (Danielin kitabı 7-ci fəsildə Əzəldən Var Olanın müzakirəsi üçün 7-ci fəslə baxın. Vəhy 5-ci fəsildə Quzunun müzakirəsi üçün 9-cu fəslə baxın.) Qısa şəkildə desək, Vəhy kitabında deyilir ki, biz göyə qalxanda görəcəyik ki, İsa tək taxtda oturub. İsa, nə vaxtsa göydə görəcəyimiz Tanrının yeganə görünən bir təzahürüdür.

## İsa Məsihin vəhyi

Vəhy Kitabında İsanın ilahiliyinə dair bir çox digər güclü açıqlamalar var. Allahın Yəhya vasitəsilə kitab yazmaqda məqsədi sadəcə gələcək hadisələri yox, İsa Məsihi bildirmək və ya aşkar etmək idi. Əslində, Yəhyanın bütün yazdıqlarında Tanrının vahidliyi, Məsihin ilahiliyi və Məsihin bəşəriliyi xüsusilə vurğulanır. Yəhya, Yəhyanın müjdəsi kitabını yazdı ki, biz İsanın Məsih olduğuna, Tanrının Oğlu olduğuna inanaq (Yəhya 20:31). İsanı Tanrının Oğlu kimi qəbul etmək, Onu Tanrı kimi qəbul etmək deməkdir, çünki "Tanrının Oğlu" titulu (adı), sadəcə olaraq Tanrının bədəndə zühuru deməkdir. (Əlavə müzakirə üçün 5-ci fəslə baxın.) Yəhya İsanı Tanrının, Kəlamın, Atanın və Yehovanın (Var Olan Mənəm) təzahürü kimi tanıtdırdı. Yəhyanın bütün yazdıqları İsanın ilahiliyini ucaldır, önə çəkir; Vəhy kitabı heç də istisna deyildir.

Vəhy 1:1 ayəsi söyləyir ki, bu kitab İsa Məsihin vəhyidir. Vəhy sözünün yunan dilində qarşılığı apokalipsis sözüdür. Sözün hərfi mənasında bu açılan (bildirilən) və ya aşkar olan deməkdir. Şübhəsiz ki, kitab gələcəkdə baş verəcək işlərə dair bir peyğəmbərlikdir, lakin bu peyğəmbərliyin əsas səbəblərindən biri Məsihin aşkar etməkdir - Onun həqiqətən də kim olduğunu göstərməkdir. Bibliyanı ciddi şəkildə öyrənən tələbə kitabdakı peyğəmbərlikləri başa düşməyə çalışmalı, daha önəmlisi isə, bu peyğəmbərliklərin səbəbini anlamağa çalışmalıdır.

Gələcəkdəki bu hadisələrdə İsa Məsihin vəhyini anlamağa çalışmalıdır. Vəhy kitabı İsanı həm bəşər, həm də ilahi olaraq təqdim edir. O, günahlarımız üçün öldürülən Quzudur, eyni zamanda O, taxtda olan Qüdrətli Tanrıdır. Kitabda yazılmış Məsihin təqdim edilməsinin bəzi yollarının siyahısı aşağıda verilmişdir.

**İsa Vəhy kitabında**

| | Titul (ad) | Şərh | Vəhy kitabından ayələr |
|---|---|---|---|
| 1 | Sədaqətli şahid | Peyğəmbər və Həvari | 1:5 |
| 2. | Ölülərdən ilk olaraq doğulan | | 1:5 |
| 3. | Hökmdarların Rəisi | | 1:5 |
| 4. | Alfa və Omeqa | | 1:8,11;21;6; 22:13 |
| 5. | Başlanğıc və Son | | 1:8;21:6;22;13 |
| 6. | Var Olmuş, Va Olan və Gələcək | | 1:8; 4:8 |
| 7. | Külli-İxtiyar | | 1:8; 4:8 |
| 8. | İnsan Oğlu | Daniel 7:9 ayəsindəki kimi Əzəldən Var Olan | 1:13 |

| | | | |
|---|---|---|---|
| 9. | Birinci və Axırıncı | | 1:17:22:13 |
| 10. | Diri Olan Mənəm.Ölü idim və budur, əbədi olaraq diriyəm | | 1:18 |
| 11. | Yeddi ruha malik | | 3:1;5:6 Ruhlar |
| 12. | Taxtda Biri oturmuşdu | | 4:2 |
| 13. | Allah (Tanrı) | | 4:8;21:7 |
| 14. | Yaradan | | 4:11 |
| 15. | Yəhuda qəbiləsindən olan Aslan | Bəşəriyyət | 5:5 |
| 16. | Davudun Kökü | Davudun Yaradanı | 5:5;22:16 |
| 17. | Quzu | Günah üçün qurban | 5:6 |
| 18. | Satın alan | | 5:9 |
| 19. | Sadiq | | 19:11 |
| 20. | Həqiqi | | 19:11 |
| 21. | Allahın Kəlamı | | |
| 22. | Padşahların Padşahı | | 19:16 |
| 23. | Rəbblərin Rəbbi | | 19:16 |
| 24. | Davudun Nəsli | Bəşəriyyət | 22:16 |

| | | | |
|---|---|---|---|
| 25. | Parlaq dan ulduzu | | 22:16 |

Bu titulların (adların) və rolların hər biri İsanın gözəl bir vəhyidir. Birlikdə bunlar bədəndə gəlmiş, ölmüş və yenidən dirilmş, eyni zamanda əbədi Külli-İxtiyar Rəbb Allah olan Birinin portretini təqdim edirlər. Vəhy kitabının son fəslində Tanrı və Quzu təkdə təsvir olunur (Vəhy 22:3-4) və müqəddəs peyğəmbərlərin Rəbb Allahını İsa kimi təqdim edir (Vəhy 22:6,16). Bu istinadlar İsanın əbədiyyətin Tanrısı olduğunu və izzətli insan bədəni (Quzu) ilə əbədi olaraq peyda olacağını söyləyir. Tanrının izzəti (cəlalı) İsanın izzətli bədəni ilə parlayan Yeni Yerusəlim üçün işıq olacaq (Vəhy 21:23). Vəhy Kitabının bu son fəsillərində təsvir edilir ki, Tanrı bütün izzətində Özünü əbədi olaraq hamıya necə bildirəcəkdir (aşkar edəcək). Bunlar bizə İsanın əbədi Tanrı olduğunu və İsanın əbədi olaraq Özünü Tanrı kimi göstərəcəyini söyləyirlər. Buna görə də bu kitab, həqiqətən, İsa Məsihin vəhyidir.

## İsa Tanrının bütün xüsusiyyətlərinə və üstünlüklərinə malikdir

İsanın Tanrı olduğunu göstərmək üçün daha başqa sübutlar tələb olunarsa, İsanın xüsusiyyətlərini Tanrının xüsusiyyətləri ilə müqayisə edə bilərik. Bununla İsanın Tanrının bütün xüsusiyyətlərinə və xüsusilə də yalnız Tanrıya aid ola biləcək xüsusiyyətlərinə malik olduğunu görürük. Bəşəriliyində İsa görünəndir, fiziki bir bədənlə

məhdudlaşmışdır, zəifdir, gücdə qeyri-kamildir və s. İlahi təbiətində İsa Ruhdur; Romalılara 8:9-da Məsihin Ruhu haqqında danışılır. İlahiliyində İsa hər zaman və hər yerdə mövcuddur. Məsələn, Yəhya 3:13-də İsa hələ də yer üzündə olmasına baxmayaraq «göydə olan İnsan Oğluna» istinad etmişdir. Onun hər yerdə mövcud olması izah edir ki, O, yer üzündə ikən nəyə görə indiki zamanda danışırdı, "Çünki haradasa iki və ya üç nəfər mənim adımla bir yerə toplaşmış olarsa, Mən orada, onların arasındayam" (Matta 18:20). Başqa sözlə, Tanrının xarakterinin bütövlüyü İsanın insan vücudunda yerləşəndə, İsanın hər yerdə mövcud olan Ruhu bu cür məhdudlaşa bilməzdi. İsa bir insan kimi yer üzərində gəzərkən Ruhu eyni zamanda hər yerdə idi.
İsa hər şeyi biləndir, çünki o, düşüncələri oxuya bilirdi (Mark 2:6-12). Natanel ilə görüşməzdən əvvəl onu tanıyırdı (Yəhya 1:47-50). O, hər şeyi bilir (Yəhya 21:17) və bütün hikmət və bilik (irfan) Onda gizlədilmişdir (Koloslulara 2:3).
İsa hər şeyə qadirdir; O, bütün gücə malikdir, hər cür rəyasət və hakimiyyətin Başçısıdır və Külli-İxtiyardır (Matta 28:18; Koloslulara 2:10; Vəhy 1: 8).İsa dəyişməz və dəyişilməyəndir (İbranilərə 13:8). O, həm də əbədi və ölməzdir (qeyri-fanidir) (İbranilərə 1:8-12; Vəhy 1:8, 18).İbadətlər (səcdələr) yalnız Tanrıya olmalıdır (Çıxış 20:1-5; 34:14), eyni zamanda bir çox hallarda İsaya ibadət (səcdə) etdilər və bütün yaradılış Ona səcdə edəcəkdir (Luka 24:52; Filipililərə 2:10; İbranilərə 1:6). Günahları

yalnız Tanrı bağışlaya bilər (Yeşaya 43:25), eyni zamanda İsa günahları bağışlamaq gücünə malikdir (Mark 2: 5). Tanrı insanların ruhlarını qəbul edir (Vaiz 12:7), eyni zamanda İsa Stefanın ruhunu qəbul etdi (Həvarilərin işləri 7:59). Tanrı göyün memarıdır (İbranilərə 11:10), İsa eyni zamanda göy hazırlayır (Yəhya 14: 3). Buna görə də İsanın yalnız Tanrıya məxsus olan bütün xüsusiyyət və üstünlüklərə malik olduğunu görürük. Üstəlik, İsa Tanrının malik olduğu bütün digər xüsusiyyətlərini nümayiş etdirir. Məsələn, İsa yer üzündə olarkən sevinc, mərhəmət və kədər kimi ilahi hissləri nümayiş etdirdi (Luka 10:21; Mark 6:34; Yəhya 11:35). Bibliyada həmçinin İsanın Tanrının əxlaqi xüsusiyyətlərinə malik olduğuna şəhadət edilir. Aşağıda İsanın bəzi əxlaqi xüsusiyyətlərinin siyahısı verilmişdir ki, bunlar da Tanrının əxlaqi xüsusiyyətlərinə uyğun gəlir.

### İsa Tanrının əxlaqı təbiətinə malikdir

| | |
|---|---|
| 1. Məhəbbət | Efeslilərə 5:25 |
| 2. Nur | Yəhya 1:3-9 |
| 3. Müqəddəslik | Luka 1:35 |
| 4. Mərhəmət | İbranilərə 2:17 |
| 5. Həlimlik | 2 Korinflilərə 10:1 |
| 6. Salehlik | 2 Timoteyə 4:8 |

| | |
|---|---|
| 7. Yaxşılıq | Matta 19:16 |
| 8. Kamillik | Efeslilərə 4:13 |
| 9. Ədalət | Həvarilərin işləri 3:14 |
| 10. Sədaqət | Vəhy 19:11 |
| 11. Həqiqət | Yəhya 14:6 |
| 12. Lütf | Yəhya 1:16-17 |

## Nəticə

İsa, Tanrı barədə bibliyanın təsvir etdiyi hər şeydir. O, Tanrının Özünün bütün xüsusiyyətlərinə, üstünlüklərinə və xarakteristikasına malikdir. Sadə formada desək, Tanrı ilə bağlı nə varsa, İsadır. İsa tək Tanrıdır. Bütün bunları ilham almış həvari Pavelin fikirlərindən daha yaxşı formada xülasə etmək üçün yol yoxdur: “Çünki ilahi təbiətin bütün dolğunluğu bədəncə Məsihdə yaşayır. Siz də Onda dolğunluğa maliksiniz”(Koloslulara 2:9-10)

## Son qeydlər 4-cü Fəsil

[1]Con Müller, Tanrı Üçlükdürmü*?* (1922; rpt. Hazelvud, Mo.: Word Aflame Nəşriyyatı, 1975), 85.

[2]Flanders və Kresson, 511.

[3]Otto Heick, Məsihçi Fikrinin Tarixi (Filadelfia: Fortress Nəşriyyatı, 1965) 1:31-32, 59-63.

[4]Noyabr 1980-cı il, Yerusəlim, İsrail

# 5 TANRININ OĞLU

*"Lakin müvafiq vaxt gəldikdə, Allah qadından doğulmuş, Qanuna tabe olan Öz Oğlunu göndərdi" (Qalatiyalılara 4:4).*

4-cü fəsil İsanın Tanrı olduğunu təsdiqlədi. Bu fəsildə biz Məsihin ikili təbiətinin digər tərəfini - Onun bəşəriliyini və Allah Oğlunun bibliyadakı anlayışını müzakirə edirik.

### *İsa* və *Məsihin* mənası

Bu fəslin mərkəzinə çatmazdan əvvəl, gəlin İsa və Məsih sözlərinin mənasını qısaca izah edək. İsa, “Yehova-Xilaskar” və ya “Yehova qurtuluşdur” mənasını verən İbrani sözü Yehoşua-nın yunan dilindəki versiyasıdır. Bu, Tanrının Öz Oğlu üçün seçdiyi bir addır - Tanrının Əhdi-

cədiddə Özünü bildirdiyi addır. Bu, varislik yolu ilə oğulun aldığı addır (İbranilərə 1:4). Məsih, ivritcə Messiya sözünün yunan dilindəki ekvivalentidir; hər iki söz "məsh olunmuş" deməkdir. Qəti şəkildə desək, Məsih bir ad yox, tituldur. Ancaq bu gün məktublarda və adi istifadədə Məsih tez-tez İsa üçün başqa bir ad kimi istifadə olunur, çünki İsa, Məsihdir. Bir çox hallarda, İsa və Məsih, mənaca heç bir fərq qoyulmadan eyni şəxsə istinad etmək üçün qarşılıqlı olaraq istifadə olunan iki addır.

## Məsihin ikili təbiəti

Bibliyadan görürük ki, İsa Məsihin başqa heç bir insanda olmayan iki aşkar təbiəti var. Bir təbiət bəşəridir və ya cismanidir; digər təbiət ilahidir və ya Ruhdur. İsa həm tamamilə insan idi, həm də tamamilə Tanrı idi. İsa adı bədən içində sakin olan Tanrının (Atanın) əbədi Ruhuna aiddir. Bir və ya hər iki aspekti izah edərkən İsa adından istifadə edə bilərik. Məsələn, biz, İsa çarmıxda öldü deyəndə, Onun bədəninin çarmıxda öldüyünü nəzərdə tuturuq. İsanın ürəyimizdə yaşadığını söylədikdə, Onun Ruhunun orada olduğunu bildiririk. Aşağıda müqayisəli bir siyahı verilmişdir. İsanın iki təbiətə və ya ikili bir təbiətə malik olduğunu söylədiyimiz zaman nəyi nəzərdə tutduğumuz həmin siyahıda göstərilmişdir.

## İsa Məsihin ikili təbiəti

| İnsan olaraq İsa: | Lakin Tanrı olaraq O: |
|---|---|
| Körpə kimi doğuldu (Luka 2:7) | Əzəldən mövcuddur (Mikeya 5:2; Yəhya 1:1-2 |
| Əqlən, fiziki, ruhən cəmiyyətdə böyüdü (Luka 2:52) | Heç vaxt dəyişmir (İbranilər 13:8) |
| İblis tərəfindən imtahan olundu (Luka 4:2) | Cinləri qovurdu (Matta 12:28) |
| Acdı (Matta 4:2) | Həyat çörəyi idi (Yəhya 6:35) və möcuzəvi şəkildə çox insanı yedizdirdi (Mark 6:38-44,52) |
| Susadı (Yəhya 19:28) | Həyat suyunu verdi (Yəhya 4:14) |
| Yoruldu (Yəhya 4:6) | Rahatlıq verirdi (Matta 11:28) |
| Fırtınada yatırdı (Mark 4:38) | Fırtınanı sakitləşdirdi (Mark 4:39-41) |
| Dua edirdi (Luka 22:41) | Duaya cavab verirdi (Yəhya 14:14) |
| Qamçılandı və döyüldü (Yəhya 19:1-3) | Xəstələrə şəfa verirdi (Matta 8:16-17; 1 Peter 2:24) |
| Öldü (Mark 15:37) | Ölülərdən dirildi (Yəhya 2:19-21; 20-9) |
| Günahlar üçün qurban idi (İbranilər 10:10-12) | Günahları bağışlayırdı (Mark 2:5-7) |
| Bütün şeyləri bilmirdi (Mark 13:32) | Hər şeyi bilirdi (Yəhya 21:17) |

| | |
|---|---|
| Səlahiyyəti yox idi (Yəhya 5:30) | Bütün səlahiyyətə malik idi (Matta 28:18; Koloslulara 2:10) |
| Tanrıdan üstün deyildi (Yəhya 14:28) | Tanrıya bərabər idi – Tanrı idi (Yəhya 5:18) |
| Xidmətçi idi (Filiplilərə 2:7-8) | Padşahların Padşahı idi (Vəhy 19:16) |

İsanın ikili təbiətini düzgün başa düşsək, Tanrıçılıqla bağlı əksər suallara cavab tapa bilərik. Müqəddəs yazıda İsa ilə əlaqəli bir fikir oxuyanda, bunun İsanın ilahiliyini, bəşəriliyini və ya İsa barədə hər iki fikri təsvir etməsini müəyyən etməliyik. Bundan əlavə, İsa Müqəddəs yazılarda hər dəfə danışarkən, onun bir insan kimi, Tanrı kimi və ya hər iki mövqedən danışdığını müəyyən etməliyik. Tanrıçılıqda iki şəxs və ya iki Tanrı haqqında düşünməməliyik, lakin biz ilahi Ruh və həqiqi insan bədəni haqqında düşünməliyik.

Hər cəhətcə biz insanlar bəşəriliyimiz və Tanrı ilə münasibətlərimiz barədə danışa bildiyimiz kimi, İsa da, günah istisna olmaqla, danışa bilirdi. Eyni zamanda O, Tanrı kimi danışa və hərəkət edə bilir. Məsələn, O, bu dəqiqədə yatıbsa, növbəti dəqiqədə fırtınanı sakitləşdirə bilirdi.  Eyni vaxtda həm insan, həm də Tanrı olduğu halda, bir insan kimi, sonra da Tanrı kimi danışa bilirdi. Həmişə yadda saxlamalıyıq ki, İsa tamamilə Tanrıdır və sadəcə məsh olunmuş bir insan deyil. Eyni zamanda, O, tamamilə bəşər idi, sadəcə bir bəşər görünüşünə malik deyildi. O, malik olduğumuz hər şeydən fərqli olaraq ikili bir təbiətə

malik idi və biz mövcudluğumuzu və təcrübəmizi Onunla müqayisə edə bilmərik. Sadəcə bir insan kontekstində qəribə və ya qeyri-mümkün görünə biləcək şey eyni zamanda həm tamamilə Tanrı, həm də tamamilə insan olan Birinin kontekstində nəzərdən keçirildikdə anlaşılır.

## Məsihçiliyin tarixi doktrinaları

Məsihin ikili təbiəti kilsə tarixi boyu çox fərqli şəkildə nəzərdən keçirilmişdir. Bu müxtəlif görüşləri qısa və ümumi şəkildə müzakirə edəcəyik. İstinad və sonrakı araşdırma naminə mötərizələrdə bu inanclarla əlaqəli müxtəlif tarixi adları daxil etmişik. Bu şərtlər və doktrinalar haqqında daha çox məlumat üçün dogma tarixi, xüsusən də trinitarizm və xristologiya tarixi ilə bağlı hər hansı bir yaxşı əsərə baxın.

Bəziləri inanırlar ki, İsa yalnız çox məsh edilmiş və Ruh tərəfindən istifadə olunmuş bir insan idi (Ebionitizm; bax: Unitarizm). Bu səhv baxış Onun Ruh təbiətini tamamilə saya almır. Digərləri İsanın yalnız bir ruh varlıq olduğunu söylədilər (Doketizm - Qnostisizmdəki bir doktrina). Bu görüş Onun insan təbiətini saya almır. Yəhya yazırdı ki, İsa Məsihin bədəndə gəlmiş olduğunu iqrar etməyən heç bir ruh Allahdan deyildir. Bu, Məsihin əleyhdarının ruhudur (1 Yəhya 4:2-3).

İsa Məsihin ikili təbiətinə inananlar arasında da səhv inanclar çoxdur. Bəziləri İsanın vəftizindən başlayaraq Məsihin ilahi bir varlıq kimi İsada müvəqqəti məskunlaşdığını, lakin ölümündən əvvəl insan olan İsadan

uzaqlaşdığını söyləməklə İsa ilə Məsihi ayırd etməyə çalışırlar (Serintianizm - Qnostisizmdəki bir doktrina). Bənzər bir formada bəziləri deyirlər ki, İsa insan idi, yalnız yetkin həyatında müəyyən məqamda - məsələn, vəftizində - Tanrının övladlığa götürmə aktı (Dinamik Monarxizm, Adopsionistlər) nəticəsində Tanrı olmuşdur. Başqa sözlə, bu görüş iddia edir ki, İsa bəşər olmuşdur, lakin sonda ilahiləşdirilmişdir. Digərləri İsanı yaradılan bir tanrı, Ata kimi bir ilahi, lakin ilahilikdə Atadan üstün olmayan bir tanrı və ya yarı tanrı (Arianism) hesab edirlər. Sonra, bəziləri İsanın Ata ilə eyni mahiyyətdə olduğuna, eyni zamanda Onun Ata olmamasına, ilahilikdə Ataya tabe olduğuna inanırlar. (Subordinasiyalıq).

4-cü fəsildə bu yalan nəzəriyyələri Müqəddəs yazılara istinad edərək təkzib etdik. Orada İsanın tamamilə Tanrı olduğunu (Koloslulara 2:9-da göstərildiyi kimi) və İsanın insan kimi mövcud olmasının başlanğıcından etibarən tamamilə Tanrı olduğunu (bakirədən doğulması və Luka 1:35 ayəsi vasitəsilə göstərildi) qeyd etdik.
Ruh tərəfindən ilhamlanmış Yəhya və Pavel bu yanlış doktrinaların çoxunu, xüsusən də Məsihin yalnız bir ruh varlıq olduğuna və Məsihin uca Tanrıdan üstün olmadığına dair Qnostik inancları təkzib etdilər. Digər şeylər arasında Qnostiklər bütün maddi varlığın pis olduğuna inanırdılar. Buna görə, düşündülər ki, Məsih ilahi bir ruh olaraq həqiqi bir insan bədəninə malik ola bilməzdi. Onlar iddia edirdilər ki, Uca Tanrı olduqca transsendent və müqəddəs

olduğundan, O, pis (şər) maddi dünya ilə birbaşa əlaqə qura bilməzdi. Buna görə də Tanrıdan bir sıra emanasiyaların gəldiyini, onlardan birinin bu dünyaya gəlmiş ruh varlıq olan Məsih olduğunu öyrədirdilər. Əlbətdə ki, Kolosluların Kitabı bu təlimləri təkzib edir və İsanın bədəndə gəlmiş Külli-İxtiyar Tanrı olduğunu təsdiqləyir.

Bibliya həm İsanın tam ilahiliyini, həm də tam bəşəriliyini vurğulamaqda aydın olsa da, bu iki təbiətin İsa Məsihin bir şəxsində necə birləşdiyini ətraflı təsvir etmir. Bu da çox fərziyyə və müzakirə mövzusu oldu. Bəlkə də bu mövzuda fikir ayrılıqlarına yer var, çünki Bibliya birbaşa buna münasibət göstərmir. Həqiqətən, Tanrıçılıq haqqında hər hansı bir sirr varsa, bu, Tanrının özünü bədəndə necə zahir etdiyini dəqiq müəyyənləşdirmək məsələsində olacaq. (1 Timoteyə 3:16 ayəsinə baxın.) Məsihin təbiətinin və ya təbiətlərinin öyrənilməsinə Kristologiya deyilir.

Məsihdə bəşəriliyin və ilahiliyin izah edilməsinin bir yolu, Onun bir insan evində yaşayan Tanrı olduğunu söyləməkdir. Başqa sözlə, Onun substansiyada deyil, məqsəd, hərəkət və görünüşdə birləşmiş iki aşkar təbiəti vardı (Nestorianizm). Bu görüşə görə Məsih iki şəxsə bölünüb və bəşəri şəxs ilahilik olmadıqda mövcud ola bilərdi. Eramızın 431-ci ildə Efes Şurası Nestoriusun fikirlərini bidət kimi pislədi.[1]

Martin Lüter də daxil olmaqla bir çox ilahiyyatçılar bu doktrinanın əsas eksponenti Nestoriusun bu qədər kəskin ayrılığa həqiqətən inanmadığını, əksinə onun

opponentləri tərəfindən fikirlərinin təhrif edilib səhv təqdim edilməsini düşünürdülər. Görünür, o, Məsihi iki şəxsə böldüyünü inkar etdi. Nestoriusun söylədiyi əsas narahatlıq bu idi: o, Məsihin iki təbiətini o qədər fərqləndirmək istədi ki, heç kəs Məryəmi Tanrının anası adlandıra bilməsin, çünki onun dövründə bu məşhur bir praktika idi.
Digər bir kristoloji görüş iddia edir ki, Məsihin insan və ilahi cəhətləri bir-birinə o qədər qarışıb ki, həqiqətən, yalnız bir dominant təbiət meydana çıxır. Bu da ilahi (Monofizitizm) təbiət idi. Bənzər bir inanca görə, İsanın iki iradəsi yox, yalnız bir ilahi-insani iradəsi (Monofelitlik) var idi. Digərləri İsanın natamam bir insan təbiətinə malik olduğuna inanırlar (Apollinarizm); yəni İsa bir insan bədəninə malik idi, ancaq insan ruhunun əvəzinə yalnız Tanrının Ruhu içində yaşayırdı. Bu inamı bildirməyin başqa yolları, İsanın yalnız Tanrının Ruhu tərəfindən canlandırılmış bir insan bədəni olması və ya İsanın insan ağlına yox, ancaq ilahi ağıla (Loqos tərəfdarları) malik olması idi.
Bir tərəfdən Məsihin iki təbiəti arasındakı ayrılığı vurğulayan bir baxış bucağı vardır. Digər tərəfdən, bir neçə baxış bucaqları da vardır ki, ya tamamilə hakim bir ilahi təbiəti, ya da tamamilə birləşdirilmiş bir təbiəti və yaxud natamam bir insani təbiəti təsvir edir.

## İsanın bütöv (tam), lakin günahsız olan bir insani təbiəti var idi

Həqiqət haradasa müxtəlif ilahiyyatçıların söylədiyi bu tarixi fikirlərin arasında yerləşir. İsanın bütöv bir insan təbiətinə və eyni zamanda tam ilahi təbiətə malik olması, Müqəddəs yazıların təlimidir, lakin Onun dünyadakı həyatında bu iki təbiəti ayıra bilmərik. Göründüyü kimi, İsa iradə, ağıl, ruh, can (qəlb) və bədəndə insan idi, lakin eyni ilə görünür ki, O, bədənində sakin olan Tanrıçılığın bütövlüyünə malik idi. Son nöqteyi-nəzərimizə görə, bəşərilik və ilahilik ayrılmaz şəkildə Onun tək Ruhunda birləşmişdi.

İlahi Ruh ölümlə insan bədənindən ayrıla bilər, lakin Onun bəşəriliyi bir insan bədənindən - insan qabığından daha çox idi - içərisində Tanrı var idi. O, Bədəndə, qəlbdə və ruhda insan idi, həmin bədəndə, qəlbdə və ruhda Tanrının Ruhunun dolğunluğu yaşayırdı. İsa adi bir insandan (Allahın Ruhu ilə dolu ola biləcək) onunla fərqlənirdi ki, Onun içində bütün Tanrı var idi. O, Tanrının hüdudsuz gücünə, nüfuzuna və xarakterinə malik idi. Bundan əlavə, yenidən doğulmuş, Ruhla dolu bir insandan fərqli olaraq, Tanrının Ruhu İsanın bəşəriliyi ilə qırılmaz və ayrılmaz şəkildə birləşdi. Tanrının Ruhu olmasaydı, O, həyatsız bir insan olardı ki, bu da İsa Məsih olmazdı. Yalnız bu baxımdan İsadakı iki təbiəti izah edə və fərqləndirə bilərik; Bilirik ki, O hər iki roldan çıxış edib danışa bilirdi, amma eyni zamanda bilirik ki, iki təbiət Onda ayrı deyildi.

Məhdud ağıllarımızla, Onda mükəmməl qaynayıb-qarışan iki təbiəti biz ayırmaq yox, yalnız fərqləndirə bilərik.
İsa bütöv bir insan təbiətinə malik olsa da, Onda günaha batmış bəşəriyyətin günahkar təbiəti yox idi. Əgər O, günahkar bir təbiətə malik olsaydı, O günah etmiş olardı. Ancaq bilirik ki, O, nə günahkar bir təbiətə malik idi, nə də günahlı əməllər etdi. O, günahsız idi, O günah etmədi və Onda günah yox idi (İbranilərə 4:15; I Peter 2:22; I Yəhya 3: 5). Bəşəri atası olmadığından, günaha batmış Adəmdən günahkar bir təbiəti mirası almadı. Bunun əvəzində, başlınğıcda Adəmin malik olduğu təqsirsiz bir təbiəti olan son Adəm kimi gəldi (Romalılara 5:12-21; 1 Korinflilərə 15: 45-49). İsa tam, lakin günahsız bir insan təbiətinə malik idi. Bibliyada göstərilir ki, İsanın bəşəri iradəsi olduğu kimi, ilahi iradəsi də var idi. O, Ataya dua edərək dedi: "Mənim iradəm deyil, qoy Səninki olsun" (Luka 22:42). Yəhya 6:38 iki iradənin mövcudluğunu göstərir: O öz iradəsini (insan iradəsini) yox, Atanın iradəsini (ilahi iradəni) yerinə yetirmək üçün gəlmişdir.
İsanın ruhda bir insan olduğu çarmıxda söylədiyi sözlərdən aydın görünür: "Ey Ata, Öz ruhumu Sənin əllərinə verirəm" (Luka 23:46). Onun Ruhunun ilahi və bəşəri cəhətlərini bir-birindən ayırmaq çətin olsa da, bəzi istinadlar, görünür, insan aspektinə fokuslanır. Məsələn, "ruhunda dərin bir ah çəkdi" (Mark 8:12), "ruhən qüvvətlənir" (Luka 2:40), "ruhən sevindi" (Luka 10:21), "ruhən acıdı"(Və Yəhya 11:33) və "ruhən çox sıxıldı" (Yəhya 13:21).

İsa qəlbən insan idi, çünki o dedi: "Canım ölüm dərəcəsində kədərlidir" (Matta 26:38; Mark 14:34) və "İndi canım çox sıxılır" (Yəhya 12:27) . Ölümündə canı (qəlbi) Qolqotadan əvvəl bütün canların (qəlblərin) etdiyi kimi cəhənnəmə (Yunanca hades - məzar və ya bu dünyanı tərk etmiş canların o dünyası) baş çəkdi (Həvarilərin işləri 2:27). Fərq ondadır ki, İsadakı Tanrının Ruhu Onun canının cəhənnəmdə qalmasına imkan verməzdi (Həvarilərin işləri 2:27,31); əvəzində cəhənnəmi (yenə də hades) və ölümü (Vəhy 1:18) fəth etdi.
İsanın insan canı və ruhu ilahi Ruhla ayrılmaz bir şəkildə bağlı idi, yəni onun iki deyil, bir Ruhu var idi. Əks təqdirdə, İsa Ondan götürülmüş əbədi Ruhla bir insan kimi yaşaya bilərdi. Bu, baş vermədi və ola da bilməzdi, çünki İsa bədəndə Tanrıdır və Tanrı kimi heç zaman dəyişmir (İbranilərə 13:8).
Əgər İsanın tam insan olduğunu qəbul etmiriksə, onda, Onun sınaqlarına dair Müqəddəs yazılar mənalarını itirir (Matta 4: 1-11; İbranilərə 2:16-18; 4:14-16). Eyni ilə Onun Getsamani bağındakı mübarizəsi və əzabının təsviri (Luka 22: 39-44) də mənasını itirmiş olardı. İbranilərə yazılmış məktubda iki parça göstərir ki, İsa bizim kimi sınağa çəkildiyi üçün, Baş Kahinimiz dərəcəsinə layiq görülür, bizi mükəmməl başa düşür və zəifliyimizdə bizə kömək edir: "Hər şeydə O, qardaşlarına bənzəyirdi" (İbranilərə 2:17). “Çünki biz elə bir Baş Kahinə malik deyilik ki, zəifliklərimizdə bizə acıya bilməsin; əksinə, bizim kimi imtahan edilmiş, günahdan xaric, hər şeydə bizə bənzəyən

bir Baş kahinə malikik”(İbranilərə 4:15). İbranilərə 5:7-8 ayələrində deyilir: “Məsih, yer üzündə cismən olduğu günlərdə Onu ölümdən xilas etməyə qadir olan Allaha güclü fəryadla və göz yaşları ilə dualar və xahişlər etmiş və Allah qorxusu sayəsində eşidilmişdi; Oğul olduğu halda, çəkdiyi iztirablarla itaətli olmağı öyrəndi". Bu ayələrdə qorxu və şübhə emosiyalarından təsirlənməmiş birinin şəkli təqdim edilmir. Əksinə, bunlar, bu insan zəifliklərinə sahib olan birini təsvir edir; O, insan iradəsini özünə tabe etməli və əbədi ruha itaət etməli idi.

Həqiqi bir insan olaraq Məsih dua etdi, ağladı, itaətli olmağı öyrəndi və əziyyət çəkdi. Tanrının Ruhu nəzarət edirdi və Tanrı Öz planına sadiq idi, lakin bir insan kimi İsa Ruhdan kömək almalı və ilahi plana itaət etməyi öyrənməli idi. Şübhəsiz ki, Müqəddəs yazıların bütün bu ayələri İsanın tam insan olduğunu, insanın günaha batmasından miras qalan günahkar təbiətdən başqa Onun bütün insanlıq xüsusiyyətlərinə malik olduğunu göstərir. İsanın bəşərilyini inkar etsək, satınalma (xilas) və kəffarə anlayışı ilə bağlı bir problemlə qarşılaşmalı olacağıq. Tamamilə insan olmasaydı, Onun qurbanlığı bizi xilas etmək (satın almaq) üçün kifayət edə bilərdimi? O həqiqətən də ölümdə bizim üçün əsl əvəzedici ola bilərdimi? O, həqiqətən bizi xilas edən (satın alan) qohumumuz hesab oluna bilərdimi?

## İsa günah edə bilərdimi?

İsanın insan kimi kamil olmasının həqiqiliyinə inam bir sual doğurur: İsa günah edə bilərdimi? Bu, həqiqətən də səhv və mücərrəd bir sualdır, çünki biz İsanın günah etmədiyini bilirik (İbranilərə 4:15). Cavab praktiklikdən daha çox elmi, real mahiyyət kəsb etməkdən daha çox fərziyyə xarakteri daşıyır. İnsan kimi İsa şeytan tərəfindən (tamahla, yoldan çıxarılma ilə) imtahan olundu və Getsamani bağında Öz iradəsi ilə mübarizə apardı. Baxmayaraq ki, O, bizim pozulmuş təbiətimizə malik deyildi - O, Adəmin başlanğıcdan malik olduğu təqsirsiz, günahsız bir təbiətə malik idi; Adəm və Həvva kimi Onun da eyni ilə Tanrının iradəsinə qarşı çıxmaq imkanı var idi.

Şübhəsiz ki, İsanın ilahi Ruhu günah edə bilməzdi və hətta günahla (tamahla) imtahan oluna bilməzdi (Yaqub 1:13). İsanın bəşəriliyini təklikdə nəzərdən keçirdikdə nəzəri olaraq günah edə bilərdi. Ancaq bu yalnız nəzəridir və praktik deyil. Məsələyə bir tərəfli baxıqda, elə görünür ki, Məsihin insan kimi günahı seçmək imkanı var idi. Ancaq insan olaraq O, hər zaman iradi olaraq Tanrıya təslim olduğundan günah edə bilməzdi. Beləliklə, praktik olaraq İsa Məsih, bəşəriyyətin və Tanrının birləşməsi hesab edildiyindən o cür də qəbul edilirdi - buna görə də günah edə bilməzdi. Ruh həmişə nəzarət edirdi və Ruh tərəfindən idarə olunan insan günah etmir (Analogiya üçün 1 Yəhya 3:9-a baxın).

İnsan İsa ilahi rəhbərliyə qarşı üsyan etsəydi, nə olardı? Bu tamamilə başqa bir nəzəri sualdır, çünki bu baş vermədi

və praktik bir məsələ olaraq da baş verə bilmədi. Bu sual uzaqgörənliyi və Tanrının gücünü nəzərə almır. Ancaq bir nəfər cavabı bilməkdə israr etsə, deyərdik ki, insan İsa günah işlətməyə cəhd etsəydi (ağılsız bir fərziyyə), İsanın İlahi Ruhu dərhal bəşər bədənindən ayrılıb bədəni cansız (həyatsız) qoymuş olardı. Bu cansız (həyatsız) bədən İsa Məsih olmazdı, buna görə də texniki olaraq Məsih günah edə bilməzdi, baxmayaraq ki, Tanrının planı müvəqqəti olaraq dayanmış olardı. İsa Tanrı kimi günah edə bilmədiyi üçün bu, imtahanların mənasız olması demək idimi? Xeyr. İsa həm də tamamilə insan olduğu üçün, O, həqiqətən, tamahla (yoldan çıxarılma ilə) mübarizəni və bunun cəlbediciliyini hiss edə bildi. O, tamahı Özlüyündə Tanrı olaraq deyil, Tanrının bütün qüdrətinə malik bir insan kimi dəf etdi. İndi tamahla (yoldan çıxarılma ilə) imtahan olunduğumuz zaman O, təcrübi olaraq hansı hislər keçirdiyimizi dəqiq bilir. Əlbəttə, Ruh vasitəsilə O, qalib olacağını bilirdi, amma biz də Məsihdə olan eyni Ruha güvənərək eyni əminliyə, gücə və qələbəyə malik ola bilərik.
Bəs Şeytan niyə İsanı (tamahla) sınağa çəkdi? Göründüyü kimi, o, İsanın qaçılmaz şəkildə qalib gələcəyini bilmirdi və o dövrdə Tanrının bədəndəki tam sirrini anlamırdı. Əgər o bilsəydi, heç vaxt çarmıxa çəkməyə təhrik etməzdi. Bəlkə də o, çarmıxa çəkməklə Tanrının planını məğlub etdiyini düşünürdü, lakin əksinə, o sadəcə bunu yerinə yetirdi. Həmçinin güman olunur ki, Tanrının Ruhu İsanın şeytan tərəfindən (tamahla, pisliklə) sınağa çəkilməsinə (imtahan

olunmasına) icazə verdi ki, İsa da bizim kimi (tamahla, pisliklə) sınağa çəkilmənin nə olduğunu hiss etsin. Ruhun İsanı imtahan olunmaq üçün səhraya apardığı deyilir (Matta 4:1; Luka 4:1).

Mövqeyimizin Məsihin (tamahla, pisliklə) imtahan olunması gerçəkliyinin əhəmiyyətini azaltdığını hesab edənlər aşağıdakıları nəzərə alsınlar. İsanın günahkar bir təbiətə malik olmadığını bilirik. Biz bilirik ki, günaha batmış təbiətimizə görə bizdə olan günaha meyl və günah etmə məcburiyyəti İsada yoxdur. Eyni zamanda bu, Onun yaşadığı, keçdiyi gerçəkliyin dəyərini azaltmır. O da qarşılaşdığımız eyni mübarizə ilə qarşılaşdı. Eyni şəkildə, Tanrı İsanın günah edə bilmədiyi faktı da onun (tamahla, pisliklə) imtahan olunması gerçəkliyinin dəyərini azaltmır. O, yaşadığımız eyni mübarizələrdən və sınaqlardan keçdi. Digər tərəfdən, sadəcə heç bir şərt qoymadan İsanın günah edə biləcəyini söyləsək, Onun ilahiliyinin əhəmiyyətini, dəyərini azaltmış oluruq, bu da o deməkdir ki, biz İsanın haradasa Allahdan ayrı mövcud ola bildiyini nəzərdə tuturuq.

Belə bir nəticəyə gəlirik ki, bir insan kimi İsa (tamahla, pisliklə) imtahan ola bilərdi və oldu. Tanrının Ruhu nəzarət etdiyindən, İsa günah işlədə bilmədi və etmədi. İsa natamam bir insan təbiətinə malik olsaydı, Getsamani bağındakı imtahanların və mübarizənin gerçəkliyi və mənası azalacaqdı. İnanırıq ki, Onun tam bir insan təbiəti var idi. (Tamahla, pisliklə) imtahan olunaraq mübarizə apardığımız zaman yaşadığımız hissləri tam olaraq O da

yaşadı. İsanın Ruhun vasitəsilə qalib gələcəyini bilməsi faktı imtahanların gerçəkliyinin dəyərini azaltmır.
İsanın günah edə biləcəyinə dair verilən sualın özü, yuxarıda qeyd etdiyimiz kimi, mücərrəddir. İsanın insani təbiətinin, ilkin günah məsələsindən başqa, bütün məqamlarda bizə bənzər olduğunu söyləmək kifayətdir. Bizim kimi O, hər şeydə (tamahla, pisliklə) sınağa çəkilsə də, Tanrının Ruhu həmişə nəzarət edirdi. Bizim üçün ən aktual, münasib fakt budur ki, O, imtahana çəkildi, lakin günah etmədi.

## Bibliya terminologiyasındakı oğul

Bibliya terminologiyası çərçivəsində Məsihin ikili təbiətini nəzərdən keçirməliyik. "Ata" termini Tanrının Özünə, yəni bütün ilahiliyində Tanrıya aiddir. Biz Tanrının əbədi Ruhu haqqında danışanda, Tanrının Özünü, Atanı nəzərdə tuturuq. Buna görə də "Tanrı Ata" ifadəsi Allah üçün istifadə olunan mükəmməl bibliya ifadəsidir (Tit. 1:4). Ancaq bibliyada bir dəfə də olsun «Tanrı Oğul» ifadəsi işlədilmir. Bu, doğru bir termin deyil, çünki Tanrının Oğlu ifadəsi İsa Məsihin bəşəriliyinə aiddir. Bibliya Tanrının Oğlunu Tanrının əbədi Ruhu deyil, Məryəmdən doğulan uşaq kimi müəyyən edir (Luka 1:35). "Tanrının Oğlu" ifadəsi insan təbiətinə və ya bədəndə zühur etmiş Tanrıya, yəni insan təbiətində olan ilahiyə aid ola bilər. Ancaq “Tanrının Oğlu” ifadəsi heç vaxt təkcə qeyri-cismani Ruh mənasını vermir. Biz "Oğul" sözünü heç vaxt İsa Məsihin bəşəriliyindən ayrı olaraq düzgün istifadə edə bilmərik.

"Tanrının Oğlu", "İnsan Oğlu" və "Oğul" ifadələri münasibdir və bibliya sözləridir. Ancaq "Tanrı Oğul" termini münasib deyil, çünki Oğulu yalnız Tanrı ilə eyniləşdirir və buna görə də Müqəddəs yazılara uyğun deyildir.
Tanrının Oğlu, Tanrıçılıqda fərqli bir şəxs deyil, lakin tək Tanrının fiziki ifadəsidir. Oğul "görünməz Allahın surətidir" (Koloslulara 1:13-15) və "Onun [Allahın] şəxsiyyətinin təcəssümüdür" (İbranilərə 1:2-3). Bir imzanın möhürü kağız üzərində dəqiqliklə özünə oxşar bir imza qoyduğu kimi və ya möhür muma basıldıqda dəqiq bir iz qoyduğu kimi, Tanrının Oğlu da Tanrı Ruhunun bədəndə olan dəqiq ifadəsidir. İnsanlar görünməz Tanrını görə bilmədilər, buna görə Tanrı bədəndə dəqiqliklə Özünə bənzəri yaratdı, Özünün əsl təbiətini bədəndə ifadə etdi, Özü bədəndə gəldi ki, insanlar Onu görə bilsinlər.
Müqəddəs yazıların bir çox ayəsində açıqlanır ki, "Tanrının Oğlu" ifadəsi İsanın bəşəriliyini ehtiva etdikdə biz bu ifadəni düzgün olaraq istifadə edə bilərik. Məsələn, Oğul qadından doğuldu (Qalatiyalılara 4: 4),Vahid Oğul doğuldu (Yəhya 3:16), Oğul doğuldu (Matta 1: 21-23; Luka 1:35), Oğul İkinci Gəlişin saatını bilmədi (Mark 13:32), Oğul Özündən heç nə edə bilməz (Yəhya 5:19), Oğul gəldikdə yeyir və içir (Matta 11:19), Oğul əziyyət çəkdi (Matta 17:12), insan Ruha deyil, Oğula qarşı küfr edə və bağışlana bilər (Luka 12:10), Oğul çarmıxa çəkildi (Yəhya 3:14; 12:30-34) və Oğul öldü (Matta 27:40-54; Romalılara 5:10). İsanın ölümü xüsusilə yaxşı bir nümunədir. Onun ilahi

Ruhu yox, ancaq insani bədəni öldü. Biz Tanrının öldüyünü deyə bilmərik, buna görə də “Tanrı Oğul” öldü deyə bilmərik. Digər tərəfdən, Tanrının Oğulunun öldüyünü deyə bilərik, çünki "Oğul" ifadəsi bəşəriyyətə aiddir.
Yuxarıda qeyd edildiyi kimi, "Oğul" təkcə bəşəriyyətə deyil, eyni zamanda insan və ilahi olan Məsihin şəxsinə aiddir. Məsələn, Oğul günahları bağışlamaq səlahiyyətinə malikdir (Matta 9:6), Oğul eyni anda həm göydə, həm də yerdə idi (Yəhya 3:13), Oğul göylərə qalxdı (Yəhya 6:62), Oğul taxtına oturmaq və hökmranlıq etmək üçün yenidən geri qayıdır (Matta 25:31)."Tanrı Oğul" ifadəsinin müzakirəsinə bir qeyd əlavə etmək lazımdır. Yəhya 1:18-də KJV tərcüməsi "yeganə doğulmuş Oğul" ifadəsini, RSV isə "yeganə Oğul" istifadə edir. Bununla birlikdə, NIV "bir və yeganə Oğul" kimi yazır, TAB "yeganə vahid Oğul, yeganə doğulmuş Tanrı" deyir. Bu son iki versiya bəzi yunan mətnlərində variant oxunuşlarına əsaslanır. Bu variant oxunuşlarının doğru olduğuna inanmırıq. Hər bir halda “Tanrı Oğul” ifadəsini işlətməyə əsas verə bilsək, göstərdiyimiz kimi, “Tanrının Oğlu” ifadəsinin yalnız İsanın bəşəriliyini deyil, həm də bədəndə sakin olan İlahiliyini əhatə etməsinə işarə etmək olar. Ancaq Yəhya 1:18 '"Oğul" sözünü bəşəriyyətə aid etmək üçün istifadə edir, çünki Atanın (İsanın ilahiliyinin) Oğul vasitəsilə aşkar edildiyini deyir. Müqəddəs yazıların bu ayəsi Tanrının Tanrı tərəfindən aşkar edildiyini yox, Tanrının Oğulun bəşəriliyi vasitəsi ilə tanıdıldığını (aşkar edildiyini) bildirir.

"Tanrının Oğlu" titulunun əhəmiyyəti nədir? Bu, İsanın ilahi təbiətini və onun bakirə qadından doğulması faktını vurğulayır. O, Tanrının Oğludur, çünki Tanrının Ruhu tərəfindən bətnə düşdü, sözün hərfi mənasında Tanrı Onun Atası oldu (Luka 1:35). Peter İsanın «Məsih, Diri Allahın Oğlu» olduğunu etiraf etdikdə İsanın Məsih (Xilaskar) rolunu və ilahiliyini etiraf etdi (Matta 16:16). Yəhudilər İsanın özünü Tanrının Oğlu adlandırdıqda və Tanrını Atası adlandırdıqda nə demək istədiyini başa düşdülər, çünki Allah olduğunu iddia etdikləri üçün Onu öldürməyə cəhd etdilər (Yəhya 5:18; 10:33). Bir sözlə, "Tanrının Oğlu" titulu İsanın ilahiliyinə diqqəti çəkərkən bəşəriliyi tanıyır. Bu, o deməkdir ki, Tanrı Özünü bədəndə aşkar etdi.

Qeyd etməliyik ki, mələklər Allahın oğulları adlanır (Əyyub 38:7), çünki Tanrı onları birbaşa yaratmışdır. Eynilə, Adəm yaradılışda Allahın oğlu idi (Luka 3:38). Müqəddəslər (Tanrının kilsəsinin üzvləri) həm də Tanrının oğulları və ya Tanrının övladlarıdır, çünki O bizi oğulluğa qəbul etmişdir (Romalılara 8:14-19). Biz Allahın varisləriyik və Məsihin həmvarisləriyik, bütün qanuni oğulluq hüquqlarına malikik. Ancaq İsa başqa bir varlığın olmadığı və ya ola bilməyəcəyi mənasında Tanrının Oğludur, çünki İsa Allahın yeganə Oğludur (Yəhya 3:16). O, Tanrının Ruhu tərəfindən bətnə düşmüş və ya doğulmuş yeganə Oğuldur. Beləliklə, Onun təkrarolunmaz, nadir Oğulluğu Onun ilahiliyinə şəhadət edir.

## İnsan Oğlu

"İnsan Oğlu" ifadəsi ilk növbədə İsanın bəşəriliyinə diqqət çəkir; bu göstərir ki, O, bəşəriyyətin nəslidir. Əhdi-ətiq bu ifadənin bəşəriyyətə aid olmasını göstərmək üçün dəfələrlə ondan istifadə edir. Məsələn, aşağıdakı Müqəddəs yazı ayələrində ümumiyyətlə bəşəriyyəti və ya xüsusi kimliyi olmayan istənilən insanı bildirmək üçün bu ifadədən istifadə olunur: Zəbur 8:4; 146:3; Yeşaya 51:12; Yeremya 49:18. (Zəbur 8:4 ayəsində, İbranilərə 2:6-7 ayələrində göstərildiyi kimi, peyğəmbərcəsinə Məsihə aid olan əsas məna verilmişdir.) "İnsan oğlu" ifadəsi xüsusən də peyğəmbərin seçildiyi  Yezekelin kitabında dəfələrlə xüsusi bir insana aid edilir (Yezekel 2:1, 3, 6, 8; Daniel 8:17). Müqəddəs yazıların bir neçə ayəsində bu, Allahın hökmranlıq və qüdrət verdiyi bir insana işarə edir (Məzmur 80:17; Daniel 7:13). Bu son mənaya, əhdlərarası dövrün yəhudi apokaliptik ədəbiyyatında tez-tez rast gəlinir.

İsa "insan oğlu" ifadəsini dəfələrlə özünə tətbiq etmişdir. Əksər hallarda, o, bu ifadəni "mən" sözünün sinonimi və ya özünün bəşəriliyini vurğulayan titul kimi istifadə etmişdir. Bəzi hallarda, bu, təkcə Onun bəşəriliyinin həqiqətini deyil, həm də Tanrının əbədi Ruhu tərəfindən Oğula verilən qüdrəti və səlahiyyəti bildirir (Matta 24:30; 25:31). Bir sözlə, İsa bu titulu qüdrət və dünya idarəçiliyi ifadələri ilə birgə qəbul etdi, lakin bütün hallarda Özünə tətbiq etdi. Titul İsanın, həqiqətən, bir insan olduğunu bizə xatırlatmağa xidmət edir.

## Kəlam

Biz Kəlam anlayışını 4-cü fəsildə müzakirə etdik. Bununla birlikdə, bu ifadənin istifadəsini "Oğul" ifadəsindən ayırmaq üçün yenidən buna baxırıq. Kəlam və ya Loqos Tanrının planını, düşüncəsini və ya ağlını ifadə edə bilər. İnkarnasiya əvvəlcədən müəyyən edilmiş bir plan idi - tamamilə müəyyən bir gələcək hadisə idi və buna görə də bunda heç bir insanın düşünə bilmədiyi bir həqiqət var idi. Kəlam həmçinin bədəndə, yəni Oğulda ifadə edildiyi kimi, Tanrının planını və ya düşüncəsini ifadə edə bilər. Beləliklə, "Kəlam" və "Oğul" iki termini arasındakı fərq nədir? Kəlam əvvəlcədən mövcud idi və Kəlam Tanrı (Ata) idi, buna görə də bu ifadəni bəşəriyyətə istinad etmədən istifadə edə bilərik. Ancaq Oğul hər zaman inkarnasiyaya istinad edir və insan ünsürü olmadan Oğuldan danışa bilmərik. Tanrının düşüncəsində əvvəlcədən müəyyənləşdirilmiş bir planı çıxmaq şərti ilə, Oğul Məryəmin bətninə düşməzdən əvvəl mövcud deyildi. Tanrının Oğlu substansiyada deyil, düşüncədə əvvəlcədən mövcud idi. Bibliya bunu əvvəlcədən təyin edilmiş vəhy Kəlamı adlandırır (Yəhya 1: 1, 14).

## Doğulmuş Oğul və ya Əbədi Oğul?

Yəhya 3:16 ayəsi İsanı Tanrının yeganə doğulmuş Oğlu adlandırır. Ancaq bir çox insanlar "əbədi Oğul" ifadəsini işlədirlər. Bu sonuncu ifadə düzgündürmü? Yox. Bibliyada bu heç vaxt istifadə edilmir və Müqəddəs yazılara zidd olan bir konsepsiya ifadə edir. Doğulmuş sözü "doğulmaq

felinin formasıdır ki, bu da ata olmaq, valideyn olmaq, dünyaya gətirmək və ya səbəb olmaq" mənasını verir. Beləliklə, doğulmuş sözü zaman daxilində müəyyən bir nöqtəni - bətnə düşmənin baş verdiyi nöqtəni göstərir. Tərifinə görə, yaradan (ata) həmişə doğulmuşdan (nəsildən) əvvəl gəlməlidir. Yaradanın mövcud olduğu bir zaman olmalıdır, doğulmuş isə hələ mövcud deyildir və doğulma aktının baş verdiyi bir zaman nöqtəsi olmalıdır. Əks təqdirdə, doğulmuş sözün heç bir mənası olmur. Beləliklə, doğulmuş və oğul sözləri Tanrının Oğuluna tətbiq olunan əbədi söz ilə ziddiyyət təşkil edir.
Artıq apardığımız müzakirəyə görə, “Tanrının Oğlu” İsanın bəşəriliyinə aiddir. Aydındır ki, İsanın bəşəriliyi əbədi deyil, lakin Beytlehmdə dünyaya gəlmişdir. Yalnız Tanrıya münasibətdə keçmişdə, indikində və gələcəkdə kənar mövcudluqdan danışmaq olar. "Tanrının Oğlu" bəşəriyyətə və ya bəşərdə zühur edən ilahiliyə aid olduğundan, əbədi Oğul ideyası anlaşılmazdır. Tanrının Oğlunun bir başlanğıcı var idi.

## Oğulun başlanğıcı

Oğulluq və ya Oğulun rolu Məryəmin bətninə düşən körpə ilə başladı. Müqəddəs yazılarda bu tam aydın şəkildə göstərilir. Qalatiyalılara 4:4-cü ayədə deyilir: "Lakin müvafiq vaxt gəldikdə Allah qadından doğulmuş, Qanuna tabe olan öz Oğlunu göndərdi." Oğul əbədi keçmişdə deyil, vaxt tamam olanda gəldi. Oğul bir qadından doğuldu, dünyaya əbəd gəlmədi. Oğul qanun qarşısında deyil,

qanun altında doğulmuşdur. (Həmçinin İbranilərə 7:28 ayəsinə baxın.) Doğulmuş ifadəsi Matta 1:18-20 və Luka 1:35-ci ayələrində təsvir olunduğu kimi, İsanın Məryəmin bətninə düşməsinə aiddir. Tanrının Oğlu Tanrının Ruhu tərəfindən möcüzəvi şəkildə Məryəmin bətninə düşərək doğuldu. Bu, doğulmuş sözünün ilkin mənasından və həmçinin Luka 1:35-ci ayədən aydın olur. Həmin ayədə Müqəddəs Ruhun Məryəmin üzərinə kölgə salacağı, buna görə də onun uşağının Tanrının Oğlu olacağı izah edilir. Bu ayədəki gələcək zamana diqqət yetirməliyik: doğulacaq uşağa "Tanrının Oğlu deyiləcək".

İbranilərə 1:5-6-cı ayələrində də Oğulun zamanın müəyyən bir anında dünyaya gəlməsi və Oğulun zaman içində başlanğıcının olması göstərilir: "Axı Allah nə zaman və mələklərdən hansına:" Sən Mənim Oğlumsan; Mən bu gün Sənin Atan oldum" və yenə "Mən Ona Ata olacağam. O da Mənə Oğul olacaq" demişdir? Və ilk doğulanı dünyaya gətirdikdə, yenə deyir: "Qoy Allahın bütün mələkləri Ona səcdə etsinlər." Bu ayələrdən aşağıdakı məqamları qeyd edə bilərik: Oğul zaman içərisində müəyyən bir gündə doğuldu; Oğulun mövcud olmadığı bir dövr var idi; Tanrı Oğulun gələcək mövcudluğu haqqında peyğəmbərlik etmişdi ("olacaq"); Tanrı mələklərin yaranmasından bir müddət əvvəl Oğlunu dünyaya gətirdi. Müqəddəs yazıların digər ayələrində vurğulanır ki, Oğul zamanın müəyyən bir günündə - "bu gün" doğulub (Zəbur 2:7; Həvarilərin işləri 13:33-də deyildiyi kimi). Oğul haqqında bəhs edən bütün Əhdi-ətiq ayələri açıq şəkildə

peyğəmbərlikdir və Allahın Oğlunun doğulacağı günü səbirsizliklə gözləyir (Zəbur 2:7,12; Yeşaya 7:14; 9:6). (2-ci fəsildə müzakirə olunduğu kimi, Daniel 3:25-ci ayəsi bir mələyə aiddir. Əgər bu Allahın teofaniyasını təsvir edirsə də, İsa Məsihin o zaman mövcud olmayan bədənini ifadə edə bilməzdi.)
Bütün bu ayələrdən Oğulun əbədi olmadığını, ancaq Tanrı tərəfindən təxminən iki min il əvvəl dünyaya gəldiyini görmək çox asandır. Tanrının vahidliyinin böyük həqiqətini tam qəbul etməyən bir çox ilahiyyatçılar hələ də "əbədi Oğul" doktrinasını özünə zidd, Müqəddəs yazıya əsaslanmayan və yanlış kimi rədd edirlər. Bunlara misal olaraq Tertullian (erkən kilsə tarixində Trinitarizm doktrinasının atası), Adam Klark (Bibliyanın tanınmış şərhçisi) və Finis Deyk (Əllincilərdə (Pentikostlarda) Bibliyanın trinitar təfsirçisi, mahiyyət etibarı ilə triteistdir) kimi adamları göstərmək olar.

## Oğulluğun bitməsi

Oğulluğun nəinki bir başlanğıcı, lakin həm də ən azından bir mənada bir sonu vardır. Bu, 1 Korinflilərə 15:23-28 ayələrindən aydın olur. Xüsusilə, 24-cü ayədə deyilir: "Bundan sonra O.....səltənəti Ata Allaha təslim etdiyi zaman son gəlmiş olacaqdır." 28-ci ayədə deyilir: "Hər şey Ona tabe edildikdən sonra, Oğulun özü də, Ona hər şeyi tabe Etdirənə tabe olacaq ki, Allah hər şeydə hər şey olsun." Əgər kimsə "Tanrı Ata"ya həm-bərabər və onunla həm-əbədi olan "Tanrı Oğul" barəsində düşünürsə,

Müqəddəs yazıların bu hissəsini izah etmək mümkün deyil. Ancaq Tanrının satın alma (xilas) məqsədi üçün müvəqqəti olaraq “Tanrının Oğlu” rolunu götürdüyünü anlasaq, "Tanrının Oğlu" ifadəsinin xüsusi bir rola aid olduğu asanlıqla izah olunur. Oğulluq üçün səbəblərin mövcudluğu aradan qalxanda, Tanrı, Oğul rolundakı fəaliyyətini dayandıracaq və Oğulluq Ata, Yaradan və hamının Hökmdar kimi başlanğıcdakı roluna - Tanrının böyüklüyünə qovuşacaq. Efeslilərə 5:27-ci ayəsində eyni mənzərə fərqli mənalarla təsvir edilir: "Və bu yolla onu (kilsəni) bütün izzəti ilə özünə ərz etsin." İsa kilsəni Özünə təqdim edəcək! Səltənəti Ataya təqdim edəcək Oğulu təsvir edən 1 Korinflilərə 15:24-cü ayəyə əsasən bu necə ola bilər? Cavab aydındır: İsa Oğul rolunda və Oğul kimi Özünün son hərəkətində kilsəni artıq Tanrı Ata rolunda özünə təqdim edəcəkdir.
Oğulluğun bitməsinin başqa bir göstəricisini tapırıq. Həvarilərin İşləri 2:34-35-də Peter Zəbur 110:1 ayəsində Davudun sitat gətirdi: "Rəbb mənim Ağama dedi:" Mən düşmənlərini sənin ayaqlarının altına kətil qoyuncaya qədər sağımda otur." Burada "qədər" sözünü qeyd etməliyik. Bu parçada Məsihin ikili təbiəti barədə danışılır: Tanrının (RƏBBİN) Ruhu Məsihin (Rəbbin) insan zühururu ilə peyğəmbərlikcəsinə danışır. Tanrının sağ əli Tanrının qüdrətini və səlahiyyətini təmsil edir. Düşmənləri ayaqları altına kətil qoymaq düşmənləri tamamilə məğlub etmək və məğlubiyyətlərini açıq şəkildə nümayiş etdirmək deməkdir. Qədim dövrlərdə qalib gələn bəzən, sözün hərfi

mənasında, ayağını düşmənlərinin başları və ya boyunları üzərinə qoyaraq bunu edirdi (Yeşua 10:24). Beləliklə, Zəbur 110-dakı peyğəmbərlik belədir: Oğul günah və şeytan kimi düşmənləri tamamilə məğlub edənə qədər, Tanrının Ruhu bütün qüdrət və səlahiyyəti Tanrının Oğlu Məsih İsaya verəcək. O, bu işi görüb qurtarana qədər bütün qüdrətə malik olacaq. Bundan sonra Oğul necə olacaq? Bu o deməkdirmi ki, üçlüyün əbədi bir şəxsi Tanrının sağ tərəfində oturmaqdan əl çəkəcək və ya bütün qüdrəti itirəcəkdir? Xeyr, bu sadəcə o deməkdir ki, Oğulun hökmdar kimi rolu bitəcəkdir. Bədəndə zühur etmiş Tanrı, Oğul rolundan istifadə edərək şeytanı məğlub edəcək və bununla da Yaradılış 3:15-ci ayəsini yerinə yetirmiş olacaq. Həmin ayədə Tanrı deyir ki, qadının nəsli şeytanın başını əzəcək. Bundan sonra hökmranlıq etmək üçün Tanrıya insan rolu gərək olmayacaq.
Şeytan od gölünə atıldıqdan və bütün günahlar son məhkəmədə mühakimə olunandan sonra (Vəhy 20), Oğulun qüdrət taxtında hökmranlıq etməsinə ehtiyac qalmayacaq. İsa Məsih, Oğulluq rolundakı fəaliyyətini dayandıracaq və əbədi olaraq Tanrı olacaq.
Bu o deməkdirmi ki, Tanrı Məsihin dirilmiş və izzətli bədənindən istifadə etməyi dayandıracaq? İnanırıq ki, İsa əzəmətli bədənini əbədi olaraq istifadə etməkdə davam edəcəkdir. Vəhy kitabı 22:3-3-cü ayələrdə son hökmdən, yeni göy və yerin yaradılmasından sonra da gözlə görünən Tanrı təsvir edilir: “Artıq heç bir lənət mövcud olmayacaq, Allahın və Quzunun taxtı Şəhərin içində olacaq; və Onun

qulları Ona xidmət edəcəklər. Onun üzünü görəcəklər və Onun adı onların alnında olacaqdır". İsa son hökmdən sonra kahin rolundakı fəaliyyətini dayandırsa da, Məlkisedek rütbəli əbədi bir kahindir (İbranilərə 7:21). Rəbbin izzətli insan bədəni qeyri-fanidir (ölməzdir) və bizim bədənlərimiz də belə olacaqdır (1 Yəhya 3:2; 1 Korinflilərə 15:50-54). Məsihin izzətli bədəni mövcud olmaqda davam etsə də, Oğulun hökmranlığının bütün səbəbləri aradan qalxacaq və Oğulun oynadığı bütün rollar bitəcək. Oğulun Özü də, Ona hər şeyi tabe etdirənə tabe olub, Tanrı hər şeydə hər şey olacaq və bu mənada Oğulluq sona çatacaq.

## Oğul üçün Məqsədlər

Tanrının Oğlunun rolu əbədi yox, müvəqqəti olduğundan niyə Tanrı Oğul vasitəsilə Özünü aşkar etməyi seçdi? O nə üçün Oğulu dünyaya gətirdi? Oğulun əsas məqsədi Xilaskarımız olmaqdır. Qurtuluş işi yalnız bir insanın yerinə yetirə biləcəyi bir çox rolları, o cümlədən qurban, günahı aradan qaldıran, əvəzedici, qohum-qurtarıcı, barışdırıcı, vasitəçi, vəkil, baş kahin, son Adəm və nümunə rollarını tələb edirdi. Bu ifadələr bir çox cəhətdən üst-üstə düşür, lakin hər biri Tanrının planına əsasən yalnız insan tərəfindən edilə bilən xilas işinin vacib bir cəhətidir.

Tannrının planına görə, qan tökülməsi insan günahlarının bağışlanması üçün lazım idi (İbranilərə 9:22). Heyvanların qanı insan günahını aradan qaldıra bilmədi, çünki heyvanlar insanlardan üstün deyil, daha aşağıdırlar

(İbranilərə 10: 4). Heç bir insan başqa birisi üçün qurtuluşu satın ala bilməzdi, çünki hamısı günah etmiş və buna görə ölüm cəzasına layiq idilər (Romalılara 3:23; 6:23). Yalnız Tanrı günahsız idi, amma Onun bədəni və qanı yox idi. Buna görə də Tanrı Özü üçün bir bədən hazırladı (İbranilərə 10:5) ki, insan bədənində günahsız bir həyat yaşasın və insanlığı xilas etmək üçün günahsız qan töksün. O, bədən və qan kəsb etdi ki, ölümlə şeytanı məğlub edib insanlığı xilas edə bilsin (İbranilərə 2:14-15). Bu yolla Məsih bizim üçün günahı əfv etdirən qurban oldu ki, onun vasitəsilə biz bağışlanma əldə edirik, bizim üçün Tanrının ədaləti təmin olunur  və Tanrının müqəddəs qəzəbi aradan qalxır (Romalılara 3:25). Məsihin qurban getməsi vasitəsilə Tanrı salehliyində güzəştə getmədən günahlarımızı bağışlayır. Biz bu gün İsa Məsihin qurbanı vasitəsilə ilə - Tanrının Oğlunun təqdimi ilə xilas olduq (İbranilərə 10:10-20; Yəhya 3:16). Beləliklə, Oğul günahlarımız üçün əfvi təmin edən qurbandır.

Tanrının Oğlu qurban gedəndə, o bizim üçün əvəz oldu. O, bizim yerimizdə öldü, günahlarımızı götürdü və günahlarımız üçün ölüm cəzasını çəkdi (Yeşaya 53:5-6; 1 Peter 2:24). O, şəhiddən daha çox idi; Əslində bizim yerimizi tutdu. Hər bir adam naminə ölümü daddı (İbranilərə 2:9). Əlbəttə ki, İsanın bizi əvəz edib yerimizdə ölməsinin yeganə yolu Adəmin nəsli kimi cismani bədəndə gəlməsi idi.

Məsihin bizim qohum-xilaskarımız kimi rolu həm də Oğulluq vasitəsilə mümkün olmuşdur. Əhdi-ətiqdə əgər

bir insan əmlakını və ya özünü köləliyə satırdısa, yaxın bir qohumu onun əmlakını və ya azadlığını onun üçün geri almaq hüququna malik idi (Levililər 25:25, 47-49). İsa bədəndə gəlməklə bizim qardaşımız oldu (İbranilərə 2:11-12). Beləliklə, O, bizim qohum-xilaskarımz olmağa layiq oldu. Bibliyada O, bizim xilaskarımız kimi təsvir edilir (Romalılara 3:24; Vəhy 5: 9).
Bəşəriliyi vasitəsilə İsa Məsih vasitəçilik etmək, yəni insan ilə Tanrı arasında olub bəşəriyyəti Tanrıya təmsil etmək iqtidarındadır. Vasitəçi olaraq İsa bizi Allahla barışdırır; O, bizi yenidən Allahla ünsiyyətə qaytarır (2 Korinflilərə 5:18-19). Müqəddəs Tanrı ilə günahkar insanlar arasındakı boşluğu günahsız insan İsa Məsih doldurdu: "Çünki Allah bir və Allahla insanlar arasında olan vasitəçi də birdir: O, insan olan Məsih İsadır" (1 Timoteyə 2:5). Pavelin bu ayədə Tanrının vahidliyini necə diqqətlə qoruduğunu görməliyik. Tanrıda heç bir fərq yoxdur, ancaq Tanrı ilə insan Məsih İsa arasında fərq var. Tanrıda iki şəxsiyyət yoxdur; İkilik Tanrı olaraq İsada və insan olaraq İsadadır. Tanrı ilə insanlar arasında vasitəçilik edən Allah deyil, eyni ilə “Allah Oğul” da bunu etmir. Lakin vasitəçilik edən insan İsadır; yalnız günahsız bir insan bəşəriyyət adından müqəddəs Tanrıya yaxınlaşa bilərdi.
Məsihin vasitəçi rolu onun Baş kahin kimi olması ilə sıx bağlıdır. (İbranilərə 2:16-18; 4:14-16). İnsan kimi İsa bizim tək sınağa çəkildi; bu ona görə baş verdi ki, insan kimi keçdiyi təcrübəyə görə bizə mərhəmətli bir baş kahin kimi kömək edə bilsin. Tipologiyada O, çadıra girdi, pərdənin

arxasından Ən Müqəddəs məkana daxil oldu və orada öz qanını təqdim etdi (İbranilərə 6:19; 9:11-12). Onun qurbanlığı və kəffarəsi sayəsində Tanrının taxtına birbaşa çıxışımız var (İbranilərə 4:16; 6:20). Oğul bizim baş kahinimizdir, onun vasitəsilə biz cəsarətlə Tanrıya yaxınlaşa bilirik.

Eynilə Oğulluq Məsihə imkan verir ki, kömək üçün yanımıza çağırılan vəkilimiz olsun (1 Yəhya 2: 1). Xilasdan sonra da günah etsək, bizə görə Tanrı qarşısında mərhəmət üçün vəsatət edən bir nəfər var. Yenə də bu işin görülməsi Oğulun roluna aiddir, çünki biz günahlarımızı etiraf edəndə Məsihin qanı bizim günahlarımızı təmizləyir və bizi müvəffəqiyyətlə qoruyur.

Bəşəriliyinə görə İsa son Adəmdir (1 Korinflilərə 15: 45-47). O, bədəndə edilmiş günahları məğlub etmək, qınamaq və ölümün özünü məğlub etmək üçün gəldi (Romalılara 8:3; 1 Korinflilərə 15: 55-57). O, bir insan kimi gəldi ki, insan nəslinin nümayəndəsi olaraq Adəmi əvəz edə bilsin. Bununla, Ona iman gətirənlər üçün Adəmin günaha batmasının bütün nəticələrinin qarşısını aldı (Romalılara 5:12-21). Adəmin günahı üzündən bəşəriyyətin itirdiyi hər bir şeyi İsa insanlığın yeni nümayəndəsi olan son Adəm olaraq geri qazandı.

Bədəndəki günah üzərində Məsihin qələbəsinin başqa bir tərəfi var. İsa nəinki bədəndə ölmək üçün gəldi, həm də Onun yolu ilə gedə bilməyimiz üçün qalibiyyətli bir həyat nümunəsini gətirmək üçün gəldi (1 Peter 2:21). O, bizə bədəndə günah üzərində necə qələbə çalıb yaşamağı

göstərdi. O, bədəndə gəlmiş Allahın Kəlamı oldu (Yəhya 1:1). O, diri Tanrının Kəlamı oldu ki, Tanrının bizim necə olmağımızı istədiyini aydın başa düşək. Əlbəttə, O həmçinin bizə güc verir ki, Onun yolu ilə gedək. Onun ölümü vasitəsilə Tanrı ilə barışdığımız kimi, Onun həyatı ilə də xilas oluruq (Romalılara 5:10). O istəyir ki, biz saleh həyat yaşayaq. Buna görə də Onun Ruhu bizə saleh həyat yaşamaq üçün güc verir (Həvarilərin işləri 1:8; Romalılara 8:4). Oğul təkcə insanları Tanrı qarşısında təmsil etmir, həm də Tanrını insanlara göstərir. O, Tanrı tərəfindən seçilmiş və müəyyən bir məqsəd üçün göndərilmiş bir həvaridir (İbranilərə 3:1). O, Tanrını insanları göstərən və Tanrının Kəlamını insanlara nazil edən, bildirən bir peyğəmbərdir (Həvarilərin işləri 3:20-23; İbranilərə 1:1-2). Onun bəşəriliyi bu baxımdan olduqca vacibdir, çünki Tanrı Oğulun bəşəriliyindən istifadə etməklə bizim səviyyəmizdə bizimlə ünsiyyət qurdu.
Oğul, Tanrının Kəlamını elan etməklə yanaşı, insanlara Tanrının təbiətini də açdı. Oğul vasitəsilə Tanrı bizə olan böyük məhəbbətini izah etdi və böyük gücünü anlaya biləcəyimiz şəkildə göstərdi. 2 və 3-cü fəsillərdə izah edildiyi kimi, Tanrı İsanın adından Öz təbiətinin kulminasiyalı vəhyi və Əhdi-ətiq teofaniyalarında peyğəmbərliyin kulminasiyası kimi istifadə etdi. Oğulluğın bu məqsədi Tanrının bədəndə təzahür etməsini öyrədən Müqəddəs yazının bir çox ayələri ilə ifadə olunur. Yəhya 1:18-ci ayəsi Oğulun bu məqsədini təsvir edir: “Allahı heç bir zaman kimsə görməmişdir; Onu tanıdan, Atanın

qucağında olub Özü Allah olan vahid Oğuldur.” Yeşaya bu vəhyin gələcəyi barədə peyğəmbərlik etdi: "Rəbbin əzəməti (izzəti) aşkar olunacaq, bütün bəşər bunu birlikdə görəcək" (Yeşaya 40:5). Pavel bunun Məsihdə həqiqətən baş verdiyini yazdı: “Çünki qaranlıqdan işıq parlayacaqdır", - deyən Allah ürəklərimizi işıqlandırdı ki, İsa Məsihin simasında Allah izzətini dərk etmək nuruna nail olaq” (2 Korinflilərə 4:6). Başqa sözlə, Tanrının Oğlu görünməz, dərkedilməz Tanrının Özünü bizə açması üçün bir vasitə oldu.

Oğulun başqa bir məqsədi Əhdi-ətiqdə İbrahim, İshaq, Yaqub, İsrail xalqı və Davuda verilmiş bir çox vədlərin yerinə yetirilməsidir. İsa Məsih bu adamların nəslinə aid vədləri tamamilə yerinə yetirəcək və yer üzündəki minillik padşahlıqda bunu edəcək (Vəhy 20:4). O, sözün əsl mənasında, İsrailin və bütün yer üzünün Padşahı olacaq (Zəkəriyyə 14:16-17; Yəhya 1:49). Allah Davuda nəslinin və taxtının əbədi qurulacağını vəd etdi (2 Şamuel 7:16). İsa, Məryəm vasitəsilə Davudun qan xətti (Luka 3) və qanuni atası Yusif vasitəsilə Davudun taxtının varisi olaraq (Matta 1) bunu, sözün həqiqi mənasında, Özündə yerinə yetirəcəkdir (Romalılara 1: 5-ə baxın).

Oğulluq həmçinin Tanrıya bəşəriyyəti mühakimə etməyə imkan verir. Tanrı adil və ədalətlidir. O həm də mərhəmətlidir. Bəşəriyyətin bütün sınaqlarını və problemlərini yaşamamış və cismani bədəndə (əlbəttə ki, ilahi qüdrəti ilə, lakin bizə verdiyi eyni qüdrət ilə) saleh yaşamağın mümkünlüyünü nümayiş etdirməmiş O, Öz

ədalətində və mərhəmətində insanları mühakimə etməməyi qərara aldı. Bibliyada Atanın heç kimi mühakimə etməyəcəyi xüsusi olaraq bildirilir; yalnız Oğul mühakimə edəcəkdir (Yəhya 5:22,27). Tanrı İsa Məsih vasitəsilə mühakimə edəcəkdir (Romalılara 2:16). Başqa sözlə, Tanrı (İsa), cismani bədəndə yaşayan, cismani bədəndəki günahlara qalib gələn və eyni qalibiyyətli qüdrəti bütün bəşəriyyətə təqdim edən Birinin rolunda dünyanı mühakimə edəcəkdir.

Sonda qeyd edə bilərik ki, Oğul üçün çoxlu məqsədlər var. Tanrının planında Oğul dünyaya xilas gətirmək üçün lazım idi. Buraya (1) qurban, (2) əvəzedici, (3) qohum-qurtarıcı, (4) barışdırıcı, (5) vasitəçi, (6) baş kahin, (7) vəkil, (8) son Adam və (9) salehlik nümunəsi daxildir.

Oğulluq həmçinin Məsihin (10) həvari, (11) peyğəmbər, (12) Tanrının təbiətini aşkar edən, (13) padşah və (14) hakim olmasını mümkün etdi. Bütün bu rolların hamısı bir insandan bunları yerinə yetirməyi tələb edirdi; bunlardan biz Tanrının Oğul olaraq dünyaya gəlməsinin səbəbini görə bilərik.

Oğulluğun məqsədlərini araşdırdıqdan sonra, Oğulun nəyə görə əbədi mövcudluqdan çıxıb zamanın bir məqamında ortaya çıxdığını görmək asandır. Tanrı bütün bu məqsədlərin ən yaxşı şəkildə həyata keçirilə biləcəyi zamanın tamlığını gözlədi (Qalatiyalılara 4:4). Beləliklə, Məsihin Məryəmin bətninə düşməsinə qədər Oğulun substantiv mövcudluğu yox idi.

Minillik hökmranlıqdan və son hökmdən sonra Oğul üçün məqsədlər yerinə yetiriləcək və Oğulun hökmranlığı sona çatacaq. Oğul üçün məqsədlərə baxanda başa düşə bilərik ki, Oğulluq müvəqqətidir, əbədi deyildir; Bibliyada yazılıb ki, Oğulluq nə vaxt başlayacaq və Oğulluq xidməti nə vaxt başa çatacaq.

Oğul haqqında bir sıra konsepsiyaları nəzərdən keçirib ətraflı izah etmək üçün Oğula aid bir sıra maraqlı istinadlardan ibarət olan İbranilər 1-ci fəsli araşdıra bilərik. 3-cü ayədə Oğul Allahın izzətinin nuru və Onun şəxsiyyətinin tam surəti kimi təsvir edilmişdir. KJV-də "şəxs" kimi tərcümə olunan yunan sözü hipostasis maddə, təbiət və ya varlıq deməkdir. NIV 3-cü ayəni aşağıdakı kimi tərcümə edir: "Oğul, Allahın izzətinin nuru və varlığının tam surətidir." Bənzər bir parçada Koloslulara 1:15 ayəsində deyilir ki, Oğul görünməz Allahın surətidir. Bir daha görürük ki, Oğul Atanın bədəndə görünən təzahürüdür. Oğul, Tanrının bütün izzəti ilə Tanrının mahiyyətinin tam surətidir. Başqa sözlə, görünməz Tanrı (Ata) Özünü görünən cismani bədəndə Oğul olaraq göstərdi ki, insanlar Tanrının izzətini görə bilsinlər və Tanrının həqiqətən nəyə bənzədiyini başa düşsünlər.

İbranilərə 1-ci fəslə Yəhya 1-ci fəsildə verilmiş Allah Atanın bəşər kimi gəlməsi fikrinin təsdiqi kimi baxıla bilər. İbranilərə 1:2-ci ayədə deyilir ki, Allah bizə Öz Oğlunda xitab etdi; Yəhya 1:14-cü ayədə Kəlamın bəşər olması və Yəhya 1:18-ci ayədə Oğulun Allah Atanı tanıtdığı (elan etdiyi) bildirilir. Bu ayələrdən anlayırıq ki, Oğul şəxsiyyət

baxımından Atadan fərqlənmir, lakin vasitəsilə Atanın Özünü bəşəriyyətə açdığı (aşkar etdiyi) bir tərzdir.

**Oğul və Yaradılış**

İbranilərə 1:2-ci ayədə deyilir ki, Allah kainatı Oğlu vasitəsilə yaratmışdır. Eynilə, Koloslulara 1:13-17 ayələrində hər şeyin Oğul vasitəsilə yaradıldığı, Efeslilərə 3:9-da hər şeyin İsa Məsih vasitəilə yaradıldığı deyilir. "Oğul İnkarnasiyadan əvvəl substantiv ilkin mövcudluğa malik olmadığından Oğul vasitəsilə yaradılış" nə deməkdir?

Əlbəttə, bilirik ki, Tanrı olaraq İsa inkarnasiyadan əvvəl mövcud idi, çünki İsanın ilahiliyi Atanın Özündən başqa bir şey deyildir. İsanın (İsanın ilahi Ruhunu) həqiqətən Yaradan olduğunu qəbul edirik. Bu ayələrdə Oğulda olan əbədi Ruh - sonradan Oğul kimi inkarnasiya olmuş ilahi kimi - Yaradan kimi təsvir edilir. İsa Məsihin bəşəriliyi dünyanı yarada bilməzdi, lakin İsa Məsih kimi Oğula gələn Tanrı dünyanı yaratdı. İbranilərə 1:10-cu ayədə İsanın Rəbb olaraq Yaradan olduğu açıq şəkildə ifadə edilmişdir.

Ola bilsin ki, bu ayələrin daha dərin bir mənası var və aşağıdakı kimi ifadə oluna bilər: Oğulun yaradılış anında yalnız Tanrının düşüncəsində mövcud olmasına baxmayaraq, Tanrı dünyanı yaratdıqda Oğul barəsindəki əzəli biliyindən istifadə etmişdir. Biz bilirik ki, O, dünyanı Kəlamı ilə yaratmışdır (İbranilərə 11: 3). O, düşüncəsindəki inkarnasiya və çarmıxda satın alma planı barəsindəki biliyi ilə dünyanı yaratdı. Bəlkə də bu əzəli biliyində O,

Oğulluqdan istifadə etməklə dünyanı yaratdı.Yəni bütün yaradılışın Məsihin gələcək gəlişindən asılı olduğunu xəbər verdi. Con Millerin izah etdiyi kimi: "Müvafiq zaman tamam olana qədər bəşəriliyinə malik olmasa da, bütün əbədiyyət boyu bundan istifadə etdi və buna uyğun hərəkət etdi”[3].Beləliklə, Romalılara 5:14-cü ayədə qeyd edildiyi kimi, Adəm gələcək Adamın, məhz İsa Məsihin surəti idi; çünki aydındır ki, Tanrı Adəmi yaradanda Oğul Onun düşüncəsində idi.

Biz bilirik ki, Tanrı zaman içində yaşamır və O bizim kimi zamanla məhdudlaşmır. O, gələcəyi əminliklə bilir və bir planı əminliklə qabaqcadan qura bilər. Beləliklə, O, gələcək bir hadisə üzrə hərəkət edə bilər, çünki bunun baş verəcəyini bilir. O, mövcud olmayan şeyləri sanki mövcud olan kimi qəbul edə bilir (Romalılara 4:17). Məhz bu baxımdan dünya yaranandan bəri Quzu boğazlanmışdı (Vəhy 13:8), insan İsa isə belə dua edirdi: “Ey Ata, dünya yaranmazdan əvvəl Mən Səninlə bərabər ikən Məndə olan həmin izzəti indi Mənə öz yanında ver” (Yəhya 17:5). Allah insanları elə yaratmışdı ki, insanlar Onu sevib Ona ibadət etsinlər. Lakin buna baxmayaraq (Yeşaya 43:7; Vəhy 4:11), Allahın onları Oğul vasitəsilə bərpa etmək planı olmasaydı, insanların günahları Tanrının yaradılışdakı bu məqsədini poza bilərdi. Tanrı insanların günaha batmasını qabaqcadan bildi, lakin buna baxmayaraq O, insanları yaratdı, çünki Oğulu və satın almanın gələcək planını əvvəlcədən (əvvəlcədən müəyyən etdi) təyin etdi (Romalılara 8:29-32). Oğul planı yaradılışda Tanrının

fikrində idi və yaradılışın uğurlu olması üçün lazım idi. Buna görə də O, dünyanı Oğul vasitəsilə yaratdı.
Biz bilirik ki, Oğul vasitəsilə yaradılışdan bəhs edən Müqəddəs yazıların ayələri Oğulun yaradılışda Atadan ayrı bir şəxs kimi əhəmiyyətli dərəcədə mövcud olduğunu ifadə edə bilməz. Əhdi-ətiq elan edir ki, bizi tək bir varlıq yaratdı və O, Yehovadır, Atadır: "Hamımızln Atası bir deyilmi? Bizi eyni Allah yaratmadımı?" (Malaki 2:10); “Səni Satınalan, Ana bətnində quruluş verən Rəbb deyir:“ Bütün şeyləri yaradan, göyləri təkcə yayan, təkbaşına yer üzünü sərən" Rəbb Mənəm”(Yeşaya 44:24).
İsa yaradılışdan əvvəl fiziki cəhətdən çarmıxa çəkilmədi, Oğul yaradılışdan əvvəl dünyaya gəlmədi və insan İsa yaradılışdan əvvəl izzətə malik olmaq üçün mövcud deyildi. (Qeyd: İsa Yəhya 17:5-ci ayədə bir insan kimi danışdı, çünki məlumdur ki, Tanrı dua etmir və dua etməyə ehtiyac duymur.) Bibliyada bütün bunlar yaradılışdan əvvəl mövcud olan şeylər kimi necə təsvir edilə bilər? Bunlar Tanrının düşüncəsində əvvəlcədən təyin edilmiş gələcək bir plan kimi mövcud idi. Göründüyü kimi, Tanrının dünyanı Oğul vasitəsilə yaratması barədə danışan Müqəddəs Yazı ayələri o deməkdir ki, Tanrı dünyanı yaradanada gələcək Oğulluq planından istifadə etdi və faydalandı. Şübhəsiz Oğul və satınalma planı yaradılışdan əvvəl və yaradılış zamanı Tanrının düşüncəsində mövcud idi. (Bu konsepsiyanın daha çox müzakirə olunması üçün 7-ci fəsildə Yaradılış 1:26-cı ayəsinin yanaşmasına baxın.)

Yekun olaraq, Oğul vasitəsilə yaradılışa iki tərəfdən baxa bilərik: (1) Sonralar Özünü Oğul kimi inkarnasiya edən Tanrı Ruhu Yaradan idi. (2) Oğul fiziki olaraq mövcud olmasa da, yaradılışda Tanrı Öz düşüncəsində Oğul planına malik idi. Bəşərin günaha batması barədə əvvəlcədən biliyə malik olmasına baxmayaraq, O, yaradılışda məqsədini yerinə yetirmək üçün həmin plana güvəndi - O, Oğulluğa güvəndi.

## İlk Doğulan

İbranilərə 1:6-cı ayədə Oğul «İlk Doğulan» adlandırılır. Bu o deмək deyildir ki, Oğul Tanrı tərəfindən ilk olaraq yaradıldı və ya yaradılmışdır, çünki bu ayə, mələklərin yaradılışından sonra "dünyaya gəlməyi" göstərir. Şübhəsiz ki, Oğul "əbədi olaraq doğulmayıb", çünki 5-ci ayədə dünyaya gəlmənin zamanın müəyyən bir anında baş verdiyi təsvir olunur: "Sən Mənim Oğlumsan, Mən bu gün Sənin Atan oldum". Bəs Oğul hansı mənada "ilk doğulandır"?

Terminin bir neçə mənası vardır. Sözün bir mənasında Oğul yalnız ilk doğulan deyil, həm də yeganə doğulandır (Yəhya 3:16). Yəni Oğul yeganə şəxsdir ki, Müqəddəs Ruh (Tanrı) tərəfindən, sözün həqiqi mənasında, bətnə düşdü; bakirə qadından dünyaya gəlmə tam ilahiliyin və tam bəşəriliyin bir insanda birləşməsinə imkan yaratdı. Üstəlik, Oğul hər şeydən əvvəl Tanrının düşüncəsində planlaşdırıldığı anlamda ilk doğulandır. Bundan əlavə, Oğul birinci olaraq günaha və ölümə qalib gələn ilk

doğulandır. O, "ölülərdən ilk olaraq doğulandır" (Vəhy 1: 5), "çoxlu qardaş arasında ilk doğulandır" (Romalılara 8:29) və "ölülər arasından ilk diriləndir" (Koloslulara 1:18). Müqəddəs yazıların bütün bu ayələrində İbranilərə 1:6-cı ayədə olduğu kimi, eyni yunan sözü olan "prototokos" istifadə olunur. Məsih vəfat edənlərin ilk nümunəsi olaraq, ölülərdən dirildi və izzətli bir bədən kəsb etdi (I Korinflilərə 15:20).
İsa Məsih "ilk doğulanların cəmiyyəti" adlandırılan imanlılar cəmiyyətinin başı olduğundan (İbranilərə 12:23), biz Məsihin titulunu Koloslulara 1:15 ayəsində "bütün xilqətin fövqündə duran, ilk doğulan Oğul [prototokos] kimi şərh edə bilərik. Bu o deməkdir ki, O bütün yaradılışın fövqündə duran və Tanrının ruhani ailəsinin ilk doğulan Oğludur. Ona iman vasitəsilə yenidən doğulmaqla Tanrının oğulları və qızları ola bilərik (Romalılara 8:14-17).
İsa imanımızın banisi və kamilləşdiricisidir (İbranilərə 12:2), qurtuluş rəisimiz (İbranilərə 2:10), iqrar etdiyimiz imanının elçisi (həvarisi) və baş kahinidir (İbranilərə 3:1) və qardaşımızdır (İbranilərə 2:11-12). O, Xilasedici roluna görə çoxlu qardaşlar arasında ilk doğulan və ya ilk olaraq dünyaya gələn Oğul adlandırıla bilər.
Böyük qardaşın öz qardaşları arasında üstünlüyü olduğu kimi, Məsihin də ilk doğulma titulu təkcə sıra qaydasında ilk mənasında deyil, həm də qüdrət, səlahiyyət və üstünlük baxımından əhəmiyyətlidir. Məsihə münasibətdə istifadə edilən ilk doğulma ifadəsi onun fiziki olaraq doğulmuş ilk insan olduğunu deyil, ancaq Onun

qüdrətdə ilk olduğu mənasını verir. Koloslulara 1:15 ayəsinin ilkin mənası Onun 'bütün xilqətin fövqündə duran, ilk doğulan Oğul" olmasıdır. Sonrakı ayələrdən də bunu görmək olur. 16-18-ci ayələrdə İsa hər şeyi Yaradan, bütün qüdrətin Rəhbəri və imanlılar cəmiyyətinin Başı kimi kimi təsvir olunur. Xüsusilə, 18-ci ayədə deyilir: "Hər şeydə birinci olmaq üçün ölülər arasından ilk diriləndir."

Ümumiləşdirib qeyd edə bilərik ki, İsa bir neçə mənada ilk doğulan və ya ilk dünyaya gələndir. (1) Müqəddəs Ruh tərəfindən bətnə düşdüyü üçün Tanrının ilk və yeganə doğulan Oğludur. (2) hər şeydən əvvəl, inkarnasiya planı başlanğıcdan Tanrının düşüncəsində mövcud idi. (3) Bəşərilyində İsa günahları məğlub edən ilk şəxsdir və buna görə də Tanrının ruhani ailəsinin ilk doğulan Oğludur. (4) Bəşəriliyində İsa ölümü məğlub edən ilk şəxsdir və buna görə də ölülərdən dirilmənin ilk nümunəsi və ya ölülər arasından ilk doğulandır. (5) İsa bütün yaradılışın rəhbəri və imanlılar cəmiyyətinin Başıdır, çünki böyük qardaş ənənəvi olaraq öz qardaşları arasında üstünlüyə malik olduğu kimi, O da, hər şeydə üstünlük və qüdrət sahibi olmaq mənasında ilk doğulandır. İlk dörd punkt sıra baxımından birinci olmağa, beşincisi punkt isə qüdrətdə və böyüklükdə birinci olmağa aiddir.

Məsihin ilk doğulan Oğul kimi titulu heç də Onun başqa bir Tanrı tərəfindən yaradıldığını bildirmir. Əksinə bu, bir insan olaraq Məsihin Tanrının ruhani ailəsində ilk və böyük qardaş olduğunu və bütün yaradılış üzərində qüdrət və səlahiyyət sahibi olduğunu göstərir.

## İbranilərə 1:8-9

"Oğul haqqında isə bunları deyir:"Ey Allah, taxtın əbədi və daimidir."…. Buna görə də Allah, Sənin Allahın, Səni yoldaşlarından artıq sevinc yağı ilə məsh etdi." Yuxarıdakı parçanın birinci hissəsi aydın şəkildə Oğuldakı ilahiliyə, ikinci hissə isə Oğulun bəşəriliyinə aiddir. İbranilərə məktubu yazan şəxs Zəbur 45:6-7 ayələrindəki peyğəmbərlik mesajından sitat gətirmişdir. Bu, Tanrıçılıqdakı söhbət deyil, Tanrıdan ilham almış və Tanrının bədəndə gələcək inkarnasiyasına ümidlə baxan bir peyğəmbərlik kəlamıdır. Allah Məzmurçu vasitəsilə Özünü gələcək bir rolda təsvir etmək üçün peyğəmbərcəsinə danışırdı.

## Nəticə

Nəticə etibarı ilə biz öyrəndik ki, "Tanrının Oğlu" ifadəsi inkarnasiyaya və ya Tanrının bədəndə zühuruna aiddir. Tanrı dünya başlamazdan əvvəl Oğlunu planlaşdırmışdı, ancaq Oğul vaxt tamam olmayınca faktiki olaraq substantiv bir varlıq kimi gəlmədi. Oğulun bir başlanğıcı var idi, çünki Tanrının Ruhu tərəfindən Oğul Məryəmin bətninə düşdü. Oğulun hölmranlığının sonu olacaq, çünki imanlılar cəmiyyəti (kilsə) Tanrıya təqdim edildikdə, şeytan, günah və ölüm sonda mühakimə olunub fəth olunduqda Oğulun rolu bitəcək. Oğul Tanrının planında yalnız günahsız bir insan tərəfindən yerinə yetirilə biləcəyi bir çox rolu ifa edir. Əlbəttə ki, Oğulun son məqsədi günaha batmış bəşəriyyətə xilas yolu ilə təmin etməkdir.

"Tanrının Oğlu" ifadəsinin istifadəsi ilə bağlı üç şeyə yekun vururuq. (1) Biz onu Məsihin bəşəriliyindən kənarda istifadə edə bilmərik, çünki bu söz həmişə bədənə və ya bədəndə olan Tanrının Ruhuna aiddir. (2) Oğul həmişə zaman baxımından islədilir, çünki Oğulluğun bir başlanğıcı olduğu kimi, sonu da olacaq. (3) Tanrı kimi, İsa bütün qüdrətə malik idi, ancaq Oğul kimi O, qüdrətdə məhdud idi. İsa həm Tanrı, həm də insan idi.
Oğulun bibliyadakı doktrinası heyranedici və gözəl bir həqiqətdir. Bu əsasən bəzi mürəkkəb fikirləri təqdim edir, çünki həm insan təbiəti, həm də ilahi təbiəti olan bir varlığı başa düşmək insan ağılı üçün çətindir. Lakin Oğul vasitəsilə Tanrı Öz xarakterini, xüsusən də misilsiz sevgisini bəşəriyyətə bəxş etdi.Oğul doktrinası heç də öyrətmir ki, Ata dünyanı elə sevdi ki, digər bir şəxsi, "Tanrı Oğulu" göndərdi ki, ölsün və dünyanı Ata ilə barışdırsın. Əksinə, bu doktrina öyrədir ki, Ata dünyanı elə sevdi ki, dünyanı Özü ilə barışdırmaq üçün Özünü bədənə bürüdü və Tanrının Oğlu kimi özünü təqdim etdi (2 Korinflilərə 5:19). Əhdi-ətiqdən olan Yehova Tanrı, kainatın böyük Yaradanı, insan şəklində təvazökarlıq göstərdi ki, insanlar Onu görə bilsinlər, Onu anlaya bilsinlər və Onunla ünsiyyət qursunlar. Özü üçün insan bədəni və şəxsiyyəti yaratdı, Tanrının Oğlu adlandırıldı.
Tanrının Özü bəşəriyyət üçün bir xilas yolu təqdim etdi: "Rəbb gördü ki, heç kim yoxdur, havadarın (vəsatətçinin) olmadığına görə O, mat qaldı. Onda Onun qolu Ona zəfər gətirdi." (Yeşaya 59:16). Öz qolu qurtuluşu təmin etdi.

Oğulun düzgün başa düşülməsi Atanı böyütməyə və izzətləndirməyə təsir edir. Oğul rolunda İsa Ataya dua etdi: “Mən Səni yer üzündə izzətləndirdim. . . .Sənin adını onlara açdım. . . . Sənin adını onlara bildirdim”(Yəhya 17: 4, 6, 26). Ata Oğul vasitəsilə həm Özünü dünyaya aşkar etdi, həm də dünyanı Özü ilə barışdırdı.

**Son qeydlər FƏSİL 5**

[1] Heick 1:179-80.

[2] Flanders və Kresson, 343.

[3] Miller, 96-97.

# 6 ATA, OĞUL VƏ MÜQƏDDƏS RUH

*"Mən və Ata birik" (Yəhya 10:30). "Mən də Atadan xahiş edəcəyəm ki, O, daim sizinlə bərabər olmaq üzrə başqa bir Təsəlliverici versin. . . Bu, Həqiqət Ruhudur"(Yəhya 14: 16-17).*

4-cü fəsildə Oğulun bibliyadakı konsepsiyası müzakirə edildi. Bu fəsildə Tanrıya münasibətdə işlədilən "Ata" və "Müqəddəs Ruh" ifadələrinin mənasını araşdırırıq. Həm də "Ata", "Oğul" və "Müqəddəs Ruh" kimi üç ifadə arasındakı əlaqələri və fərqləri də araşdırırıq. Bu ifadələr

Tanrıçılıqda üç fərqli şəxsi və ya şəxsiyyəti müəyyənləşdirirmi? Yoxsa bunlar Tanrının fəaliyyət göstərdiyi və Özünü tanıtdığı üç fərqli rolu, rejimi, funksiyasını və ya idarəçiliyi göstərir?

## Ata

"Tanrı Ata" ifadəsi bibliyada işlənir və Allahın Özünə aiddir (Qalatiyalılara 1:1-4). Allah Atadır; O, yalnız Oğulun Atası deyil, bütün yaradılışın Atasıdır (Malaki 2:10; İbranilərə 12:9). O, həmçinin yenidən doğulma düşüncəsinə görə Atamızdır (Romalılara 8:14-16). "Ata" titulu Allahla insanlar arasında, xüsusən də Allah və Onun Oğlu, Tanrı ilə yenidən yaradılan insanlar arasındakı əlaqəni göstərir. İsa Allahın Atamız olduğunu dəfələrlə bizə öyrətdi (Matta 5:16, 45, 48). "Göydə olan Atamız"a dua etməyi öyrətdi (Matta 6:9). Əlbəttə ki, İsanın bir insan olaraq başqa heç kimin malik olmadığı anlamda Tanrı ilə əlaqəsi var idi. O, Atanın yeganə doğulmuş Oğlu idi (Yəhya 3:16), yalnız Tanrının Ruhu tərəfindən bətnə düşmüş və Tanrının ölçüsüz bütövlüyünə malik olan Yeganə Oğlu idi.
Bibliyada açıqca deyilir ki, yalnız bir Ata var (Malaki 2:10; Efeslilərə 4: 6). Bu kitabda həmçinin İsanın inkarnasiya olmuş vahid Ata olduğu açıq şəkildə öyrədilir (Yeşaya 9:6; Yəhya 10:30). Tanrının Oğlunda yaşayan Ruh Atadan başqası bir kəs deyildi.
Atanın adının İsa olduğuna diqqət yetirmək vacibdir, çünki bu ad Atanı tam şəkildə açıqlayır və ifadə edir. Yəhya 5:43-də İsa dedi: "Mən Atamın naminə (adından) gəldim".

İbranilərə 1:4 ayəsinə görə, Oğul "daha əla bir ada varis oldu". Başqa sözlə, Oğul Atasının adına varis oldu. Buna görə də başa düşürük ki, İsa Atanın adını izhar etdiyini və bildirdiyini nəyə görə söylədi (Yəhya 17:6, 26). O, Məsih tərəfindən Rəbbin adının agah ediləcəyini bildirən Əhdi-ətiqdəki peyğəmbərliyi yerinə yetirdi (Zəbur 22:22; İbranilərə 2:12). Oğul hansı adla gəldi? Atasından miras alaraq hansı ada sahib oldu? Oğul hansı adı agah etdi? Cavab aydındır. Onun istifadə etdiyi yeganə ad Atasının adı olan İsanın adı idi.

## Oğul

Əsas etibarı ilə "Tanrının Oğlu" ifadəsi bəşəriyyətin xilası üçün İsa Məsihin şəxsində bədəndə zühur edən Tanrıya aiddir. Oğulun adı İsadır: "Bir Oğul doğacaqdır və Onun adını İsa qoyacaqsan" (Matta 1:21). "Ata" yalnız ilahiyə aiddir, "Tanrının Oğlu" isə bəşərdə inkarnasiya olan ilahiyə aiddir, buna görə də Atanın Oğul olduğuna inanmırıq. Bu fərqin vacib mənası vardır. Oğul öldü deyə bilərik, ancaq Atanın öldüyünü deyə bilmərik. Oğuldakı ilahi Atadır. Atanın Oğul olduğuna inanmasaq da, Atanın Oğulda olduğuna inanırıq (Yəhya 14:10). İsa həm Ata kimi ilahiliyi, həm də Oğul kimi bəşəriliyi baxımından Tanrının Oğlunun adı olduğundan, bu ad həm Atanın, həm də Oğulun adıdır.

## Müqəddəs Ruh

"Müqəddəs Ruh" və ya "Müqəddəs Kabus" ifadələrinin hər ikisi eyni mənanı bildirir. KJV-dəki bu iki termin yunan

sözü olan pneuma sözündən tərcümə edilmişdir; buna görə terminlər arasında heç bir fərq yoxdur, hər ikisi eyni məna verdiyindən işlənə bilər.
Müqəddəs Ruh sadəcə Tanrıdır. Allah müqəddəsdir (Levililər 11:44; 1 Peter 1:16). Əslində yalnız O, Özlüyündə müqəddəsdir. Allah həmçinin Ruhdur (Yəhya 4:24) və yalnız Allahın bir Ruhu var (1 Korinflilərə 12:11; Efeslilərə 4: 4). Bu baxımdan "Müqəddəs Ruh" vahid Tanrı üçün başqa bir termindir.
Müqəddəs Ruhun Tanrı olması Həvarilərin İşləri 5:3 ilə 5:4 və 1 Korinflilərə 3:16 ilə 6:19 ayələrinin müqayisəsindən aydın olur. Bu parçalar Müqəddəs Ruhu Tanrının Özü ilə eyniləşdirir. "Müqəddəs Ruh", "Müqəddəs Kabus" və ya "Tanrının Ruhu" ifadələrini Əhdi-cədidlə məhdudlaşdıra bilmədiyimiz kimi, eyni ilə bu ifadələrin təsvir etdikləri Allahın rolunu və təzahürünü də məhdudlaşdıra bilmərik. Yaradılış 1:2-dən başlayaraq bütün Əhdi-ətiqddə bu Ruh haqqında qeyd olunduğunu görürük. Peter bizə deyir ki, qədim peyğəmbərlər Müqəddəs Ruh tərəfindən hərəkətə gətirilirdilər (2 Peter 1:21).
Müqəddəs Ruh sadəcə Tanrıdırsa, bu ifadəyə nə üçün ehtiyac var? Səbəb budur ki, bu ifadə Tanrının müəyyən bir cəhətini vurğulayır. Bu ifadə vurğulayır ki, Müqəddəs, hər yerdə mövcud olan və görünməz Ruh hər yerdə bütün insanlar arasında işləyir və insanların qəlbini doldura bilir. Biz Müqəddəs Ruhdan bəhs edərkən, Tanrının insanlar arasındakı görünməz işi və Onun insanları məsh etmək, vəftiz etmək, doldurmaq və insanların həyatlarında sakin

olmaq qabiliyyətini xatırladırıq. Bu termin fəaliyyətdə olan Allahdan bəhs edir: "Allahın Ruhu suların üzərində dolaşırdı" (Yaradılış 1:2). Bu göstərir ki, insanların günaha batmış təbiətlərini bərpa etmək və dünyada Tanrının fövqəlbəşər iradəsini insanlar tərəfdən yerinə yetirmək üçün Tanrı insanlar arasında işləyir. Qeyd edirik ki, Ruh yenidən doğulmağımızda vasitədir (Yəhya 3:5; Titus 3:5).

Müqəddəs Ruh Tanrının Özü olduğuna görə Ruha müraciət etmək üçün “O” və “Onun” əvəzliklərindən düzgün istifadə edirik. Biz tez-tez "Müqəddəs Ruh" və "Müqəddəs Kabus" ifadələrindən "Müqəddəs Ruhla vəftiz olunmanın (və ya ənamının)" qısaldılmış formaları kimi istifadə edirik və bu hallarda onu əvəzedici ad kimi istifadə etmək düzgündür. Bunu edərkən, həmişə Müqəddəs Ruhun Tanrı olduğunu, yəni sadəcə düşüncəsiz bir qüvvə və ya maye olmadığını yadda saxlamalıyıq. Müqəddəs Ruhun düşüncəsiz bir qüvvə olmadığını, əslində Tanrı olduğunu göstərən ayələr burada açıqlanır: Həvarilərin işləri 5:3-4, 9; 20:23, 28; 21:11.

Ruh İsanın adı ilə aşkar edilir və qəbul edilir. O, başqa bir adla gələn, fərqli kimliyi olan fərqli bir şəxs deyil. İsa dedi: “Amma Mənim adımla Atanın göndərəcəyi Təsəlliverici, Müqəddəs Ruh . . ” (Yəhya 14:26). Beləliklə, Müqəddəs Ruh İsanın adı ilə gəlir.

## Ata Müqəddəs Ruhdur

Vahid Tanrı hamının Atasıdır, müqəddəsdir və Ruhdur. Buna görə "Ata" və "Müqəddəs Ruh" titulları eyni varlığı

təsvir edir. Başqa sözlə desək, vahid Tanrı, Ata və Müqəddəs Ruhun iki rolunu eyni anda ifa edə bilər və edir. Müqəddəs yazılar bu həqiqəti dəstəkləyir.

1. Yəhya 3:16-da deyilir ki, Tanrı İsa Məsihin Atasıdır və İsa dəfələrlə Atanı Öz Atası adlandırmışdır (Yəhya 5:17-18). Eləcə də Matta 1:18-20 və Luka 1:35 ayələrində Müqəddəs Ruhun İsa Məsihin Atası olduğu açıq şəkildə göstərilir. Müqəddəs yazıların bu ayələrinə görə, İsa Müqəddəs Ruh tərəfindən bətnə düşdü və nəticədə Tanrının Oğulu doğuldu.

Bətnə düşmənin baş verməsinə səbəb olan şəxs atadır. Tanrının Oğlunun bətnə düşməsi və ya dünyaya gəlməsinə dair bütün Müqəddəs yazı ayələrində Müqəddəs Ruhdan bətnə düşmə prosesində bir vasitə kimi bəhs edilir, aydındır ki, insan övladının Atası Ruhdur; Müqəddəs Ruhun Tanrının Oğlu İsa Məsihin Atası olduğu qənaətinə gəlmək, doğurdan da, ağlabatandır.

2. Yoel 2:27-29 ayələrində Yehova Allahın sözləri yazılmışdır: "Bütün bəşər üzərinə Ruhumu tökəcəyəm". Peter bu ayəni Pentikost günündə Müqəddəs Ruhla vəftizə aid etdi (Həvarilərin işləri 2:1-4, 16-18). Beləliklə, Müqəddəs Ruh Əhdi-ətiqdə olan vahid Yehova Allahın Ruhudur. Yalnız bir Ruh olduğu üçün, aşkar məsələdir ki, Yehovanın Ruhu elə həmin Müqəddəs Ruhdur.

3. Bibliyada Müqəddəs Ruh "Rəbbin Ruhu" (Yeşaya 40:13), Allahın Ruhu (Yaradılış 1: 2) və Atanın Ruhu adlandırılır (Matta 10:20). Yalnız bir Ruh olduğu üçün bütün bu

ifadələr eyni varlığa aid olmalıdır. Müqəddəs Ruh Yehova Allahdan başqa bir kəs deyil, Atadan başqa bir kəs deyil.
Müqəddəs Ruhun Ata ilə eyniləşdirilməsini daha ətraflı öyrənmək üçün bibliyadan aşağıdakı müqayisələrə nəzər salın:
1. Tanrı Ata İsanı ölülərdən diriltdi (Həvarilərin işləri 2:24; Efeslilərə 1:17-20), Ruh isə İsanı ölülərdən diriltdi (Romalılara 8:11).
2. Tanrı Ata ölüləri dirildir (həyat verir) (Romalılara 4:17; 1 Timoteyə 6:13), lakin Sizdə yaşayan Öz Ruhu ilə həyat verəcəkdir (Romalılara 8:11).
3. Ruh bizi övladlığa qəbul edir, yəni O bizim Atamızdır (Romalılara 8: 15-16).
4. Müqəddəs Ruh məsihçinin həyatını doldurur (Yəhya 14:17; Həvarilərin işləri 4:31), Atanın Ruhu ürəkləri doldurur (Efeslilərə 3: 14-16). Bizdə yaşayan Atadır (Yəhya 14:23).
5. Müqəddəs Ruh bizim təsəllivericimizdir (Yəhya 14:26, Yunan sözü olan parakletos), lakin Tanrı Ata bütün sıxıntılarımızda bizə (parakaleo) təsəlli verən hər cür təsəlli (paraklesis) Allahıdır (2 Korinflilərə 1:3-4) .
6. Ruh bizi təqdis edir (1 Peter 1:2), Ata bizi təqdis edir (Yəhuda 1).
7. Hər Müqəddəs yazı Allahdan ilham almışdır (2Timoteyə 3:16), bununla belə Əhdi-ətiq peyğəmbərləri Müqəddəs Ruh tərəfindən hərəkətə gətirilirdilər (2Peter 1:21).

8. Bədənlərimiz Allahın məbədləridir (1 Korinflilərə 3:16-17), bədəniniz Müqəddəs Ruhunun məbədididir (1 Korinflilərə 6:19).
9. Atanın Ruhu təqib zamanı bizə söyləmək üçün sözlər verəcək (Matta 10:20), çünki söyləyən siz deyilsiniz, Müqəddəs Ruhdur (Mark 13:11).
Müqəddəs yazıların bütün bu ayələrindən belə nəticəyə gəlirik ki, Ata və Müqəddəs Ruh vahid Tanrının sadəcə iki fərqli təsviridir. İki ifadə eyni varlığı təsvir edir, lakin Onun sahib olduğu fərqli aspektləri, rolları və ya funksiyaları vurğulayır və ya açıq göstərir.

## İsa Məsihin İlahisi (Tanrısı) Atadır

İsa Məsihdə sakin olan İlahi (Tanrı) Atadan başqa bir kəs deyil. Başqa sözlə, Oğuldakı Ruh Atadır. (Bu məsələnin tam müzakirəsi üçün 4-cü fəsildə "İsa bədəndə gəlmiş Atadır" bölməsinə baxın).

## İsa Məsihin İlahisi (Tanrısı) Müqəddəs Ruhdur

Müqəddəs Ruh İsa Məsihin Ruhu (Filipililərə 1:19) və Oğulun Ruhu adlanır (Qalatiyalılara 4:6). 2 Korinflilərə 3:17-də bir Ruh haqqında danışılır: "Rəbb Ruhdur." NIV bunu daha konkret olaraq "Rəbbin Ruhu" (ayə 18) kimi qeyd edir. Bir sözlə, İsa Məsihdə sakin olan, yaşayan Ruh Müqəddəs Ruhdan başqa bir varlıq deyil. Oğuldakı Ruh Müqəddəs Ruhdur.
Aşağıda Məsihin Ruhunun Müqəddəs Ruh olduğunu daha aşkar göstərən bəzi paralel ayələr verilmişdir.

1. Məsihin Ruhu qədim peyğəmbərlərdə idi (1 Peter 1:10-11), lakin Allahın müqəddəs insanları Müqəddəs Ruh tərəfindən hərəkətə gətirilərək danışırdılar (2 Peter 1:21).
2. İsa Ona iman gətirən insanları son gündə ölülərdən dirildəcək (Yəhya 6:40), Ruh ölüləri dirildəcək (onlara həyat verəcəkdir) (Romalılara 8:11).
3. Ruh Məsihi ölülərdən diriltdi (Romalılara 8: 9-11), eyni zamanda İsa Özünü ölülərdən dirildəcəyini söylədi (Yəhya 2: 19-21).
4. Yəhya 14:16-da deyilir ki, Ata başqa bir Təsəlliverici, yəni Müqəddəs Ruhu verəcəkdir, lakin Yəhya 14:18-də İsa dedi: "Sizi yetim qoymaram: sizin yanınıza gələcəyəm". Başqa sözlə, digər təsəlliverici başqa bir formada İsadır, yəni bədəndə yox, Ruhdadır. İsa bunu 17-ci ayədə izah etdi və dedi ki, Təsəlliverici artıq yanınızda durur və tezliklə sizin daxilinizdə olacaqdır. Başqa sözlə, Müqəddəs Ruh İsa Məsihin şəxsində onlarla idi, lakin Müqəddəs Ruh, İsa Məsihin Ruhu tezliklə onların daxilində olacaqdır. İsa bu məqamı Yəhya 16:7-ci ayədə də izah edərək dedi ki, O getməlidir, yoxsa Təsəlliverici sizin yanınıza gəlməz. Niyə? İsa cismani bədəndə onlarla olduğu müddətdə ruhən ürəklərində olmayacaqdı, ancaq O, fiziki olaraq getdikdən sonra öz Ruhunu onlarla birlikdə olmaq üçün göndərdi.
5. Müqəddəs Ruh məsihçilərin qəlbində yaşayır (Yəhya 14:16), eyni zamanda İsa dövrün sonuna qədər hər gün davamçıları ilə birlikdə qalacağını vəd etdi (Matta 28:20). Eynilə, iman gətirənlər Müqəddəs Ruhla dolur (Həvarilərin

işləri 2:4, 38), lakin bizdə yaşayan Məsihdir (Koloslulara 1:27).
6. Efeslilərə 3:16-17 ayələrində deyilir ki, daxili varlığınızda Onun Ruhuna malik olmaqla Məsih ürəklərinizdə yaşayır.
7. Məsih imanlılar cəmiyyətini təqdis edir (Efeslilərə 5:26), bunu Ruh edir (1 Peter 1:2).
8. Müqəddəs Ruh Yəhya 14:26-cı ayəsində vəd edilmiş parakletosdur (Bu yunan sözü KJV-də "Təsəlliverici" kimi tərcümə olunur), eyni zamanda 1Yəhya 2:1-ci ayədə İsa bizim parakletosumuzdur (eyni yunan sözü KJV-də"Müdafiəçi" kimi tərcümə edilmişdir). Qeyd etməliyik ki, eyni insan yazıçısı - həvari Yəhya bu ayələrin hər ikisini qələmə almış, ehtimal ki, o, bu paraleldən xəbərdar idi.
9. Ruh bizim vəsatətçimizdir (şəfaətçimizdir ) (Romalılara 8:26), eyni zamanda İsa da bizim vəsatətçimizdir (şəfaətçimizdir) (İbranilərə 7:25).
10. Müqəddəs Ruh təqib zamanı bizə söyləmək üçün sözlər verəcəkdir (Mark 13:11), eyni zamanda İsa da bunu edəcəyini söylədi (Luka 21:15).
11. RSV və NIV tərcümələrinin hər ikisinə baxanda görürük ki, Həvarilərin işləri 16:6-7-ci ayələrində Müqəddəs Ruh İsanın Ruhu ilə bərabərləşdirilir.

## Ata, Oğul və Müqəddəs Ruh

Aydındır ki, "Ata", "Oğul" və "Müqəddəs Ruh" ifadələri üç fərqli şəxs, şəxsiyyət, iradə və ya varlığı ifadə edə bilməz. Bu ifadələr yalnız bir Ruh varlığın - vahid Tanrının fərqli cəhətlərini və ya rollarını ifadə edə bilərlər. Bunlar

Tanrıçılıqdakı şəxsləri deyil, Tanrının bəşəriyyətə olan münasibətlərini təsvir edir. Tanrının Yaradan, ruhların Atası, yenidən doğulmuş imanların Atası və bəşər İsa Məsihin Atası kimi rollarını vurğulamaq üçün "Ata" kəlməsindən istifadə edirik. Biz "Oğul" sözündən insan İsa Məsihi və daha sonra xilasımız üçün bədəndə zühur etmiş Allahı bildirmək üçün istifadə edirik. Müqəddəs Ruh ifadəsindən istifadə etməklə dünyada və insanlar arasında Tanrının fəaliyyətdə olan qüdrətini, xüsusən də təkmilləşmə və böyümə prosesindəki işini vurğulamış oluruq.
Qeyd etməliyik ki, bu üç titul Tanrının malik olduğu yeganə titullar deyil. Tanrı üçün bir çox başqa titul və ya adlar çox əhəmiyyətlidir, Rəbb (Yehova), Rəbb, Kəlam, Qüdrətli Tanrı və İsrailin Müqəddəsi kimi ifadələr də daxil olmaqla bibliyada bu titul və adlara tez-tez rast gəlinir. Vahidlik görüşü Ata, Oğul və ya Müqəddəs Ruhu inkar etmir, lakin bu terminlərin Tanrıçılıqdakı şəxsləri müəyyən etməsi fikrini təkzib edir. Allahın bir çox titulu var, ancaq O bir varlıqdır. O, mövcudluğu baxımından bölünməzdir, lakin Özünü insanlara aşkar etməsi bir çox yollar, o cümlədən Ata, Oğul və Müqəddəs Ruh kimi vəhyi vasitəsilə ifadə edilmişdir.
Bu fəsildə bir neçə dəfə istifadə etdiyimiz Efeslilərə 3:14-17 ayələrində Atanın, Ruhun və Məsihin yalnız təsvir edilən mənada bir olduğu göstərilir. "Bu səbəbdən, göylərdə və yer üzündə hər ailənin Ondan ad aldığı Atanın, Rəbbimiz İsa Məsihin Atasının qarşısında diz çökürəm ki,

O Öz izzətinin zənginliyinə görə, daxili varlığınızda Öz Ruhu ilə qüvvətli şəkildə möhkəmlənmənizi təmin etsin ki, Məsih iman vasitəsilə ürəklərinizdə yaşasın." KJV tərcüməsində "Onun Ruhu" ifadəsi Atanın Ruhu və ya Məsihin Ruhunu bildirməsi ilə bağlı birmənalı fikir ortaya qoymur. NIV, TAB, RSV və Nestle'nin yunan mətni "Onun" sözünün "Ata" ilə əlaqəli olduğunu aydın göstərir. Beləliklə, bu parçada məsihçinin qəlbindəki Ruh Atanın Ruhu və həmçinin Məsihin Ruhu kimi müəyyənləşdirilir. Ata, Məsih və Ruh hamısı bir bölünməz Tanrıya aiddir.

Müqəddəs yazı ayələrinin hansı parçasında Tanrıçılıqda birdən çox şəxsin təsvir edilməsi məsələsi ortaya çıxır? Görünür, bu yanaşma Tanrıçılıqda birdən çox şəxsin olduğuna inanan insanların illərlə istifadə etməsinə görə olmuşdur. Hər hansı bir şəxs bütün süni şərhlər, izahlar və doktrinalardan düşüncələrini təmizləyirsə, bu ayələri orijinal yazıçıların (mömin, monoteist yəhudilərin) gözləri ilə nəzərdən keçirirsə, həmin şəxs anlayacaq ki, bu ayələr ya Tanrının bir çox atributlarını və rollarını və ya İsa Məsihin ikili təbiətini  təsvir edir. (Müqəddəs Yazının xüsusi ayələrinin bu mövzuda müzakirəsi üçün 7, 8 və 9-cu fəsillərə baxın.)

Bütün bibliyada yalnız iki ayədə Ata, Oğul (və ya Kəlam) və Müqəddəs Ruh barəsində elə bir formada fikir qeyd edlir ki, bu ayələrdə üç şəxsin olduğu və ya Tanrıçılığa münasibətdə üç rəqəminin xüsusi bir əhəmiyyət kəsb etdiyi irəli sürülə bilər. Bunlar Matta 28:19 və 1 Yəhya 5:7

ayələridir. Ancaq bu ayələrin hər ikisi trinitar görüş üçün ciddi problemlər ortaya qoyur.

**Matta 28:19**

*"Beləliklə, gedin, bütün xalqları şagirdlərim edin, onları Ata,Oğul və Müqəddəs Ruh naminə vəftiz edin"*.

Bu parçada İsa şagirdlərinə "Ata və Oğul və Müqəddəs Ruh naminə (adı ilə)" vəftiz etmələrini əmr etdi. Lakin Müqəddəs yazıların bu ayəsi Ata, Oğul və Müqəddəs Ruhun üç ayrı şəxs olduğunu öyrətmir. Əksinə, bu ayə Ata, Oğul və Müqəddəs Ruh titullarının bir ad və bir varlıq olduğunu öyrədir. Ayədə açıq şəkildə "adları ilə" yox, "adı ilə" ifadəsi işlənmişdir.

Tək-cəm fərqinin əhəmiyyətli olması və ya Tanrı tərəfindən bilərəkdən planlaşdırılması şübhəsinə cavab vermək üçün Qalatiyalılara 3:16-cı ayəni oxumaq lazımdır. Həmin ayədə Pavel Yaradılış 22:18-dəki "sənin nəslin" ifadəsinin təkdə olmasının əhəmiyyətini vurğulayır. Bir çox trinitar alimlər Matta 28:19-cu ayədəki tək formanın əhəmiyyətini ən azı qismən qəbul ediblər. Məsələn, Presviterian denominasiyasından olan professor Ceymz Busvell qeyd etmişdir ki, Atanın, Oğulun və Müqəddəs Ruhun "adları" ilə yox, ''adı" ilə vəftiz olunmağımız Üçvəhdət Tanrının adı olan Yahveh başa düşülməlidir. "[1]
İsmin tək forması barədə onun anlayışı düzgündür, lakin təkdə olan adın identifikasiyası səhvdir. Yehova və ya Yahveh Əhdi-ətiqdə Tanrının aşkar edilmiş adıdır, İsa isə Əhdi-cədiddə Tanrının aşkar edilmiş adıdır. Ancaq İsa

adına Yehovanın adı daxildir, çünki İsa Yehova-Xilaskar deməkdir.
Ata, Oğul və Müqəddəs Ruh hamısı bir Tanrını təsvir edir, buna görə Matta 28:19-dakı ifadə sadəcə bir Tanrının tək adını təsvir edir. Əhdi-ətiqdə vəd verilmişdi ki, Yehovanın bir adı olacağı və bu adın məlum olacağı bir vaxt gələcək (Zəkəriyyə 14:9; Yeşaya 52:6). Bilirik ki, Matta 28:19-dakı o bir ad İsadır, çünki İsa Atanın (Yəhya 5:43; İbranilərə 1:4), Oğulun (Matta 1:21) və Müqəddəs Ruhun (Yəhya 14 : 26) adıdır. Əhdi-cədidə əsaslanan imanlı cəmiyyəti bunun belə olmasını başa düşdü, çünki İsa Məsihin adı ilə vəftiz edirdilər (Həvarilərin işləri 2:38; 8:16; 10:48; 19:5; 1 Korinflilərə 1:13). Peter vəz (xütbə verib) edib insanlara İsa Məsihin adı ilə vəftiz olunmağı əmr edən zamanı Mattanın özü Peterin və digər həvarilərin yanında duraraq bu təfsiri təsdiqlədi (Həvarilərin işləri 2:14-38).
Bəziləri iddia edirlər ki, Həvarilərin işlərindəki istinadlar, həqiqətən, İsa adının vəftiz mərasiminin bir hissəsi olaraq şifahi şəkildə ifadə edilməsi demək deyildir. Ancaq bu, səhv bir doktrinaya və təcrübəyə uyğunlaşmaq üçün dili təhrif etmək cəhdi kimi görünür. Həvarilərin işləri 22:16 ayəsində deyilir: "Qalx, vəftiz ol və Rəbbin adını zikr edərək (çağıraraq) öz günahlarını yu". Gücləndirilmiş (Amplified) bibliyada deyilir: "Qalx və vəftiz ol və Rəbbin adını zikr etməklə (çağırmaqla) öz günahlarını yu". Sətiraltı yunan-ingilis Əhdi-cədiddə "Adını elan et" deyilir. Buna görə Müqəddəs yazıların bu ayəsi İsa adının vəftiz zamanı şifahi olaraq elan edilməsini göstərir. Yaqub 2:7-də deyilir:

"Aid olduğunuz Şəxsin nəcib adına küfr edən onlar deyilmi?" Yunan ifadəsi məsihçilər üzərində bu adın müəyyən bir vaxtda elan edilməsini göstərir. Beləliklə, TAB tərcüməsində deyilir, "fərqləndirildiyiniz və [vəftizdə elan etdiyiniz Məsihin adı] çağırıldığınız qiymətli ada böhtan atan və küfr edənlər onlar deyilmi?" (mötərizələr orijinalda).

"İsanın adı ilə" nə demək olduğunu misal olaraq göstərmək üçün yalnız Həvarilərin işləri 3-cü fəsildə bir çolağın sağalması hekayəsinə baxmaq lazımdır. İsa xəstələr üçün Öz adı ilə dua etməyi söylədi (Mark 16:17-18). Peter dedi ki, çolaq adam İsanın adı ilə şəfa tapdı (Həvarilərin işləri 4:10). Bu necə baş verdi? Peter əslində "İsa Məsihin adı ilə" sözlərini şifahi olaraq səsləndirdi (Həvarilərin işləri 3:6). İmanla elan edilən İsa adı nəticə hasil etdi. Ad qüdrət və ya səlahiyyət deməkdir, lakin adın bu mənası Peterin İsanın adını elan edib şəfa vermək faktını kiçiltmir. Həvarilərin işləri kitabındakı İsanın adı ilə su vəftizinə aid bir çox ayələr bir vəftiz qaydasını təsvir etmirsə, onda eyni ilə Matta 28:19 ayəsi də bir formula (qayda) göstərmir. Bu təfsir, məsihçi vəftizini yəhudi prozelti və bütpərəst vəftizindən fərqləndirmək üçün imanlılar cəmiyyətini hansısa bir vəftiz qaydasından məhrum edəcəkdir. Ancaq Rəbb bizə vəftiz qaydasını verdi; həvarilər İsanın adını su vəftizində istifadə etdikləri zaman imanlılar cəmiyyəti İsanın Matta 28:19-da verdiyi tapşırıqları yerinə yetirmiş oldular.

Bir çox ensiklopediyalar və kilsə (imanlı cəmiyyəti) tarixçiləri razılaşırlar ki, erkən kilsə tarixindəki orijinal vəftiz etmə qaydası "İsanın adı" ilə yerinə yetirilirdi. Məsələn, Lüteran professoru Otto Heik demişdir, "Əvvəlcə vəftiz İsanın adı ilə, lakin tədricən Üçvəhdət Tanrı olan Ata, Oğul və Müqəddəs Ruh adı ilə həyata keçirilirdi"[2]. Bu qələmin yanlışlığı deyildi, çünki sonradan o, öz fikrini təsdiqlədi: "Əvvəlcə vəftiz Məsihin adı ilə olurdu"[3].
Matta 28:19 ayəsindəki məlum bir adın İsa kimi təfsiri bu ayənin aid olduğu hadisələrin tam təsvirində daha çox dəstək tapır. Matta 28:18-19-da İsa dedi: “Göydə və yer üzündə bütün hakimiyyət Mənə verilmişdir. Beləliklə, gedin və bütün xalqları şagirdlərim edin, onları Ata, Oğul və Müqəddəs Ruh naminə (adı ilə) vəftiz edin”. Başqa sözlə, İsa dedi: "Bütün hakimiyyət məndədir, buna görə mənim adımla vəftiz edin." Bu parçadakı ayə "Bütün hakimiyyət mənə verilmişdir, beləliklə, üç fərqli şəxsin adı ilə vəftiz edin" fikrini bildirsəydi, onda həmin parçanın məntiqi təhrif olunmuş olardı. Böyük tapşırıqla bağlı digər müjdələrdə İsanın adı mühüm yer tutur (Mark 16:17; Luka 24:47). Mattadakı "Ata, Oğul və Müqəddəs Ruh adı", Markda "mənim adımla" və Lukada "onun adı ilə" ifadə formalarının hamısı İsanın adına aiddir.
Su vəftizinin keçmiş günahlı həyatımıza görə yerinə yetirildiyini unutmamalıyıq; bu "günahların bağışlanması" üçündür (Həvarilərin işləri 2:38). İsanın adı yeganə xilas edən ad olduğundan (Həvarilərin işləri 4:12), bu adın

vəftizdə istifadə edilməsi məntiqlidir. İsanın Özü günahların bağışlanmasını Öz adı ilə əlaqələndirdi: "Və Yerusəlimdən başlayaraq, bütün xalqlara günahların bağışlanması üçün Onun naminə (adı ilə) tövbə təbliğ ediləcəkdir" (Luka 24:47).Matta 28:19-da bir Tanrıda üç şəxs barədə öyrədilmir, əksinə Tanrının üç titulu verilir, bunların hamısı məxsusilə İsaya aiddir. Bu titullar Tanrının müxtəlif rollarını və ya Onun vəhyinin rejimlərini özündə cəmləşdirir; ayədə "ad" sözünün təkdə işlədilməsi Əhdi-cədiddə bildirilən Tanrının məlum bir adına fokuslanır. Bu ad İsadır. Allahın adının İsa olduğuna dair bu təfsirə dair növbəti açıqlama Vəhy 14:1 ilə 22:3-4 ayələrinin müqayisəsindən irəli gəlir. Ata, Tanrı və Quzunun bir adı var. Quzu İsadır, buna görə İsa Tanrının və Atanın adıdır.

**1 Yəhya 5:7**

*“Ona görə ki, 3 şahid vardır. Ruh, su və qan. Üçü də bir-birinə mütabiqdir(uyğundur)”.*
*”Ona görə ki, göydə 3 şahid vardır: Ata, Kəlam və Müqəddəs Ruh; bunların üçü də birdir” (İncilin latınca tərcümələrinin bəzi mətnlərində 7-ci ayəyə şərh olaraq bu sözlər əlavə edilmişdir).*

Müqəddəs yazıların bu ayəsindən çox vaxt Tanrının üç şəxsinə iman gətirənlər istifadə etsələr də, əslində ayə bu fikri rədd edir, çünki ayədə deyilir ki, “bunların üçü də birdir”. Bəziləri bu ifadəni izah edərək ər və arvad bir olduğu kimi bunun da vəhdətdə bir olmaq mənasını

verdiyini qeyd edirlər. Lakin bu görüşün əslində politeist olmasını göstərmək lazımdır. Əgər bir kəlməsi rəqəmsal mənaya yox, vəhdətə işarə edirsə, onda Tanrıçılıq birləşmiş şurada və ya hökumətdə çoxlu tanrılar kimi nəzərdən keçirilə bilər. Vəhdət nəzərdə tutulsaydı, ayə bu cür oxunmalı idi: "Bu üçü bir-birinə mütabiqdir (uyğundur)."
Bu ayədə Oğul sözündən yox, Kəlam sözündən istifadə edilməsi də maraqlıdır. Əgər Oğul Tanrıçılıqda fərqli bir şəxsin xüsusi adı olsaydı, və əgər bu ayə fərqli şəxslər barədə təlim vermək istəsəydi, onda nəyə görə bu ayədə "Oğul" sözü yerinə "Kəlam" sözü istifadə edilib? Oğul ilkin mənasında heç də ilahilikdən bəhs etmir, Kəlam isə ilahiliyə istinad edir. Kəlam heç də Atadan fərqli bir insan deyil, eləcə də insan və onun sözü ayrı-ayrı şəxslər deyil. Əksinə, "Kəlam" Tanrının düşüncəsi, planı və ya ağlıdır və eyni zamanda Tanrının ifadəsidir.
Bənzər bir şəkildə, Müqəddəs Ruh və ya Müqəddəs Kabus Atadan fərqli bir şəxs olmadığı kimi, insan və onun ruhu da fərqli şəxslər deyildir. "Müqəddəs Ruh" yalnız Tanrının kim olduğunu təsvir edir. 1 Yəhya 5:7-də deyilir ki, göydə 3 şahid vardır; yəni Tanrı özü barədə üç fəaliyyət rejimində şəhadətlik edib və ya özünü üç yolla aşkar edib. Ən azı Onun üç səmavi rolu var: Ata, Kəlam (Oğul yox) və Müqəddəs Ruh. Üstəlik, bu üç rol bir Tanrını təsvir edir: “bu üçü birdir”.*

## Qeyd

*Biz 1Yəhya 5:7-ci ayəni Müqəddəs yazıların qalan hissəsinə uyğun şəkildə izah etdik. Ancaq bibliya üzrə alimlər arasında bu ayənin, həqiqətən, bibliyanın bir hissəsi olmadığı barədə praktik olaraq birmənalı fikir mövcuddur! KJV (King James Version - Kinq Ceymzin tərcümə etdiyi bibliyadan söhbət gedir) tərcüməsindən sonra bütün əsas tərcümələr, o cümlədən Yenidən işlənmiş standart versiya (Revised standard version), Gücləndirilmiş bibliya (Amplified bible) və Yeni Beynəlxalq Versiya (NİV) bunu buraxmışdır. Ümumi olaraq qəbul edilən yunan mətnində (Nestle'nin mətni) də belədir. NIV tərcüməsində 1 Yəhya 5: 7-8-i belə ifadə edilir: “Ona görə ki, üç şahid vardır: Ruh, su və qan; üçü də bir-birinə mütabiqdir (uyğundur)".

7-ci ayə Erazmın (Erasmusun) tərtib etdiyi Yunan mətninin 1522-ci il buraxılışına (nəşrinə) daxil olduğu üçün KJV tərcüməsi də 7-ci ayəni daxil etmişdir. Əvvəlcə Erazm bu hissəni 1516 və 1519-cu illərdəki nəşrlərindən çıxartmışdı, çünki bu, 5000 yunan əlyazmasının heç birində yox idi, yalnız Valqeytin (Vulgate) sonrakı əlyazmalarında - Roma Katolik Kilsəsi tərəfindən istifadə edilən Latın dili versiyasında var idi. Katolik kilsəsi bu ayəni daxil etmək üçün Erazma təzyiq etdikdə, o söz verdi ki, onlar bu ayənin olduğu hətta bir yunan əlyazmasını tapa bildikləri təqdirdə, o bunu daxil edəcək. Nəhayət, onlar birini ortaya çıxartdılar, buna görə də ortaya qoyduqları əlyazmanın 1520-ci ilə aid olmasına baxmayaraq Erazm ayəni

könülsüz olaraq əlavə etdi. (Baxın: Norman Qeisler və Villiam Niks, Bibliyaya ümumi giriş, Çikaqo: Moody Press, 1968, 370.) Bu dəlildən inandırıcı görünür ki, bəzi həddən artıq çalışqan xəttatlar gördülər ki, "3 şahid var" və buna görə qərara aldılar ki, özlərinə aid olan kiçik bir təlimi daxil etsinlər. Şübhəsiz ki, müzakirə olunan hissə Yəhyanın digər müzakirələri ilə tamamilə əlaqəli deyil və onun məntiqi arqumentinin axınına mane olur.
Bütün dəlillər bu hissənin əvvəlcə 1 Yəhya kitabının bir hissəsi olmadığını göstərirsə də, Tanrı Öz Kəlamını qoruyub saxlama gücünə malik olub. İnsanların səylərinə baxmayaraq, Tanrı bu parçanın bütün Müqəddəs yazılara zidd olmasına imkan vermədi. Bir şəxsin 1Yəhya 5:7-ci ayəsinin orijinalda bibliyanın bir hissəsi olduğuna və ya sonradan əlavə olunduğuna inanmasından asılı olmayaraq, bu ayə Tanrının üç şəxsi barədə təlim vermir, əksinə müxtəlif təzahürləri olan bir bölünməz Tanrı haqqında bibliyanın təlimini təsdiqləyir.

### Tanrı üç təzahürlə məhdudlaşırmı?

Bu fəsildə biz Tanrının üç görkəmli zühurunu müzakirə etdik. Bu, Tanrının bu üç rolla məhdudlaşması deməkdirmi? "Ata", "Oğul" və "Müqəddəs Ruh" ifadələri var olan Tanrı ilə bağlı bütün məsələləri əhatə edirmi? Bu təzahürlərin Əhdi-cədiddəki satınalma və xilas planında məxsusi yer almasına baxmayaraq, görünür, Tanrı bu üç rol, titul və ya təzahür ilə məhdudlaşa bilməz. Tanrı Özünü Əhdi-ətiqdə bir çox şəkildə təzahür etdirdi. İnsan və mələk

formaları da daxil olmaqla O, bir çox teofaniyalarda özünü ortaya qoydu. (Fəsil 2-ə baxın.) Bibliyada Tanrının bir çox başqa ad və titullarından istifadə olunur. Məsələn, "RƏBB" (Yehova) və "Rəbb" İncildə tez-tez rast gəlinir. Tanrı bir çox digər münasibətlərdə də özünü insanlara göstərmişdir. Məsələn, O, Padşah, Ağa, Bəy, Ər, Qardaş, Həvari, Baş Kahin, Quzu, Çoban və Kəlamdır. Ata, Oğul və Müqəddəs Ruh Tanrının üç vacib rolunu, titulunu və ya təzahürlərini təmsil etsələr də, Tanrı bu üçlə məhdudlaşmır, eyni ilə üç rəqəminin Tanrıya münasibətdə xüsusi əhəmiyyəti yoxdur.

Ata, Oğul və Müqəddəs Ruhun populyar izahı budur ki, özünü yaradılışda Ata, satınalmada (xilasda) Oğul və yenidən yaranmada (dirçəlişdə) Müqəddəs Ruh kimi Özünü aşkar edən (tanıtdıran) bir Tanrı var.

Bu üç təzahürün tanınması Tanrının üç təzahürdə məhdudlaşdığını və ya Tanrının təbiətində bir üçlüyün mövcud olduğunu bildirmir. Üstəlik, bir təzahür digərindən tamamilə fərqlənmir. Məsələn, Allah yaradılışda Müqəddəs Ruh idi və Yaradılışda Ruh kimi rolundan istifadə etdi (Yaradılış 1:2). Bundan əlavə, Allah Oğul rolundan istifadə etdi, yəni hələ yaradılışda gələcək Oğul planına bağlı idi (İbranilərə 1: 2). (5-ci fəsildə Oğulun və yaradılışın müzakirəsinə və 7-ci fəsildə Yaradılış 1:26-ın müzakirəsinə baxın.) Yeni yaranmada (yeniləşmədə), eləcə də yaradılışda Tanrı bizim Atamızdır, çünki yenidən doğulmaqla biz Tanrının ruhani övladları oluruq.

Biz Tanrını üç rəqəmi və ya xüsusi rol və titullar hesabı ilə digər rəqəmlə məhdudlaşdıra bilmərik. Nə də Onu kəskin şəkildə bölə bilərik, çünki O, birdir. Hətta onun titulları və rolları üst-üstə düşür. O, Özünü bir çox yollarla göstərə bilər, ancaq vahid və yeganə tək varlıqdır.
Onda, Tanrının hər şey olduğunu təsvir edən bir şəkildə Ona necə müraciət edə bilərik? Hansı ad Tanrıya aid bir çox rol və xüsusiyyətləri özündə ehtiva edir? Əlbəttə ki, sadəcə Tanrı və Əhdi-ətiqdəki adı olan Yehova terminindən istifadə edə bilərik. Ancaq bizə yeni bir ad - İsa adı aşkar edilmişdir. İsanın adını istifadə edərkən, Tanrıya aid hər şeyi əhatə edirik. İsa Ata, Oğul və Ruhun vəhyidir. İsa Yehovanın bütün mürəkkəb adlarını özündə cəmləşdirir. İsa Tanrı olan hər şeydir. Allahın malik olduğu hansı rol və təzahür olursa olsun, hamısı İsadadır (Koloslulara 2:9). Biz İsa adını Tanrının Özü üçün istifadə edə bilərik, çünki bu ad Tanrının xarakterinin, xüsusiyyətlərinin və özünü-vəhyinin məcmusunu göstərir.

## Nəticə

Bibliya Ata, Oğul və Müqəddəs Ruhdan Tanrının fərqli təzahürləri, rolları, rejimləri, titulları, xüsusiyyətləri, insanlarla münasibətləri və ya tək Tanrının funksiyaları kimi bəhs edir, ancaq Ata, Oğul və Müqəddəs Ruha üç şəxs, şəxsiyyət, iradə, ağıl və ya Tanrı kimi istinad etmir. Tanrı hamımızın Atası və bənzərsiz bir şəkildə insan İsa Məsihin Atasıdır. Tanrı Özünü Allahın Oğlu adlandıran İsa Məsihin şəxsində bədəndə göstərdi. Tanrı həmçinin

Müqəddəs Ruh adlanır, bu Ruh insan həyatında və işlərində Tanrının fəaliyyətini vurğulayır.
Tanrı bu üç təzahürlə məhdudlaşmır; lakin vahid Tanrının izzətli vəhyində Əhdi-Cədid Əhdi-ətiqdəki ciddi monoteizmdən qəti yayınmır. Əksinə bibliya İsanı Ata, Oğul və Müqəddəs Ruhun vəhyi kimi təqdim edir. İsa yalnız Tanrıçılıqdakı üç şəxsdən birinin təzahürü deyil, lakin O, Atanın, Əhdi-Ətiqdəki Yehovanın inkarnasiyasıdır. Həqiqətən, ilahi təbiətin bütün dolğunluğu bədəncə İsada yaşayır.

## SON QEYDLƏR FƏSİL 6

[1]Ceymz Busvell, Jr., Məsihçilik dininin sistematik teologiyası (Miçiqandakı Qrand Rapids şəhəri: Zondervan(beynəlxalq məsihçi media və nəşriyyat şirkəti), 1980) 1:23.
[2]Heik 1:53. Həmçinin bax “Vəftiz (Erkən Məsihçi),” *Din və etika ensiklopediyası* 2:384, 389.
[3]Heik 1:87.

# 7 ƏHDİ ƏTİQ İZAHATLARI

Əvvəlki fəsillərdə biz Tanrı haqqında bibliyanın əsas həqiqətlərini təqdim etdik. Onun mahiyyətcə bir olduğunu və Tanrının bütövlüyünün İsada yaşadığını təsdiq etdik. Bu fəsildə isə bəzi adamların bu əsas həqiqətlərə qarşı qoymaq cəhdi ilə istifadə etdikləri Əhdi-cədidin bir neçə yerlərini müzakirə edəcəyik. Biz bu ayələrin bibliyanın qalan hissələrinə zidd olmadığını, əksinə uyğunlaşdığını göstərmək üçün araşdıracağıq. 8-ci və 9-cu fəsillərdə Əhdi-cədidin bəzi ayələri ilə bağlı eyni yanaşma ortaya qoyulur.

## Elohim

Ən çox istifadə olunan Tanrının ibrani kəlamı Elohimdir. Bu, demək olar ki, Əhdi-ətiqin hər bir parçasında istifadə olunan orijinal sözdür, bunun ingiliscə variantı üçün "God", azərbaycanca variantı üçün Tanrı (Allah) sözünü görürük. Elohim "Eloah" ibrani sözünün cəm formasıdır ki, bu da Allah (Tanrı) və ya ilahi deməkdir.

Əksər alimlər razılaşırlar ki, cəm forması olan Elohim sözünün istifadəsi Tanrının böyüklüyünü və ya Onun çoxlu keyfiyyətlərini göstərir; bu heç də şəxslərin və ya şəxsiyyətlərin çoxluğunu ifadə etmir. Əlbəttə ki, yəhudilər cəm formasını özlərinin güclü monoteizm təliminə kompromis kimi görmürlər. Flanders və Kresson izah edirdilər ki, İvrit dilində cəm formasının istifadəsi çoxluq göstərməkdən başqa müəyyən bir funksiyaya malikdir: “Elohim sözünün forması cəmdədir. İbranilər böyüklük və əzəmət ifadə etmək üçün isimləri cəmdə verirdilər.”[1]

Bibliyada Elohim sözünün cəm formada işlədilməsini başa düşməyin yeganə yolu belədir; bu söz vahid Tanrıya istinad etməklə, Elohim ilə işlənən fellərin tək formasından istifadə etməklə və yalnız bir insanı və ya şəxsiyyəti təsvir edən vəziyyətlərdə Elohimdən istifadə etməklə Tanrıçılıqdakı çoxluğu yox, Tanrının əzəmətini ifadə edir. Məsələn, Elohim, Tanrının insan şəklində Yaquba tək formada təzahürləri ilə müəyyən olunur (Yaradılış 32:30). İsraillilər səhrada düzəltdikləri qızıl buzov üçün elohim sözündən istifadə etdilər (Çıxış 32: 1, 4, 8, 23, 31), lakin bibliyada yalnız bir qızıl buzovun olduğu

açıqlanır (Çıxış 32: 4, 4). 5, 8, 19-20, 24, 35). Əhdi-ətiqdə tez-tez Baalberit (Hakimlər 8:33), Kemoş (Hakimlər 11:24), Daqon (Hakimlər 16:23), Baalzebub (2 Padşahlar 1:2-3) və Nisrok (2 Padşahlar 19:37) üçün elohimdən istifadə edir. Bibliya hətta Elohimi İsa Məsihə aid edir (Məzmur 45: 6; Zəkəriyyə 12: 8-10; 14: 5) və heç kim İsada çoxlu sayda şəxsin olduğunu düşünmür. Elohim kəlməsi tanrıçılıqda üç nəfər şəxsin olmasına işarə etmir.
Yalnız Elohim adlanan bir nəfər Yaqubla mübarizə apardı, yalnız bir qızıl buzov elohim adlandırıldı və bir Rəbb İsa Məsih bədəndə zühur edən Tanrıdır.

Yaradılış 1:26

“Sonra Allah dedi: “Öz surətimizə və bənzərimizə görə insanı yaradaq” (Yaradılış 1:26).

Bibliya hətta Elohimi İsa Məsihə aid edir (Məzmur 45: 6; Zəkəriyyə 12: 8-10; 14: 5) və heç kim İsada çoxlu sayda şəxsin olduğunu düşünmür. Elohim kəlməsi tanrıçılıqda üç nəfər şəxsin olmasına işarə etmir.
Niyə bu ayədə Tanrı üçün cəm əvəzliyi istifadə olunur? Buna cavab verməzdən əvvəl, qeyd edək ki, bibliyada Allaha aid yüz dəfələrlə tək əvəzlikləri istifadə olunur. Sonrakı ayədə Allahın Yaradılış 1:26-cı ayəni necə yerinə yetirdiyini göstərmək üçün ismin tək formasından istifadə olunur: "Allah insanı Öz surətində yaratdı" (Yaradılış 1:27). Yaradılış 2:7-də deyilir: "Rəbb Allah yerin torpağından insanı yaratdı." Buna görə də Yaradılış 1:26 ayəsindəki

ismin cəm formasını 1:27 və 2:7 aylərindəki ismin tək forması ilə üzləşdirməliyik. Allahın surət varlığına da (insana) baxmalıyıq. İnsanı yaradan müxtəlif komponentləri necə müəyyənləşdirməyimizdən asılı olmayaraq, o, bir şəxsiyyətə və iradəyə malikdir. O, hər cəhətcə bir insandır. insanların Yaradanın surətində yaradılması göstərir ki, Yaradan da bir şəxsiyyət və iradə ilə tək bir varlıqdır.
Yaradılış 1:26-cı ayəsinin Tanrının birdən çox şəxs kimi mövcud olması formasında təfsiri ciddi çətinliklərə gətirib çıxardır. Yeşaya 44:24-də deyilir ki, Rəbb göyləri tək yaydı və təkbaşına yeri üzünü sərdi. Malaki 2:10 ayəsinə görə yalnız bir Yaradan var. Bundan əlavə, Yaradılış 1:26-dakı cəm forması Allahın Oğluna aiddirsə, onda bu fikri Oğulun minlərlə il sonra Beytlehmdə doğulması barədə danışan Müqəddəs Yazılarla necə uyğunlaşdıra bilərik? Oğul bir qadından doğuldu (Qalatiyalılara 4:4); əgər Oğul başlanğıcda mövcud idisə, Onun anası kim idi? Əgər Oğul bir Ruh varlıq idisə, Onun ruh anası kim idi?
Yaradılış 1: 26 Tanrıçılıqda iki və ya daha çox şəxsin olması mənasını verə bilmədiyindən onda bu nəyi bildirir? Yəhudilər bunu ənənəvi olaraq Tanrının yaradılışda mələklərlə danışdığı kimi yozurlar.2 Bu, mələklərin əslində yaradılışda iştirak etdiyini ifadə etmir, lakin Tanrının Öz planları barədə onlara məlumat verdiyini və nəzakət və hörmət xatirinə izahatlarını istədiyini bildirir. Ən azından başqa bir yerdə Tanrı mələklərlə söhbət etdi və Öz planlarının tərtibi məsələsində fikirlərini soruşdu (1

Padşahlar 22:19-22). Bilirik ki, mələklər yaradılışda olublar (İş 38: 4-7).
Digər şərhçilər belə bir fikir irəli sürüblər ki, Yaradılış 1:26-da Allahın Öz iradəsi ilə məsləhətləşdiyi təsvir olunur. Efeslilərə 1:11 ayəsi Allahın hər şeyi "öz iradəsi ilə" məsləhətləşəndən sonra etdiyini söyləyərək bu fikri dəstəkləyir. Analoji olaraq, bu, insanın özü-özünə planlaşdırdığı zaman “Qoy görək” deməsinə bənzəyir. Digərləri bu ayəni əzəmət mənasında və ya ədəbi mənada cəm kimi izah edirlər. Yəni rəsmi nitqdə və yazılı mətndə natiq və ya yazan şəxs, xüsusən də natiq şahzadə olduğu təqdirdə özlərinə cəmdə müraciət edirlər. Əzəmət mənasında cəm formasına dair bibliyadan olan nümunələrə istinad etməklə bu praktikanı təsvir etmək olar. Məsələn, Daniel padşah Navuxodonosora dedi: "İndi isə Padşahın önündə onu yozaq". Padşah Artaxşasta alternativ olaraq yazışmalarda tək və cəm formada özünə istinad edirdi. O, bir dəfə yazırdı: "Bizə göndərdiyiniz məktub hüzurumda tərcümə edildi" (Ezra 4:18). Ezraya yazdığı bir məktubda, Artaxşasta özünü bir yerdə "mən" (Ezra 7:13), başqa yerdə isə "biz" (7:24) adlandırdı.
Yaradılış 1:26-da cəm formadan istifadə Allahın böyüklüyünü və əzəmətini və ya Tanrının çoxsaylı xüsusiyyətlərini ifadə edən cəmdə işlənən Elohimə oxşar ola bilər. Başqa sözlə, cəm əvəzliyi ismin cəm formasında olan Elohim ilə uzlaşır və onu əvəz edir.
Başqa bir izahat budur ki, bu ayədə daha çox Zəburda peyğəmbərlik ayələrindəki kimi Allahın Oğlunun gələcək

gəlişinin əvvəlcədən bilindiyi təsvir edilir. Biz dərk etməliyik ki, Tanrı zamanda yaşamır. Onun planlarının, bizim nəzər-nöqtəsindən gələcəkdə olmasına baxmayaraq, Onun üçün realdır. O, olmayan şeyləri varlığa çağırandır (Romalılara 4:17). Onun gözündə bir gün min il, min il də bir gün kimidir (2 Peter 3:8). İnkarnasiya başlanğıcda Allahın fikrində mövcud idi (Yəhya 1: 1). Tanrıya gəldikdə, Quzu dünya yaranmazdan əvvəl öldürüldü (1 Peter 1:19-20; Vəhy 13: 8). Təəccüblü deyil ki, Tanrı zamanın dəhlizlərindən baxaraq Oğula bir peyğəmbərlik sözünü söylədi. Romalılara 5:14-də deyilir ki, Adəm gələcək Adamın, yəni İsa Məsihin surəti idi. Allah Adəmi yaratdıqda, O, inkarnasiya haqqında düşünmüş və fikrindəki bu planla Adəmi yaratmışdır.
Bu fikrə uyğun İbranilərə 1:1-2 ayələrində deyilir ki, Allah kainatı Oğul vasitəsilə yaratmışdır. Oğul yaradılışdan xeyli sonra zaman içində müəyyən bir dövrə qədər hələ mövcud olmamış bu necə ola bilərdi? (İbranilərə 1: 5-6). (5-ci fəslə bax.) Con Millerin (5-ci fəsildə göstərilən) izahına görə, Allah dünyanı yaratmaq üçün Oğuldan istifadə etdi. Yəni O, hər şeyi Məsihin gələcək gəlişi ilə bağladı. Müvafiq zaman tamamlana qədər O, bəşər formasını kəsb etməsə də, bu, başlanğıcdan Onun planında idi və bu plandan istifadə etdi və başlanğıcdan ona uyğun hərəkət etdi. O, insanları dünyaya gələcək Allahın Oğulunun surətində yaratdı və günah edəcəklərinə baxmayaraq, gələcək Oğulun xilas yolu təmin edəcəyini bilərək insanları yaratdı.

Allah başlanğıcdan insanları yaratdı ki, Onu sevib Ona ibadət etsinlər (Yeşaya 43:7; Vəhy 4:11). Lakin Tanrı əzəli biliyinə görə onların günaha batacaqlarını bilirdi. Bu, insanları yaratmaq işində Allahın məqsədinə mane olacaqdı. Tanrının planı olmasaydı, O, heç vaxt insanları yaratmazdı. Halbuki, Tanrının düşüncəsində Məsihin günahlar üçün qurban getməsi yolu ilə inkarnasiya planı və qurtuluş planı var idi. Beləliklə, Tanrı insanların günah edəcəyini bilsə də, O, həm də bilirdi ki, Tanrının Oğlu vasitəsi ilə onlar bərpa oluna bilər və Tanrının ilkin məqsədini yerinə yetirə bilərlər. Göründüyü kimi, Tanrı insanları yaratdıqda, Oğulun gələcək gəlişini düşünmüşdü. Bu mənada Tanrı kainatı Oğul vasitəsilə və ya Oğuldan istifadə edərək yaratdı, çünki Oğul olmadan Tanrının insanları yaratmaqdakı bütün məqsədi uğursuz olardı.
Xülasə, Yaradılış 1:26 ayəsi Tanrıçılıqda çoxluq demək deyil, çünki bu, Müqəddəs yazıların qalan hissəsinə zidd olacaqdı. Biz başqa bir neçə uyğunlaşdırıcı izahatlar da verdik. (1) Yəhudilər və bir çox məsihçilər bunu mələklərə istinad kimi görürlər. Bir çox digər məsihçilər bunu (2) Öz iradəsi ilə məsləhətləşən Tanrının təsviri kimi, (3) əzəmət (padşahlıq) və ya ədəbi çoxluq kimi, (4) sadəcə Elohim ismi ilə uyğunlaşan bir əvəzlik kimi (5) Tanrının Oğlunun gələcək təzahürünə işarə edən bir peyğəmbərlik olaraq görürlər.

## Digər cəm əvəzlikləri

Əhdi-ətiqdə Tanrı tərəfindən istifadə olunann bir neçə digər cəm əvəzlikləri vardır. Yaradılış 3:22, 11:7 və Yeşaya 6:8 ayələrini misal çəkmək olar. Müqəddəs yazıların bu ayələrini oxuyarkən onların asanlıqla Allahı və mələkləri (hər üç ayə) və ya bəlkə də Allahı və salehləri (Yeşaya 6: 8) bildirdiyini görmək olur. Yaradılış 1:26 ilə bağlı verilən ilk dörd izahatın hər hansı biri bu cəm formalarının istifadəsini adekvat izah edə bilər.

Vahidin mənası (İbrani dilində Exad deməkdir)

Tərəddüd etmədən, bibliyada Allahın bir (vahid) olduğu bildirilir (Qanunun təkrarı 6:4). Bəzi trinitaristlər belə bir fikir irəli sürürlər ki, Tanrıya münasibətdə vahid sözü birlik baxımından vahid mənasını verir, amma heç də say mənasında mütləq vahidlik ifadə etmir. Bu nəzəriyyəni dəstəkləmək üçün onlar bibliyada vahid Tanrı anlayışını ifadə etmək üçün ibrani dilində istifadə olunan exad sözünə müraciət edirlər. Görünür, bu söz həm birlik, həm də say baxımından vahid mənasını verə bilər, çünki Stronq onun mənasını "birləşmiş, birinci" kimi verir. Say baxımından mütləq vahidlik mənasında işlədilən sözlə bağlı bibliyadakı nümunələr maarifləndirici xarakter daşıyır: Kənanlı padşahların hər birinin exad sözü ilə verilmiş siyahısı (Yeşua 12:9-24); Mikeya peyğəmbər (1 Padşahlar 22:8); İbrahim (Yezekel 33:24); hər biri exad sözü ilə verilmiş darvazaların siyahısı (Yezekel 48:31-34); və mələk Mikayıl (Daniel 10:13). Şübhəsiz ki, yuxarıda göstərilən halların hər birində exad say mənasında bir

deməkdir. Tanrının mütləq vahidliyini birmənalı şəkildə izah edən bir çox Əhdi-ətiq ayələrindən (1-ci fəsildə, xüsusən Yeşaya kitabındakı istinadlara baxın), aydın olur ki, Tanrı barədə istifadə edilən exad Onun varlığının mütləq vahidliyi deməkdir. Exad birlik anlayışını ehtiva etdiyindən, bu söz ayrı-ayrı şəxslərin kooperativ birliyini deyil, Tanrının çoxlu xüsusiyyətlərinin birliyini qeyd edir.
Exad say baxımından bir (vahid) mənasını vermirsə, onda politeizmə qarşı arqument qoya bilmərik, çünki üç (və ya daha çox) ayrı tanrı ağıl və məqsədin vəhdətində bir ola bilər. Lakin bu, aydın şəkildə Əhdi-ətiqin politeizmi inkar etmək niyyətidir və say baxımdan bir mənasını ifadə etmək üçün exad sözündən istifadə edir.

## Teofaniyalar

Teofaniya Tanrının görünən bir təzahürüdür (2-ci fəsilə baxın). Tanrı hər yerdə mövcud olduğu üçün O, eyni anda fərqli yerlərdə fərqli insanlara özünü göstərə bilər. Bunun üçün hər hansı bir teofaniyanı izah etmək üçün birdən çox Tanrı anlayışına ehtiyac yoxdur; Vahid olan Tanrı özünü istənilən formada, istənilən vaxt və istənilən yerdə göstərə bilər.
Gəlin çox-şəxsli Tanrıçılıq anlayışını dəstəkləmək üçün tez-tez istifadə olunan bəzi xüsusi teofaniyaları və ya ehtimal olunan teofaniyaları təhlil edək.

## İbrahimə Görünmə

Yaradılış 18:1-də deyilir ki, Yehova İbrahimə Mamre düzənliyində göründü. 2-ci ayədə deyilir ki, İbrahim başını qaldırıb baxanda qarşısında üç adamın dayandığını gördü. Bəzi trinitaristlər bu üç "adam" ifadəsindən ilahi üçlüyü sübut etmək üçün istifadə etməyə çalışırlar. Ancaq 22-ci ayədən məlum olur ki, “adamlardan” ikisi İbrahimi tərk edib Sodoma tərəf getdi, lakin Yehova qalıb İbrahimlə bir az daha artıq söhbət etdi. Digər iki nəfər kimlər idi? Yaradılış 19:1-də deyilir ki, həmin axşam iki mələk Sodoma gəldi. Aydın məsələdir ki, İbrahimə görünən üç adam təzahürü Yehova və Onun iki mələyi idi.

Bəzilərinin yozumuna görə, Yaradılış 19:24-də iki nəfər şəxs bildirilir: "Rəbb Sodom və Homorranın üzərinə göydəki Rəbdən odlu kükürd yağdırdı." Ancaq bu, yer üzündə bir RƏBBİN göydə olan başqa bir RƏBBDƏN alov yağdırmasını istəməsi demək deyil, çünki yalnız bir Rəbb var (Qanunun təkrarı 6:4). Əksinə, bu, fikrin başqa formada təkrar ifadəsinin nümunəsidir. Əhdi-ətiqdəki bir çox ayələr bir fikri ədəbi bir metod və ya vurğu vasitəsi olaraq iki fərqli şəkildə ifadə edir. Tanrının İbrahimə müvəqqəti təzahüründən sonra onun orada qalıb Sodomun üzərinə alovun tökülməsinə baxması barədə heç bir dəlil yoxdur. Bibliyada yalnız iki mələyin Sodoma getdiyi deyilir. Bibliyanın NIV tərcüməsi daha aydın göstərir ki, Yaradılış 19:24-də eyni fikir sadəcə iki şəkildə təkrarlanır: "Sonra Rəbb Sodom və Homorranın üzərinə - göydəki Rəbbdən odlu kükürd yağdırdı". Qeyd etməliyik

ki, hər iki ifadədə Rəbb bir yerdə bir iş görən varlıq kimi-göydə atəş yağdıran kimi təsvir olunur.

**Rəbbin mələyi**

Bu mövzunu 2-ci fəsildə müzakirə etdik. Rəbbin mələyinin ziyarətini təsvir edən bir çox parçalar mələyin, həqiqətən, Yehovanın özünün zühuru olduğunu göstərir. Bununla əlaqədar heç bir problem yoxdur; vahid Tanrının mələk şəklində özünü göstərməsi sadəcə kifayətdir.

Bir neçə ayədə Rəbbin mələyi Rəbdən ayrı bir varlıq kimi təsvir olunur. Buna görə də, başqa parçalarda "Rəbbin mələyi" nə olursa olsun, bu ayələrdə hərfi mənada mələyə istinad etməlidir. Doğrudan da, “Rəbbin mələyi” ilə bağlı əksər ayələrin (və bəziləri inanır ki, bütün ayələrin) şərh edilərək Tanrının təzahürünü deyil, hərfi mənada mələk bildirməsi mümkündür. Bu görüşə əsasən Rəbbin hərəkətlərini mələyə aid edən ayələr mələyin Rəbbin Özü olduğunu bildirmir. Əksinə, hərəkətlərin yerinə yetirilməsinin Rəbb tərəfdən mələyə tapşırılaraq icra edilməsi deməkdir. Məsələn, danışmaq və ya görünmək üçün bir mələk göndərərək Rəbb danışdı və ya Rəbb göründü.

Beləliklə, "Rəbbin mələyi" ilə bağlı ayələrin vahid Tanrı ilə uzlaşam şəkildə izah edilməsinin iki yolu var. Birincisi, Rəbbin mələyinin bəzi ayələrdə Tanrının təzahürü olduğuna razılaşa bilərik, amma iki varlığı açıq şəkildə təsvir edən parçalarda yalnız mələkdən söhbət gedir. Alternativ olaraq, təsdiq edə bilərik ki, Rəbbin mələyi

Tanrıının faktiki təzahürünü təsvir etmir, ancaq Tanrı üçün vəkil və xəbər gətirən (elçi) bir mələk kimi hərəkət edir. Mələklə bağlı ibrani və yunan sözləri sadəcə elçi (xəbər gətirən) deməkdir.
Aravnanın xırmanında Rəbbin mələyinin Davuda görünməsi ilə bağlı maraqlı bir problem var (2 Şamuel 24:16-17; 1 Salnamələr 21:15-30; 2 Salnamələr 3:1). 2 Şamuel 24:16-17 ayələri Rəbbin mələyini Rəbdən ayrı varlıq kimi açıq şəkildə təsvir edir, lakin 2 Salnamələr kitabında Rəbbin Davuda göründüyü deyilir. Bunları uzlaşdırmağın üç yolu var. Əvvəlcə qeyd etməliyik ki, KJV tərcüməsində "Rəbb" sözü 2 Salnamələr 3:1-ci ayədə kursivlə verilmişdir. Bu o deməkdir ki, tərcüməçilər əslində orijinalda olmayan, ya da orada nəzərdə tutulmuş və ya müvafiq İngilis dili cümləsi üçün zəruri olan bir söz vermişlər. Ehtimal ki, cümlənin mübtədası "Rəbb" sözü əvəzinə "Rəbbin mələyi" ifadəsi olmalıdır. İkincisi, 2-ci fəsildə verilən izahata bənzər bir izahatdan istifadə edə bilərik. Yəni Rəbb Davudun yanına mələyini göndərdiyi zaman Rəbbin Davuda göründüyünü söyləmək düzgündür. Eyni ilə Tanrının görünən təzahürü ilə birbaşa söhbət etmək əvəzində, Rəbbin mələk, audio səs və ya düşüncəyə göndərdiyi təəssürat (obraz) vasitəsilə bir kəslə danışmasını demək düzgündür. Bu cür yanaşma mənbənin açıqca Tanrı olmasına baxmayaraq yazarın və ya danışanın birinci şəxs əvəzliyindən ("mən") istifadə etdiyi peyğəmbərliklərə bənzəyir. Üçüncüsü, demək olar ki, həm mələk, həm də Rəbb Davuda göründü, belə ki, 1

Salnamələrda mələk, 2 Salnamələrdə isə Rəbb təsvir edilir. Hər halda, bu ayələr birdən çox Rəbbi göstərə bilməz.
Rəbbin mələyi ilə əlaqəli olan ən mürəkkəb ayələr Zəkəriyyənin kitabındadır. Zəkəriyyə 1: 7-17-də peyğəmbərin gördüyü bir mənzərə təsvir olunur. Görüntüdə, o, qırmızı atlı bir adamı mərsin ağaclarının arasında gördü. Sonra bir mələk Zəkəriyyə ilə danışmağa başladı. Mərsin ağacları arasındakı adam Rəbbin mələyi idi. Bəziləri iki mələyin iştirak etdiyini düşünsə də, güman ki, Zəkəriyyə ilə danışan bir mələk idi. Hər bir halda, Rəbbin mələyi Rəbblə danışdı və Rəbb ona cavab verdi (12-13-cü ayələr), beləliklə, ən azı bu ayədə Rəbbin mələyinin Rəbb olmadığı sübut olundu. Sonra Zəkəriyyə ilə danışan mələk Rəbbin dediyini elan etdi (14-17-ci ayələr). Beləliklə, mələk Rəbb deyildi; əksinə, o sadəcə bir elçi kimi hərəkət etdi və Rəbbin dediyini təkrarladı. Zəkəriyyə mələyi ağam adlandırdı (9-cu ayə, İbranicə adon sözü ağa və ya hökmdar deməkdir), lakin o, onu Rəbb (Adonai) və ya Rəbb (Yahveh və ya Yehova) adlandırmadı. Əlbəttə, ağa sözü, Rəbb sözü kimi yalnız Tanrı üçün ayrılmış bir termin deyil; Çünki sən ağa titulundan istifadə edib hətta bir insana müraciət edə bilərsən (Yaradılış 24:18).
Zəkəriyyə 1:18-21 ayələrində daha iki görüntü təsvir edilir. Dörd buynuzun olduğu görüntüdə Zəkəriyyə bir sual verdi, mələk cavab verdi və Rəbb dörd dülgərin olduğu bir görüntü verdi (ayələr 18-20). Sonra Zəkəriyyə ikinci bir

sual verdi və "o" (kişi cinsində işlədilib) cavab verdi (ayə 21). 21-ci ayədəki "o", lap başlanğıcdan danışan eyni mələk idi - bütün 19-cu ayədəki eyni "o"-dan söhbət gedir. 21-ci ayədə "o" əslində Rəbb idisə, onda Rəbb mələkdən istifadə edərək həmin ayədə danışırdı. Beləliklə, bu parçada Rəbb görüntüləri verdi, mələk isə faktiki izahları verdi. Bunun üçün mələyin Tanrı olması tələb edilmir.
Zəkəriyyə 2:1-13 ayələrində görürük ki, ikinci bir mələk tərəfindən Rəbbin kəlamının birinci mələyə elan edilməsini Zəkəriyyə də eşitdi. Yenə də bu, ikinci mələyin Tanrı olduğunu bildirmir, ancaq o, Tanrının mesajını çatdırırdı. Bu, birinci mələyin qəti olaraq Tanrı olmadığını göstərir, əks halda o, Tanrının mesajının nədəb ibarət olduğunu bilmiş olardı.
Zəkəriyyə 3:1-10 ayələri yeni bir vəziyyəti təqdim edir. Əvvəlcə baş kahin Yeşua Rəbbin mələyinin və şeytanın qarşısında dayandı (ayə 1). "Rəbb şeytana dedi: Rəbb sənə qadağan etsin" (ayə 2). Bunu izah etməyin ən asan yolu "Rəbb dedi" ifadəsinin peyğəmbər tərəfindən yazılmasını qeyd etməkdir. Bu da Rəbbin mələk vasitəsilə söylədiyi mənasını verir. Buna görə də deyilən sözlər "Mən sənə qadağan edirəm" yox, "Rəbb sənə qadağan etsin" formasında yazılmışdır. Sonrkı ayələrdə mələk Yeşua ilə sanki Tanrı imiş kimi danışmağa başladı (3-4-cü ayələr). Əlbəttə ki, ən asan izah budur ki, mələk Tanrının sözünü gətirən bir elçidir. Nəhayət, bu parçalardan aydın görünür kii, mələk Tanrının özü deyil, sadəcə Tanrının bir elçisi

olaraq təsvir edilir, çünki mələk “Rəbb deyir” ifadəsini işlətməyə başladı (6-10-cu ayələr).
Zəkəriyyə kitabındakı mələklərlə bağlı ən məntiqi izahı aşağıdakı kimi ümumiləşdirmək olar. Bütün Zəkəriyyə kitabında Rəbbin mələyi Rəbb yox, yalnız Rəbbin elçisi idi. Bəzən bu fikir mələk tərəfindən "Rəbb belə deyir" kimi ifadələrin istifadəsindən aydın olur, digər ayələrdə isə bu aydınlaşdırıcı və ya izahedici ifadə buraxılmışdır. Rəbb bütün bu parçalarda Öz mələyindən istifadə edərək danışmışdır. Lakin digər mümkün izahatlar da vardır. Bu barədə aşağıda verilmişdir: Mələk Rəbb deyildi, ancaq Rəbbin adı onun üzərində idi; mələk 1 və 2-ci fəsillərdə Rəbb deyildi, ancaq 3-cü fəsildə Rəbb idi; ya da Rəbb birbaşa Zəkəriyyə 3:2 və 3:4 ayələrində danışdı, bu zaman mələk səssizcə dayanmışdı. Xülasə, "Rəbbin mələyi" sözü olan parçaları izah etmək üçün Tanrının iki şəxsini qəbul etməyə ehtiyac duymuruq. Şübhəsiz ki, yəhudilər mütləq monoteizm baxımından Rəbbin mələyini öz etiqadlarına uyğunlaşdırmaqda heç bir problem görmürdülər.

## Oğul və Məsihə aid digər istinadlar

Əhdi-ətiqdə Oğula aid bir sıra istinadlar var. Bunlar Tanrıçılıqda ikiliyi ifadə edirlərmi? Bunlar əvvəlcədən mövcud olan bir Oğul olduğunu sübut edirlərmi? Bu suallara cavab vermək üçün bu ayələri təhlil edək.Zəbur 2:2 ayəsi Rəbdən və Onun məsh olunmuşundan bəhs edir. Zəbur 2:7 ayəsində deyilir: “Rəbbin fərmanını elan edəcəyəm. Rəbb mənə dedi: “Sən mənim oğlumsan; bu

gün Sənə Ata oldum". Zəbur 8:4-5-ci ayələrdə insan oğlu haqqında danışılır. Həmçinin Zəbur 45:6-7 və Zəbur 110:1 ayələrində İsa Məsihə aid məşhur istinadlar vardır. Belə ki, Zəbur 45:6-7 ayələri Onu həm Tanrı kimi, həm də məsh olunmuş şəxs kimi təsvir edir, Zəbur 110:1-də isə Ondan Davudun Rəbbi olaraq bəhs edilir. Yeşaya 7:14 və Yeşaya 9:6 ayələrində də Oğuldan bəhs olunur. Ancaq bu ayələri oxuyanda görürük ki, onların hər biri təbiətcə peyğəmbərlik ayələridir. İbranilərə məktubun 1-ci və 2-ci fəsilləri Zəburdakı bu parçaların hər birindən sitat gətirir və onları İsa Məsih tərəfindən yerinə yetirilmiş peyğəmbərlik kimi təsvir edir.
Beləliklə, Zəburdakı ayələr Tanrıçılıqdakı iki şəxs arasındakı söhbət deyil, amma Tanrı və insan Məsih barədə peyğəmbərlik sözləridir. Bu ayələrdə Tanrı tərəfindən insan Məsihin dünyaya gətirilməsi və məsh edilməsi (Zəbur 2:2-7), insan Məsihin Tanrının iradəsinə tabe olması və günahlar üçün qurban getməsi (Zəbur 45:6-7) və Tanrını izzətləndirməsi və insan Məsihə qüdrət verməsi təsvir edilir (Zəbur 110:1). Bütün bunlar Tanrının İsa Məsih kimi bədəndə zühur etməsi zaman baş verdi. (Tanrıçılıqda ehtimal olunan söhbətlər haqqında daha çox məlumat üçün 8-ci fəslə baxın. Zəbur 110:1-də qeyd olunan Allahın sağ əlinin tam izahı üçün 9-cu fəslə baxın).
Yeşaya kitabındakı ayələr gələcək zamanda verildiyindən aydın bir peyğəmbərlik sözləridir. Beləliklə, Əhdi-ətiqdəki Oğula dair istinadlar gələcəyə, Oğulun doğulacağı günə aiddir. Bunlar iki Tanrıdan və ya Tanrıdakı iki şəxsdən yox,

daha çox Tanrının bəşərdə inkarnasiya etməsindən danışır. Eynilə Məsihə aid digər Əhdi-ətiq istinadları peyğəmbərliklərdir və Onu həm Tanrı, həm də insan kimi təqdim edir (Yeşaya 4:2; 42:1-7; Yeremya 23:4-8; 33:14-26; Mikeya 5:1-5 ; Zəkəriyyə 6:12-13). Müqəddəs yazı ayələrindəki hər hansı ikilik Tanrı ilə Məsihin bəşəriliyi arasındakı fərqi göstərir.
Odun içində olan dördüncü adamın müzakirəsi üçün (Daniel 3:25) 2-ci fəsilə baxın. Bu ayə Məryəmin bətnindən doğulmuş Tanrının Oğluna deyil, bir mələyə və ya güman ki, (amma müəyyən şübhə ilə ) Tanrının bir teofaniyasına aiddir.

## Tanrının Kəlamı

Heç kim ciddi şəkildə iddia edə bilməz ki, Əhdi-ətiqdəki Tanrının Kəlamı Tanrıçılıqdakı ikinci bir şəxsdir. Tanrının Kəlamı Onunla eynidir və Ondan ayrı ola bilməz. İnsanın sözü insanın iki şəxsdən ibarət olmasını nəzərdə tutmadığı kimi, Tanrının Kəlamı da heç də fərqli bir şəxsi nəzərdə tutmur.  Zəbur 107:20-də deyilir: "O, kəlamını göndərdi". Yeşaya 55:11-də deyilir: "Ağzımdan çıxan kəlmə də belədir." Müqəddəs yazının bu ayələrindən aydın olur ki, Tanrının Kəlamı Ona aid bir şeydir və Onun ifadəsidir, Tanrıçılıqda ikinci bir şəxsi deyil.

## Tanrının hikməti

Bəziləri Süleymanın məsəlləri 1:20-33, 8:1-36 və 9:1-6 ayələrində Allahın müdrikliyinin təsvirlərində şəxslərin

fərqini görürlər. Halbuki, Müqəddəs yazıların bu ayələri müdrikliyi ədəbi və ya poetik bir formada təcəssüm etdirir. Ədəbiyyatda bir müəllifin vurğu, canlılıq və illustrasiya naminə bir fikri, emosiyasını və ya digər qeyri-maddi bir şeyi təcəssüm etdirdiyi bir çox nümunələr ilə hamımız tanışıq. Bibliyada hikmətin ədəbi şəxsləndirilməsinin (təcüssümünün) tanrıçılıqda daha bir şəxsin olmasına işarə etməsi barədə fikirlər yanlışlıqdır, çünki yuxarıda göstərilən bütün ayələr hikməti qadın kimi şəxsləndirir. Deməli, hikmət Tanrıçılıqda ikinci şəxsdirsə, onda ikinci şəxs qadındır.

Bibliyada müdrikliyi nəzərdən keçirməyin düzgün yolu onu Tanrının bir xüsusiyyəti, yəni Onun biliyinin bir hissəsi kimi qəbul etməkdir. Dünyanı yaratmaq üçün O, hikmətindən istifadə etdi (Zəbur 136:5; Süleymanın məsəlləri 3:19; Yeremya 10:12). İnsanın hikməti özündən fərqli bir şəxs olmadığı kimi, Tanrının hikməti də Tanrıdan fərqli bir şəxs deyildir. Hikmət Tanrının malik olduğu və insanlara verə biləcəyi bir bilikdir.

Əlbətdə ki, Məsih bədəndə zühur edən Tanrı olduğu üçün Allahın bütün hikməti Məsihdədir (Koloslulara 2:3). O, həm Allahın hikmətidir, həm də Allahın qüdrətidir (1 Korinflilərə 1:24). Bu, Məsihin Tanrıdan fərqli bir şəxs olduğu demək deyil, əksinə Məsihdə Allahın bütün müdrikliyi və qüdrəti (Allahın digər xüsusiyyətləri ilə bərabər) yaşayır. Məsih vasitəsilə Tanrı insanlara hikmət və qüdrətini açır. Hikmət, sadəcə olaraq Əhdi-ətiqdə

təsvir olunan və Məsih vasitəsilə Əhdi-cədiddə açıqlanan Tanrının bir xüsusiyyətidir.

**Müqəddəs, Müqəddəs, Müqəddəs**

Yeşaya 6:3 ayəsindəki üç dəfə təkrarlanma, Tanrının üçlük olduğuna işarə edirmi? Biz bu nəzəriyyənin çox etibarlı olduğunu düşünmürük. İki dəfə və ya üç dəfə təkrarlanma ibrani dildə adi bir ədəbi praktika idi və Müqəddəs yazılarda dəfələrlə rast gəlinir. Əsasən əlavə vurğu vermək üçün istifadə olunurdu. Məsələn, Yeremya 22:29-da deyilir: "Ölkə, ey ölkə, Rəbbin sözünü eşit, ey ölkə". Şübhəsiz ki, Müqəddəs yazıların bu ayəsi üç ölkəyə işarə etmir. Müqəddəs sözünün üç dəfə təkrarlanmasının başqa bir əhəmiyyəti varsa, bu da Vəhy 4:8-də yazılmış Tanrının keçmiş, indiki və gələcək mövcudluğuna dair bir göstərişdir. "Müqəddəs, müqəddəs, müqəddəs" Tanrının müqəddəsliyini güclü şəkildə vurğulayır və şəxslərin çox olması mənasını özündə ehtiva etmir.

**Tanrı (Allah) və ya Rəbb sözlərinin təkrarlanması**

Eyni ayədə Allah və ya Rəbb sözünün təkrarlanması məsələn, üç dəfə təkrarlanması (Saylar 6:24-26; Qanunun təkrarı 6:4) və iki dəfə təkrarlanması (Yaradılış 19:24; Daniel 9:17; Huşə 1:7) şəxslərin sayının çoxluğuna sübutdurmu? Müqəddəs yazıların bu ayələrini oxumaqla onların ilahilikdə çoxluq yaratmadığı ayıdn olur. Gəlin onları qısaca təhlil edək. Saylar 6:24-26 ayələri sadəcə üç misli olan bir xeyirduadır. Qanunun təkrarı 6: 4-də deyilir

ki, Allah birdir. Bu ayədəki təkrarlardan ikisi “Rəbb Allah” sözüdür. Bu o deməkdirmi ki, hər dəfə "Rəbb Allah" ifadəsi görünəndə Allahın iki şəxsi göstərilir? Əlbəttə yox. Bu, yalnız vahid Tanrını İsrailin ibadət etdiyi Rəbdən (Yehovadan) başqa bir tanrı kimi tanımır. Biz bu fəsildə Yaradılış 19:24-ü artıq müzakirə etdik. Daniel 9:17-də peyğəmbər Allah haqqında sadəcə üçüncü şəxsdə danışır və Huşə 1:7-də Allah Özü barədə üçüncü şəxsdə danışır. Bu qeyri-adi deyil, çünki Əhdi-cədiddə İsa Özü haqqında üçüncü şəxsdə danışırdı (Mark 8:38). Xülasə, Tanrı, Rəbb sözlərini və ya Tanrı üçün başqa bir adı təkrarlayan Müqəddəs yazıların bütün ayələri adi, normal qaydaya uyğun yazılmışdır. Onların heç biri Tanrıçılıqda cəmi bildirmir.

## Rəbbin Ruhu

Əhdi-ətiqin bir çox ayələri Rəbbin Ruhundan bəhs edir. Bu heç bir problem yaratmır, çünki Tanrı Ruhdur. "Rəbbin Ruhu" ifadəsi Rəbb Allahın həqiqətən bir ruh olduğunu vurğulayır. Bu, daha sonra Rəbbin insanlar arasında və ayrı-ayrı şəxslərdə gördüyü işlərə diqqət yönəldir. İnsanın ruhu haqqında danışmağımız çoxluq ifadə etmədiyi kimi, Tanrının Ruhu da şəxslərin çoxluğunu ifadə etmir. Həqiqətən, Rəbb “ruhum” dan danışarkən bunu açıq şəkildə göstərir (Yeşaya 59:21).

## Rəbb Allah və Ruhu

Yeşaya 48:16-dakı bu ifadə "insan və onun ruhu" ifadələrində olduğu kimi heç də iki şəxsi bildirmir. Məsələn, varlı axmaq öz qəlbi ilə danışırdı (Luka 12:19), lakin bu onun iki nəfərdən ibarət olması demək deyildi. "Rəbb Allah" ifadəsi Allahı bütün izzəti və üstünlüyünün məcmusunda ifadə edir, "Onun Ruhu" isə peyğəmbərin təmas qurduğu və peyğəmbərin üzərinə gedən xüsusiyyətini ifadə edir. Sonrakı ayədə (Yeşaya 48:17) müqəddəs iki və ya müqəddəs üç deyil, "İsrailin Müqəddəs Birindən" bəhs olunur. Yeşaya 63:7-11 ayələrində Rəbb və "onun müqəddəs Ruhu" haqqında danışılır, Yeşaya 63:14-də isə "Rəbbin Ruhu"ndan bəhs olunur. Aydındır ki, Ruhla Rəbb arasında heç bir fərdi fərq yoxdur (İnsanlar arasındakı fərqi ifadə etməyən bir çox Əhdi-cədid nümunələri üçün 9-cu fəslə baxın). Rəbb bir Ruhdur və Rəbbin Ruhu sadəcə hərəkətdə olan Tanrıdır.

## Əzəldən Var Olan və İnsan Oğlu

Daniel 7:9-28 ayələrində yazıldığı kimi, Daniel iki şəxsin olduğu bir görüntü gördü. Danielin gördüyü birinci varlıq Əzəldən Var Olan adlanırdı. Onun qar kimi bəyaz paltarı var idi, saçları yun kimi ağappaq idi. Taxtı alov dilləri tək, çarxları yanar od kimi idi. O, taxtda oturdu və minlərlə insanı mühakimə etdi. Sonra Daniel gördü ki, bəşər oğluna bənzər birisi göyün buludları ilə gəlir. O Əzəldən Var Olana yaxınlaşdı. Ona bütün insanlar üzərində əbədi hakimiyyət və əbədi səltənət verilmişdi. Bəzi trinitaristlər bu

görüntünün Tanrı Ata və Tanrı Oğul barədə olması kimi şərh edirlər. Ancaq nəql olunan hadisəyə bir az daha yaxından baxaq.

Vəhy Kitabında Əzəldən Var Olanın İsa Məsihin Özündən başqa bir kəs olmadığı görünür! Vəhy 1:12-18-də İsa Məsih, libas geymiş, saçları yun kimi ağ, gözləri odlu alov kimi, ayaqları isə kürədə qızdırılmış parlaq tunca bənzər təsvir edilmişdir. Üstəlik, bir çox ayədə insan Oğlu İsa Məsihin bütün insanların hakimi olacağı izah olunur (Matta 25:31-32; Yəhya 5:22, 27; Romalılara 2:16; 2 Korinflilərə 5:10). Bundan əlavə, İsa taxtda oturacaq (4-cü fəsil). Danielin görüntüsündə buynuz (Məsihin əleyhdarı) Əzəldən Var Olan gələnə qədər müharibə etdi (Daniel 7: 21-22), amma bilirik ki, İsa Məsih yer üzünə qayıdacaq və Məsihin əleyhdarının ordularını məhv edəcəkdir (Vəhy 19: 11- 21). Sonda deyə bilərik ki, Vəhy kitabında İsa Daniel peyğəmbərin kitabı 7-ci fəsildə Əzəldən Var Olanın təsvirinə uyğundur. Danielin kitabı 7-ci fəsildə Əzəldən Var Olan Atadırsa, demək İsa Ata olmalıdır.

Daniel 7:13-də bəşər oğluna bənzər birisi Əzəldən Var Olana yaxınlaşdı və Ondan hakimiyyət aldı. Bu kimdir? Səhnə Tanrının müqəddəslərini təmsil edən bir insanın görüntüsü kimi görünür. Bu izahat, ehtimal ki, bu fəsilə ən uyğundur.16-cı ayədən başlayaraq Daniel görüntünün yozumunu aldı. 18-ci ayədə deyilir ki, Haqq-Taalanın müqəddəsləri əbədi və daimi padşahlığa sahib olacaqlar. Sonra 22-ci ayədə müqəddəslərin padşahlığa sahib olacağı söylənilir. 26-27-ci ayələrdə deyilir ki, padşahlıq və

hakimiyyət (14-cü ayədəki eyni sözlər) Haqq-Taalanın müqəddəslərinə veriləcək və bu padşahlıq əbədi padşahlıq olacaq. Əlbəttə, 27-ci ayə bütün hökmdarların Tanrıya itaət etməsi ilə yekunlaşır.
Buna görə Daniel 7:16-28 ayələri 7:9-14 ayələrindəki təfsiri bizə təqdim edir. Fəsildə istifadə edilmiş ifadələr "insan oğluna bənzər olanı" Tanrının müqəddəslərinin təmsilçisi kimi göstərir. NIV tərcüməsində 13-cü ayədəki ifadə "insan oğluna bənzər olan" kimi verilmişdir. Bu tərcümədə müəyyənlik artiklın (the) olmamasını qeyd etməliyik, bu da orijinal dildə həmin artiklın olmamasını əks etdirir. Həm də yadda saxlamalıyıq ki, Əhdi-ətiqdə “insan oğlu” ifadəsi hər hansı bir insana (Yezekiel 2:1) və ya ümumilikdə bəşəriyyətə aid ola bilər (Zəbur 8:4; 146:3; Yeşaya 51:12).Zəbur 80:17-də bu ifadə Tanrının hakimiyyət və qüdrət bəxş etdiyi bir insana aiddir. Beləliklə, "insan oğlu" ifadəsinin müqəddəsləri təmsil etməsi kimi təfsir edilməsi bu ifadənin Müqəddəs yazıların digər hissələrində istifadə edilməsinə uyğundur.
Bəziləri Danielin kitabındakı ''İnsan Oğuluna bənzər olan'' ifadəsini İsa Məsihlə eyniləşdirirlər, çünki İsa tez-tez özünü İnsan Oğlu adlandırırdı. Ancaq bu identifikasiya Daniel kitabının 7-ci fəslinin özünün verdiyi təfsirə etinasız yanaşır. Daniel Məsih haqqında bildirmək istəyirdisə, niyə 9:25-də olduğu kimi Onu Məsih adlandırmadı? Üstəlik, Danieldəki "insan oğlu" İsa Məsih olsaydı, "insan oğluna bənzər olan" ifadəsinə ehtiyac olmazdı. Əslində, bu ifadələr Danielin görüntüsündəki adamın İsa olmadığını,

ancaq Ona bənzər olan birinin, məhz imanlılar cəmiyyətinin (kilsənin) müqəddəslərinin olduğunu göstərə bilər. Biz müqəddəslərin Tanrının oğulları, Məsihlə bərabər varis olduqlarını, Məsihin obrazına uyğunlaşan Məsihin qardaşları, və Məsih kimi olduqlarını bilirik (Romalılara 8:17, 29; 1 Yəhya 3:1-2).

Hər halda, Danielin görüntüsünün mahiyyətcə peyğəmbərlik olduğunu və dövründəki həqiqi vəziyyəti təsvir etmədiyini unutmamalıyıq. Danielin kitabı 7-ci fəsildəki adamın İsa Məsih olduğunu fərz etsək, o zaman görüntü ən çox İsanın Ata və Oğul rollarını göstərir. Bu fəsildə iki nəfərin olması barədə təlim verilə bilməz, çünki Əzəldən Var Olan İlahiliyində İsa kimi identifikasiya olunur. Bu parça ən çox taxtda Olanın (Allah bütün ilahiliyində) və Quzunun (İsa özünü bəşər, qurbanlıq rolunda) Vəhy 5-də göstərildiyi görüntü kimi İsanın ikili təbiətini və rolunu təsvir edə bilər. (Vəhydə bu parçanın tam izahı üçün 9-cu fəslə baxın.).

Nəticə olaraq deyə bilərik ki, Daniel 7-ci fəsildə "İnsan Oğluna bənzər olan" və ya "bir insan oğluna bənzər olan" Allahın Padşahlığını miras alacaq müqəddəsləri təmsil edir. Əgər bu ayələr İsa Məsihə aiddirsə, o zaman Əzəldən Var Olan Onu ilahi rolunda təsvir etdiyi kimi, bu ayələrdə də O, bəşər rolunda təsvir edilir.

## Yehovanın yaxını

Zəkəriyyə 13:7-ci ayədə Rəbb, Xilaskar haqqında danışırdı və Onu "mənim yaxınım" adlandırdı. Müqəddəs yazının bu

ayəsini başa düşməyin açarı Rəbbin bir “insan”ı təsvir etdiyini dərk etməkdədir. Yəni, O, ayədə insan olan Məsih İsa haqqında danışırdı; bu adamın onun yoldaşı və ya Ona yaxın biri olacağını söyləyirdi. Bu ayədə bir Tanrının başqa bir Tanrıya “mənim yaxın Tanrım” dediyi təsvir edilmir. Bu, hətta NIV və TAB tərcümələrində daha aydın başa düşülür. NİV tərcüməsində bu ifadə "mənə yaxın olan insan" kimi verilmişdir, TAB tərcüməsində isə "mənim həmkarım olan insan" kimi verilmişdir. Yalnız günahsız insan olan Məsih İsa Tanrının Müqəddəs Ruhuna yaxınlaşa bilər və Tanrıya həqiqətən yaxın ola bilərdi. Buna görə 1 Timoteyə 2:5-də deyilir: "Çünki Allah bir və Allahla insanlar arasında olan Vasitəçi də birdir. O, insan olan Məsih İsadır." Əlbəttə ki, Məsih vasitəsi ilə hamımız Allahla ünsiyyət qura bilərik.

## Nəticə

Əhdi-ətiqdə Tanrıçılıqda şəxslərin çoxluğu barədə təlim verilmir və ya bu nəzərdə tutulmur. Şəxslərin çoxluğu barədə təlim verən bəzi trinitaristlərin istifadə etdikləri ayələri ciddi monoteizm barədə bir mənalı olaraq təlim verən ayələrə uyğunlaşdırmaqla bütün Əhdi-ətiq ayələrini, məmnuniyyətlə, izah edə bilərik. Şübhəsiz ki, yəhudilər bütün Əhdi-ətiqi Tanrının Kəlamı kimi qəbul etməkdə, eyni zamanda bir bölünməz Tanrıya olan inamlarına bağlı qalmaqda çətinlik çəkmədilər. Başdan sonadək və ziddiyyət olmadan Əhdi-ətiq tək (vahid) Tanrının gözəl həqiqətlərini öyrədir.

## Son qeydlər
## 7-ci fəsil

[1]Flanders və Kresson, 48, n. 8.

[2]Tövrat Tədqiqatları İnstitutunun direktoru ortodoks Ravvin David Rubin ilə söhbət, Yerusəlim, İsrail, noyabr 1980-ci il.

# 8 ƏHDİ CƏDİDİN İZAHATLARI: İNCİL

Bu fəsildə İncildə ilk olaraq Tanrıçılıqda şəxslərin çoxluğu barədə təlim vermək üçün bəzilərinin istifadə etdiyi istinadlar müzakirə olunur. Növbəti fəsildə Həvarilərin işləri kitabından Vəhy kitabına qədər parçalar araşdırılsa da, bu fəsildə İncildə qaldırılan suallarla əlaqəli olaraq onların bəziləri izah ediləcəkdir. Bütün bu Müqəddəs yazı ayələrini vahid Tanrı barədə təlim verən Tanrının Kəlamının qalan hissəsi ilə uyğunlaşdırmalıyıq. Maraqlısı budur ki, bu ayələr düzgün başa düşüldükdə Tanrının vahidliyini dəstəkləyir.

Bu fəsildə əsas etibarı ilə Tanrıçılıqdakı şəxslərin çoxluğu barədə təlim vermək üçün bəzilərinin İncil kitabından istifadə etdiyi istinadlar müzakirə olunur. Növbəti fəsildə Həvarilərin işləri kitabından Vəhy kitabına qədər parçalar araşdırılsa da, onların bəziləri İncildə qaldırılan suallarla əlaqəli olduğundan bu fəsildə izah ediləcəkdir. Bütün bu Müqəddəs yazı ayələrini vahid Tanrı barədə təlim verən Tanrının Kəlamının qalan hissəsi ilə uyğunlaşdırmalıyıq. Maraqlısı budur ki, bu ayələr düzgün başa düşüldükdə Tanrının vahidliyini dəstəkləyir.

**Anlamaq üçün dörd vacib yardım**

Müzakirəmizin əvvəlindən etibarən gəlin, dörd vacib məqamı vurğulayaq. Bunları aydın başa düşsək, Müqəddəs yazıların ən çətin görünən ayələri asanlıqla izah oluna bilər.

1. İsaya münasibətdə cəm (xüsusən ikilik) şəklin olduğunu görəndə, biz İsa Məsihin bəşəriliyi və ilahiliyi haqqında düşünməliyik. Burada həqiqi bir ikilik var, amma bu, Tanrıda olan şəxslərin fərqi deyil, Ruh və cismin fərqidir.

2. İsa həm Tanrı kimi, həm də həqiqi bir insan kimi danışdı, hərəkət etdi və bəzi fikirlərdə bir rol digərlərindən daha çox vurğulanır. İnsan kimi deyə biləcəyimiz və ya edə biləcəyimiz hər şeyi İsa bir insan kimi deyə və ya edə bildi, lakin istisna olaraq heç vaxt günah işlətmədi. Tanrıya bağlı ola biləcəyimiz hər şəkildə İsa Tanrı ilə bağlı idi, lakin istisna olaraq Ona heç vaxt tövbə etmək və ya yenidən doğulmaq lazım deyildi. Eyni zamanda, Tanrının Ruhu

Onun içində tam yaşayırdı; O, bədəndə zühur edən Tanrı idi.
3. Tanrı ilə əlaqədar cəm şəklin istifadəsini görəndə, buna şəxslərin çoxluğu (cəmi) deyil, bəşərə münasibətdə rol və ya münasibətlərin cəmi kimi baxmalıyıq.
4. Əhdi-cədid yazarlarının üçlüyün doktrinası haqqında təsəvvürləri yox idi. Onların yəhudilərin malik olduqları ciddi monoteist bilgiləri var idi; vahid Tanrı məsələsi, ümumiyyətlə, onlar üçün problem deyildi. Bəzi parçalar ilk baxışdan bizə "trinitar" görünə bilər, çünki əsrlər boyu trinitaristlər onlardan istifadə edib öz doktrinalarına uyğun təfsir ediblər. Ancaq üçlüyün gələcək doktrinası haqqında heç bir anlayışı olmayan erkən kilsəyə bu ayələr asanlıqla başa düşülən idi. Burada istər ciddi monoteizmə, istərsə də İsanın ilahiliyinə zidd getmək barədə bir fikir yox idi. Bu dörd məqamı nəzərə alaraq, gəlin, Müqəddəs yazıların müəyyən hissələrinə müraciət edək.

## Məsihin Vəftizi

"İsa vəftiz olunub o anda sudan çıxdı; və budur, göylər açıldı və Allahın Ruhunun göyərçin kimi enib, Öz üzərinə gəldiyini gördü. Və budur, göylərdən bir dedi: "Bu, mənim sevimli Oğlumdur, Ondan çox məmnunam" (Matta 3:16-17).
Bu hissəyə görə, Allahın Oğlu vəftiz edildi, Ruh göyərçin kimi endi və göydən bir səs danışdı. Luka 3:22-də daha bir məlumat əlavə olunur: “Müqəddəs Ruh cismani şəkildə, göyərçin kimi Onun üzərinə endi”.

Bu mənzərəni anlamaq üçün Tanrının hər yerdə mövcud olduğunu unutmamalıyıq. İsa Tanrıdır, yer üzündə olarkən bədəndə zühur edən Tanrı idi. O yer üzündə olarkən hər yerdə mövcud olmasını qurban verə bilməzdi və qurban vermədi, çünki bu, Tanrının əsas xüsusiyyətlərindən biridir və Tanrı dəyişmir. Əlbəttə ki, İsanın fiziki bədəni hər yerdə mövcud deyildi, amma Onun Ruhu hər yerdə mövcud idi. Bundan əlavə, Tanrının xarakterinin bütövlüyü İsanın bədənində sakin olsa də, hər yerdə mövcud olan İsanın Ruhu bu cür məhdudlaşa bilməzdi. Beləliklə, İsa eyni vaxtda həm yer üzündə, həm də göylərdə ola bilərdi (Yəhya 3:13) və istənilən an iki və ya üç şagirdi ilə bərabər ola bilərdi (Matta 18:20).
Tanrının hər yerdə mövcud olmasını nəzərə alaraq Məsihin vəftizini çox asanlıqla başa düşə bilərik. İsanın insan bədəninin İordan çayında olduğu bir vaxtda Onun Ruhunun göydən danışması və Öz Ruhunun təzahürünü göyərçin şəklində göndərməsi heç də çətin deyildi. Sinay dağından gələn Tanrının səsi dağın heç də tanrıçılıqda ikinci bir şəxs olduğunu göstərmədiyi kimi, göydən gələn səs və göyərçin də fərqli şəxsləri təmsil etmir.
Səs və göyərçin hər yerdə mövcud olan Tanrının simvolik təzahürləri olduğundan biz onların nəyi təmsil etdiklərini soruşa bilərik. Onların məqsədi nə idi? Əvvəlcə, biz İsanın vəftizinin məqsədinin nə olduğunu soruşmalıyıq. Şübhəsiz ki, O, bizim kimi, günahın bağışlanması üçün vəftiz olunmadı, çünki günahsız idi (1 Peter 2:22). Əksinə, bibliyada deyilir ki, o, saleh olan hər şeyi icra etmək üçün

vəftiz olunmuşdur (Matta 3:15). O, bizim nümunəmizdir və O, bizə nümunə qoymaq üçün vəftiz edildi (1 Peter 2:21).
Üstəlik, İsa Özünü zahir etmək üçün və ya Özünü İsrailə tanıtdırmaq üçün vəftiz edildi (Yəhya 1: 26-27,31). Başqa sözlə, İsa vəftizdən öz xidmətində başlanğıc nöqtə kimi istifadə etdi. Bu, Onun kim olduğunu və nə etmək üçün gəldiyini ictimaiyyətə bildirmək məqsədini daşıyırdı. Məsələn, Məsihin vəftizində Vəftizçi Yəhya İsanın kim olduğunu öyrəndi. Vəftiz olunana qədər O, İsanın, həqiqətən, Məsih olduğunu bilmirdi və vəftizdən sonra insanlara İsanın Allahın Oğlu və dünyanın günahını aradan qaldıran Allahın Quzusu olduğunu elan edə bildi (Yəhya 1: 29-34).
Məsihin vəftizinin məqsədlərini müəyyən edəndən sonra göyərçinin və səsin bu məqsədlərə necə xidmət etdiyinə baxaq.Yəhya 1:32-34 ayələrində göyərçinin Vəftizçi Yəhya üçün bir işarə olduğu açıq şəkildə bildirilmişdir. Yəhya Yehovanın öndə gedən adamı olduğundan (Yeşaya 40:3), o, İsanın, həqiqətən, bədəndə gələn Yehova olduğunu bilməli idi. Çünki Allah Yəhyaya demişdi, "Kimin üzərinə Ruhun enib qaldığını görsən, Müqəddəs Ruhla vəftiz edən Odur". Əlbəttə ki, Yəhya Tanrının Ruhunun Məsihi məsh etdiyini görə bilməzdi, buna görə Tanrı Öz Ruhunun görünən əlaməti olaraq bir göyərçin seçdi. Beləliklə, göyərçin İsanın Yehova və Məsih olduğunu Yəhyaya bildirmək üçün xüsusi bir əlamət idi.

Göyərçin də Məsihin xidmətinin başlanğıcını bildirmək üçün bir məsh növü idi. Əhdi-ətiqdə peyğəmbərlər, kahinlər və padşahlar Tanrının onları seçdiyini göstərmək üçün yağla məsh olunurdular (Çıxış 28:41; 1 Padşahlar 19:16). Xüsusilə kahinlər su ilə yuyunur və yağla məsh olunurdular (Çıxış 29: 4,7). Yağ Tanrının Ruhunun rəmzi idi. Əhdi-ətiqdə İsanın da eyni şəkildə məsh ediləcəyi əvvəlcədən xəbər verilmişdi (Zəbur 2:2; 45:7; Yeşaya 61:1). Faktiki olaraq, İbrani sözü Məsih (Yunan dilində Xristos) "Məsh edilmiş" deməkdir. İsa peyğəmbərlərin, kahinlərin və padşahların rollarını yerinə yetirmək üçün gəldi (Həvarilərin işləri 3: 20-23; İbranilərə 3:1; Vəhy 1:5). O həm də qanunu yerinə yetirmək və Öz Qanununa riayət etmək üçün (Matta 5:17-18) peyğəmbər, kahin və padşah kimi məsh edilməli idi.

İsa Tanrının özü və günahsız bir insan olduğundan, günahkar bir insan tərəfindən məsh olunması və simvolik yağla məsh edilməsi kifayət deyildi. Bunun əvəzində İsa birbaşa Tanrının Ruhu ilə məsh edildi. Beləliklə, suda vəftiz edilərkən İsa rəsmi olaraq yer üzündə xidmətə başlaması üçün simvolik yağla deyil, göyərçin şəklində Tanrının Ruhu ilə məsh edildi.

Göydən səs xalqın xeyri naminə gəldi. Yəhya 12:28-30 ayələrində bənzər bir hadisədə göydən bir səsin gəldiyi və İsanın ilahi olduğunun insanlara təsdiqləndiyi qeyd edilir. İsa Özü naminə deyil, insanlar naminə gəldiyini söylədi. Səs İsanı İsrailə rəsmi olaraq Tanrı Oğlu kimi tanıtdırmaq üçün Tanrının yolu idi. İsanın vəftizində bir çox insan

iştirak edirdi və bir çoxları vəftiz olunurdu (Luka 3:21), buna görə Ruh insan İsanı göydən gələn möcüzəli bir səslə hamıya Tanrının Oğlu kimi təqdim etdi. Bu, İsanın insan kimi verdiyi bir xəbərdən daha təsirli və inandırıcı idi. Əslində, bu möcüzəvi təzahür İsanın vəftizdəki məqsədini təsirli şəkildə yerinə yetirmiş oldu.
İsanın vəftizi bizə Tanrının üç şəxs olduğunu öyrətmir, ancaq Tanrının hər yerdə mövcud olduğunu və Tanrı Oğlunun bəşəriliyini açıqlayır. Tanrı dörd fərqli insanla eyni anda dörd fərqli qitədə danışarkən, biz Tanrının dörd şəxsini deyil, Tanrının hər yerdə mövcud olduğunu düşünürük. Tanrı vəftiz vasitəsilə monoteist yəhudi izləyicilərinə Tanrıçılıqdakı çoxluq haqqında köklü olaraq yeni bir vəhy ortaya çıxartmaq niyyətində deyildi və yəhudilərin bunu belə şərh etdiklərinə dair bir işarə də yoxdur. Hətta bir çox müasir alimlər Məsihin vəftizini üçlüyün göstəricisi kimi yox, lakin "İsanın Məsih kimi səlahiyyət (qüdrət) baxımından məsh edilməsinə" istinad kimi görürlər.

## Göylərdən gələn səs

İsanın həyatında üç dəfə göydən bir səs gəldi: Vəftizində, Onun görkəminin dəyişilməsində (Matta 17:1-9) və Yerusəlimə zəfərlə daxil olmasından sonra (Yəhya 12:20-33). Biz artıq izah etdik ki, səs Tanrıçılıqda fərqli bir şəxsi yox, ancaq hər yerdə mövcud olan Tanrının Ruhunun başqa bir təzahürünü ifadə edir.

Üç halın hər birində səs İsa üçün yox, başqaları naminə gəldi və bu səs müəyyən bir məqsəd üçün gəldi. Müzakirə etdiyimiz kimi, Məsihin vəftizindəki səs Onun yerdəki xidmətinin inaqurasiyasının bir hissəsi idi. Göyərçin Yəhya üçün olduğu kimi, bu səs də insanlar üçün idi. Səs İsanı Allahın Oğlu kimi təqdim etdi: "Bu, mənim sevimli Oğlumdur. Ondan çox məmnunam" (Matta 3:17). İsanın görkəminin dəyişilməsi zamanı gələn səs, şübhəsiz ki, mənzərəni izləyən şagirdlərin xeyri üçün idi, çünki mesaj “Bu mənim sevimli Oğlumdur, Ondan çox məmnunam; Ona qulaq asın ”(Matta 17:5) məzmununda idi. Səsin üçüncü təzahürü bir qrup yunan (yəqin ki, başqa millətdən olan prozelitlər- yəhudi dininə dönənlər) İsanı görməyə gələndə baş verdi. İsa səsin Onun üçün deyil, insanlar üçün gəldiyini izah etdi (Yəhya 12:30).

## Məsihin duaları

Məsihin duaları İsa ilə Ata arasındakı şəxslərin fərqliliyini göstərirmi? Xeyr, əksinə, onun dua etməsi Tanrının Oğlu ilə Tanrı arasındakı fərqi göstərir. İsa ilahi olaraq yox, bəşər olaraq dua etdi. İsanın duaları İsanın ilahi təbiətinin Atadan fərqli olduğunu göstərirsə, onda İsa ilahilikdə Atadan üstün deyil. Başqa sözlə, əgər İsa Tanrı kimi dua etsəydi, o zaman Tanrıçılıqdakı mövqeyi digər "şəxslər"dən bir qədər aşağı olardı. Bu nümunə bərabərhüquqlu şəxslərin üçlüyü anlayışını təsirli şəkildə alt-üst edir.

Tanrı dua edərək yenə də necə Tanrı ola bilər? Anlayışına görə, Tanrı hər şeyə qadir olmasına görə dua etməyə ehtiyac duymur və vahidliyinə görə dua edə biləcəyi başqa birisi də yoxdur. Əgər İsanın duaları Tanrıçılıqda iki şəxs olduğunu sübut edirsə, onda bu şəxslərdən biri digərinə tabedir və buna görə də tam və ya həqiqətən Tanrı olmur. Bəs Məsihin dualarının izahı nədir? Yalnız bu ola bilər ki, insan İsa, Tanrının əbədi Ruhuna dua etdi. Tanrı köməyə ehtiyac duymur; yalnız insanın ehtiyyacı var. Getsamani bağında İsanın söylədiyi kimi, "Doğrudan da Ruh qeyrətli, bədən isə zəifdir" (Matta 26:41). İbranilərə 5:7-ci ayədə İsanın yalnız "bədəndə" olduğu dövrdə dua etməyə ehtiyyacı olduğu açıqlanır. Getsamanidəki dua zamanı insan ilahi iradəyə təslim olur. Dua etməklə bir insan olaraq O, Tanrının Ruhuna tabe olmağı və itaət etməyi öyrəndi (Filipililərə 2:8; İbranilərə 5:7-8). Bu, iki ilahi iradə arasında mübarizə deyildi, lakin insan iradəsinin ilahi iradəyə təslim olması idi. Bir insan kimi İsa özünü Tanrının Ruhuna təslim etdi və Ondan güc aldı.
Bəziləri bu izahata etiraz edərək, İsanın Özünə dua etdiyini iddia edə bilər. Ancaq başa düşməliyik ki, digər insanlardan fərqli olaraq, İsa iki kamil və tam təbiətə - bəşəriliyə və ilahiliyə malik idi. Sıravi bir insan üçün absurd və ya mümkün olmayan şey İsa üçün o qədər də qəribə deyil. Biz İsanın Özünə dua etdiyini demirik, çünki bu, insanın Ruhla eyni olduğunu səhvən nəzərdə tuta bilər. Əksinə, deyirik ki, insan, Ruhun insanda sakin olduğunu qəbul edərək Tanrının Ruhuna dua etdi.

Seçim sadədir. Ya İsa Tanrı olaraq Ataya dua etdi, ya da insan olaraq Ataya dua etdi. Birincisi hal doğru olsaydı, onda Tanrıçılıqda bir şəxsin Tanrıçılıqdakı başqa bir şəxsdən daha aşağı olması, həm-bərabər olmamasını özündə ehtiva edən bir subordinatizm və ya arianizm forması olardı. Bu da vahid Tanrı haqqında, İsanın tam ilahiliyi və Tanrının hər şeyə qadir olması haqqında bibliyanın konsepsiyasına zidddir. Əgər ikinci alternativ düzgündürsə və bunun doğru olduğuna inanırıq, onda Tanrıçılıqda şəxslərin heç bir aşkar fərqi yoxdur. Yeganə fərq Tanrı ilə Tanrı arasında deyil, bəşərilik ilə ilahilik arasındadır.

**"Allahım, Allahım! Nə üçün Məni tərk etdin?"**

Bu ayə (Matta 27:46) Ata və Oğul arasındakı həqiqi (faktiki) bir ayrılığı təsvir edə bilməz, çünki İsa bədəndə təzahür edən Atadır. İsa dedi: "Mən və Atam birik" (Yəhya 10:30). Bibliyada deyilir ki, "Allah Özü ilə dünyanı barışdıranda .....Məsih içində idi" (2 Korinflilərə 5:19). İsa dünyanı Özü ilə barışdırmaq üçün bədəndə zühur etmiş Tanrı idi. İsanın çarmıxdakı fəryadı Tanrının Ruhunun bədəndən ayrıldığı anlamına gəlmir, lakin günahkar bəşəriyyət uğrunda bir qurban kimi həlak olanda Rudan heç bir kömək olmadığını göstərir. Bu, Tanrıçılıqda başqa bir şəxs tərəfindən tərk edilmiş bir şəxsin yox, lakin bəşəriyyətin günahlarına görə Tanrının qəzəbini və hökmünü öz üzərində yaşayan adamın, insanın fəryadı idi.

İlahi bir övlad və bəşəri bir övlad olaraq iki oğul yox idi, lakin iki təbiət var idi - ilahilik və bəşərilik - bu iki təbiət də bir insanda birləşdi. İlahi Ruhun insan təbiətindən ayrılması və bununla da həyatın (ömrün) davam etməsi ola bilməzdi. Lakin ölüm əzabı prosesində İsa günahlarımızın ağrılarını çəkdi. Ruhunu verəndə həlak olma prosesi ölümə çevrildi.
Başqa sözlə, İsa “Allahım, Allahım! Nə üçün Məni tərk etdin?” deyə qışqıranda nə demək istədi? Bu o demək idi ki, O, günahkar insanların əvəzində çarmıxa getdi və günah üçün tam cəza aldı. İlahi olduğuna görə əzabları yüngülləşdirilmədi. Hamı günah işlətmişdir (Romalılara 3:23) və günahın əvəzi ölümdür (Romalılara 6:23), bütün bəşər (günahsız Məsih istisna olmaqla) ölməyə layiq idi. Məsih layiq olduğumuz ölümü qəbul etdi və bizim uğrumuzda (Romalılara 5: 6-9) öldü. İsa Stefan kimi cəsarətli bir şəhiddən və Əhdi-ətiq qurbanından daha artığını etdi, çünki o, bizim əvəzimizdə öldü və layiq olduğumuz ölümü bir müddət yaşadı. Çarmıxda O, hər bir adam naminə ölüm dadmaq üçün ölüm acısını çəkdi (İbranilərə 2:9). Bu ölüm fiziki ölümdən daha artıq idi; Bu həm də ruhani bir ölüm, yəni Allahdan ayrılmaq demək idi (2 Saloniklilərə 1:9; Vəhy 20:14).
Yer üzündə yaşayan heç kim bu ruhani ölümü tam dərəcədə hiss etməmişdir, çünki hamımız Allahda yaşayırıq, hərəkət edirik və varlığımız ondadır (Həvarilərin işləri 17:28). Hətta ateist sevinc, sevgi və həyatın özü kimi çox yaxşı nemətlərdən həzz alır. Hər yaxşı şey Allahdan

gəlir (Yaqub 1:17) və bütün həyat Ondan qaynaqlanır və Onun tərəfindən davam edir. Lakin İsa son ölümü - günahkarın od gölündə üzləşəcəyi Tanrıdan ayrılığı daddı. Əbədi olaraq Tanrının tərk etdiyi bir Şəxs kimi O, əzabı, ümidsizliyi və çarəsizliyi hiss etdi. Beləliklə, İsa bütün dünyanın günahını öz üzərinə aldığından insan İsa çarmıxda fəryad etdi və bu günaha görə ayrılığın əbədi cəzasını hiss etdi (1 Peter 2:24).
Güman etməməliyik ki, Tanrının Ruhu İsanın bədənindən O "Allahım, Allahım! Nə üçün Məni tərk etdin?" deyən anda çıxdı. İlahi Ruh bəşəri bədənini yalnız ölümdə tərk etdi. İbranilərə 9:14-cü ayədə deyilir ki, Məsih özünü Allaha əbədi Ruh vasitəsilə təqdim etdi. Üstəlik, İsa ölümü ilə əlaqədar şagirdlərinə dedi: “Budur saat gəlir və artıq gəldi, hər biriniz öz tərəfinə dağılacaq və Məni tənha buraxacaqsınız, amma tənha deyiləm, çünki Ata mənimlədir" (Yəhya 16:32). Beləliklə, Tanrının əbədi Ruhu, Ata Məsihin ölümünə qədər bəşəri bədənini tərk etmədi.

## Tanrıçılıqdakı şəxslər arasında bilik ünsiyyəti?

Bəziləri inanır ki, bibliyada Tanrıçılıqdakı fərqli aşkar şəxslər arasında bilik ötürmələri təsvir olunur. Bu təhlükəli bir arqumentdir, çünki bu, Tanrıçılıqda bir şəxsin bildiyi bir şeyi başqa bir şəxsin bilmədiyini nəzərdə tutur. Bu, Tanrıdakı ayrı-ayrı şəxsiyyətlərin və düşüncələrin doktrinasını nəzərdə tutur ki, bu da öz növbəsində triteizmə və ya politeizmə gətirib çıxarır.

Gəlin izahat tələb edən bəzi ayələrə baxaq. Matta 11:27-ci ayədə deyilir: "Oğulu Atadan başqa heç kim tanımaz; və Atanı Oğuldan və Oğulun Onu açmaq istədiyi şəxsdən başqa heç kim tanımaz". Bu ayədə sadəcə olaraq bildirilir ki, İlahi vəhy (Atadan) olmasa, heç kim Oğulun kim olduğunu (Tanrının bədəndə təzahürü) başa düşə bilməz. Şübhəsiz ki, İsa Peterə dediyi zaman bunu nəzərdə tuturdu: "Çünki bunu sənə bildirən ət və qan deyil, göylərdə olan Atamdır" (Matta 16:17). Bizə deyilir ki, heç kim Müqəddəs Ruh ilə olmadan İsanı Rəbb adlandıra bilməz. (1Korinflilərə 12:3). Həm də Ata, Öz təbiətini və xarakterini insanlara inkarnasiya vasitəsilə - Tanrının Oğlu İsa Məsih vasitəsi ilə açdı.

Romalılara 8:26-27-də deyilir: "Ruh Özü ifadə olunmaz ahlarla bizim üçün vəsatət edir" və "Ürəkləri tədqiq edən Allah isə Ruhun nə düşündüyünü bilir." Bu ifadələr Ruhun yalnız funksiyalarının çoxluğunu göstərir. Bir tərəfdən Tanrı Öz Ruhunu qəlbimizə qoyur ki, bizə dua etməyi öyrətsin və bizim vasitəmizlə dua etsin. Digər tərəfdən, Tanrı dualarımızı eşidir, ürəyimizi tədqiq edir, tanıyır və Öz Ruhunun vəsatəti ilə bizim vasitəmizlə etdiyi duaları başa düşür. Müqəddəs yazıların bu hissəsi Tanrıdan və Onun Ruhundan ayrılma demək deyil, çünki Tanrı Ruhdur. Həm də bu, ürəklərimizi tədqiq edən Məsihin Ruhdan vəsatətçi kimi ayrıldığını bildirmir, çünki bibliyada Məsihin bizim üçün vəsatət etdiyi də söylənilir (İbranilərə 7:25; Romalılara 8:34) və Ruh hər şeyi, o cümlədən bizim ürəklərimizi araşdırır. "Bizə isə Allah bunları Öz Ruhu ilə

açdı; ona görə ki, Ruh hər şeyi, Allahın dərin düşüncələrini belə araşdırır. Çünki insanın düşüncələrini insanın özündə olan ruhundan başqa, hansı insan bilər? Beləcə də Allahın düşüncələrini Allahın Ruhundan başqa heç kim bilmir ”(1 Korinflilərə 2:10-11). Ruh "Allahın dərin düşüncələrini" araşdırsa da, Allahla Ruhu arasında ayrılıq olduğunu düşünməməliyik. Bizə deyilən şey budur ki, Tanrı həyatlarımızda Öz Ruhu ilə hər şeyi bizə açır. İçimizdəki Onun Ruhu həqiqətləri Onun düşüncələrindən bizim ağlımıza çatdırır: "Bizə isə Allah bunları Öz Ruhu ilə açdı; ona görə ki, Ruh hər şeyi, Allahın dərin düşüncələrini belə araşdırır". Sonrakı hissədə insan və onun ruhu Tanrı və Onun Ruhu ilə müqayisə edilir. İnsan iki şəxs deyil və Allah da belədir.

## Matta 28:19

6-cı fəsildə Matta 28:19-u müzakirə etdik və göstərdik ki, bu, bir çox funksiyaları olan bir Tanrını təsvir edir, Onun yalnız bir adı var. Burada diqqət mərkəzində çoxluq yox, vəhdət dayanır.

## İsanın öncədən mövcudluğu

Müqəddəs yazıların bir çox hissəsində İsanın insan həyatı başlamazdan əvvəl mövcud olduğu bildirilir. Ancaq bibliyada bizə Onun ayrılıqda və Atadan ayrı mövcud olduğu barədə təlim verilmir. Əksinə, ilahiliyində O, Ata və Yaradandır. İsanın Ruhu sonsuzluqdan mövcuddur, çünki O, Tanrının Özüdür. Halbuki İsanın bəşərilyi

inkarnasiyadan əvvəl mövcud deyildi, yalnız Tanrının düşüncəsində bir plan olaraq var idi. Buna görə də, İsanın Ruhunun inkarnasiyadan qabaq mövcud olduğunu söyləyə bilərik, ancaq Oğulun hər hansı substantiv bir mənada inkarnasiyadan qabaq mövcud olduğunu deyə bilmərik. Yəhya 1:1,14 ayələri İsanın əvvəlcədən mövcudluğuna dair təlimin yaxşı bir xülasəsidir: "Əzəldən Kəlam mövcuddur; Kəlam Allahda olub və Kəlam Allah olub. . . .Və Kəlam bəşər oldu." Başqa sözlə, İsa Tanrı kimi bütün əbədiyyət boyu mövcud idi. Gələcək Oğulluq planı başlanğıcdan Tanrının düşüncəsi olaraq Tanrıda mövcud idi. Nəticədə, Kəlam bəşər oldu - Tanrı Atanın insan şəklində ifadəsi. (Yəhya 1-də bu konsepsiyanın təsviri və ifadəsi üçün 4-cü fəsil-ə baxın. Oğul və Məsihin əvvəlcədən mövcudluğu, İbranilərə 1-ci fəsildəki müzakirə daxil olmaqla, 5-ci fəslə baxın.).
Gəlin bu anlayışları Məsihin öncədən mövcudluğundan bəhs edən Müqəddəs yazıların müxtəlif ayələrinə tətbiq edək. Yəhya 8:58-ci ayədən ("İbrahim olmazdan əvvəl Mən varam") İsanın Əhdi-ətiqin Tanrısı kimi öncədən mövcud olduğunu anlaya bilərik. Yəhya 6:62-ci ayədə ("Bəs əgər İnsan Oğlunun əvvəlcədən olduğu yerə qalxdığını görsəniz necə?") eyni şəkildə İsanın bəşəriliyini vurğulamaq yerinə Onunla bağlı "Mən "və ya" Məni" ifadəsinə ekvivalent olaraq "İnsan Oğlu" ifadəsi işlədilir. Yəhya 16:28-də İsa dedi: "Mən Atadan çıxıb dünyaya gəldim." Bu da Onun Tanrı kimi öncədən mövcudluğuna işarə edir. İsanın ilahi təbiəti Tanrı Ata idi, buna görə ikili

təbiətli Məsih "Mən Atadan çıxıb gəldim" deyə bilərdi. Bu bəyanat həm də Kəlamın, Tanrının ağlının bəşər olmasını və dünyaya göndərilməsini təsvir edə bilər.
Yəhya 17:5-də İsa dua etdi: "Ey Ata, dünya yaranmazdan əvvəl Mən Səninlə bərabər ikən Məndə olan həmin izzəti indi Mənə Öz yanında ver". Yenə İsa başlanğıcda Tanrı kimi malik olduğu izzətindən və Tanrının planında və düşüncələrində Oğulun malik olduğu izzətdən danışdı. Bu o demək deyildi ki, İsa Oğul kimi əvvəlcədən izzətlə mövcud idi. İsa dua edirdi, buna görə də insan kimi danışırdı. Bilirik ki, bəşəriyyət inkarnasiyadan qabaq mövcud deyildi, buna görə İsa başlanğıcdan Tanrının planında Oğulun malik olduğu izzət haqqında danışırdı.
İsanın Tanrı kimi öncədən mövcudluğuna aid digər Müqəddəs yazı ayələri 4, 5 və 9-cu fəsillərdə əhatə olunmuşdur.

## Oğul Atadan göndərildi

Yəhya 3:17 və 5:30 ayələri Müqəddəs yazının digər ayələri ilə birlikdə Atanın Oğlunu göndərdiyini bildirir. Bu, Tanrının Oğlu İsanın Atadan fərqli bir insan olduğunu göstərirmi? Biz bilirik ki, bu heç də belə deyildir, çünki Müqəddəs yazıların bir çox ayəsində Allahın bədəndə zühur etdiyi öyrədilir (2 Korinflilərə 5:19; 1 Timoteyə 3:16). O, Özünü verdi; Başqasını göndərmədi (Yəhya 3:16). Oğul Tanrı yox, insan olaraq Tanrıdan göndərildi: "Allah qadından doğulmuş Öz Oğlunu göndərdi" (Qalatiyalılara 4:4). Göndərdi sözü Oğulun əvvəlcədən mövcud olduğunu

və ya insanın əvvəlcədən mövcudluğunu nəzərdə tutmur. Yəhya 1:6-cı ayədə Vəftizçi Yəhyanın Tanrıdan göndərilmiş bir insan olduğu qeyd edilir və bilirik ki, o bətnə düşməzdən qabaq mövcud deyildi. Əksinə, göndərdi sözü Tanrının Oğulu xüsusi bir məqsəd üçün təyin etməsinə işarə edir. Tanrı bir plan yaratdı, bu plana bədən düzəltdi və sonra bu planı işə saldı. Tanrı Oğula xüsusi tapşırıq verdi. Xüsusi bir məqsədə çatmaq üçün Tanrı Özünü bədəndə zahir etdi. İbranilərə 3:1-də İsa iqrar etdiyimiz imanımızın (ingiliscə bibliyada etiqadımızın həvarisi) Elçisi adlanır ki, bu da yunan dilində "göndərilmiş" mənasını verir. Qısaca deyildi ki, Oğulun göndərilməsi ifadəsi Oğulun bəşərilyini və Oğulun doğulduğu konkret məqsədini vurğulayır.

### Tanrıçılıqdakı şəxslər arasındakı sevgi?

Üçlük üçün məşhur fəlsəfi bir dəlil Tanrının məhəbbət olduğuna əsaslanır. Əsas mübahisə budur: Tanrı bir-birini sevən şəxslərin çoxluğu olmamış dünyanı yaratmazdan əvvəl O, necə sevgi ola bilərdi və necə sevgi göstərə bilərdi? Bu düşüncə xətti bir neçə səbəbə görə səhvdir. Birincisi, düzgün olsa belə, bu üçlüyü sübut etməz. Əslində bu tam politeizmə gətirib çıxara bilər. İkincisi, Tanrı Öz məhəbbətinin əbədi təbiətini bizə niyə sübut etməyə ehtiyac duyur? Niyə Tanrının məhəbbət olduğu barədə fikri sadəcə qəbul edə bilmirik? Nə üçün Tanrını sevgi konsepsiyamızla məhdudlaşdırır və iddia edirik ki, Onun əvvəllər mövcud olan bir sevgi obyekti olmayıbsa, əbədi

keçmişdə O, sevgi ola bilməzdi? Üçüncüsü, məsələnin trinitar həlli politeizmdən necə yayınır və eyni zamanda Tanrının özünü sevdiyini sadəcə söyləməkdən necə yan keçir? Dördüncüsü, Tanrını zamanla məhdudlaşdıra bilmərik. Bizi əbədi keçmişdən sevə bildi və həqiqətən də sevdi. Biz o zaman mövcud deyildik, amma O, mövcudluğumuzu əvvəlcədən gördü. Onun düşüncələrində biz mövcud idik və O bizi sevirdi.
Yəhya 3:35, 5:20 və 15:9 ayələrində qeyd edilir ki, Ata Oğulu sevir və Yəhya 17:24-də yazılıb ki, Ata dünyanı yaratmazdan əvvəl İsanı sevdi. Yəhya 14:31-də İsa Ataya sevgisini ifadə etdi. Bu fikirlərin hamısı ayrı-ayrı şəxsləri nəzərdə tutmur. (Qəribə deyilmi ki, bu ayələr Müqəddəs Ruhu sevgi münasibətlərində nəzərdən qaçırır?) Bu ayələrdə ifadə olunan fikir insanın əbədi Ruhla münasibətidir. Ruh insanı sevirdi və əksinə. Ruh insan İsanı bütün bəşəriyyəti sevdiyi kimi sevirdi və bütün insanlar Tanrını insan İsanın sevdiyi kimi sevməlidirlər. Oğul, Tanrının bizi nə qədər sevdiyini və eyni zamanda bizim üçün nümunə olmağı göstərmək üçün dünyaya gəldi. Bu iki məqsədə çatmaq üçün Ata və Oğul bir-birlərinə sevgi göstərdilər. Tanrı bilirdi ki, dünya başlamazdan əvvəl Özünü Oğul kimi zahir edəcəkdi. Oğlunu başlanğıcdan sevirdi. O, gələcək Oğlunu zamanın başlanğıcından hamımızı sevdiyi kimi sevirdi.
Ata və Oğul arasındakı digər fərqlər
Müqəddəs yazıların bir çox ayəsinə görə Ata ilə Oğul güc, böyüklük və bilikdə fərqlənirlər. Ancaq Tanrıçılıqda iki

şəxsi göstərmək üçün onlardan istifadə etmək böyük səhvdir. Əgər Tanrıçılıqdakı şəxslər kimi Ata ilə Oğul arasında fərq mövcuddursa, onda Oğul ilahilikdə Ataya tabedir və ya ondan aşağıdadır. Bu oğulun tam Tanrı olmadığını ifadə edərdi, çünki tərifinə görə Tanrı heç kimə tabe deyil.Tərifinə görə, Tanrı bütün qüdrətə malikdir (hər şeyə qadirdir) və bütün biliklərə malikdir. Bu ayələri başa düşmək onlara İsanın (Atanın) ilahiliyini İsanın (Oğulun) bəşəriliyindən fərqləndirən ayələr kimi baxmaq lazımdır. İnsan olaraq Məsih, Onda yaşayan Tanrının Ruhuna tabe idi.

Yəhya 5:19 ayəsində deyilir: "Oğul Atanın etdiyini gördüyü şeylərdən başqa Özündən bir şey edə bilməz, çünki Ata nə edərsə, Oğul da onu eyni şəkildə edər." (Yəhya 5:30; 8:28 də baxın.) Matta 28:18-də İsa, "Göydə və yer üzündə bütün hakimiyyət Mənə verilmişdir" dedi və Atanın Ona bu qüdrəti verdiyini nəzərdə tutdu. Yəhya 14:28-də İsa dedi: "Ata məndən üstündür". 1 Korinflilərə 11:3-də Məsihin başının Allah olduğu bildirilir. Bütün bu Müqəddəs yazı ayələri göstərir ki, insan Özündən heç nə edə bilməz, ancaq Ruhdan qüdrət almışdır. Bədən Ruha tabe idi.

İkinci Gəliş haqqında danışarkən İsa dedi: "Lakin o günü, o saatı nə göydəki mələklər, nə də Oğul bilir; Atadan başqa heç kim bilmir." (Mark 13:32). Yenə bir insan olaraq İsa hər şeyi bilmirdi, amma İsanın Ruhu bilirdi.

Yəhya 3:17-də Oğulun Allah tərəfindən göndərildiyi haqqında danışılır. Yəhya 6:38-də İsa dedi: "Çünki Mənim

iradəmi deyil, Məni göndərən Atamın iradəsini yerinə yetirmək üçün göydən endim." İsa Özündən, yəni bəşəriliyindən gəlmədi, ancaq O, Allahdan gəlmişdir (Yəhya 7:28; 8:42; 16:28). Oğul Öz təlimini deyil, Atanın təlimini öyrədirdi (Yəhya 7:16-17). O, Öz əmrlərini yox, Atanın əmrlərini öyrədirdi və itaət edirdi (Yəhya 12: 49-50; 15:10). Öz izzətini axtarmadı, əksinə Atanı izzətləndirdi (Yəhya 8:50; 17:4). Bu ayələrin hamısı insan (Oğul) kimi İsa ilə Tanrının Ruhu (Ata) arasındakı fərqi təsvir edir. İnsan İsa bəşəriyyətin əməliyyatı ilə əmələ gəlmədi, eləcə də İsa bəşəriyyəti göstərmək üçün gəlmədi. Ruh bu planı tərtib etdi, körpə ana bətninə düşdü, Tanrının bütün xüsusiyyətlərini və keyfiyyətlərini o bədənə yerləşdirdi, sonra da bu bədəni dünyaya tanıtdırmaq üçün dünyaya göndərdi. Sonda həmin bədən öz məqsədini başa çatdıracaqdı. Oğulun özü də Allahın planına tabe olacaq ki, Allah hər şeydə hər şey olsun (1 Korinflilərə 15:28).

Bu ayələrdə bir insan kimi Məsihin Tanrının Onda yaşayan Ruhu ilə münasibəti təsvir olunur. Əgər bu ayələri biz Tanrı Ata və Tanrı Oğul adlandırılan iki şəxsi fərqləndirmək üçün şərh etsək, onda ziddiyyət yaranardı. Belə ki, Tanrıya aid olmayan aşağıdakı xüsusiyyətlərə malik olan Tanrı Oğulumuz olardı: Özündən heç bir qüdrətə malik olmazdı; Tam biliyə malik olmazdı; Öz iradəsini etməzdi; Özündən daha böyük birisi olardı; mənşəyi başqa birisində olacaqdı; və nəhayət öz fərdiliyini itirəcəkdi. Bu Müqəddəs yazı faktları “Tanrı Oğul” anlayışına ziddir.

## İlə bağlayıcıları ilə olan ayələr

Yəhya 1:1-2 və 1Yəhya 1:2 ayələrində ***ilə*** sözünün istifadəsini necə izah edirik? Yəhya 1:1-də yazılıb ki, Kəlam Allahla olub, sonrakı ayədə isə deyilir ki, Kəlam Allah olub. 4-cü fəsildə izah edildiyi kimi, Kəlam Tanrının düşüncəsi, planı, ifadəsi və ya ağlıdır. Beləliklə, Kəlamın Tanrı ilə olması və eyni zamanda Tanrının Özü olması bu mənada mümkündür. Həm də qeyd etməliyik ki, burada "ilə" kimi tərcümə olunan yunan sözü pros İbranilərə 2:17 və 5: 1-də "aid olan" olaraq tərcümə edilmişdir. Beləliklə, Kəlam Allahla olub ifadəsi Tanrıdan başqa ayrı bir şəxs mənasında yox, Tanrıya məxsus olmaq mənasında işlənmişdir. Bundan əlavə, əgər Yəhya 1:1-dəki Allah Tanrı Ata deməkdirsə, onda Kəlam heç də fərqli bir şəxs deyil və ayə bu cür oxunar “Kəlam Ata ilə idi, və Kəlam Ata idi”. Tanrıda şəxslərin çoxluğunun nəzərdə tutulması üçün ayənin ortasında Tanrının tərifinin dəyişdirilməsi lazım olardı.

Onu da qeyd etməliyik ki, 1Yəhya 1:2-də Oğulun əbədiyyətdə Allahla olduğu göstərilmir. Əksinə, əbədi həyatın Ata ilə olduğu bildirilir. Əlbəttə ki, İsa Məsih bizə əbədi həyatı göstərdi. O, 1-ci ayədəki həyat kəlamıdır. Lakin bu, əbədi həyatın Atadan ayrı bir şəxs kimi mövcud olduğunu ifadə etmir. Bu sadəcə Atanın Özündə əbədi həyata sahib olması deməkdir - bu, başlanğıcdan Onunla idi. O, əbədi həyatı bizə İsa Məsihdə, bədəndə zühuru ilə göstərdi.

## İki Şahid

İsa dedi: «Mən tək deyiləm, Mən və Məni göndərən Ata birik. İki adamın şəhadətinin doğru olduğu sizin qanununuzda da yazılmışdır. Mən Özüm haqqında şəhadət edirəm; və Məni göndərən Ata da Mənim üçün şəhadət edir"(Yəhya 8:16-18). Bu ayələrdən bir qədər əvvəl İsa demişdi: "Mən dünyanın Nuruyam" (ayə 12). Bu, onun xilaskar rolunun təsdiqlənməsi idi (Yeşaya 9: 2; 49: 6). Fəriseylər cavab verdilər: “Sən Özün Öz haqqında şəhadət edirsən; Sənin şəhadətin doğru deyildir” (Yəhya 8:13). Onların ittihamlarına cavab olaraq İsa izah etdi ki, O yeganə şahid deyildir, amma Onun Tanrının Oğlu, Xilaskar olması faktına dair iki şahid vardır. Bu iki şahid Ata (ilahi Ruh) və insan İsa idi. Başqa sözlə, Tanrı Ata və insan İsa Atanın cismani olaraq İsada zühur etməsinə şəhadət edə bilər. İsa həm Tanrı, həm də insan idi; həm əbədi Tanrı, həm də fani insan bu həqiqəti təsdiq edə bilər. Tanrıçılıqda şəxslərin fərqliliyi lazım deyildi. Həqiqətən, əgər kimsə bu iki şahidin üçlüyün fərqli şəxsləri olduğunu iddia edirsə, onda İsa niyə üç şahid olduğunu demədiyini izah etməli olacaq. Nəticədə qanun iki şahid tələb edirdi, lakin mümkün olduqda üç nəfər şahidin olmasını da istəyirdi (Qanunun təkrarı 17: 6; 19:15). İsa Atasına istinad edəndə, Fəriseylər İsadan Ata haqqında soruşdular və bununla da, heç şübhəsiz ki, Atanın onlara nə vaxt şəhadət etməsi ilə maraqlandılar. Atanın Tanrıçılıqda başqa bir şəxs olduğunu söyləmək əvəzinə, İsa Özünü Ata ilə - Əhdi-ətiqdəki "Mən var olanam" ilə eyniləşdirdi (Yəhya 8:19-

27). İki şahid Allahın Ruhu və insan Məsih idi, hər ikisi də İsanın bədəndə olan Tanrı olduğuna şəhadət etdilər.

## İsmin cəm şəklinin istifadəsi

İsa Ataya və Özünə bir neçə dəfə cəmdə müraciət etmişdir. Bu ayələr Yəhyanın müjdəsi kitabındadır. Əhdi-cədidin bu kitabını yazan şəxs İsanı Tanrı və bədəndə gəlmiş Ata kimi hamıdan daha çox müəyyən etmişdir. Cəm şəklin işlənməsindən istifadə edib İsanın tanrıçılıqda Atadan fərqli bir şəxs olduğunu bildirmək üçün güman etmək səhvdir. Bununla birlikdə, bu, İsa Məsihin ilahiliyi (Ata) və bəşəriliyi (Oğul) arasındakı fərqi göstərir. Görünən Oğul görünməz olan Atanı izhar etdi. Beləliklə, İsa dedi: "Əgər Məni tanıyırsaydınız, Atamı da tanımış olardınız" (Yəhya 8:19); "Ata Məni tək buraxmayıb" (Yəhya 8:29); "Mənə nifrət edən, Atama da nifrət edir" (Yəhya 15:23); "Amma indi həm gördülər, həm Mənə, həm də Atama nifrət etdilər" (Yəhya 15:24); və "Amma tənha deyiləm, çünki Ata Mənimlədir" (Yəhya 16:32). Müqəddəs yazıların bu ayələri ardıcıl bir mövzunu ifadə etmək üçün cəmdən istifadə edir: İsa sadəcə bir insan deyil, O həm də Tanrıdır. İsa zahirən göründüyü kimi adi bir insan deyildi. O tək deyildi, daxilində Atanın Ruhu var idi. Bu, İsanın ikili təbiətini izah edir və Tanrının vahidliyini göstərir.

Ata İsa ilə necə idi? İzah budur ki, O, İsada idi. Buna görə də, əgər İsanı tanıyırıqsa, Atanı tanıyırıq; əgər İsanı görürüksə, Atanı görürük; və əgər İsaya nifrət ediriksə,

Ataya nifrət edirik. 2 Yəhya 9-da deyilir: "Məsihin təliminə bağlı qalan adamda isə həm Ata, həm də Oğul vardır." Məsihin doktrinası nədir? Bu, İsanın Xilaskar olması doktrinasıdır; O, bədəndə zühur edən Əhdi-ətiqdəki Tanrıdır. Başqa sözlə, həvari yazırdı ki, Məsihin doktrinasını başa düşsək, İsanın Ata və Oğul ittifaqı olduğunu dərk edəcəyik. Buna görə də nə Atanı, nə də Oğulu inkar etmirik. Məsihin doktrinasını qəbul edəndə həm Atanın, həm də Oğulun doktrinasını qəbul edirik. Həm də doğrudur ki, əgər Oğulu inkar ediriksə, Atanı inkar etmiş oluruq, amma Oğulu tanıyırıqsa, Atanı da tanımış oluruq (1 Yəhya 2:23).
Yəhya 14:23-də cəm şəklinin olduğu başqa bir parça xüsusi diqqətə layiqdir: "İsa cavab verib ona dedi:" Kim Məni sevirsə, sözümə riayət edər; və Atam Onu sevər və Biz onun yanına gedib onunla bərabər məskən salarıq." Bu ayəni başa düşməyin açarı Rəbbin bədən qarışıq bizə daxil olması barədə danışmadığını dərk etməkdir. Üstəlik, biri Oğulun, biri də Atanın olmaqla Tanrının iki Ruhu olarsa, onda qəlbimizdə ən azı iki Ruh olardı. Ancaq Efeslilərə 4: 4-də bir Ruhun olduğu bəyan edilir. Biz bilirik ki, Yəhya 14:23 İsanın bədən qarışıq bizə daxil olması mənasını vermir, çünki İsa demişdi: "O gün biləcəksiniz ki, Mən Atamdayam, siz Məndəsiniz və Mən sizdəyəm" (Yəhya 14:20). Əlbəttə ki, biz fiziki mənada İsada deyilik. Bəs, bu parça nəyi bildirir? Bu, Məsihlə bir düşüncə, məqsəd, plan və həyat birliyi deməkdir. Yəhya 17:21-22 ayələrində İsa dua edərkən söylədiyi eyni fikir ifadə olunur: "Hamısı bir

olsun; necə ki, ey Ata, Sən Məndəsən və Mən də Səndəyəm, onlar da Bizdə bir olsunlar ki, Məni Sən göndərdiyinə dünya iman etsin. Mənə verdiyin izzəti də Mən onlara verdim ki, Biz bir olduğumuz kimi onlar da bir olsunlar."

Hətta belə olduğu təqdirdə, İsa imanlıların Tanrı ilə birliyi barədə danışarkən niyə cəm şəklindən istifadə etdi? Əlbəttə ki, Tanrı imanlını Özü ilə barışdırmaq üçün qurtuluşu yaratmışdır. Ancaq günahkar insanlar müqəddəs Tanrıya yaxınlaşa bilmirlər, sonu olan insanlar sonsuz bir Tanrını dərk edə bilmirlər. Tanrı ilə barışmağımızın və Onu anlamağımızın yeganə yolu günahsız insan olan İsa Məsih vasitəsilə Onun bədəndə zühur etməsidir. İsa ilə bir olduğumuz zaman Tanrı ilə bir oluruq, çünki İsa yalnız bir insan deyil, həm də Tanrıdır.Tanrı ilə birləşmək üçün əvvəlcə İsanın qanı ilə kəffarə almalı olduğumuzu vurğulamaq üçün İsa cəm şəklindən istifadə etmişdir. Çünki Allah bir və Allahla insanlar arasında olan Vasitəçi də birdir; O, insan olan Məsih İsadır (1 Timoteyə 2:5). İsanın vasitəçiliyi olmasa, Atanın yanına heç kim gələ bilməz (Yəhya 14:6). Doktrinal cəhətdən düzgün olmaq üçün İsanın bədəndə gəldiyini iqrar etməliyik (1 Yəhya 4:2-3). Məsihi qəbul edərkən həm Atanı, həm də Oğulu qəbul etdik (2 Yəhya 9). Ata və Oğulla olan birliyimiz Tanrıçılıqda iki şəxslə birlik deyil, sadəcə insan olan İsa vasitəsilə Allahla birlikdir: "Yəni, Allah, Özü ilə dünyanı barışdıranda Məsih içində idi" (2 Korinflilərə 5:19).

Tanrı ilə birliyimiz barədə düşünməyin başqa bir yolu Ata və Oğulun təmsil etdiyi iki fərqli xidməti və ya münasibətləri xatırlamaqdır. İmanlı hər iki rolun keyfiyyətlərindən, məsələn Atanın hər şeyə qadir olmaq, Oğulun kahinlik və itaətli olmaq kimi xüsusiyyətlərindən bəhrələnə bilər. İmanlı həm Ataya, həm Oğula malikdir. Ancaq o, Tanrının bütün bu keyfiyyətlərini, Tanrının vahid Ruhu olan Müqəddəs Ruhu alanda əldə edir. O, iki və ya üç ruh qəbul etmir. Tanrının imanlı insanda məskən salmasına Müqəddəs Ruhun hədiyyəsi (və ya vəftiz) deyilir və bu hədiyyə Allahın bütün xüsusiyyətləri və rollarını bizim üçün mümkün edir: "Çünki hamımız bir Ruhda vəftiz olunmuşuq" (1Korinflilərə 12:13).

Digər tərəfdən, əgər bir adam tanrıçılıqda iki fərqli şəxsin birliyini təsvir etmək üçün Yəhya 14:23 və 17:21-22 ayələrini şərh etmiş olsaydı, onda ardıcıl olmaq üçün o, Müqəddəs yazıları şərh edib iman gətirənlərin İsa kimi Tanrıçılığın üzvü olduqlarını bildirmiş olardı. Aydındır ki, bu ayələr, Tanrı Oğlunun malik olduğu Tanrı ilə birliyi qeyd edir və İncilə iman gətirib itaət etməklə bundan zövq ala bilərik. (Əlbəttə ki, İsa bədəndə zühur etmiş Ata olduğundan O, Ata ilə birdir, lakin Müqəddəs yazının bu xüsusi ayələrinin təsvir etdiyi bu deyildir.)

### Tanrıçılıqdakı şəxslər arasındakı söhbətlər?

Bibliyada Tanrının iki şəxsi arasındakı söhbət barədə qeydlər yoxdur, ancaq Tanrı bütün insanlarla ünsiyyət aradığı kimi, Tanrı ilə insan olan Məsih arasında ünsiyyətə

dair çox sayda təsvirlər var. Məsələn, Məsihin duaları Tanrının əbədi Ruhundan kömək istəyən adamı təsvir edir. Yəhya 12:28-də İsa tərəfdən Atanın Öz adını izzətləndirməsi istəyi qeyd olunur. Göydən bir səs gələrək bu istəyə cavab verdi. Bu, İsanın yer üzündə bir insan olduğunu, lakin Onun Ruhunun bütün kainatın Tanrısı olduğunu göstərdi. Səs İsa üçün yox, insanlar üçün gəldi (Yəhya 12:30). Dua və səs Tanrıçılıqdakı iki şəxs arasında söhbət deyildi; bu, bir insan olaraq İsa ilə əbədi Tanrı arasında ünsiyyət idi. Səs Tanrının Ruhunun insanlar üçün şəhadəti idi, Allah tərəfdən Oğulun təsdiqi idi. İbranilərə 10:5-9 ayələrində Zəbur 40:6-8 ayələrindən bir peyğəmbərlik kəlamı sitat gətirilir. Xilaskarın gəlişi barədə peyğəmbərlikdə Məsih bir insan kimi əbədi Allaha danışır və Allahın iradəsinə tabe olduğunu və itaət etdiyini bildirir. Əslində bu mənzərə Məsihin Getsamani bağındakı duasına oxşayır. Aydındır ki, Məsih bir insan kimi danışır, çünki “Mənə bədən hazırladın” və “Mən gəldim ki, Ey Allah, Sənin iradəni yerinə yetirim" deyə bildirir.

Nəticə olaraq, bibliyada Tanrıçılıqda şəxslər arasında söhbət yox, həqiqi bir insanla Tanrının əbədi Ruhu arasındakı mükalimə qeyd edilir. Onları iki ilahi "şəxs" olaraq təfsir etmək ən azı iki "Tanrıya" inam yaradır. (Çox qəribədir ki, Müqəddəs Ruh heç vaxt söhbətlərin tərkib hissəsi deyil!) Üstəlik, "şəxslər" tək ilahidə ayrı-ayrı intellektləri nəzərdə tutardı ki, bu da politeizmdən fərqlənməyən bir anlayış olardı.

## Başqa bir təsəlliverici

Yəhyanın müjdəsi 14:16-da İsa başqa bir Təsəlliverici göndərəcəyinə söz verdi. 26-cı ayədə Təsəlliverici Müqəddəs Ruh olaraq qeyd edilir. Bu, Müqəddəs Ruhun Tanrıçılıqda başqa bir şəxs olduğunu göstərirmi? Xeyr. Kontekstdən aydın olur ki, Müqəddəs Ruh sadəcə bir formada və ya təzahürdə olan İsadır. Başqa sözlə, "başqa bir Təsəlliverici" bədəndəki İsadan fərqli olaraq Ruhdakı İsa deməkdir. 16-cı ayədə İsa şagirdlərə digər Təsəlliverici haqqında danışdı. Sonra 17-ci ayədə İsa onlara Təsəllivericini artıq tanıdıqlarını söylədi, çünki O, onların yanında dururdu və onların daxilində olacaqdır. O dövrdə kim şagirdlərlə yaşayırdı? Əlbəttə İsa. Ruh cismani bədənə bürünəndən bəri İsanın Ruhu şagirdlərlə yaşayırdı, lakin tezliklə Müqəddəs Ruhun ənamı vasitəsilə həmin o Ruh şagirdlərin daxilində olacaqdır. İsa bunu 18-ci ayədə “Sizi yetim qoymaram: sizin yanınıza gələcəyəm” deyərkən bunu daha aydın ifadə etdi.

İsa şagirdləri ilə yeni bir münasibət qura bilməsi üçün izzətli bədənində göyə getdi və öz Ruhunu Təsəlliverici kimi göndərdi. Onlara dedi: "Mənim getməyim sizin üçün xeyirlidir; çünki mən getməsəm, Təsəlliverici sizin yanınıza gəlməz; amma gedərəmsə, Onu sizə göndərərəm”(Yəhya 16:7). Müqəddəs Ruh Məsihin Ruhudur (Romalılara 8:9; 2 Korinflilərə 3:17-18). Ruh bizdə olanda bizdə Məsih var (Efeslilərə 3:16-17).

Bir sözlə, İsa şagirdlərlə fiziki olaraq üç ilə yaxın iş gördü, ancaq Onun yola düşmə vaxtı gəldi. Ancaq, onları tək,

rahatsız və yetim qoymayacağına söz verdi. Belə ki, yeni bir şəkildə qayıdacağını vəd etdi. O, görünən bir bədəndə gəlib onlarla birlikdə olmaq və həmin bədənlə məhdudlaşmaq üçün gəlməzdi, ancaq Ruhda qayıdacaqdı ki, onlarda yaşaya bilsin. Beləliklə, Təsəlliverici, yəni Müqəddəs Ruh İsanın Ruhudur. Bu, yeni tərzdə zühur edən İsadır; İsa bizimlə və bizim içimizdə ola bilər. O, eyni zamanda bütün dünyada şagirdlərinin hamısında ola bilər və dövrün sonuna qədər bizimlə olacağına dair verdiyi vədini yerinə yetirə bilər (Matta 28:20).

**İsa və Ata yalnız məqsəddə birdirlərmi?**

Yəhya 17:21-22-yə əsasən, İsa Ata ilə bir olduğu kimi, məsihçilər də bir-birləri ilə bir olmalıdırlar. Bu, İsanın Ata olduğuna inamımızı məhv edirmi? Xeyr. Bu ayədə İsa insan kimi - Oğul kimi danışdı. Bu açıq-aydın görünür, çünki Ataya dua edirdi və Tanrı dua etməyə ehtiyac duymur. Bəşər olaraq İsa məqsəd, ağıl və iradənin vəhdəti mənasında Ata ilə bir idi. Bu mənada məsihçilər həm Allahla, həm də bir-biri ilə bir ola bilərlər (Həvarilərin işləri 4:32; 1 Korinflilərə 3: 8; Efeslilərə 2:14).

Unutmamalıyıq ki, Oğul Ata ilə eyni deyil. "Ata" titulu heç vaxt insanı bildirmir, "Oğul" isə bildirir. İsa Ata və Oğulun birliyi olsa da, Atanın Oğul olduğunu deyə bilmərik.

Yəhya 17:21-22 ayələrində İsa insan kimi danışarkən, qeyd etməyib ki, O, Atadır. Bununla yanaşı, digər ayələrdə İsanın Ata ilə vəhdəti elə bir şəkidə təsvir edilmişdir ki, bu, sadəcə məqsəd birliyinin fövqündə durur və İsanın

bədəndə gəlmiş Ata olduğunu göstərir. Bu, Onun mütləq ilahiliyindən bəhs etdiyi üçün hədəfimizdən kənarda olan əlavə bir səviyyədir. İsa "Mən və Atam birik" dedikdə, yəhudilər Onun Allah olduğunu düzgün anlamışdılar və Onu öldürməyə çalışırdılar (Yəhya 10:30-33). Bu hadisədə O, yalnız Tanrı ilə birliyə yox, Tanrı ilə kimliyinə iddia etdi. İsa həmçinin dedi: "Məni görən, Atanı görmüş olur" (Yəhya 14:9). Bir məsihçi Tanrı ilə nə qədər birləşməsindən asılı olmayaraq bu açıqlamanı verə bilməzdi. İki məsihçi nə qədər birləşmiş olsalar da, onlardan biri "Məni görürsənsə, dostumu görmüş olursan" deyə bilməz. Eləcə də ər və arvad bir bədən olsalar belə, bu açıqlamanı onlara da aid etmək olmaz (Yaradılış 2:24). Deməli, İsa ilə Atanın vəhdəti insan münasibətlərinin çata biləcəyi vəhdətdən daha çox məna ifadə edir. Bir insan kimi İsa məqsəd, ağıl və iradənin vəhdəti mənasında Ata ilə bir idi (Yəhya 17:22). Allah olaraq, İsa Ata ilə kimlik mənasında, yəni O, bədəndə zühur etmiş Ata olması mənasında (Yəhya 10:30; 14:9) Ata ilə birdir.

## Nəticə

Yekunda deyə bilərik ki, İncildə Tanrıçılıqdakı şəxslərin təqdimatı yoxdur. İncil üçlük doktrinası barədə təlim vermir, sadəcə İsanın insan və ilahi, bədən və Ruh, Tanrının Oğlu və bədəndə gəlmiş Ata olduğunu öyrədir. Yəhyanın müjdəsi kitabında Ata və Oğula münasibətdə ismin cəm şəklində müraciətlər yer alır, lakin bu kitabda

İsa Məsihin ilahiliyi və Tanrının vahidliyi digər kitablarla müqaqyisədə daha çox öyrədilir. Cəmdə verilmiş istinadları araşdırarkən biz müəyyən edirik ki, bu istinadlar monoteizmə heç də zidd olmayaraq, İsanın vahid Tanrı olduğunu və Atanın Oğulda təzahür etdiyini bir daha təsdiqləyir.
Növbəti fəsildə araşdırmamızı başa çatdırmaq üçün biz Əhdi-cədidin digər kitablarına - Həvarilərin işlərinə, Məktublara və Vəhy kitabına müraciət edirik. İncilin 4 əsas müjdəsində olduğu kimi, bu kitablarda da şəxslərə heç bir fərq qoyulmadan Tanrının vahidliyi öyrədilir.

**SON QEYD**
**FƏSİL 8**

[1]"Üçlük, Müqəddəs (Bibliyada)", Yeni Katolik Ensiklopediyası 14:306.

# 9 ƏHDİD-CƏDİD İZAHATLARI: HƏVARİLƏRİN İŞLƏRİ KİTABINDAN VƏHY KİTABINA QƏDƏR

Bu fəsil 8-ci fəslin davamıdır. Bu fəsildə Əhdi-cədidin Həvarilərin işləri kitabından Vəhy kitabınadək olan bəzi ayələr izah edilir. Əvvəlki fəsildə Tanrıçılıqdakı şəxslərin cəm forması barədə təlim vermək üçün bu ayələrdən arabir istifadə olunmuşdur. (İncildə qaldırılmış suallarla əlaqəli olduqları təqdirdə bu kateqoriyadan olan bəzi ayələr 8-ci fəsildə əhatə olunur.)

## Tanrının Sağ tərəfi (əli)

Əhdi-cədiddəki çoxlu sayda ayələrdə İsanın Allahın sağında oturduğu qeyd edilir. Peter Zəbur 110:1-dən sitat gətirərək Həvarilərin işləri 2:34 ayəsində bu ifadəni işlətdi. Həvarilərin İşləri 7:55-ə əsasən, Stefan öldürülərək daşlanarkən göyə baxdı və "Allahın cəlalını və Allahın sağında duran İsanı" gördü. Bu ifadə nə deməkdir? Bu o deməkdirmi ki, göydə Allahın iki fiziki təzahürü var, Allah və İsa; ikincisi (İsa) əbədi olaraq birincinin (Allahın) sağında oturmuşdur? Stefanın gördüyü budurmu?

"Tanrının sağ tərəfi (əli)" ifadəsinin fiziki mənada təfsir edilməsi yanlışdır. Birincisi, Allahı heç bir zaman kimsə görməmişdir, insan da Onu görə bilməz (Yəhya 1:18; 1 Timoteyə 6:16; 1 Yəhya 4:12). Allah Ruhdur və O, Ruh kimi görünməzdir (1 Timoteyə 1:17). Özünü insan şəklində büruzə verməyi qət etmirsə, Onun fiziki sağ əli yoxdur. Bilirik ki, Stefan sözün hərfi mənasınsa Allahı İsadan ayrı görməmişdir. O, iki şəxsi görsəydi, onda niyə yalnız İsaya dua edərək digərindən imtina etdi? (Həvarilərin işləri 7: 59-60). Əgər o, Ata və Oğulun ayrı-ayrı fiziki təzahürlərini görmüşsə, nəyə görə o, üçüncü şəxs kimi Müqəddəs Ruhu görmədi?

Həvarilərin İşləri 7:55-i diqqətlə oxuyarkən Stefanın Allahı İsadan ayrı görmədiyi barədə ifadə dəstəklənir. 55-ci ayədə deyilmir ki, Stefan Allahın Ruhunu gördü, ancaq “Allahın cəlalını” və İsanı gördüyünü söyləyir. 56-cı ayədə Stefan dedi: "Budur, göyləri açılmış və İnsan Oğlunu Allahın sağında durmuş görürəm!." Stefanın əslində

gördüyü yeganə vizual şəkil və ya şəxs İsa Məsih idi. "Allahın sağını" fiziki mənada götürsək, başqa problemlər ortaya çıxır. Həvarilərin işləri 2:34 ayəsində qeyd olunduğu kimi, İsa Allahın sağında oturmuşdu, yoxsa Həvarilərin İşləri 7:55-56-da yazılana görə, İsa Allahın sağında dayanmışdı? İsa Allahın uzanmış sağ əlinin üstündə oturmuşdu, yoxsa İsa Allahın sağ əlinin yanında oturmuşdu? İsa Atanın qucağındadırmı? (Yəhya 1:18). Vəhy 4:2-də təsvir edildiyi kimi, göydəki bir taxtın qurulması və bu taxtda birinin oturması haqqında nə demək olar? Ata həmin o taxtda oturur, İsa da onun yanında oturururmu? Bəs taxtda oturan şəxsin İsa olması faktı barədə nə demək olar? (Vəhy 4:2, 8 ilə Vəhy 1:8,18 ayələrini müqayisə edin.)
Aydındır ki, Tanrının sağında İsanın təsviri məcazi və ya simvolik olmalıdır. Həqiqətən, bu, bibliyada Allahın sağ əlinə dair çoxsaylı istinadlardan aydın olur. Zəbur 16:8-də Davud yazırdı: "Rəbbə əbədilik üz tutmuşam, sağımda olduğu üçün sarsılmaram". Bu o deməkdirmi ki, Rəbb cismən həmişə Davudun sağ tərəfində idi? Zəbur 77:10-da deyilir: "Ən uca Allahın sağ əlinin illərini xatırlayacağam." Məzmurçu Allahın sağ əlinin illərini xatırlamağa söz verdimi? Məzmur 98:1 bəyan edir: "O, sağ əli ilə, Öz müqəddəs qolu ilə zəfərlər qazandı." Bu, Tanrının sol əlini saxlayıb, fiziki olaraq sağ əli ilə düşmənlərini əzib məğlub etməsi deməkdirmi? Məzmur 109:31-də deyilir ki, Rəbb "fəqirin sağ tərəfində dayanar". O, həmişə fiziki olaraq özünü yoxsul insanların yanında yerləşdirirmi? Rəbb

Yeşaya 48:13-də "Sağ əlim göyləri sərdi" və Yeşaya 62:8-də "Rəbb sağ əlini qaldırıb and içdi" deyə bəyan edir. Tanrı nəhəng bir əlini açıb sanki səmanı örtdümü, yoxsa Tanrı sol əlini sağ əlinə qoyub and içdimi? İsa murdar ruhları Allahın barmağı ilə qovdu (Luka 11:20). O, göydən nəhəng bir barmaq endirib insanlardan cinləri vurub çıxartdımı?
Əlbəttə, bütün bu sualların cavabı "Xeyr"dir. Buna görə də, "Allahın sağ tərəfi" ifadəsini fiziki, bədən mənasında deyil, məcazi, simvolik və ya poetik mənada başa düşməliyik. Belə olan halda, bu ifadə nəyi göstərir?Bibliyada sağ tərəf qüvvət, güc, əhəmiyyət və üstünlüyü ifadə edir. "O mənim sağ əlimdir" və "Bunun üçün sağ qolumu verərdim" kimi ingilis ifadələrində bunu görmək olur. Trinitarist alim Bernard Ramm deyirdi: "Allahın qüdrətliliyi barədə sağ tərəf (sağ əl) baxımından danışılır, çünki kişilər arasında sağ qol güc və ya qüdrət simvoludur. Üstünlük barədə Tanrnın sağında oturmaq baxımından bəhs edilir, çünki cəmiyyətdə sosial məsələlərdə ev sahibinə münasibətdə sağ tərəf mövqeyi ən böyük şərəf yeri sayılır. ”[1]
Sağ tərəfin (sağ əlin) qüdrətlə bağlı olduğunu göstərmək üçün bibliyadan bəzi  nümunələr maraqlı və ibrətamizdir. Çıxış 15:6-da deyilir: "Ya Rəbb! Sənin sağ əlin qüdrətdən izzətləndi". Məzmur 98:1 və Məzmur 110:1 Allahın sağ əlini düşmənlər üzərində qələbə ilə əlaqələndirir. Bibliyada Allahın sağında oturan İsadan danışılarkən, İsanın bütün ilahi gücə və səlahiyyətə malik olduğu bildirilir. İsa Özü bunu Matta 26:64-də açıq şəkildə

bildirmişdir: "Bundan sonra Bəşər Oğlunun Qüdrətli Olanın sağında oturduğunu və göyün buludları üzərində gəldiyini görəcəksiniz." (Həmçinin Mark 14:62; Luka 22:69-a baxın.) Beləliklə, İsa Allahın bütün gücünə malik olduğunu iddia etdi; bu məna ilə özünün Tanrı olduğunu elan etdi. Yəhudilər bu iddiaları başa düşürdülər və məhz buna görə də baş kahin İsanı küfrdə ittiham etdi (Matta 26:65). Göründüyü kimi, baş kahin Əhdi-ətiqdəki sağ tərəfin (əlin) simvolik mənasını bilirdi və buna görə də İsanın Allahın gücünə malik olduğunu və Tanrı olduğunu iddia etdiyini başa düşdü. 1 Peter 3:22-də eyni zamanda göstərilir ki, "sağ tərəf (əl)" İsa bütün güc və səlahiyyətə malikdir: “Göyə qalxan və Allahın sağnda olan kimdir; mələklər, hakimiyyətlər və qüdrət sahibləri də Ona tabe edildilər." Eynilə Efeslilərə 1:20-22 ayələrində bu ifadədən istifadə edilərək İsanın hər hökmdarlıq, səlahiyyət, qüdrət və hakimiyyətdən və adlardan üstün olduğu söylənilir. Bu parçada da sağ tərəf (əl) ifadəsi Məsihin ucalığı ilə əlaqələndirilir. Bununla əlaqədar olaraq, Həvarilərin işləri 5:31-də deyilir: "Allah Onu öz sağ əli ilə Rəis və Xilaskar olaraq yüksəltdi ki, İsrailə günahlarından tövbə etmə və bağışlanma fürsəti versin." (Bax: Məzmur 110:1; Həvarilərin işləri 2:33-34.)

Həvarilərin işləri 5:31 göstərilir ki, Allahın sağ tərəfi (əli) və ya Allahın qolu bəzən xüsusi olaraq qurtuluşda Allahın gücünə işarə edir. Müqəddəs Yazıların bir çox ayəsində Allahın sağ əlinin Allahın Öz xalqına verdiyi qurtuluşu və qələbəni təmsil etməsindən bəhs edilir (Çıxış 15: 6;

Məzmur 44:3; Məzmur 98:1). Yeşaya 59:16-da deyilir: "Qolu Ona zəfər gətirdi." Beləliklə, İsanın Tanrının sağ tərəfində olmasının təsviri İsanın Allahın xilasetmə gücünün ifadəsi olduğunu göstərir. Bu anlayış İsanın Allahın sağındakı mövqeyinin vasitəçi rolu ilə, xüsusən də bizim vəsatətçimiz və baş kahinimiz kimi gördüyü işlə uyğunlaşır (Romalılara 8:34; İbranilərə 8:1).
Allahın sağ tərəfi (əli) barədə fikirlərə rəğmən biz bibliyada bəzən İsanın Allahın sağ tərəfində olması (Romalılara 8:34 da) ifadəsi əvəzinə Allahın sağ tərəfində "oturması" (İbranilərə 10:12-də oldğuğu kimi) ifadəsinə təəccüblənə bilərik. Ehtimal olunur ki, bu konkret ifadə İsanın müəyyən vaxtda tam izzət, güc və səlahiyyət aldığını göstərir. Bu ucalma Onun dirilməsi ilə başladı və göyə yüksəlişi ilə tamamlandı. Bu zaman Özünü bütün bəşəri və digər fiziki məhdudiyyətlərdən azad etdi. Bu, Filippililərə 2:6-8-də təsvir olunduğu kimi, İsanın bədəndə ikən (inkarnasiya) itaətli olub özünü məhdudlaşdırmasına əksdir. O, yer üzündə gəzən bir insan kimi rolunu tamamladı.
Artıq İsa Özünü bəşər zəifliyinə və cılızlığına təslim etmir. Artıq O, əzab çəkən bir xidmətçi deyil. Artıq Onun izzəti, əzəməti və digər ilahi xüsusiyyətləri adi seyrçidən gizlədilmir. İndi Tanrı olaraq öz gücünü izzətlənmiş insan bədəni vasitəsilə ilə həyata keçirir. İndi özünü hamının Rəbbi, saleh Hakim və bütün yer üzünün Padşahı kimi göstərir və göstərəcək. Buna görə Stefan İsa Məsihi yer üzündə olduğu zaman göründüyü adi insan kimi görmədi, ancaq onu Tanrının izzəti və Tanrının qüdrətində gördü.

Eynilə, Yəhya İsanı bütün izzət və qüdrətində Allah olaraq aşkar etdi (Vəhy 1). Məsihin ucalması, izzəti və aşkar olaraq üzə çıxması Onun göyə qalxması ilə kulminasiyasına çatdı. Mark 16:19-da deyilir: "Beləliklə, Rəbb onlarla söhbət etdikdən sonra göyə qalxdı və Allahın sağında oturdu."

"Oturdu" ifadəsi Məsihin qurbanlıq işinin davam etmədiyini, ancaq tamamlandığını göstərir. "O, günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda möhtəşəm Allahın sağında oturdu" (İbranilərə 1: 3). “Hər kahin gündən-günə xidmətini yerinə yetirərək əsla günahları aradan qaldırmağa qadir olmayan eyni qurbanları dəfələrlə təqdim edir. . . . Məsih isə günahlar üçün tək bir qurban təqdim edib, əbədi olaraq Allahın sağında oturdu; bundan sonra O, öz düşmənlərinin öz ayaqlarının altına kətil olaraq qoyulmasını gözləyir”(İbranilərə 10: 11-13).

Yekun olaraq deyə bilərik ki, iki Tanrı arasında ayrı-ayrı bədənlərlə fiziki olaraq dayanmaq mənasında İsanın Allahın sağında olması təsvirini şərh etməli olsaydıq, bir çox uyğunsuzluqla qarşılaşacaqdıq. Əgər bunu İsanın güc, qüdrət, səlahiyyət, üstünlük, qələbə, ucalma və bədəndə zühur edən xilasetmə qabiliyyətinin simvolu olaraq başa düşsək, ziddiyyətli anlayışları aradan qaldırmış oluruq. Bundan əlavə, bu cür izahat bibliyada “Allahın sağ tərəfi (əli)” ifadəsinin işlədilməsinə uyğundur. "Sağ tərəf (əl)" İsanın qüdrətliliyini və mütləq ilahiliyini ortaya qoyur və

digərlərinin yanlış anladıqları Məsihdə bir Tanrı mesajını təsdiqləyir.
Əsl sualımıza qayıdaraq, soruşa bilərik ki, Stefan əslində nəyi gördü? Göründüyü kimi, o, İsanı gördü. Yeşaya 40:5 ayəsində Məsihin gəlişinə dair deyilir: "Rəbbin əzəməti aşkar olunacaq, bütün bəşər bunu birlikdə görəcək." İsa Tanrının açıqcasına aşkar olunmuş izzətidir. Stefan İsanı görəndə Tanrının izzətini gördü. O, İsanın Tanrı kimi sahib olduğu izzətinin nurunu və malik olduğu bütün qüdrət və səlahiyyətini  gördü. Bir sözlə, o, ucalmış Məsihi gördü. O, İsanı yalnız bir insan kimi deyil, malik olduğu bütün izzət, qüdrət və hakimiyyəti ilə Tanrının Özü kimi gördü. Buna görə də o, "Ya Rəbb İsa, ruhumu qəbul et" deyərək Allahı çağırdı (Həvarilərin işləri 7:59).

## Məktublarda salamlar

Məktubların əksəriyyətində Allah Ata və Rəbb İsa Məsihdən bəhs edən bir salamlaşma var. Məsələn, Pavel yazırdı: "Atamız Allah və Rəbb İsa Məsihdən hamıya lütf və sülh!" (Romalılara 1:7) və "Atamız Allah və Rəbbimiz İsa Məsihdən lütf və sülh olsun."(1 Korinflilərə 1:3). Bu ifadə tərzi şəxslərin fərqliliyini göstərirmi? Bu cür şərh edilsəydi, mübahisə ediləsi bir neçə ciddi problem olardı.
Birincisi, niyə bu təbriklərdə Müqəddəs Ruhdan bəhs edilmir? Bu təbriklər bir çox şəxsin olması barədə təlim vermək üçün şərh edilsə də, bunlar üçlük doktrinasını təsdiq etmir. Bu cür təfsirə əsasən demək olardı ki, bu salamlar binitarizm (yalnız iki nəfər) barədə təlim verir; və

bunlar həm də Müqəddəs Ruha üçlükdə daha kiçik bir rol həvalə edir.
İkincisi, Tanrıçılıqda fərqli şəxsləri göstərmək üçün digər oxşar ayələri təfsir etsək, asanlıqla Tanrıçılıqda dörd şəxs ola bilər. Məsələn, Koloslulara 2:2-də "Allahın, Atanın və Məsihin sirrindən" bəhs olunur. Müqəddəs yazıların digər ayələrində "Allah və Ata" (Koloslulara 3:17; Yaqub 1:27) və ya "Allah və Atamız" (Saloniklilərə 1:3) haqqında danışılır. 1 Saloniklilərə 3:11 ayəsində deyilir: "İndi Allahın özü və Atamız və Rəbbimiz İsa Məsih, yolumuzu sizin yanınıza istiqamətləndirsin." Fərqli şəxsləri ayırsaq, ən azı dörd şəxs olacaq: Allah, Ata, Rəbb İsa Məsih və Müqəddəs Ruh. Salamlar Tanrıçılıqda şəxslərin çoxluğunu göstərmirsə, bəs nəyi bildirir? Ataya və Rəbb İsa Məsihə istinad edərək, müqəddəs yazıları yazanlar Tanrının iki rolunu və hər iki rolda Onu qəbul etməyin vacibliyini vurğulayırdılar. Tanrıya yalnız Yaradan və Atamız olaraq iman gətirməməliyik, həm də Onun İsa Məsih vasitəsi ilə bədəndə zühur etdiyini qəbul etməliyik. Hər kəs İsanın bədəndə gəldiyini, Onun həm Rəbb, həm də Məsih (Xilaskar) olduğunu qəbul etməlidir. Nəticə etibarilə salamlar yalnız yəhudilərin və bir çox bütpərəstlərin sadəcə qəbul etdikləri Allaha deyil, həm də Məsih vasitəsilə aşkar edilən Allaha inamı vurğulayır.
Bu, Müqəddəs Ruhu xatırlatmağın nəyə görə lazım olmadığını izah edir; bir Ruh olaraq Allah barədəki konsepsiyaya, xüsusən də yəhudi düşüncəsində olduğu kimi, Allah Ata titulu olaraq yekun vuruldu. Üçlük

doktrinasının kilsə tarixində çox sonrakı dövrə qədər inkişaf etmədiyini də unutmamalıyıq. (Fəsil 11-ə baxın). Buna görə də bu ifadələr yazıçılar və ya oxucular üçün ən azından yöndəmsiz və qəribə səslənmirdi.

Bu salamlaşma ayələri ilə əlaqədar yunan dilində bir araşdırma çox maraqlıdır[2]. "Və" kmi tərcümə edilən söz yunan dilindəki kai sözündəndir. Bu söz "və" və ya "hətta" kimi tərcümə edilə bilər ("bu" və ya "eyni" mənasında). Məsələn, KJV variantında 2 Korinflilərə 1:2 ayəsində kai "və" kimi tərcümə edilmişdir, 3-cü ayədə isə "hətta" kimi tərcümə olunmuşdur. 2-ci ayədə isə "Atamız Allahdan və Rəbb İsa Məsihdən" deyilir. 3-cü ayədə Allah, hətta Rəbbimiz İsa Məsihin Atası" formasında yazılmışdır. 2-ci ayə "Atamız Allahdan, hətta Rəbb İsa Məsihdən" formasında ola bilərdi. KJV-də "Allah, hətta Ata" (1 Korinflilərə 15:24; Yaqub 3:9) və "Allah, hətta Atamız" (1 Salonikililərə 3:13) ifadələri də daxil olmaqla bir neçə başqa yerdə kai sözü "hətta" kimi tərcümə edilir. Beləliklə, salamlar sadəcə asanlıqla oxuna bilərdi: "Atamız Allahdan, hətta Rəbb İsa Məsihdən". Bu fikri bundan sonra da dəstəkləmək üçün demək olar ki, salamların heç birində yunan dilində "Rəbb İsa Məsih" ifadəsindən qabaq müəyyənlik artiklı ("the") yoxdur. Beləliklə, kai sözünü "və" kimi tərcümə etsək də, ifadələr, sözün həqiqi mənasında, "Atamız Allahdan və Rəbb İsa Məsihdən." kimi oxuna bilər.

Tərcümələrdə kai "və" kimi göstərilsə də, çox vaxt bu ifadənin yalnız bir varlığı və ya bir insanı ifadə etməsi ilə razılaşırlar. Aşağıda bəzi nümunələr var:

**Kai sözünün istifadəsi**
**Müqəddəs yazı istinadlarının tərcüməsi**

| | |
|---|---|
| 1. Qalatiyalılara 1:4 | KJV Tanrı və Atamız |
| | NIV Tanrımız və Ata |
| | TAB Tanrımız və Ata |
| 2. Efeslilərə 5:5 | KJV Məsihin və Tanrının səltənəti |
| | NIV Məsihin və Tanrının səltənəti |
| | NIV (qeyd) və ya 'Məsihin və Tanrının səltənəti' |
| 3. Koloslulara 2:2 | KJV Tanrının, Atanın və Məsihin sirri |
| | NIV Tanrının, xüsusən Məsihin sirri |
| | NIV (qeyd) Bəzi əl yazmaları 'Tanrı, hətta Ata və Məsihin' |
| | TAB Tanrı, hansı ki Məsih(dir) |
| 4. 2 Saloniklilərə 1:12 | KJV Tanrımızın və Rəbbimiz İsa Məsihin lütfü |

| | |
|---|---|
| | NIV Tanrımızın və Rəbbimiz İsa Məsihin lütfü |
| | NIV (qeyd) və ya ‘Tanrı və Rəbb İsa Məsih’ |
| 5. 1 Timoteyə 5:21 | KJV Tanrı və Rəbb İsa Məsihin qarşısında |
| | NIV Tabrının və Məsih İsanın nəzərində |
| 6. Titusa 2:13 | KJV Böyük Tanrı və xilaskarımız İsa Məsih |
| | NIV Bizim böyük Tanrımız və Xilaskarımız İsa Məsih |
| | TAB Bizim böyük Tanrımız və Xilaskar Məsih İsa |
| 7. 2 Peterə 1:1 | KJV Tanrı və Xilaskarımız İsa Məsih |
| | NIV Tanrımız və Xilaskarımız İsa Məsih |
| | TAB Tanrımız və Xilaskarımız İsa Məsih |
| 8. Yəhuda 4 | KJV Yeganə Rəbb Allah və Rəbbimiz İsa Məsih |
| | NIV İsa Məsih bizim yeganə Padşahımız və Rəbbimizdir |

Bu cədvəl göstərir ki, kai sözü bəzən Tanrını Ata kimi, hətta İsanı da Tanrı kimi müəyyən edir. Buradan görmək olur ki, kai sözü bəzən İsanı Atanın təzahürü kimi göstərir, çünki qrammatik quruluş hər üç halda oxşardır. Başa düşürük ki, salamlar Tanrıdakı şəxslərin heç bir fərqini göstərmir. Əsas etibarı ilə bu hallarda kai sözünün istifadəsi Tanrı barədə insanların bildiyi rolların, təzahürlərin və ya adların fərqliliyini göstərir. Heç olmasa bəzi hallarda kai sözünün istifadəsi əslində İsanın Tanrı ilə eyni varlıq olduğunu - Ata ilə eyni varlıq olduğunu müəyyən edir.

**"Həvarinin vəsatət duası"**

2 Korinflilərə 13:14 ayəsində deyilir: «Rəbb İsa Məsihin lütfü, Allah məhəbbəti və Müqəddəs Ruha şəriklik hamınızla olsun.Amin.” Yenə yadda saxlamalıyıq ki, Pavel bu ayəni trinitarizmin hələ gələcəyin bir doktrinası olduğu bir dövrdə qələmə almışdı və buna görə də o zaman bu ayə heyrətamiz və ya qeyri-adi deyildi. Əsasən, bu ayə bilə biləcəyimiz və malik ola biləcəyimiz Tanrının üç cəhət və ya xüsusiyyətlərini çatdırır. Birincisi, Tanrının lütfü var. Tanrı lütfünü bədəndə, İsa Məsihdəki təzahürü vasitəsilə ilə bəşər övladları üçün mümkün etdi. Başqa sözlə, İsanın günahlar üçün qurban getməsi sayəsində layiq olmadığımız təqdirdə bizə lütf, ilahi kömək və xilas verildi.

Demək, Allah sevgidir və sevgi həmişə Onun əsas təbiətinin bir hissəsi olmuşdur. O, Məsih kimi bədən kəsb etməmişdən əvvəl bizi çox sevdi. Və nəhayət, Müqəddəs Ruhla vəftiz bizə Allahla və imanlı həmkarlarımızla ünsiyyət (birlik) verir: "Çünki hamımız bir bədən -- Məsihin bədəni olmaq üçün bir Ruhla vəftiz olunmuşuq" (1 Kor. 12:13). İsa Məsihin fiziki bədəninin hüzuru vasitəsilə deyil, bizdə yaşayan daimi Ruhu ilə Əhdi-ətiq müqəddəslərindən fərqli olaraq, Allahla davamlı münasibətimiz var.
2 Korinflilərə 13:13 ayəsini Allahın bizimlə bölüşdüyü üç vacib münasibət və ya vahid Allahın üç fərqli işi kimi şərh edərkən bu ayədə ifadə olunan fikir məntiqli və aydın olur. Xidmətlər müxtəlif, amma hamıda hər şeyi icra edən vahid Allahdır (1 Korinflilərə 12:4-6).

## Məktublardakı və Vəhydəki digər üç istinad

Müqəddəs yazıların digər bir neçə ayəsində Tanrı üç titul və ya adla  müəyyən edilir. Ancaq bir çox ayədə Tanrı üçün yalnız iki ad, xüsusən də "Ata" və "Rəbb İsa Məsih" ifadələri istifadə olunur. Lakin Müqəddəs yazıların əksər ayələrində Tanrı üçün yalnız bir ad istifadə olunur. Üç istinad Tanrıçılıq üçün heç bir xüsusi əhəmiyyət kəsb etmir; bunların heç birində şəxslərin fərqi ortaya qoyulmur. Gəlin bunları bir-bir təhlil edək.
Efeslilərə 3:14-17 ayələrində Allahı təsvir etmək üçün aşağıdakı adlardan istifadə edilir: "Rəbbimiz İsa Məsihin Atası", "Onun (Öz) Ruhu" və "Məsih". Maraqlıdır ki, bu ayələrdə əslində şəxslər arasında heç bir fərq qoyulmadan

bir Tanrı vurğulanır, çünki bu ayələrdə Ruh əvvəlcə Atanın Ruhu, sonra da ürəklərimizdə Məsih kimi təsvir edilir. KJV tərcüməsində "Onun (Öz)" nə demək olduğu aydın olmasa da, NIV, TAB, RSV tərcümələrində və Nestlenin Yunan mətnində "Onun Ruhu" ifadəsinin "Atanın Ruhu" mənasını verdiyi açıq şəkildə göstərilir. Beləliklə, bu ayədə Ata, Ruh və Məsih hamısı eyni bir varlıq kimi müəyyən edilir. Yeganə bir fərq Tanrının Ruhu ilə cismani təzahürünü ayırd edən “Rəbbimiz İsa Məsihin Atası” ifadəsindədir.

Efeslilərə 4:4-6 ayələrində bir Ruhun, bir Rəbbin və bir Tanrı və Atanın olduğu söylənilir. Yenə də bu, Tanrının vahidliyini sübut edir. Vahid Tanrı Ruhdur və O, hamının Rəbbidir. Bu ayələrdə ifadə olunan əsas fikir üçlük deyil, Tanrının vahidliyidir, vəhdətidir. Nəyə görə bu düşüncə üç fərqli şəkildə ifadə olunub? 4-cü ayə vahid Ruhun bir bədənin olması fikri ilə əlaqələndirir və vahid Tanrı Ruhunda bir bədən olmaq üçün vəftiz edildiyimizi xatırladır (1 Korinflilərə 12:13). 5-ci ayə "bir Rəbbi" "bir iman" və "bir vəftiz"lə eyniləşdirir və göstərir ki, imanımız və vəftizimiz sadəcə Ruh olaraq Tanrıya imanla yox, Rəbb İsanın şəxsiyyəti, adı və işi ilə bağlıdır. 6-cı ayədə hamısı bir araya gətirilərək Onun "hər şeydən üstün olan vahid Tanrı və hamının Atası (yəni Rəbb) və hamı vasitəsilə və hamınızda (yəni içinizdəki Ruh) olduğu deyilir". Vahid Tanrı vahid Rəbb və vahid Ruhdur.

Efeslilərə 4:4-6 ayələrinə dair trinitaristlərin təfsiri məntiqli deyil, çünki onların izahatı İsanı Tanrıdan ayırır.

Bu ayələrdə üç şəxs varsa, onda bu şəxslər Tanrı və Ata, Rəbb, Ruh olacaqdı. Bu təfsir Atanın Tanrı olduğunu, İsanın isə Tanrı olmadığını göstərir. İsanın Tanrıdan fərqli olduğunu düşünmək üçlük nəzəriyyəsinə ziddir. Trinitaristlər öz nəzəriyyələrinə uyğun olaraq ardıcıl olmalı və İsanı bibliyanın vahid və yeganə Tanrısı olaraq qəbul etməli, əks halda vahid Tanrı teologiyasından imtina etməlidirlər.
İbranilərə 9:14 ayəsinə əsasən Məsih özünü Tanrının əbədi Ruhu vasitəsilə təqdim etdi. Ayənin mövzusu Məsihin qanıdır, buna görə açıq şəkildə ayədə Məsihin insan, vasitəçi rolundan bəhs edilir. Məsih Özünü necə qurban verdi? O bunu əbədi, içində yaşayan Ruh - Ata vasitəsilə etdi. İsa Getsamani bağında Ataya dua etdi və çarmıx əzabına dözmək üçün Ondan güc aldı. Bu ayə sadəcə öyrədir ki, Məsih Tanrı Ruhunun köməyi ilə öz insan bədənini Tanrıya təqdim edə bildi.
Eynilə, 1 Peter 3:18 ayəsində deyilir ki, Məsih cismən öldürülmüş, amma Ruhən Ona həyat verilmişdir ki, bizi Allaha yaxınlaşdırsın. Biz bilirik ki, İsa özünü ilahi Ruhu ilə diriltdi (Yəhya 2:19-21; Romalılara 8:9-11). Bibliyanın digər yerlərində deyilir ki, Allah İsanı diriltdi (Həvarilərin işləri 2:32). Beləliklə, insan Məsih Allahın Ruhu ilə - Məsihin Ruhu ilə ölülərdən dirildi ki, insanları Tanrı ilə barışıdırsın.
1 Peter 1:2 ayəsində Tanrı Atanın əzəli biliyi, Ruhun təqdisi və İsanın qanı haqqında danışılır. Bu ayədə sadəcə xilasımızla əlaqədar Allahın fərqli cəhətləri təsvir edilir.

Birincisi, əzəli bilik Tanrının hər şeyi bilməsi deməkdir və O, inkarnasiyadan və son gündə Ruhun üzərimizə tökülməsindən əvvəl bu biliyə malik idi. Beləliklə, bunu Tanrının Ata kimi rolu ilə əlaqələndirməyimiz təbiidir. İkincisi, insan İsanın qanı olmadan Tanrının qanı yoxdur, buna görə də Tanrının qanı və ya Ruhun qanı əvəzində İsanın qanı ifadəsini söyləmək daha təbiidir.
Nəhayət, Tanrının içimizdə yaşayan hüzurunun qüdrəti ilə biz təqdis edilirik və ya günahdan ayrılırıq, buna görə Peter təbii olaraq Ruhun təqdisindən danışırdı. 2 Korinflilərə 13:14-də olduğu kimi, bibliya bu xüsusiyyətləri və ya Tanrının işlərini Tanrının müvafiq rolları, adları və ya titulları ilə əlaqələndirilməklə təsvir etmək üçün ən məntiqli bir üsuldan istifadə edir.
Yəhuda 20-21 buna bənzər Müqəddəs yazının başqa bir ayəsidir. Bu ayədə Müqəddəs Ruhda dua, Allahın məhəbbəti və İsanın mərhəməti haqqında danışılır. Əvvəllər olduğu kimi, biz daha çox bu işlərlə bağlı olan titullardan istifadə etməklə Tanrının müxtəlif işlərini asanlıqla başa düşə bilərik.
Vəhy 1:4-5 ayələrində deyilir: “Var olan, Var olmuş və Gələcək Olandan və Onun taxtının hüzurunda olan yeddi ruhdan və İsa Məsihdən Sizə lütf və sülh olsun." 8-ci ayəyə görə, İsa "Var olan, Var olmuş və Gələcək" Olandır. Taxtda olan da Odur (Vəhy 4:2,8). Yeddi Ruh İsaya aiddir (Vəhy 3:1; 5: 6). Bu ayələrdə sadəcə bizə İsa Məsih olan vahid Tanrıya baxmağın bir neçə variantı təqdim edilir. 5-ci ayədə Tanrının əvvəlki təsvirinə əlavə olaraq İsa Məsihin

xatırlanmasının səbəbi Onun bəşəriliyini vurğulamaqdır, çünki bu ayə İsanı ölülərdən ilk doğulan adlandırır.
Əgər kimsə bu ayədə üç şəxsin olduğunu bildirmək istəyirsə, 4-cü ayəyə əsasən Ruhu yeddi şəxsə bölməyə həmin adama nə mane ola bilər? Həmçinin 6-cı ayədə "Allah və onun [İsa Məsihin] Atası"dan bəhs olunur və eyni məntiqlə bunları iki şəxsə - Allaha və Ataya bölmək olar.
Xülasə, Müqəddəs yazının bir neçə ayəsində Tanrının üç titulu və ya adı istifadə olunur. Hər bir halda, bibliyada Tanrıya aid rolların cəmini, xüsusiyyətlərini və ya Tanrının işlərini təsvir etmək üçün çox təbii və asanlıqla başa düşülən bir yoldan istifadə edilir. Bir çox hallarda faktiki olaraq bu ayələrdə şəxsləri fərqləndirmədən vahid Tanrının olduğuna dair əlavə dəlil gətirilir.

## Tanrının tamlığı (dolğunluğu)

Bu kitabda Koloslulara 2:9 ayəsini bir neçə dəfə vurğuladıq, çünki bu ayədə öyrədilir ki, Tanrı bütün dolğunluğu ilə bədəncə İsa Məsihdə yaşayır. Aydındır ki, Allaha aid hər nə varsa, hamısı - bütün xüsusiyyətləri, gücü və xarakteri İsadadır. Ata, Oğul, Müqəddəs Ruh, Yehova, Kəlam və sair hamısı İsadadır. Bəzi trinitaristlər Efeslilərə 3:19-a istinad edərək bu təfsirə qarşı çıxmağa çalışırlar. Belə ki, həmin ayədə deyilir ki, məsihçilər Tanrının dolğunluğu ilə dola bilsinlər. Buna görə də onlar mübahisə edərək deyirlər ki, Koloslulara 2:9-da İsanın tam ilahiliyi Efeslilərə 3:19-da məsihçilərin tam ilahiliyindən artıq

göstərilmir. Bu iki ayəni təhlil etməklə bu dəlili cavablandıracağıq.
Koloslulara 2:9-da ilahi dolğunluğa Efeslilərə 3:19-da olmayan bir tərzdə istinad edilir. Tanrının bütün dolğunluğunun bədəncə İsada yaşadığını söylədikdən dərhal sonra incildə deyilir: "Siz də Onda dolğunluğa (bütövlüyə) maliksiniz. O hər cür rəyasət və hakimiyyətin başçısıdır" (Koloslulara 2:10). Başqa sözlə, ehtiyacımız olan hər şey İsadadır və İsa hər şeyə qadirdir. Bu ifadələr 9-cu ayəyə əsaslanır və buna görə 9-cu ayə bütöv Tanrının İsada olduğu anlamına gəlir.
Əslində bu, kitabın mövzusuna əsaslanan yeganə məntiqi nəticədir. 1-ci və 2-ci fəsillər İsa haqqında aşağıdakı iddiaları irəli sürür:

**Koloslularda İsanın tam ilahiliyi bəyan edilir**

| | Ayə | İsa barədə yazılmış təsvirlər |
|---|---|---|
| 1. | 1:15 | O, görünməyən Allahın surətidir |
| 2. | 1:16 | O, hər şeyin yaradıcısıdır |
| 3. | 1:17 | O, hər şeydən əzəlidir (əbədi) |
| 4. | 1:17 | Hər şey Onda qaimdir (davam edir) |
| 5. | 1:18 | İmanlılar Cəmiyyətinin (kilsənin) başıdır |
| 6. | 1:18 | O, başlanğıcdır |
| 7. | 1:19 | Allahın bütün dolğunluğu Onda yaşayır |
| 8. | 1:20 | hər şeyi Allahla barışdırdı |
| 9. | 2:3 | Hər hikmət və bilik xəzinəsinə sahibdir (hər şey) |

10. 2:5 Ona inanmalıyıq
11. 2:6 Biz Onun yolunda yeriməliyik
12. 2:7 Onda kök salmalı və Onda inkişaf etməliyik, möhkəmlənməliyik
13. 2: 9 Tanrının bütün dolğunluğu bədəncə Onda yaşayır
14. 2:10 Biz Onda dolğunluğa malikik
15. 2:10 O hər cür rəyasət və hakimiyyətin başçısıdır.

Qeyd etməliyik ki, Koloslulara 2:2-də mövzu "Allahın, Atanın və Məsihin sirridir" və ya NIV tərcüməsində deyildiyi kimi, "Allahın, yəni Məsihin sirri". 9-cu ayə bu sirrin sadəcə açıqlanması və ya əlavə izahıdır. Tanrının (Məsihin) sirri budur ki, ilahi təbiətin bütün dolğunluğu Məsihdə yaşayır. Beləliklə, kontekstdən görürük ki, Koloslulara 2:9 Məsihin tam ilahiliyinin izahıdır.
Koloslulara 2:9 ayəsində Tanrıçılıq sözü üçün istifadə olunan yunan sözü ilahi mənasını verən Teotesdir. Bədən sözü, inkarnasiya sözünü xatırladır, yəni bir ruhun yer üzündə fiziki formada təcəssümü deməkdir. Bunu bir araya gətirərək Koloslulara 2:9-da deyilir ki, İsa ilahi təbiətin dolğunluğunun (tamlığının) inkarnasiyasıdır - O, Allah dediyimiz qüdrətin bədəncə təzahürüdür. İzahlı bibliyada (Amplified bible) Koloslulara 2:9 ayəsini bu cür tərcümə edilir: "Ona görə İlahiliyin bütün dolğunluğu (Tanrıçılıq) ilahi təbiətin tam ifadəsi olan bədən şəklində Onda yaşamağa davam edir." Həmin izahlı bibliyada Koloslulara 1:19 ayəsi bu cür tərcümə olunur: “Çünki

bütün ilahi tamlığın, yəni ilahi kamilliyin, hakimiyyətin və xüsusiyyətlərinin cəminin əbədi olaraq Onda yaşamasına (Ata) razı oldu.” NIV tərcüməsində Koloslulara 2:9 bu cür tərcümə edilir: "İlahiliyin bütün dolğunluğu (tamlığı) bədəncə Məsihdə yaşayır." Bu kitabda Koloslulara 1:19 ayəsi belə tərcümə olunur: “Allah bütün dolğunluğu ilə Onda yaşamağa razı oldu”.

Koloslulara 2:9 ayəsinin digər tərcümələrinə gəldikdə, Əhdi-cədidin 20-ci əsr tərcüməsində bu cür yazılmışdır: "Çünki Tanrıçılıq bütünlüklə Məsihdə yaşayır"; Müasir İngilis dilində olan Əhdi-Cədiddə (J. B. Phillips - Con Betram Filipsin tərcüməsi) həmin ayə aşağıdakı kimi tərcümə edilmişdir: "Məhz Onda Allah özünü tam və dolğun ifadə edir (Özünü Məsihdə fiziki hədd çərçivəsində təyin edir)"; və Yaşayan Məktublar: Başqa formada ifadə edilmiş (Parafraz edilmiş) Məktublar (Kennet Taylor) tərcüməsində eyni ayə belə verilmişdir: "Çünki Məsihdə Tanrıya aid hər şey bir insan bədənində var."

Koloslulara 1:19 və 2:9-cu ayələrdə İsa Məsihin tam ilahiliyinin təsvir olunduğu aydın olur. Koloslulara 1-ci və 2-ci fəsillərdəki fikirləri özümüzə tətbiq edə bilmədik və bu da doğru idi. Biz Tanrının tamlığının inkarnasiyası deyilik. Eləcə də biz hər şeyi bilən, hər şeyə qadir deyilik və s. Efeslilərə 3:19-cu ayəsi Koloslulara 1:19 və 2:9-cu ayələrdəki eyni mənanı ifadə edə bilməz.

''Siz Allahın kamil dolğunluğu ilə dolasınız" deyən Efeslilərə 3:19-cu ayəsi nəyi bildirir? Kontekstə nəzər saldıqda, ayənin əsas fikrini görürük: Məsihçilər özlərində

Tanrının dolğunluğuna malik ola bilərlər, çünki Məsihə malikdirlər. Məsih Tanrının dolğunluğu (tamlığı) olduğundan, bizdə Məsih olanda biz də Tanrının dolğunluğuna (tamlığına) malik oluruq. 17-ci ayədə Məsihin ürəklərimizdə yaşamasından bəhs olunur və 19-cu ayədə Məsihə malik olmaqla Allahın dolğunluğuna malik ola biləcəyimiz söylənilir. Məsihin mütləq ilahiliyi baxımından Efeslilərə 3:19-cu ayədə Allahın bütünlüklə Məsihdə olduğu bir daha təsdiqlənir. Koloslulara 2:10 ayəsində Efeslilərdə yazılan bu oxunuş dəstəklənir: "Siz də Onda (Məsihdə) dolğunluğa maliksiniz". NIV tərcüməsində bu daha aydın göstərilir: "Sizə Məsihdə dolğunluq bəxş edilmişdir." Eynilə, TAB tərcüməsində deyilir: "Və siz Ondasınız, kamilləşib həyatın bütövlüyünə çatmısınız. Məsihdə siz də Tanrıçılıqla dolmusunuz."
Bu daha bir sual qaldıra bilər; yəni həm məsihçi insanda, həm də Məsihdə ilahi dolğunluq olduğu təqdirdə, məsihçi insan Məsihdən nə ilə fərqlənir? Cavab budur ki, İsa Məsih bədəndə zühur etmiş Tanrıdır. O, ilahi təbiətə malikdir, çünki Tanrının Ruhu tərəfindən bətnə düşmüşdür. O, bədəncə insan, həm də ilahi Ruhdur, Onun Ruhu isə Tanrının Özüdür. Buna görə heç nə İsanı Onun ilahiliyindən ayıra bilməz. Bizdə Tanrının Ruhu olmadan yaşaya bilərik və Ruh bizdən uzaqlaşa bilər, amma insan olan İsaya gəldikdə isə bu belə deyil. Məsih Tanrının bütün xüsusiyyətlərinə və xarakterinə malikdir, bu Onun təbiətidir, biz isə bizdə yaşayan Məsih vasitəsilə onlara malikik. Tanrının təbiəti bizimki deyil. Biz imkan verə

bilərik ki, bu xüsusiyyətlər və xarakter içimizdən şəfəq saçsın və bizi idarə etsin (Ruhla bərabər olmaqla), amma eyni zamanda bunları söndürə və öz təbiətimizə (cismani təbiətə tabe olaraq) üstünlük verə biləik. İsa Məsih bədəncə Tanrıçılığın bütün dolğunluğuna malikdir, çünki O, Özü inkarnasiya olmuş Tanrıdır. İsa Məsihin içimizdə yaşamasına imkan verdiyimiz təqdirdə, həyatlarımızda Tanrının dolğunluğuna malik ola biləik.

Koloslulara 2:9 ayəsi ilə əlaqəli diqqət çəkən daha bir məqam var. Bəziləri Pavelin bunu yazmaqda məqsədinin trinitarizmə deyil, qnostitsizmə qarşı çıxmaq olduğunu qeyd edirlər. Əlbəttə, Pavel öz arqumentini birbaşa trinitarizmə yönəltmədi, çünki bu doktrina hələ yaranmamışdı! Şübhəsiz ki, Pavel qnostik inancının əleyhinə idi, çünki onlar inanırdılar ki, Məsih hər şeyə qadir olan uca Tanrıdan daha aşağı varlıqdır. Fakt budur ki, Müqəddəs Ruhdan ilham almış Pavelin dili trinitarizmi istisna edir. Koloslular açıq şəkildə Vahidlik barədə inamın təsdiqidir. Pavelin hansı yalan inanca qarşı çıxmasının əhəmiyyəti yoxdur; əsas onun müsbət doktrinasıdır. Onun öyrətdiyi Vahidlik doktrinası, əlbəttə ki, qnostisizmə qarşıdır, amma eyni zamanda bu təlim trinitarizmə və bütün ilahliyin İsa Məsihdə yaşamasını inkar edən hər hansı digər inanca qarşı çıxır.

## Filipililərə 2:6-8

Bu hissədə İsa Məsih belə təsvir olunur: "Allah surətində olduğu halda, O, Allahla bərabərliyi, imtinası mümkün

olmayan bir haqq saymadı, lakin Özünü heç edərək, Özünü qul surətinə salıb, insanlara oxşar oldu. Görkəm etibarı ilə də insan kimi, O öz təvazökarlığını göstərdi və ölümədək, hətta çarmıxa çəkilməklə ölümədək itaətkarlıq etdi." NIV tərcüməsində isə belə yazılmışdır: "Tanrının təbiətində olduğu halda, O, əldə rəhbər tutulası Tanrı ilə bərabərliyi heç də nəzərə almadı, amma Özünü heç edib, bir qul təbiətini götürərək insanlara oxşar oldu. Görkəm etibarı ilə bir insan kimi meydana çıxaraq özünü alçaltdı və ölümə, hətta çarmıxdakı ölümə qədər itaət etdi!"
Görünür, bu ayə İsanın Tanrının təbiətinə malik olduğunu və Tanrının Özü olduğunu söyləyir. Tanrıya bərabər olan yoxdur (Yeşaya 40:25; 46: 5, 9). İsanın Tanrı ilə bərabər ola biləcəyi yeganə yol, Onun Tanrı olmasıdır. Beləliklə, İsa, Tanrı olması mənasında Tanrı ilə eyni idi (Tanrıya bərabər idi). Bununla birlikdə, O, Tanrı olaraq öz üstünlüklərini nəyinsə bahasına saxlanılası, əldə rəhbər tutulası bir şey hesab etmirdi, əksinə, bunları bir kənara qoyub, azmış bəşəriyyəti xilas etmək üçün bir insan təbiətini kəsb etmək istəyirdi. O öz istəyi ilə təvazökar, itaətkar bir xidmətçi oldu və hətta çarmıxda Özünü ölümə təqdim etdi.
Trinitaristlər Müqəddəs yazının bu ayəsinə Tanrıçılıqda iki şəxsin - Tanrı Ata və Tanrı Oğulun təsviri kimi baxırlar. Onların fikrincə, Oğul Ata kimi eyni təbiəyə malik idi, lakin Ata deyildi. Onlar iddia edirlər ki, İlahi Oğul inkarnasiya etdi, Ataya yox. Bir çox trinitaristlər, daha sonra qeyd edirlər ki, inkarnasiyada bu ilahi Oğul özünü təslim edərək Tanrı kimi bir çox xüsusiyyətlərini, o cümlədən hər yerdə

mövcudluğunu kənara qoydu. Beləliklə, 7-ci ayənin birinci hissəsində yunan sözü olan kenoo sözündən istifadə edərək Məsihin özünü kenosis etməsindən, yəni hərfi mənada desək, boşaltmasından (Özündən kənar etməsindən) bəhs edirlər. Aşağıda Filippililərə 2:7-ci ayədəki kenoo sözünün üç tərcümə variantı verilmişdir: "özünü nüfuzdan məhrum etdi" (KJV tərcüməsi), "özünü heç etdi" (NIV tərcüməsi) və "Özünü (bütün imtiyazlardan və haqlı ləyaqətdən) məhrum etdi (kənar etdi)" (TAB tərcüməsi).

Vahidlik nöqteyi-nəzərdən İsa Tanrı Oğul deyil, lakin O, Ata və Oğul da daxil olmaqla bütün Tanrını təcəssüm edir. Beləliklə, ilahiliyində O, həqiqətən də, Allaha bərabərdir və ya eynidir. Buradakı bərabər sözü o deməkdir ki, İsanın ilahi təbiəti Tanrı Atanın malik olduğu eyni təbiət idi. İsa ilahi xüsusiyyətlərdən Özünü məhrum etmədi, əksinə bir insan kimi insanlar arasında yaşayarkən Tanrı olaraq Özünü öz ləyaqətindən və haqlı üstünlüklərindən məhrum etdi. Tanrının Özü olan İsanın Ruhu heç vaxt hər şeyi bilməsi, hər yerdə mövcud olması və hər şeyə qadir olması xüsusiyyətlərini itirməmişdir.

Bu ayə yalnız bir insan kimi İsanın öz üzərinə götürdüyü məhdudiyyətlərdən bəhs edir. Yuxarıda göstərilən üç tərcümədən göründüyü kimi, Məsihin kenosis-i Tanrı kimi Öz təbiətini təslim etməkdən daha çox izzət və ləyaqətdən könüllü olaraq əl çəkməkdən ibarət idi. Bir insan olaraq Məsih Tanrı kimi Ona layiq olan şərəfi götürmədi. Bəşəriyyətin Padşahı rolunda çıxış etmək əvəzində, O,

bəşəriyyətə xidmət edən bir xidmətçi oldu. İnsan olaraq çarmıxda ölümə təslim oldu. Tanrı kimi yox, insan olaraq öldü. Beləliklə, bu ayə çox gözəl bir düşüncəni ifadə edir: İsa Tanrl olmasına baxmayaraq, Tanrı kimi bütün hüquqlarını qoruyub saxlamaqda təkid etmədi. Bunun əvəzində, insanın təbiətini götürüb ölməklə yer üzündəki izzət və şərəf hüququndan öz istəyi ilə əl çəkdi. Bütün bunları bizim xilasımız üçün etdi.
Məsihin təvazökarlığı nəticəsində, Allah (İsanın Ruhu) İsa Məsihi yüksək dərəcədə ucaltdı (Tanrı bədəndə zühur etdi). İsanın hər addan üstün bir adı var - Allaha aid hər şeyi təmsil edən bir ada malikdir. Tanrının Ruhu bu adı Məsihə (Xilaskara) verdi, çünki Məsih cismani bədəndə zühur edən Tanrı idi. Həm də İsa Məsih göydə, yerdə və yerin altında olanların hamısı üzərində bütün qüdrətə malikdir. Tantı Atanın izzəti üçün hər dil iqrar edəcək ki, İsa Məsih Rəbbdir, bununla da Tanrı Ataya izzət gələcək, çünki Ata Məsihdədir. Filipililərə 2:9-11 ayələrində bunların hamısını təsvir edilir: “Buna görə də Allah Onu çox ucaltdı və Ona bütün adlardan üstün olan adı bəxş etdi ki, göydə, yedə və yerin altında olanların hamısı İsanın adına hörmətlə diz çöksün, və Ata Allahın izzəti üçün hər dil iqrar etsin ki, İsa Məsih Rəbbdir."
Bir çox və bəlkə də əksər trinitarist alimlər Məsihin kenosis-ni Vahidliyə uyğun bir şəkildə nəzərdən keçirirlər. Məsələn, görkəmli bir alim demişdir ki, Məsih əslində özünü tanrı atributlarından "kənar" etmədi, çünki bu, tanrıdan imtina etmək demək olacaqdı və İsa sadəcə bir

yarımtanrı olacaqdı.[3] Bunun əvəzində o, bu sözləri belə izah etdi: İsa Öz ilahiliyini inkar etmədi, lakin yalnız Tanrının formasında olan varlığını inkar etdi. O, ilahi atributlarını, xüsusiyyətlərini kənara qoymadı, lakin onları insan bədəninin zəifliyində gizlətdi. Bu xüsusiyyətlər həmişə özündə idi, amma İsa onlardan istifadə etməmək seçimini etdi və ya onlardan yeni bir şəkildə istifadə etdi. O, Öz üzərinə məhdudiyyətlər götürdü. Onun səmavi izzət və əzəməti daha həmən aşkar deyildi. Qısacası, O, ilahiliyini bəşərilikdə gizlətdi, lakin Onun tanrılığı iman gözü ilə hələ də aşkar idi.[4]

**Koloslulara 1:15-17**

Bu ayəni 5-ci fəsildə izah etdik. Həmin fəsildə İsanın əvvəlcədən mövcudluğu, Yaradan kimi Onun rolu və ölülərdən ilk doğulmuş titulu barədə müzakirə yer almışdır.

**İbranilərə 1**

Bu hissənin çox hissəsini 5-ci fəsildə, xüsusən də 2-3, 6 və 8-10-cu ayələrdə müzakirə etdik.

**1 Yəhya 5: 7**

6-cı fəsildə bu ayə izah olunur.

**Vəhy 1: 1**

"Allahın ona verdiyi İsa Məsihin vəhyi." Burada biz Tanrının əbədi Ruhu ilə insan Məsih arasında bir fərq

görürük. Axırzamandakı hadisələrin vəhyini yalnız Ruh verə bilər. Bir insan olaraq Məsih bunları bilə bilmədiyi üçün (Mark 13:32) O bunları yalnız Ruh vasitəsilə bilirdi. Bundan əlavə, Məsihin ilahiliyi Onun bəşəriliyinin məhsulu deyildi, lakin tanrı-bəşər birliyi ilahiliyin məhsulu idi. Vəhy Kitabı yalnız gələcək hadisələri deyil, həm də İsa Məsihin ilahiliyini göstərir və hər ikisinin biliyi Tanrının Ruhundan gəlməlidir. Aydın olur ki, Vəhy İsanı Tanrı kimi göstərir, çünki 1-ci fəsildə Yəhya Allahın bütün qüdrəti və izzətində İsanın bir görüntüsünü gördü.

## Allahın yeddi ruhu

Bu ifadə Vəhy 1:4, 3:1 və 5:6 ayələrində vardır. Bu, tanrıçılıqda yeddi şəxsi təsvir edirmi? Xeyr, amma bəzi insanlar Müqəddəs yazıdakı digər ifadələrdə istifadə etdikləri bu ifadəyə eyni məntiq tətbiq edərlərsə, onda Ruhun yeddi şəxsi olardı. Müqəddəs Kitab isə bizə yalnız bir Ruhun olduğunu izah edir (1 Korinflilərə 12:13; Efeslilərə 4: 4).
Bəs nə üçün Vəhy kitabı yeddi ruh barədə danışır? Unutmamalıyıq ki, Vəhy rəmzlərlə dolu bir kitabdır. Bundan əlavə, yeddi rəqəmi bibliyada çox simvolik bir rəqəmdir və tez-tez kamilliyi, tamlığı və ya dolğunluğu əks etdirir. Məsələn, Allah yeddinci gün gördüyü işlərdən ayrılıb istirahət etdi (Yaradılış 2:2), Əhdi-ətiqdə yeddinci gün Allahın Rəbbin Şənbə günüdür (Çıxış 20:10), Onun üçün yeddi çıraq düzəlt və çıraqları onun üstünə qoy ki, qabaq tərəfinə işıq salsın (Çıxış 25:37), Nuh yeddi cüt pak

heyvanı gəmiyə apardı (Yaradılış 7:2), İsa şagirdlərinə gündə yeddi dəfə qardaşını bağışlamasını söylədi (Luka 17:4) və Vəhy Kitabında yeddi kilsəyə məktublar var (Vəhy 1:11). Beləliklə, Tanrının yeddi ruhu sadəcə Tanrının Ruhunun tamlığını və ya kamilliyini göstərir. Bu, Allahın Ruhunun tamlığını vurğulamaq üçün bir yoldur. Bu cümlə ilə həmçinin Yeşaya 11:2-də yazılmış Ruhun yeddi aspekti qeyd edilə bilər, xüsusən də Yeşaya və Vəhy yeddi kitablarında İsaya aid olan formada 7 ruh təsvir edilir.
Burada başqa bir məqam ortaya çıxır: Bibliyada yeddi ruhun yeddi fərqli şəxs və ya hətta bir ayrı şəxs olduğu bildirilmir. Əksinə Yəhya bizə yeddi ruhun İsa Məsihə aid olduğunu açıq şəkildə söylədi (Vəhy 3:1; 5:6). Daha sonra o, kitabda Ruhu ismin tək şəklində təsvir etmişdir (Vəhy 22:17). Beləliklə, yeddi ruh simvolik olaraq İsanın Ruhundan başqa birisi olmayan vahid Müqəddəs Ruhun dolğunluğunu və gücünü təmsil edir.

## Vəhy 5-də olan Quzu

Vəhy 5:1-də sağ əlində bir kitab (tumar) tutub göydə taxtın üstündə oturan bir nəfər təsvir edilmişdir. Sonra 6-7-ci ayələrdə taxta oturanın sağ əlindən kitabı götürən bir Quzu təsvir olunur. Bu, Tanrının iki şəxsinin olması deməkdir? Xeyr. Bir daha xatırlamalıyıq ki, Vəhy Kitabı olduqca simvolikdir. Əslində, parçanın simvolik olduğunu da bilirik. Birincisi, Yəhya Allahın görünməz Ruhunu görmədi, çünki Yəhyanın özü söyləmişdi ki, heç kim bunu görməyib (Yəhya 1:18, 1 Yəhya 4:12). Əslində heç kim

Allahı görə bilməz (1 Timoteyə 6:16). Vəhy 5:5-də bir "Aslan" tərəfdən kitabın açılacağı söylənilir, lakin 6-cı ayədə Yəhya aslan əvəzində "Quzu" gördü. 6-cı ayədə deyilir ki, Quzu öldürülmüşdü, lakin o hərəkət edirdi. Onun yeddi gözü var idi. Bu da Allahın yeddi ruhunu və ya Allahın yeddi qatlı Ruhunu (6-cı ayə) və Allahın hər şeyi bilməməsini simvolizə edir (Süleymanın məsəlləri 15: 3). Quzunun yeddi buynuzu var idi ki, bu da Allahın qüdrətinin və ya Allahın hər şeyə qadir olduğunun tamlığını göstərir, çünki bibliyadakı buynuzlar ifadəsi, adətən, gücü simvolizə edir. (Zəkəriyyə 1:18-19; Vəhy 17:12-17.) Bu mənzərədəki bütün təsvirlər bu parçanın simvolik mahiyyətini göstərir. Bunu başa düşmək üçün taxtda olanın kim olduğunu və Quzunun kim olduğunu araşdırmalıyıq.
Vəhy 4: 2,8 ayələrində taxtda oturan "Var Olmuş, Var Olan və Gələcək, Külli-İxtiyar Rəbb Allah" kimi təsvir edilir. Yenə də Vəhy 1: 8-də İsa özünü "Var Olmuş, Var Olan və Gələcək, Külli-İxtiyar Rəbb Allah" kimi təsvir etmişdir. (1:11-18 və 22: 12-16 ayələrinə baxın və sübut üçün əmin olun ki, İsa 1:8 ayəsində danışan şəxsdir). Həmçinin taxtda olan Hökmdardır (Vəhy 20: 11-12) və biz də bilirik ki, İsa hamının Hakimi olacaq (Yəhya 5:22, 27; Romalılara 2:16; 14: 10-11). Buna görə də, taxtda oturanın bütün güc və ilahiliyində İsa olduğunu başa düşə bilərik.
Quzu Allahın Oğludur - İsa Məsih öz bəşəriliyində, xüsusilə də qurbanlıq rolundadır. Əhdi-cədid İsanı, öz qanını günahlarımız üçün təqdim edən Quzu olaraq müəyyən edir (Yəhya 1:36; 1 Peter 1:19). Buna görə Vəhy 5:6-cı

ayədə Quzunun öldürüldüyü təsvir olunur. Tanrı ölə bilməzdi və ölmədi; yalnız insan İsa öldü. Beləliklə, Quzu İsanı bəşər olaraq günah qurbanı kimi təmsil edir. 5-ci fəslin qalan hissəsi də Quzunu bizim Qurtuluşumuz kimi təsvir etməklə bunu sübut edir.

Bu Quzunun sadəcə adi bir insan olmadığı aydındır, çünki O, hər şeyi bilən və hər yerdə mövcud olan Tanrı Ruhunun dolğunluğuna malikdir (ayə 6). Onun Yəhuda qəbiləsinin aslanı və Davudun kökü kimi digər rolları da vardır (ayə 5). Aslan Məsihin padşah rolunu və padşah Davuddan olan nəslini ifadə edir. İsa Davudun zamanından etibarən padşah qəbiləsi olan Yəhuda qəbiləsindən idi (Matta 1:1-3; Luka 3:33). Aslan hökmdar kimi Yəhudanın rəmzidir (Yaradılış 49:9-10). Davudun kökü Davudun mənbəyi (Yaradan) və Davudun Tanrısı kimi Məsihin rolunu göstərir.

Başqa bir fakt fikrimizi təsdiq edir ki, Quzu İsanı Tanrıda ikinci şəxs kimi deyil, Onu bəşər olaraq təmsil edir. Quzunun peyda olmasının səbəbi Allahın əlində tutduğu kitabı açmaqdır. Çoxları bu kitabı satınalma (xilas) hüququ verən kitab (yəni xilasda adları olan kitab) kimi qiymətləndirirlər. Digərləri bunu Tanrının sirlərinin və planlarının rəmzi olaraq görürlər. Hər iki halda bir bəşəri varlıqdan tələb edilir ki, bunu açsın, çünki Tanrı bizi nə satın aldı (xilas etdi), nə də transsendent (üstün) Tanrı rolunda özünü bizə göstərdi. O, insan bədənindəki təzahüründən həm özünü göstərmək, həm də bizim yaxın qohum-xilaskarımız olmaq üçün istifadə etdi. (Bax:

Levililər 25:25, 47-49.) Beləliklə, Quzu Məsihin bəşəriliyini təmsil edir.
Bir çox görkəmli trinitarist alimləri Vəhy 5-ci fəslin simvolik olması və taxta oturan Tanrı Atanın və taxtın yanında duran Tanrı Oğulun təsvir etməməsi fikri ilə razılaşırlar. Pulpit şərhi kitabı taxtda Olanı üçvahid Tanrı[5], Quzunu isə bəşər qismində Məsih olaraq müəyyənləşdirir. Orada deyilir: "Oğul, bəşər qismində Quzunun qurbanlıq forması ilə göstərildiyindən, Tanrı qismində iştirak etdiyi əbədi Tanrıçılığın sirlərini götürə və aça bilər."[6] Beləliklə, hətta trinitarist alimlərə görə, bu mənzərə Tanrıçılıqdakı üçlüyün göstəricisi deyildir.
Belə bir nəticəyə gələ bilərik ki, Vəhy 5-ci fəsildəki görüntü simvolik olaraq İsa Məsihin iki təbiətini və iki rolunu təsvir edir. Ata, Hakim, Yaradan və Padşah kimi O, taxtda oturur; çünki ilahiliyində O, Qüdrətli Rəbb Allahdır. Oğul kimi, öldürülmüş (boğazlanmış) bir quzu kimi ortaya çıxır; çünki insan olaraq günahlarımız üçün qurban getmişdir. Yəhya Tanrının görünməyən Ruhunu görmədi, ancaq o, bir görüntü gördü və həmin görüntüdə simvolik olaraq İsa taxtda Tanrı rolunda, günahlar üçün qurban verilmiş Tanrının Oğlu rolunda isə bir Quzu kimi təsvir edilmişdir.
Bir şəxs açıq-aşkar rəmzi məna verən bu parçanı hərfi mənada söyləməkdə israr etsə, onda həmin adam belə bir fikrə gəlməldir ki, Yəhya Tanrının iki şəxsini yox, əksinə taxtda vahid Tanrını və taxtın yanında duran həqiqi bir quzu gördü. Bu məntiqə sığmayan bir fikidir, lakin

trinitaristlərin həmin parçanı üçlük üçün dəlil mətn halına gətirmək cəhdlərinin nəticəsiz olduğunu ortaya qoyur.
Vəhydəki digər ayələr aydın şəkildə göstərir ki, Quzu Tanrıdan fərqli bir şəxs deyildir. Xüsusilə də, Vəhy 22:1 və 3-cü ayələrdə "Tanrının və Quzunun taxtından" danışılır və 4:2 və 5:1 ayələrindəki vahid taxta istinad edir. "Allah və Quzu"nu qeyd edəndən sonra Vəhy 22:3-də "onun xidmətçiləri" haqqında danışılır, 4-cü ayədə isə "onun üzü" və "adı"ndan bəhs olunur. Quzu və Tanrının izzəti Yeni Yerusəlimi işıqlandırır (Vəhy 21:23), lakin Rəbb Allah nurdur (Vəhy 22:5). Beləliklə, "Tanrı və Quzu" bir varlıqdır. Bu ifadə İsa Məsihə aiddir və Onun ikili təbiətini təsvir edir.
Yekun olaraq deyə bilərik ki, təbiətcə simvolik olan Vəhy 5-də Allahın vahidliyi açıqlanır. Burada taxtdakı Biri təsvir edilir, eyni zamanda bir aslan, bir kök və bir quzu təsvir edilir. Bu təsvir Tanrıçılıqda dördümü göstərir? Əlbəttə ki, yox. Əksinə taxtda yalnız Biri var.
Aslan, kök və quzu sözləri kitabın möhürlərini açmağa layiq Olanın xüsusiyyətlərini və keyfiyyətlərini simvolik olaraq ifadə edir. Aslan Onun Yəhuda qəbiləsindən olan Padşah olduğunu bizə söyləyir. Kök Onun Yaradan olduğunu söyləyir. Quzu bizə Onun inkarnasiya olmuş Tanrı və bizim üçün qurban olduğunu söyləyir. Məhz bu son rolunda O, bizim Qurtuluşumuz ola bilər və kitabı aça bilər. Beləliklə, Vəhy 5-də öyrədilir ki, bir Tanrı var və bu Tanrı Özünü bizə göstərmək və günahdan bizi qurtarmaq üçün Quzu (Oğul) kimi bədənində gəldi.

## Nəyə görə Tanrı Müqəddəs yazının «çaşdırıcı» ayələrinin olmasına izn verib?

Bir çox insan belə bir sual verir: "Vahidlik doktrinası səhihdirsə, nəyə görə Tanrı bu məsələdə, görünür, çaşqınlıq yaradan bəzi ayələrin olmasına izn verdi?" Məsələn, əgər Tanrı İsanın adı ilə bizim vəftiz olunmağımızı istəyirdisə, nəyə görə Matta 28:19 ayəsinin qeyd olunduğu kimi yazılmasına icazə verdi? İsa Məsihin adı ilə vəftiz olunmalı olduğumuzu ifadə etmək üçün bu ayəni başa düşə bilsək də, bu, lazımsız çaşqınlığın mənbəyi deyilmi?

Cavabımız ikiqatdır. Birincisi, Müqəddəs yazının bu ayələri orijinal kontekstdə oxunanda çaşdırıcı deyildir. Tanrı insan səhvlərinə görə cavabdeh deyil. Matta tərəfindən qeyd edilmiş bu ayə həvarilik dövründə aydın şəkildə başa düşülən idi və sonradan insan tərəfindən yaradılan təlimlərin Müqəddəs yazıların məzmununu pozması Tanrının təqsiri deyildir.

İkincisi, Tanrının bəzən həqiqəti qismən gizli şəkildə təqdim etmək məqsədi var. Matta 13:10-da şagirdlər İsadan niyə insanlarla məsəllərlə danışdığını soruşdular. O izah etdi ki, Səmavi Səltənətin sirlərini anlama qabiliyyəti insanlara verilməmişdir (ayə 11). Niyə? "Çünki gördükləri halda görməsinlər, eşitdikləri halda eşitməsinlər və anlamasnlar. Çünki bu xalqn ürəyi kobudlaşıb. Qulaqları ilə ağır eşidirlər, və gözlərini yummuşlar ki, gözləri ilə görməsinlər, qulaqları ilə eşitməsinlər, ürəkləri ilə anlamasınlar və müraciət etməsinlər ki, mən onlara şəfa

verim”(Matta 13:13-15). Başqa sözlə, insanlar Tanrı haqqında daha çox eşitmək, görmək və anlamaq istəmirdilər. Əgər O, onlarla açıq danışsaydı, mənəvi istəklərinin olmamasına baxmayaraq, başa düşə bilərdilər. Buna görə İsa məsəllərlə danışdı ki, salehliyə həqiqətən acıyıb susayanlar doysunlar (Matta 5: 6) və yalnız səylə axtaranlar həqiqəti tapsınlar (İbranilərə 11:6). Bu cavabı verdikdən sonra İsa xalqa verdiyi bir məsəli şagirdlərə izah etməyə başladı.
Ola bilərmi ki, Tanrı insan adət-ənənələrindən məmnun olanlara və həqiqəti səmimi, səylə və ürəkdən axtarmayanlara bəzi Müqəddəs yazı ayələrinin büdrəmə daşı olmasına izn versin? Eyni ayələr Ruhun düşüncəsini səylə axtaranlara böyük bir vəhy ola bilərmi? Əgər belədirsə, bu, həqiqəti bilib tərbiyə olunanların üzərinə ağır bir məsuliyyət qoyur. Əgər Tanrının başqalarından tələb etdiyi formada həqiqət üçün aclıq və sevgisi yoxdursa, son nəticədə onlar həqiqətdən uzaq düşəcəklər (2 Saloniklilərə 2:10-12). Bəlkə də bu, məsihçi dünyasında çoxlarının həqiqəti heç vaxt tapmadığının, bəzilərinin ona malik olub sonra da itirdiyinin, bəzilərinin də həqiqətin heç olmasa bir hissəsinə malik onu itirdiyinin səbəblərini izah edir.

## Nəticə

Bu kitabın son üç fəslində bütün bibliyanı araşdıraraq, belə nəticəyə gəlirik ki, bibliyada heç bir yerdə Tanrıçılıqda olan şəxslərin fərqi öyrədilmir. Üstəlik, bibliyanın heç bir

yerində üçlük sözünü və ya üçlük doktrinasını tapmırıq. Əslində Tanrı ilə açıq şəkildə əlaqələndirilən üç rəqəmini tapdığımız yeganə ayə çox suallandırılan Müqəddəs yazı ayəsi olan 1 Yəhya 5:7-dir. Buna baxmayaraq, bu ayədə Tanrının göydəki təzahürləri təsvir edilir və "bu 3-ün bir" olduğu qənaətinə gəlinir.

Əhdi-cədid İsa Məsihin ikili təbiətini öyrədir və bu Tanrıçılığı tanımağın açarıdır. İsanın həqiqətən kim olduğunu, yəni bədənə bürünmüş Əhdi-ətiq Tanrısı olduğunu aşkar etdikdən sonra bütün Müqəddəs yazılar yerinə düşür.

Tanrıçılıqda şəxslərin çoxluğunu öyrətmək üçün trinitaristlərin istifadə etdiyi Müqəddəs yazı ayələri ilə bağlı iki şeyə diqqət yetirmək maraqlıdır. Birincisi, bu ayələrin çoxu vahidliyi sübut edən güclü mətnlərdir. Nümunələr Matta 28:18-19; Yəhya 1:1-14; 14:16-18; və 1 Yəhya 5:7 ayələridir. İkincisi, bu ayələrin bir çoxu, trinitarist nöqteyi-nəzərdən izah edilərsə, nəticədə Arianizm, Binitarizm və ya Triteizm kimi qeyri-trinitarist bir doktrinaya səbəb olur. Məsələn, bir çoxları Məsihin dualarından istifadə edərək Atanın Oğuldan fərqli bir şəxs olduğunu sübut edir. Bu, Oğulun Tanrı (Tanrıçılıqda bir şəxs olaraq) kimi dua etdiyini göstərirsə, bu, "Tanrı Oğulun" Tanrı Ataya tabe olması və ya aşağıda olması inancına səbəb olur. Bu təfsir Oğulun Ata ilə bərabər olması barədə trinitarist doktrinanı sıradan çıxardır və Arianizmin bir formasına səbəb olur. Digər tərəfdən, əgər Oğul bir insan kimi dua edibsə, onda bu izah vahidlik

etiqadını dəstəkləyir və trinitarizmi inkişaf etdirmir. Eyni dəlil Atanın Oğuldan böyük olduğunu, Oğulun bütün gücə malik olmadığını və Oğulun hər şeyi bilmədiyini söyləyən Müqəddəs yazı ayələrinə əsaslanan trinitarist dəlilləri məhv edir.

Eyni şəkildə, qeyd olunan söhbətlərin, məhəbbət ünsiyyətinin və biliklərin mübadiləsinin Tanrıçılıqdakı şəxsləri göstərməsi barədə trinitarist arqumentlər yanlış doktrinaya səbəb olacaqdır. Onların arqumentləri üç ayrı bir intelekt, istək və şəxsiyyət ortaya qoyar bilər. Onlar triteizmin (üç Tanrıya inam) yanlışlığına yuvarlanırlar - trinitaristlər buna inanmadıqlarını bildirirlər. Eynilə onlar Stefanın göydə Tanrının iki gerçək cismini gördüyünü iddia etsələr, onda onlar Tanrıların cəmi anlayışından qaça bilməzlər.

Trinitaristlərin sübut kimi istifadə etdikləri mətnlərin çoxu üç deyil, iki anlayışını ortaya qoyduğuna görə, onların təfsirində binitarist (yalnız iki şəxsə inam) və ya ən azından Müqəddəs Ruhun Ataya və Oğula tabeçiliyi baxışının bərqərar olması görünür. Ancaq hər bir doktrina ortodoksal trinitarizmə ziddir.

Xülasə, belə demək mümkünsə, trinitaristlərin sübut kimi istifadə etdikləri əksər mətnlər vahidlik anlayışına uyğun şəkildə izah edilməli, əks halda isə trinitaristlərin özlərinin inanmadıqları təlimlərə aparıb çıxarır. Digər tərəfdən, vahidlik görüşü Müqəddəs yazıları açıq şəkildə izah edir və uyğunlaşdırır. Bu da Əhdi-ətiqin ciddi monoteizminə uyğundur və satın alınmağımız üçün qurban gedən Allahın

Oğluna və həyatımızda qurtuluşu faktiki həyata keçirən Müqəddəs Ruhun doktrinasına məsihçi inamını qoruyub saxlayır.

* * * * *

Tanrı doktrinası ilə əlaqəli Müqəddəs yazının əsas hissələrini daha ətraflı müzakirə etmək üçün David K. Bernardın müəllifi olduğu "İsa Məsihin Vahid Birliyi" (Hazelvud, Missuri.: Word Aflame Press, 1994) kitabına baxın.

**Son qeydlər**
**9-cu fəsil**

[1]Bernard Ramm, Bibliyanın Protestant təfsiri, 3-cü nəşr. (Grand Rapids: Baker, 1965), 150.
[2]Bu parçalarda yunan dilinin yoxlanılması üçün Alfred Marşallın müəllifi olduğu, Sətirlərarası yunanca-ingiliscə Əhdi-cədid (Grand Rapids: Zondervan, 1958) kitabına baxın. Kai sözünün istifadəsinə dair yunan aliminin ətraflı müzakirəsi üçün, Robert Brent Qreyvzin müəllifi olduğu, "İki əhdin Tanrısı yazısına baxın (Hazelvud, Missuri: Word Aflame Press, 2000).
[3]Donald Bloeş, Evangelist teologiyasının əsasları (San Fransisko: Harper & Row, 1978) 1:139.
[4]ibid(eyni yerdə)., 138.
[5]h. D. M. Spens and Cozef Exell, eds. Pulpit şərhi kitabı (OTN. Grand Rapids: Eerdmans, 1977), 22 (Vəhy): 162.
[6]ibid (eyni yerdə)., 165

# 10 KİLSƏ TARİXİNDƏ VAHİDLİYƏ İNANANLAR

Əvvəlki fəsillərdə gördüyümüz kimi, bibliyada ardıcıl olaraq Tanrının vahidliyi öyrədilir. Lakin bu gün kilsə dünyası tarix boyu məsihçi cəmiyyətinin (kilsəsinin) Üçlüyün doktrinasını qəbul etdiyinə inanmağımızı istəyir. Məgər bu doğrudur? Həvarilikdən sonrakı dövrdə kilsə rəhbərləri trinitarist idilərmi? Kilsə tarixində vahidliyə inananlar var idimi?

Bu mövzuda apardığımız araşdırmalardan bu fəsildə müzakirə etdiyimiz üç nəticəyə gəldik.

(1) Hələ deyə biləcəyimiz qədər, erkən məsihçi liderləri həvarilik dövründən sonrakı günlərdə vahidlik barədə görüşlərə malik idilər. Sonrakı dövrlərdə və bu gün də mövcud olduğu kimi, onlar üçlüyün doktrinasını öyrətməyiblər və bu məlumat dəqiqdir.

(2) Hələ ikinci əsrin sonlarında trinitarist doktrinanın ortaya çıxmasından sonra, təxminən bizim eranın 300-cü ilinə qədər vahidlik əsas etiqad kimi əvəz edilmədi və dördüncü əsrin sonlarına qədər bu təlim hamılıqla bərqərar edilməmişdi.

(3) Trinitarizm hakim mövqeyə malik olandan sonra da, vahidliyə inananlar kilsə tarixləri boyunca mövcud olmağa davam etdilər.

## Həvarilikdən sonrakı dövr

Kilsə tarixçiləri üçlük doktrinasının bu gün bildiyimiz kimi, həvarilikdən sonrakı dövrlərdə mövcud olmadığı ilə razılaşırlar (11-ci fəslə baxın.). Həvarilərin ardıcılları olan məsihçi liderlər üçlüyə fikir vermədilər, əksinə Əhdi-ətiqin monoteizminə inandıqlarını təsdiq etdilər və İsa Məsihin ilahiliyini və bəşəriliyini şübhə etmədən qəbul etdilər.[1] Bu liderlər vahidliklə əlaqəli olan doktrinalara xüsusi diqqət etdiklərindən, güman etmək olar ki, həvarilikdən sonra gələn kilsə (imanlı cəmiyyəti) Tanrının vahidliyini qəbul etmişdi.

Həvarilikdən sonrakı dövrdə ən məşhur yazıçılar romalı Kliment, Polikarp, İqnatius və Hermas olmuşlar. Onların xidmətləri təxminən eramızın 90-cı ilindən 140-cı ilinə qədər olan dövrü əhatə edirdi.
Təxminən eramızın 200-cü ilində vəfat etmiş görkəmli bir məsihçi lideri İrenaeus, güclü bir xristosentrik teologiyaya sahib idi və güclü şəkildə inanırdı ki, İsa bədəndə zühur etmiş Tanrıdır. O iddia edirdi ki, İsa Məsihdə inkarnasiya olmuş Loqos Tanrının düşüncəsi və Atanın Özü olmuşdur[2]. Bəzi alimlər İrenausu "iqtisadi üçlüyə" inanan biri kimi təsnif edirlər. Bu görüşə görə, əbədi üçlük yoxdur, ancaq müvəqqəti üçlük vardır. Ehtimal olunur ki, İrenaeus əbədi şəxslərin üçlüyünə deyil, Allahın fəaliyyətlərinin və ya rollarının üçlüyünə inanırdı və bununla belə bəzi vahidlik anlayışlarını dilə gətirmişdir. Əlbətdə ki, o, üç ayrı bərabər şəxsin sonrakı trinitarist doqması ilə əlaqəli bir şey demirdi. Həvarilikdən sonrakı erkən dövrdə üçlüyə aid heç bir istinad tapmırıq; onlar yalnız bir Tanrıya və Tanrı olaraq İsaya müraciət edirlər. Yaranan bir trinitarist doktrinaya dair mümkün istinadlar ikinci əsr yazılarında, əsasən, üçvahid vəftiz formuluna işarə edən bir neçə istinadda yer alır.
Bu yazılarda trinitarist bir konsepsiyaya dair meydana çıxan azsaylı istinadlarla bağlı bir neçə mümkün izahat var. (1) Trinitarist oxucular və alimlər Matta 28:19 kimi bəzi ayələri səhv təfsir etdiklərindən, bu parçanı da doğru olmayan mülahizələrinə görə yanlış başa düşə bilərlər. (2) Kilsə tarixində çox yayılmış bir praktikaya görə, belə bir

ehtimal var ki, sonradan trinitarist kopirayterlər öz hissələrini əlavə ediblər. Bu erkən yazıların yeganə mövcud nüsxələri orijinal mətnlərdən yüz illər sonra yazıldığı üçün belə bir ehtimal yaranmışdır. Məsələn, Didaxe (Didache) adlı erkən bir yazıda deyilir ki, rəbbin süfrəsi yalnız Rəbbin adı ilə vəftiz olunanlara aid edilməlidir, bu yazıda eyni zamanda Atanın, Oğulun və Müqəddəs Ruhun adı ilə vəftiz edilməsindən bəhs olunur.[3] Lakin Didaxenin ən qədim mövcud nüsxəsi bizim eranın 1056-cü ilinə[4] aiddir (3) Şübhəsiz ki, bəzi hallarda yalançı təlimlər kilsəyə yol tapa bilmişdi. Əslində saxta təlimlər, hətta Məsih haqqında saxta doktrina (2 Yəhya 7; Yəhuda 4) həvarilərin dövründə (Vəhy 2-3) mövcud idi. Ancaq balans olaraq tarixi sübutlardan belə bir yekun fikrə gəldik ki, Məsihin on iki həvarisinin günlərindən dərhal sonrakı dövrdə kilsə rəhbərləri vahidlik prinsipinə inanıblar.

**Vahidlik-ikinci və üçüncü əsrlərdə hakim olan inam**

Qeyd etdik ki, vahidlik Tanrıçılığa münasibətdə ikinci əsrin əvvəllərində ən vacib iman idi. Binitarizm və trinitarizm formaları inkişaf etməyə başlasa da, üçüncü əsrin sonlarına qədər bu təlimlər üstünlük qazana bilmədilər. Bu müddət ərzində vahidlik təlimi üzrə bir çox görkəmli liderlər və müəllimlər var idi ki, onlar doktrinada bu dəyişikliyə qarşı çıxırdılar. Həvarilərdən dərhal sonrakı dövr ərzində vahidlik təlimi üzrə görüşlərin üstünlük təşkil etdiyini təsdiqləmək üçün bu fəslin sonunda “Modalist Monarxianizm (Monarxiançılıq): Erkən Kilsələr Tarixindəki

Vahidlik" adlı tədqiqat sənədinə baxın. Bu sənəddə trinitarizmi rədd edən əsas müəllimlər Allahın vahidliyini və İsa Məsihin tam ilahiliyini təsdiqləyirlər.

## Modalist monarxiançılıq

Modalist monarxiançılıq kilsə tarixçiləri tərəfindən vahidlik anlayışlarına istinad etmək üçün istifadə olunan bir termindir. Britannika Ensiklopediya bunu aşağıdakı kimi müəyyənləşdirir:

Tanrının tam dolğunluğunun (bütövlüyünün) Məsihdə yaşadığını düşünən modalist monarxianizm bəzi kilsə yazıçılarının "tabeçilik" anlayışını istisna etdi və Ata və Oğul adlarının yalnız vahid Tanrıya məxsus müxtəlif təyinatlar olduğunu ifadə etdi. Həmin vahid Tanrı dünya ilə əvvəlki münasibətləri baxımından Ata adlanır, lakin bəşər olaraq zühuruna görə Oğul adlanır.[5]

Ən görkəmli modalist liderlər Smirnadan olan Noetus, Prakseas və Sabellius idilər. Noetus Kiçik Asiyada Prakseasın müəllimi olub, Prakseas təxminən 190-cı ildə, Sabellius isə 215-ci ildə Romada vəz etmişdir.[6] Sabellius ən məşhur modalist olduğuna görə tarixçilər tez-tez doktrinanı Sabellianizm adlandırırlar. Sabellius, Müqəddəs yazılara, xüsusən də Çıxış 20:3, Qanunun təkrarı 6:4, İşaya 44: 6 və Yəhya 10: 38 kimi ayələrə çox güvənirdi[7] və deyirdi ki, Tanrı özünü yaradılışda Ata, inkarnasiyada Oğul, yenilənmədə və təqdisdə isə Müqəddəs Ruh kimi göstərir. Bəziləri bunu şərh edib bildirirlər ki, onun bu üç təzahürə inanması zaman

daxilində ciddi şəkildə ardıcıl olmuşdir. Əgər belədirsə, o, daha qədim modalizm inanmını və ya müasir vahidlik etiqadını əks etdirmir.
Britannika Ensiklopediyasında Sabelliusun inancı bu şəkildə təsvir edilir: "Onun əsas təklifi belə bir məna kəsb edirdi k, Ata, Oğul və Müqəddəs Ruh eyni şəxsdir və üç ad bir və eyni varlıqla bağlıdır. Sabelliusun ən çox nəzərə aldığı şey monoteizmə maraq olmuşdur.”[8] Modalistlər barədə əldə etdiyimiz çoxlu məlumatı Prakseas əleyhinə bir traktat yazan Tertulliandan (225-ci ildə vəfat etmişdir) alırıq. O göstərmişdir ki, xidmət etdiyi müddətdə "əksər möminlər" vahidlik doktrinasına riayət etmişdirlər:
Həmişə möminlərin əksəriyyətini təşkil edən sadəlövhlər (mən onları müdriksiz və savadsız adlandırmayacağam) 3-ün Vahiddə olması sisteminə heyrətlənirlər, çünki onların iman qaydası onları dünyanın çoxallahlı sistemindən ayıraraq yeganə vahid Tanrıya yönəldir; başa düşmürlər ki, Onun yeganə Tanrı olmasına baxmayaraq, Ona öz strukturu baxımından inanmaq lazımdır. Üçlüyün ədədi qaydası və bölgüsünü onlar Vahidliyin bölünməsi kimi güman edirlər.[9]

## Dördüncü əsrdən bu günə qədər vahidlik konsepsiyasına inananlar

Bu fəsildə təqdim olunan tədqiqat sənədində göstərilənlərə əlavə olaraq, kilsə tarixi boyu vahidlik konsepsiyasına çoxlu sayda digər inanan insanların olmasına dair sübutlar tapdıq. Düşünürük ki, ortaya

çıxartdığımız inananlar aysberqin yalnız görünən tərəfini təmsil edirlər. Bəzi yazarlar belə bir dəlil ortaya qoyurlar ki, vahidlik konsepsiyasına inananlar Prisilliyanistlər (350-700-cü illər), Euxitlər (350-900-cu illər) və Boqomillər (900-1400-cü illər)[10] arasında olmuşdur.
Göründüyü kimi, vahidliyə inananların əksəriyyəti yazılı bir iz qoymadılar. Digərlərinin yazılı əsərləri isə qalib gələn rəqiblər tərəfindən məhv edildi. Bir çoxu təqib edildi və öldürüldü və onların hərəkatları rəsmi xristian dünyası tərəfindən məhv edildi. Vahidlik konsepsiyasına inananların və bu əsasda yaranmış hərəkatların neçəsinin tarixdə qeydə alınmadığını və ya bidət adlandırılanların neçəsinin, həqiqətən də, vahidlik konsepsiaysına inandıqlarını bilmirik. Ancaq ortaya qoyduğumuz məlumat budur ki, vahidlik konsepsiyasına inananlar ciddi müxalifətə baxmayaraq sağ qaldılar.
Orta əsrlərdə görkəmli alim və ilahiyyatçı Abelard (1079-1142) Sabellianın (modalist) doktrinasını öyrətməkdə ittiham edildi[11]. Sonda onun düşmənləri onu məcbur etdilər ki, bu təlimdən əl çəksin. O, Fransanın Kluni şəhərində bir monastıra sığındı və orada da vəfat etdi.
İslahatçılar (reformistlər) vahidlik etiqadı naminə üçlük doktrinasına qarşı çıxanları səfərbər etdilər. Reformasiya dövründəki məşhur antitrinitaristlərdən biri də İspaniyadan olan məşhur həkim Maykl Servetus (1511-53) idi. Onun yalnız bir neçə davamçısı var idi, baxmayaraq ki, bəzi tarixçilər onu unitarianizmin inkişafı üçün hərəkətverici qüvvə hesab edirlər. Ancaq o, mütləq

unitarianist deyildi, çünki İsanı Tanrı kimi qəbul edirdi. Onun barəsindəki aşağıdakı təsvir vahidlik konsepsiyasına inandığını açıq şəkildə göstərir: "Tanrıçılığın 3 şəxsiyyətinin və Oğulun əbədiliyinin Servetus tərəfindən inkar edilməsi, onun Bibliyaya sıx bağlılığına, Məsihin şəxsinə olan hədsiz sədaqətinə və kainatın Xristosentrik sxemi barədə görüşlərinə baxmayaraq"[12], anabaptizm təlimi də daxil olmaqla onun sistemini katoliklər və Protestantlar üçün qəbuledilməz etdi.
Servetus yazırdı: "Məsihdən başqa Tanrıdan digər bir şəxs yoxdur. . . . Atanın bütün tanrıçılığı Ondadır."[13] Servetus üçlüyün doktrinasını üç başlı monstr (bədheybət) adlandırmaqdan belə çəkinmədi. O, bu fikrin mütləq politeizmə yol açdığına və şeytanın çaşqınlığı olduğuna inanırdı. O, həmçinin inanırdı ki, kilsə trinitarizmi qəbul etdiyi üçün, Tanrı kilsənin papa hakimiyyətinə tabe olmasına və beləliklə də, Məsihi itirməsinə icazə verdi. O başa düşə bilmirdi ki, nə üçün protestantlar katolisizmdən ayrıldıqdan sonra da bibliyaya əsaslanmayan və insan tərəfindən hazırlanmış doktrinanı qorumaqda israr edirdilər. Servetus inancına görə 1553-cü ildə Con Kalvinin razılığı ilə tonqalda yandırıldı (Kalvin hətta istəyirdi ki, onun başını bədənindən ayırsın)[14].
Emmanuel Svedenborg (1688-1772) Tanrının vahidliyinə oxşar bir anlayış ifadə edən İsveç filosofu və dini məsələləri qələmə alan bir yazar idi. O, suallar doğuran və ya yanlış təlimlər öyrədirdi, lakin İsanın ilahiliyini qəti şəkildə təsdiqləyirdi. O, *üçlük* terminindən istifadə etdi,

ancaq bunun "üç təzahür forması" olduğunu və əbədi şəxslərin üçlüyü olmadığını söylədi. Bütün üçlüyün İsa Məsihdə olduğunu sübut etmək üçün Koloslulara 2:9-dan istifadə etdi və Yeşayə 9:6 və Yəhya 10: 30-a istinad edərək İsanın təzahür edilmiş Ata olduğunu sübut edirdi. O, Oğulun əbədi doğulduğunu inkar edərək belə bir fikir irəli sürürdü ki, Tanrının Oğlu bəşər idi və Onun vasitəsilə Tanrı Özünü dünyaya göndərdi. O həmçinin inanırdı ki, İsa Yehova Tanrıdır və bizi xilas etmək üçün bəşəriliyi qəbul etmişdir. Svedenborg yazırdı:
Göyün və yerin həqiqi Tanrısına yaxınlaşmayan hər kəs göylərə daxil ola bilməz, çünki göy yalnız bir Tanrıdan olan göydür və Tanrı Yehova Rəbb olan İsa Məsihdir, O, əbədiyyətdən Yaradandır, zaman yetişəndə xilaskardır və sonsuzadək həyat verəndir (yeniləyəndir): yekun olaraq bir anda eyni zamanda Ata, Oğul və Müqəddəs Ruhdur və məhz bu müjdə təbliğ edilməlidir[15].
O, Tanrının (İsanı) Ata, Oğul və Ruhdan ibarət olduğunu gördü. Buna o qədər də uyğun olmayan bir bənzətməyə görə insanlar da can, bədən və ruhdan ibarətdir. Bununla birlikdə, Tanrıçılıq barədə Svedenborqun izahatı müasir vahidlik konsepsiyasına inananların görüşlərinə bənzəyir. XIX əsrdə Amerikada vahidlik görüşləri ortaya çıxdı. Con Miller adlı bir Presbiterian xidmətçi 1876-cı ildə "Tanrı Üçlükdürmü?" mövzusunda kitab yazdı. O, müasir vahidlik konsepsiyası barədə yazan yazarlardan bir qədər fərqli termindən istifadə etdi, lakin ifadə etdiyi inanclar əsasən bu gün vahidlik konsepsiyasına inananların etiqadı ilə

eynidır. Onun kitabını oxumaq, Matta 28:19 ayəsinə münasibəti də daxil olmaqla müasir vahidlik konsepsiyası barədə təliminə çox yaxın paralellər gətirməsini görmək heyrətamizdir. Miller üçlük doktrinasının bibliyaya əsaslanmadığına və kilsənin yəhudilərə və müsəlmanlara çıxışına böyük maneə yaratdığına inanırdı. İsa Məsihin tam ilahi olduğunu açıq şəkildə bəyan edirdi.
Vahidlik barədə görüşlər XIX əsr İngiltərəsində də mövcud olmuşdur. David Kampbell 1828-ci ildə Vahidlik barədə təlim öyrədən bir kitabı tapdığını bildirdi.[16] Kitabın müəllifi Mançesterdəki Müqəddəs Yəhya Kilsəsinin pastoru Con Klouvz idi.
XX əsrdə vahidlik konsepsiyası barədə ən əhəmiyyətli güc vahidlik konsepsiyasına inanan əllincilər idi, baxmayaraq ki, bəzi alimlər qeyd olunan Neo-Ortodoks ilahiyyatçı Karl Bartı modalist kimi təsnif edirdilər[17]. 21-ci əsr əllincilər hərəkatının ilk lideri Çarlz Parham İsanın adı ilə su vəftizini tətbiq etməyə başladı, baxmayaraq ki, o, bu praktikanı trinitarizmin rədd edilməsi ilə əlaqələndirmirdi.[18] 1914-cü ildən başlayaraq bir çox əllincilər vahidlik konsepsiyası barədə müasir əllincilər hərəkatını yaradaraq trinitarizmi və trinitarist vəftiz formulunu rədd etdilər.
Bu gün bir sıra əllinci təşkilatları mövcuddur. Amerika Birləşmiş Ştatlarında baş qərargahı olan əsas təşkilatlar bunlardır: Beynəlxalq Birləşmiş Əllincilər Kilsəsi (ən böyük təşkilatdır), Dünyanın Əllincilər (Pentikost) Assambleyaları, Bütün dünyada Rəbbimiz İsa Məsihin Bibliya yolu kilsələri, Rəbb İsa Məsihin Assambleyaları,

Rəbbimiz İsa Məsihin Həvari İmanının Kilsəsi və Tanrının Müqəddəs Kilsəsinin Həvari Qalibiyyəti. Başqa ölkələrdə qərargahları olan vahidlik konsepsiyasına inanan əllinci qruplarına Kolumbiya Birləşmiş Əllincilər Kilsəsi (yerli kilsə olaraq ölkənin ən böyük katolik olmayan kilsəsidir); Meksikada baş ofisi olan Məsih İsaya iman gətirən Həvari Kilsəsi; SSRİ-də vahidlik konsepsiyasına inanan əllincilər hərəkatı; və Həqiqi İsa Kilsəsi (Çinli möminlər tərəfindən qurulmuş, lakin qərargahı hazırda Tayvanda olan yerli bir kilsədir). Doktrinasına görə vahidlik konsepsiyasına inanan yüzlərlə əllinci təmayüllü kiçik təşkilatlar, müstəqil kilsələr və xarizmatik qruplar vardır.

*Bu fəsildə göstərilən bəzi fikirləri bundan sonra da yazıya alıb sənədləşdirmək üçün biz 1978-ci ildə Texas ştatının Hyustondakı Rays Universitetində dini etiqad dərsi üçün hazırlanmış bir tədqiqat sənədini yenidən nəşr etdik. Xüsusilə, bu sənədin birinci bir neçə abzasındakı vacib nəticələrə diqqət yetirin: (1) dördüncü əsrin sonuna qədər trinitarizm möhkəm bərqərar olunmamışdı. (2) Həvarilikdən sonrakı erkən dövrdəki kilsədə bütün məsihçilərin böyük əksəriyyəti vahidlik konsepsiyasına dair baxışları qəbul etdilər və trinitarizm kilsə rəhbərləri arasında rəğbət qazandığı üçün ona qarşı çıxdılar.*

*Sənəddə təqdim olunan bu nəticələr və məlumatlar sadəcə bizim işimizin məhsulu deyildir, lakin bunları məşhur kilsə tarixçilərindən və yekun qeydlərdə və biblioqrafiyada sadalanan digər mötəbər mənbələrdən götürmüşük.*

*MODALIST MONARXİANİZM: ERKƏN KİLSƏ*

*TARİXİNDƏ VAHİDLİK KONSEPSİYASI*

**Müəllif: David K. Bernard**

Tanrının təbiəti nədir? İsa Məsihin Tanrıya münasibəti necədir? Bu iki sual məsihçilik üçün əsasdır. Məsihçi dünyasının ənənəvi cavabı üçlük doktrinası ilə verilir. Lakin məsihçiliyin ilk əsrlərində bu tərif heç də müəyyən deyildi. Əslində Yeni Katolik Ensiklopediyasında qeyd edilir ki, eramızın 2-ci əsrində “Trinitar həll hələ də gələcəyin işi idi” və “4-cü əsrin sonlarına doğru trinitar doqma. . . heç dı möhkəm bərqərar edilməmişdi. . .. ”[19]

Tanrı və Məsihin təbiəti haqqında bir çox izahatlar verilmişdir, onlardan bəziləri geniş qəbul edildi. Bunlardan ən vaciblərindən biri həm Tanrıçılığın mütləq vahidliyini, həm də İsa Məsihin ilahiliyini təsdiq edən modalist monarxianizm (monarxiançılıq) idi.

Kilsə tarixçisi Adolf Harnaxın fikrincə, eramızın 180-ci ilindən 300-cü ilinə qədər olan dövrdə modalist monarxianizm trinitarizmə qarşı ən təhlükəli rəqib sayılırdı. O, Hippolitus, Tertullian və Origendəki parçalardan modalizmin Romada, demək olar ki, 25-30 il ərzində rəsmi bir nəzəriyyə olduğu və bir anda "bütün məsihçilərin əksəriyyəti tərəfindən qəbul edildiyi"[20] qənaətinə gəldi.

Aşkar əhəmiyyətinə baxmayaraq, modalist monarxianizmin əslində nə olduğunu tam təsvir etmək

çətindir. O dövrün görkəmli modalistlərindən bəziləri Noetus, Prakseas, Sabellius, Epiqonus, Kleomenes, Ankira Marsellus və Kommodian olublar. Ən azı iki Roma yepiskopu (sonradan papa olaraq təsnif edildilər) Kallistus və Zefirinus rəqibləri tərəfindən modalist olmaqda ittiham edildilər. Bu insanlar və onların inancları haqqında səhih məlumatlar əldə etmək çətindir, çünki mövcud tarixi mənbələrin hamısını trinitar opponentləri yazmışdılar və niyyətləri də antaqonistlərinin doktrinasını rədd etmək idi.

Şübhəsiz ki, modalistlərin doktrinası prosesdə səhv başa düşüldü, doğru təqdim edilmədi və təhrif edildi. Buna görə müəyyən bir modalistin inanclarının dəqiq təsvirini tapmaq mümkün deyil. Bununla birlikdə, bu müxtəlif adamlar haqqında fərqli açıqlamaları bir yerə toplamaqla, modalizm haqqında kifayət qədər yaxşı bir anlaşma əldə etmək mümkündür. Məsələn, Noetus, Prakseas, Sabellius və Marsellusun teologiyasında bəzi mümkün fərqlər var; nə qədər ciddi olduğunu müəyyən etmək çətindir. Lakin, şübhəsiz ki, Tanrıçılıqda şəxslərin heç bir fərq qoyulmadığını qəbul etməklə hər biri İsa Məsihin tam ilahiliyini təsdiq edirdi.

Modalist doktrina, ümumiyyətlə, Ata, Oğul və Müqəddəs Ruhun üç fərqli şəxsin (*hipostazların*) deyil, yalnız bir Tanrının (*monarxiyanın*) təzahürləri və ya *rejimləri* olduğuna inam kimi izah olunur. Bu doktrinanı Tanrının vahidliyini dəstəkləyən, lakin İsanın aşağıda səviyyədə, tabe bir varlıq olduğunu iddia edən dinamik

monarxianizmdən ayırmaq lazımdır. Daha doğrusu, modalist monarxianizm "İsanı Tanrıçılığın inkarnasiyası" və "inkarnasiya olmuş Ata" olduğunu hesab edən inancdır.[21]

Bu görüş, güclü yəhudi monoteist ənənəsini qorumaq avantajına malik olmaqla yanaşı, erkən məsihçilərin İsaya Tanrı kimi inamını təsdiqləyir. Eyni zamanda bu, trinitarist dogma paradokslarından və sirlərindən yayınır. Bununla birlikdə, trinitaristlər belə bir arqument irəli sürürlər ki, bu, Loqosu, Məsihin əvvəl mövcud olmasını və ya Ata ilə Oğul arasında bibliyadakı fərqi lazımi səviyyədə göstərməyib. Modalizmin təhlili bu etirazlara necə cavab verdiyini ortaya qoyur. Modalist monarxianların Tanrı haqqında trinitaristlərdən təkcə fərqli bir anlayışı yox idi, həm də Loqos və Oğul barədə fərqli tərifləri var idi. Onların əsas mövqeyi bundan ibarətdir ki, Loqos (Yəhya 1-dəki Kəlam) fərqli bir varlıq deyil, ancaq insanla öz sözü necə birdirsə, Loqos da eyni şəkildə Allahla birdir. Castin Marterin öz inancını təsvir edərkən dediyi kimi, bu, "Atadan bölünməz və ayrılmaz bir gücdür".[22] Marsellus üçün Loqos, xüsusən də fəaliyyətdə olan Tanrının Özüdür.[23] Beləliklə, fərqli bir insan kimi Loqos barədə trinitar konsepsiya (Filo fəlsəfəsinə əsaslanaraq) rədd edildi. Modalistlər Loqosun Məsihdəki inkarnasiyasını qəbul etdilər, lakin onlar üçün bu, Atanın insan şəklində ortaya çıxması demək idi.

Bu fikrə yaxın düşüncə Oğulun modalist anlayışıdır. Onların fikrincə, Oğul Atanın bədəndə gəldiyini göstərir.

Prakseas Oğulun əvvəlcədən mövcud olmasını inkar edir, Oğul termindən istifadə edərək onu yalnız inkarnasiya ilə əlaqələndirir.[24] Ata və Oğul arasındakı fərq bundan ibarətdir ki, Ata Tanrının Özünə aiddir, Oğul isə bədəndə (İsada) zühur edən Ataya aiddir. İsadakı Ruh Ata idi, Oğul isə İsanın bəşəriliyinə, eləcə də ilahiliyinə aiddir. Aydındır ki, modalistlər Atanın oğulla termin olaraq bir-birini əvəz etməsini nəzərdə tutmurdular. Əksinə, onlar bildirirdilər ki, bu iki söz Tanrının fərqli hipostazlarını (şəxslərini) deyil, ancaq vahid Tanrının fərqli rejimlərini nəzərdə tuturdu.
Loqos və Oğul kimi iki anlayışı bir araya gətirərək biz modalistlərin İsa haqqında necə düşündüklərini görürük. Noetus İsanın anadan olması baxımından Oğul olduğunu söylədi, ancaq O həm də Ata idi.[25] Modalist Loqos doktrinası Məsihin Ruhunu Ata kimi müəyyənləşdirdi. İnkarnasiya Atanın tam şəkildə aşkar olduğu yekun bir teofaniya kimi idi. Ancaq bu doketizm deyildi (İsanın yalnız bir ruh varlıq olduğuna inam), çünki Prakseas da, Noetus da İsanın insan xüsusiyyətlərini, xüsusən də bəşəri zəifliklərini və əzablarını vurğulayırdılar. Trinitarizmdə olduğu kimi, İsa "həm insan, həm də Tanrı" idi; modalistlər üçün İsa yalnız Oğul və ya Loqos adlanan ikinci bir şəxsin inkarnasiyası yox, Tanrıçılığın tamlığının inkarnasiyası idi.
Modalist monarxianizmə edilən ən çox ümumi etiraz bunun Patripassian olması idi; yəni Atanın əziyyət çəkdiyini və öldüyünü nəzərdə tuturdu. Tertullian modalistləri ittiham edən ilk şəxs oldu. O hesab edirdi ki, modalistlər Atanın və Oğulun eyni olduğunu nəzərdə

tuturlar. Ancaq bu yanaşmada Atanın öldüyü nəzərdə tutulur, bu isə açıq şəkildə mümkün deyil. Bu şəkildə Tertullian modalizmi gülünc vəziyyətə qoyub təkzib etmək istəyirdi. Sonradan tarixçilər Tertullianın dəlillərini həqiqət kimi qəbul edərək modalist doktrinanı Patripasianizm kimi qeyd etdilər. Ancaq Prakseas izah edirdi ki, İsa inkarnasiya olmuş Ata olduğundan İsa yalnız Oğul olaraq bəşəriliyi baxımından öldü. Sabellius, şübhəsiz ki, Patripassianizm ittihamına oxşar şəkildə cavab verdi.[26] Modalizmin, Tertullianın güman etdiyi kimi, Atanın Oğul olduğunu yox, əksinə Atanın Oğulda olduğunu öyrətdiyini başa düşməklə bütün məsələ asanlıqla həll edilə bilər. Kommodianın (Commodian) dediyi kimi, "Ata Oğulin içinə daxil oldu, hər yerdə bir Tanrı".[27] Eynilə Sabellius Loqosun Oğul olmadığını, lakin Oğulla örtüldüyünü izah edirdi.[28] İttihama cavab olaraq digər modalistlər izah edirdilər ki, Oğul əziyyət çəkdi, Ata isə mərhəmət göstərdi və ya "əziyyət çəkdi".[29] Bununla da onlar bildirirdilər ki, Oğul, yəni insan İsa əziyyət çəkib öldü. Ata, İsanın içindəki Tanrının Ruhu heç bir cismani cəhətdən əziyyət çəkə bilməz və ya ölə bilməzdi, lakin o, bədənin əziyyətlərinə məruz qalmış və ya bədənin əziyyətində iştirak etmişdir. Buna görə Zefirinus demişdir: "Mən yalnız bir Tanrını, Məsih İsanı tanıyıram və Ondan başqa doğulmuş və ya əziyyət çəkmiş başqa heç kim yoxdur. . . . Ölən Ata yox, Oğul idi. ”[30]

Bu ifadələrdən aydın olur ki, modalistlər Atanın cisim (bədən) olmadığını, ancaq bədənlə örtüldüyünü və ya

bədəndə zühur etdiyini təsdiqləyirlər. Bədən öldü, amma əbədi Ruh etmədi. Buna görə Patripassianism modalist monarxianizm üçün istifadə ediləcək yanlış və səhv bir termindir.
Əsas etibarı ilə o zaman modalist monarxianizm öyrədirdi ki, Tanrının say fərqi yox, yalnız ad və ya rejim fərqi var. Oğul termini inkarnasiyaya aiddir. Bu o deməkdir ki, Oğul əbədi bir təbiət deyil, xüsusən də bəşəriyyətin xilası üçün hazırlanmış Tanrının fəaliyyət növüdür. Əvvəlcədən mövcud olan Oğul yoxdur, amma Məsihin Ruhu Tanrının Özü olduğu üçün qabaqcadan mövcud olan Məsih haqqında danışmaq olar. Loqos Tanrının fəaliyyətinə istinad olaraq başa düşülür. Buna görə də İsa bədənlə örtülmüş olan Atanın sözü və ya fəaliyyətidir. Müqəddəs Ruh heç də Loqosdan fərqli bir şəxs deyil. Müqəddəs Ruh termini Tanrının kim olduğuna və Tanrının dünyadakı gücünə və hərəkətinə istinad edir. Beləliklə, həm Loqos, həm də Müqəddəs Ruh terminləri müəyyən fəaliyyət rejimlərində Tanrının Özünə aiddir.
Modalist monarxianizmin təsiri özünü və qüdrətini müxtəlif yollarla təzahür etdirə bilən bölünməz bir Tanrı haqqında Əhdi-ətiq anlayışını bir daha təsdiq etməkdən ibarətdir. Üstəlik, İsa Məsih insan bədənində inkarnasiya olub özünü zahir edən bir Tanrı kimi müəyyən edilib. Beləliklə, Modalizm trinitarizmdən daha çox İsanın tam ilahiliyini tanıyır, modalistlərin iddia etdiyi də budur.[31] Tanrının dolğunluğu və tamlığı İsadadır.

Xülasə, modalist monarxianizm Atanın, Oğulun və Müqəddəs Ruhun tək Tanrının (mümkün şəxsləri fərqləndirmədən) təzahürü olduğuna inam kimi müəyyən edilə bilər. Üstəlik, vahid Tanrı İsa Məsihin şəxsində tam şəkildə ifadə olunur.

* * * * *

İlkin mənbələrin daha geniş sənədləşməsi, müzakirəsi və təhlili üçün David K. Bernardın müəllifi olduğu, Vahidlik və Üçlük: Eramızın 100-300-cü illərində (Hazelwood, Mo: Word Aflame Press, 1991) və Dördüncü əsrdə trinitarist mübahisələr (Hazelwood, Mo.: Word Aflame Press, 1993) əsərlərinə baxın.

**YEKUN QEYDLƏR**
**10-cu FƏSİL**

[1]Heik 1:46-48.
[2]Kennet Latourette, *Məsihçilik tarixi* (Nyu York: Harper və Row nəşriyyatı, 1953), 143.
[3]Vəftiz (Erkən məsihçilik), *Din və Etika Ensiklopediyası* (Nyu York: Charles Scribner’s Sons nəşriyyatı, 1951), 385.
[4]Klotşe, E. H., *Məsihçi doktrinasının tarixi* (Qrand Rapids: Baker Book House nəşriyyatı, 1979), 18.
[5]"Monarxianizm", *Britannika Ensiklopediyası* 15: 686.
[6]Heik 1: 150.
[7]"Sabellius," *Britannika Ensiklopediyası* 19: 791.
[8]İbid (yenə orada).

[9]Tertullian, *Prakseasa qarşı*, 3, rpt. Aleksander Roberts və Ceymz Donaldson, Ed., *Nikey dövrünə qədər olan Atalar* (r. Qrand Rapids: Eerdmans nəşriyyatı, 1977) 3: 598-99.
[10]Tomas Vueisser, *Küfr deyilən yoldan sonra* (n.p., 1981), 115.
[11]Heik 1: 268.
[12]"Servetus, Mixael," *Britannika Ensiklopediyası* 15: 371-72. 13 "Unitarianizm", *Din və Etika Ensiklopediyası* 12: 520. 14 Valter Niqq, *Küfr* (Nyu York: Alfred A. Knopf nəşriyyatı,1962), 324-28.
[15]Emmanuel Svedenborq, *Tanrının Sirri* (1771; rt. Portland, Or. Həvari Kitab Naşirləri, n.d.), 29. Emmanuel Svedenborg, *Həqiqi Məsihçi Dini* (Nyu York: Houghton Mifflin nəşriyyatı, 1907), 1:42.
[16]David Kampbell, Bütün Dolğunluq (Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı, 1975), 167-73.
[17]Busvell 1: 123.
[18]Fred Foster, *Onların Hekayəsi*: 20-ci Əsrin əllinciləri (Hazelwood, Mo: Word Aflame Press nəşriyyatı, 1981), 120-22, Parhamdan sitat, *Səhrada nida edən bir səs*, 23-24.
[19]"Üçlük, Müqəddəs" Yeni Katolik Ensiklopediyası 15: 295-305.
[20]Adolf Harnak, Doqma tarixi (London: Williams & Norgate nəşriyyatı, 1897) 3: 51-54.
[21] "Monarxianizm", Dini Biliyin Yeni Şaff-Hertsoq Ensiklopediyası 7: 454-58.
[22]H. A. Vuolfson, Kilsə Atalarının Fəlsəfəsi
(Kembric, Kütləvi. Harvard University Press nəşriyyatı, 1970) 1: 581-84.
[23]J. A. Dorner, Məsihin Şəxsi Doktrinası (Edinburq: T. & T. Klark nəşriyyatı, 1870) 2: 273.
[24]İbid. 2:20. (yenə orada)
[25] Volfson 1: 591.
[26] "Monarxianizm", Din və Etika Ensiklopediyası
8: 780.
[27] Volfson 1: 583-84.
[28]Dorner 2: 164.

[29]Harnak 3:68.
[30]Jules Lebreton və Jacques Zeiller, Küfr və Pravoslavlıq (Ortodoksluq), Erkən kilsənin tarixi, 4-cü cild (Nyu York: Kollier, 1962), 155.
[31]Harnak 3:63.

# 11 TRİNİTARİZM: ANLAYIŞI VƏ TARİXİ İNKİŞAFI

İnsan ənənələrindən asılı olmayaraq, Müqəddəs Kitabın müsbət təlimini təqdim etməyə çalışdıq. Bununla birlikdə, Məsihçi dünyasında ən çox qəbul edilən üçlüyün doktrinası barədə görüşün (baxışın) tarixi inkişafını təsvir etmədən Tanrıçılıq mövzusunu əhatə edə bilmərik. Bu fəsildə trinitarizmin mənasını müəyyənləşdirəcəyik, tarixi inkişafını qısaca izləyəcəyik və doktrinaya aid bəzi qeyri-müəyyən məqamları və problemləri müzakirə edəcəyik. 12-ci fəsildə bu doktrinanı bibliyanın təlimləri ilə müqayisə edərək, bibliyanın ayələri fonunda bəzi ciddi problemləri

göstərərək və bunu vahidlik inancı ilə müqayisə edərək trinitarizm haqqında nəticə çıxaracağıq.

## Üçlük doktrinasının tərifi

Trinitarizm bir Tanrıda üç şəxsin olduğuna inamı ifadə edir. Bu, "üç şəxsdə bir Tanrı"[1] və "bir varlıqda üç şəxs" kimi müxtəlif yollarla ifadə edilmişdir.[2] Bu görüş Tanrıda yalnız fəaliyyət baxımından deyil, həm də mahiyyət baxımından üç fərqin olduğunu göstərir.[3] Bu üç şəxsə verilən adlar Tanrı Ata, Tanrı Oğul və Tanrı Müqəddəs Ruhdur (və ya Müqəddəs Ruh). Ortodoks trinitar doktrinası, əsrlər boyu inkişaf etdiyindən, bu üç şəxsin güc və səlahiyyət baxımından bərabər olduğunu, keçmiş, indiki və gələcək dövrdə həm-əbədi olduqlarını və hər birində eyni ilahi təbiətin tam olduğunu təsdiqləyir.[4] Lakin başqalarına münasibətdə hər bir şəxsə özünəməxsus bir xüsusiyyət verilir: Ata doğulmamışdır, Oğul doğulmuşdur və ya yaradılmışdır, Ruh isə plan üzrə hərəkət edir.[5] Trinitaristlər bəzən deyirlər ki, Atanın unikallığı özünü yaradılışda, Oğulun unikallığı satın almada (xilasda) və Ruhun unikallığı isə təqdis etmə işində göstərir, lakin üçü də bu fəaliyyətlərin hər birində müxtəlif iş yükü baxımından fəal iştirak edir.[6] Hər biri digərlərinin işində iştirak edir, lakin bu əsasda aşkar bir fərq yoxdur.

Trinitaristlər bu üç şəxsi üçlük və ya üçvahid Tanrı adlandırırlar. Bir trinitarist alim üçlüyü belə təsvir edir: “Üçvahidliyi üç təzahürdə olan nə bir Tanrı kimi, nə də ayrı funksiyaları olan şəxslərin simmetrik triadası (üçlüyü) kimi

anlamaq olmaz; əksinə, üçlük Ata, Oğul və Ruh kimi mövcudluğun 3 rejimində (3 formasında) bir Tanrı mənasını verir və bunların hər biri digərinin fəaliyyətində iştirak edir."[7] Trinitaristlər öz doktrinalarını izah etmək üçün tez-tez üçbucağın diaqramından istifadə edirlər. Üç künc üçlüyün üç üzvünü, tam üçbucaq isə Tanrını tam üçlük kimi təmsil edir. Beləliklə, Ata Oğul deyil, Oğul Müqəddəs Ruh deyil. Üstəlik, nə Ata, Oğul, nə də Ruh digərləri olmadan tam Tanrı deyil. (Trinitarizmin əsas prinsiplərini sadalayan və onları vahidliyin əsas prinsipləri ilə müqayisə edən cədvəl üçün 12-ci fəslə baxın.)

## Triteizmlə bağlı problemlər

Ortodoks trinitaristlər triteizmi - üç tanrıya inamı rədd edirlər. Ancaq üç ayrı şəxsin və yalnız bir Tanrının olması fikri barədə izahat istədikdə, onlar bildirirlər ki, üçlük bir sirdir və fani insan zehnlərimizlə bunu tam dərk edə bilmərik.[8] Trinitaristlər üç tanrı anlayışını rədd etməyə çalışdıqlarından onlar adətən, üç varlıq, şəxsiyyət və ya fərd olaraq Tanrını təsvir etmək istəmirlər. Bir trinitarist deyirdi: "Heç bir vacib məsihçi ilahiyyatçısı tanrıçılıqda üç özünüdərk varlığının olduğunu iddia etməmişdir."[9] Digər bir trinitarist alim üçlüyün üç şəxsdən ibarət olduğu fikrini rədd etmişdir, lakin o, vahidliyə çox aksent etməyi də rədd etdi və deyirdi ki, bu, Tanrı barədə bir yəhudi baxışına gətirib çıxarır.[10]

Burada Tanrını kəskin şəkildə bölən terminlərdən istifadə etmək istəməməsi təqdirəlayiqdir; ancaq şəxs sözü özü

belə bir kəlmədir. Vebster lüğətində şəxs “fərd olaraq bəşər” və "bəşərin fərdi şəxsiyyəti" kimi müəyyənləşdirilir."[11]
Bu, sadəcə terminologiya ilə bağlı mübahisə deyil; Trinitarizmin bütün tarixi boyu bir çox trinitaristlər şəxs anlayışını praktik olaraq, hətta teoloji olaraq üç varlıq mənasında vermişdilər. Məsələn, dördüncü əsrin üç Kapadokialısı (Nissalı Qreqori, Qriqori Nazianzus və Qeysəriyyə Bazil) üçlüyün üç şəxsiyyət olduqlarını vurğulamışdılar.[12] Boetius (480 - 524-cü illərdə) şəxsi "rasional təbiəti olan fərdi bir varlıq" kimi müəyyən etmişdir.[13] Orta əsrlərdən bu günə qədər trinitaristlər üçlüyü üç kişinin şəkli və ya bir qoca, bir cavan və bir göyərçin şəkli ilə təmsil ediblər.
Bu gün trinitarist əllinci (Pentikost) dairələrdə birbaşa üçlüyü nəzərdə tutan Tanrıçılıq anlayışı mövcuddur. Bu, üç trinitarist əllincinin - bibliya üzrə görkəmli şərhçinin, görkəmli müjdəçinin və müəllifin verdiyi aşağıdakı ifadələrdən aydın olur:
İlahi üçlük deyəndə biz nəzərdə tuturuq ki, Tanrıçılıqda üç ayrı və fərqli şəxs vardır, hər birinin öz ruh bədəni, öz qəlbi və öz ruhu vardır, necə ki, hər bir insan, mələk və ya hər hansı bir varlığın öz bədəni, qəlbi və ruhu vardır. . . Beləliklə, ilahi fərdilikdə və ilahi çoxluqda üç ayrı şəxs var. . . . Tanrı kəlməsi ingilis dilində *"qoyun"* sözü kimi ya tək, ya da cəm mənasında işlənir.[14]
Beləliklə, ilahi fərdilikdə və ilahi çoxluqda üç ayrı şəxs var. . . .

Fərdi qaydada hər birinə Tanrı deyilir; kollektiv olaraq onlar barəsində mükəmməl birliyinə görə bir Tanrı kimi danışmaq olar. . . . Kollektiv olaraq Tanrıya aid ola biləcək hər şey, Tanrıçılığın hər bir üzvünə fərdi olaraq bərabər tətbiq edilə bilər. *Bununla birlikdə mövqe, vəzifə və iş baxımından ilahiliyin hər fərdi şəxsinə aid olan elə xüsusiyyətlər var ki, tanrıçılığın digər üzvlərinin hər birinə aid edilə bilməz.*[15]

Üçüncü trinitarist Pentikost (əllinci) müəllif, Vebsterin lüğətindən şəxs sözünün tərifini sitat gətirmişdir: "xüsusi bir fərd". Sonra o, öz tərifini verdi: "Şəxs ağlı, həssaslığı və iradəsi olandır." O, şəxs sözünün trinitarist istifadəsini uzlaşdırmağa cəhd etdi:

Şəxs sözü hər hansı bir yaradılan varlığa tətbiq olunduqda, bütün digərlərindən tamamilə ayrı bir fərdi təmsil edir; lakin Ata, Oğul və Müqəddəs Ruha tətbiq edildikdə, şəxs sözü ayrı bir mövcudluğu istisna etmək mənasında işlədilməlidir, çünki üçü bir-birindən fərqlənsə də, ayrılmaz bir Tanrıdır. Buna baxmayaraq, bu yanaşma ilə şəxs sözü Tanrıçılıqdakı daimi mövcudluq rejimini ən çox aydın şəkildə ifadə edən termin olaraq qalır[16].

Görünən odur ki, bir çox trinitaristlər öz təlimlərini Tanrıçılıqdakı üç şəxsiyyət, üç varlıq, üç ağıl, üç iradə və ya üç bədən bildirən məna kimi şərh edirlər. Onlar şəxs sözünün yalnız təzahürləri, rolları və ya bəşəriyyət ilə münasibətləri nəzərdə tutduğunu inkar edirlər. Bunun əvəzində, onlar mahiyyətin əbədi üçlük olduğunu müdafiə edirlər, eyni zamanda da bunun dərkedilməz bir sirr

olduğunu qəbul edirlər. Onlar Tanrının vahidlik anlayışını cəm şəxslərin (çoxluqda olan şəxslərin) birliyi qədər azaldırlar. Öz tərifləri ilə onlar monoteizmi politeizm formasına çevirir, lakin onların bütpərəst politeizmdən fərqi budur ki, onlar tanrıların arasında mükəmməl bir anlaşma və birliyin olmasını qeyd edirlər. Trinitaristlərin inkarlarından asılı olmayaraq, bu, bibliyada öyrədilən və İudaizm tərəfindən dəstəklənən monoteizmə deyil, politeizmə - daha dəqiq desək, triteizmə səbəb olur.

## Tabeçilik ilə bağlı problemlər

Trinitaristlər, hakimiyyətdə və ya əbədiyyətdə bir şəxsin başqasına tabe olmasının hər hansı bir formasını da rədd edirlər. Ancaq onlar tez-tez deyirlər ki, Tanrı Ata üçlüyün başçısıdır, Tanrı Oğul Ata tərəfindən dünyaya gəldi, Ruh isə Atadan və ya Oğuldan və ya hər ikisindən hərəkət edir. Yenə də onlar heç bir ziddiyyət olmadığını israr edirlər, çünki fani düşüncələrimiz bu münasibətlərin təsvir etdiyi mənaların tamlığını sadəcə dərk edə bilmirlər.

Ancaq biz müşahidə edirik ki, tarix boyu görkəmli trinitaristlər öz təlimlərini elə bir formada təfsir ediblər ki, İsa Məsih tabe olunan və ya daha aşağı səviyyədə duran bir şəkildə göstərilir. Trinitarizmin ilk görkəmli nümayəndəsi olan Tertullian Oğulun Ataya tabe olduğunu və üçlüyün əbədi olmadığını öyrədirdi.[17] O, Oğulun başlanğıcda fərqli bir şəxs kimi mövcud olmadığını, ancaq dünyanın yaradılması işini tamamlamaq üçün Ata tərəfindən dünyaya gəldiyini öyrədirdi. Bundan əlavə,

Tertullian gələcəkdə şəxslərin fərqliliyinin aradan qalxacağını bildirdi. Şərqdə trinitarizmin ilk böyük tərəfdarı olan Origen də mövcudluqda Oğulun Ataya tabe olduğunu irəli sürdü və hətta duanın yalnız Ataya yönəldilməli olduğunu bildirdi.[18] İkisi də oğul termini işlətdikdə Məsihin ilahiliyini nəzərdə tuturdu. Buna görə söyləmək olar ki, trinitarizm İsanı Tanrıya tabe edən bir təlim kimi başlamışdır.

Müasir trinitarist dairələrdə, trinitaristlər sadəcə əbədi Tanrı (Ata) və insan Məsih (Oğul) arasındakı fərqin əvəzində, Tanrı Ata və "Tanrı Oğul" arasındakı fərqi sübut etmək üçün Məsihin bəşəri məhdudiyyətlərindən istifadə etdikdə tabeçiliyin bir formasını görürük. Nümunələr olaraq, “Tanrı Oğulun” Tanrı Atadan fərqli olduğunu sübut etmək biz onların Məsihin dualarından, biliklərinin olmamasından və gücünün olmamasından istifafə etdiklərini qeyd edirik. Hətta Oğul və Atanın həm-bərabərliyini iddia edərkən, çox vaxt onlar praktik bir şəkildə bunu inkar edirlər və bunun həqiqətən nə demək olduğunu başa düşmədiklərini etiraf edirlər.

Vahidliyə inananlar qeyd edirlər ki, Oğul Ataya tabedir. Ancaq trinitaristlərin inandığı mənasında İsanın Ataya tabe olduğuna inanmırlar. Bunun əvəzində, onlar bildirirlər ki, İsa Oğul kimi bəşər rolunda tabe idi və məhdud idi, lakin İsanın Ruhu tabe və məhdud deyildi. Başqa sözlə, insan Məsih ilahi Ruha tabe idi. Ata və Oğulu fərqli şəxslər etməklə, trinitaristlər İsanın inkarnasiya olmuş Ata olduğunu inkar edir və bununla da İsanın tam

ilahiliyindən yayınırlar. Rədd etmələrinə baxmayaraq, əslində onların təlimləri ilahilikdə İsanı tabeçilikdə təqdim edir.

**Bibliyaya aid olmayan terminlər**

Trinitarist terminologiya ilə bağlı ciddi problemlər var. Birincisi, bibliyada heç bir yerdə üçlük sözü istifadə edilmir. Üç sözü, bibliyanın "King James" versiyasından başqa heç bir tərcüməsində Tanrı ilə əlaqəli qeyd edilməyib. Bu tərcümədə yalnız bir dəfə - 1 Yəhya 5: 7 kimi şübhəli ayədə bunu görürük. Hətta bu ayədə "Bu üçü birdir" deyilir. Allaha münasibətdə şəxs kəlməsinin istifadəsinə rast gəlinmir, yalnız "King James" versiyasında buna iki dəfə rast gəlinir. Əyyub 13:8 qərəz göstərməyə işarə edir. İbranilərə 1:3-də deyilir ki, Oğul ikinci şəxs deyil, Tanrının şəxsiyyətinin (təbiətinin və ya mahiyyətinin mənasında) təcəssümüdür. Bibliyada heç vaxt Allahı təsvir etmək üçün şəxs sözünün cəm forması işlədilmir (Yeganə mümkün istisna, Əyyub 13:10 ayəsidir ki, bu da Allaha münasibətdə tətbiq edilsə, trinitarizmi məhv edər!). Bir sözlə, bir çox trinitarist alimlərin etiraf etdiyi kimi, bibliyada üçlük doktrinası açıq şəkildə göstərilmir. Yeni Katolik Ensiklopediyasında deyilir:

Təsfirçilər və bibliya ilahiyyatçıları tərəfindən tanınır. . . Əhdi-cədiddə Trinitarizm barədə ciddi şərtlər olmadan danışmaq olmaz. . . .  Əhdi-cədid təsfirlərinin qəbul edilməsi artıq şifahi deyimlərin deyil, hətta müqəddəs kilsə atalarına və kilsə məclislərinin inkişafına xarakterik

olan düşüncə nümunələrinin Əhdi-Cədid müəlliflərinin (yazarlarının) fikrinə və mədəniyyətinə tamamilə yad olduğunu göstərdi.[19]

Trinitarist protestant ilahiyyatçısı Emil Brunner belə demişdir:

Ancaq Üçlük doktrinasının özü bibliya doktrinası deyildir və bu təsadüfi deyil, zərurətdir. Bu, problemə dair teoloji düşüncənin məhsuludur. . . . Üçlüyün kilsə doktrinası təkcə həqiqi bibliya düşüncəsinin məhsulu deyil, eyni zamanda bibliya düşüncəsindən uzaq olan fəlsəfi fərziyyələrin məhsuludur.

## Trinitarizmin tarixi inkişafı

Trinitarizm bibliyadan gəlmirsə, bu, haradan yaranıb? Məsihi trinitarizminin Əhdi-cədid yazıldıqdan sonra bir neçə əsrlər boyu inkişaf etdiyi şübhə doğurmur. Yeni Katolik Ensiklopediyasına görə, doqma tarixçiləri və sistematik ilahiyyatçılar etiraf edirlər:

Qeyd-şərtsiz Trinitarizm haqqında danışarkən, biz xristian (məsihçilik) mənşəyindən, məsələn, IV əsrin son rübünə keçirik. . . . İndiyə qədər olan müşahidələrdən Trinitar ehkamın nəhayət IV əsrin sonunun ixtirası olduğu təəssüratı yarana bilər.Müəyyən mənada bu doğrudur, lakin trinitar və doqma (ehkam) kimi açar sözlərinin son dərəcə ciddi şəkildə şərh edilməsini nəzərdə tutur. . . . "Üç Şəxsdə Bir Tanrı" anlayışı möhkəm əsasda bərqərar edilməyib, şübhəsiz ki, 4-cü əsrin sonuna qədər Məsihçi həyatına və iman etirafına tam olaraq assimilyasiya

edilməmişdir. Amma məhz bu ifadə tərzi, ilk növbədə, *trinitar doqma* adına iddia edir.[21]
Biz məsihçilik dünyasında bu doktrinanın tarixi inkişafını qısaca izləyəcəyik, lakin əvvəlcə bəzi bütpərəst kökləri və trinitarizmin paralellərini araşdıraq.

## Bütpərəst köklər və paralellər

Trinitarist alim Aleksandr Hislop babillərin üç şəxsdə bir Tanrıya ibadət etdiyini və bərabər üçbucağı bu üçlüyün simvolu olaraq istifadə etdiklərini iddia etdi. Öz kitabında Hislop Qədim Assuriya və Sibirdə üçvəhdət ilahiliyini təmsil etmək üçün istifadə olunan şəkilləri göstərdi. O, ata, ana və uşaqa dair Babil kultunda trinitar fikirlər taparaq demişdir ki, Babil üçlüyü "Əbədi Ata, bəşər anasında inkarnasiya olmuş Tanrının ruhu və bu inkarnasiyanın bəhrəsi olan İlahi Oğuldur. "[22]
Tarixçi Uill Durant qədim Misirdə üçlüyü təsvir etmişdir. "Ra, Amon və başqa bir tanrı Ptah bir ali və üçvəhdət ilahiliyin təcəssüm və ya aspektləri kimi birləşdirildi."[23] Misirdə də Osiris, İsis və Horusda ata, ana və oğul ilahi üçlüyü var idi.[24].Üçlük Hinduizm, Buddizm və Taoizm kimi digər vacib bütpərəst dinlərdə mövcuddur. Hinduizmdə qədim zamanlardan ən üstün bir üçlük vardır: Brahma Yaradan, Şiva Məhv edən və Vişnu Qoruyucu. Bir alim bu inancı belə izah etmişdir: "Brahman-Atman, şəxsiz ali gerçəklik yaradılış, məhv etmə və qorumağın ilahi funksiyalarını təmsil edən üç fərdi tanrı vasitəsilə dini baxımdan vacib 3 qatlı təzahürə və ya trimurtiyə

[tanrıların üçlüyə] nail olur.[25]. Bu üçlük bəzən üç başlı bir tanrı heykəli ilə təmsil olunur.
Buddizm də özünəməxsus bir üçlük növü vardır. Buddizmin Mahayana (şimal) məktəbində "üçlü bədən" və ya Trikaya doktrinası var.[26] Bu inanca görə, Budda gerçəkliyinin üç "bədəni" var. Birincisi, əbədi, kosmik gerçəklik, ikincisi birincinin səmavi təzahürü, üçüncüsü isə ikincinin yer üzündəki təzahürüdür. Bundan əlavə, bir çox Buddistlər Buddanın üç başlı heykəllərinə ibadət edirlər.[27]
Çinin qədim mistik dini olan Taoizmdə üç tanrı adlandıran ali tanrıların - Ceyd İmperatoru, Lao Tzu və Linq Paonun rəsmi üçlüyü var.[28]
Fəlsəfi üçlük Platonda ortaya çıxır və Neo-Platonizmdə çox əhəmiyyət kəsb edir.[29] Əlbəttə, Yunan fəlsəfəsi, xüsusən Platonik və Neo-Platonik düşüncə, qədim kilsə ilahiyyatına böyük təsir göstərmişdir. Məsələn, Trinitar Logos doktrinası Neo-Platonik filosofu Filodan qaynaqlanır. (4-cü Fəslə baxın) Beləliklə, üçlük ideyasının məsihçilik dünyasından yaranmadığını görə bilərik. Bu, məsihçilik erasından əvvəl bütpərəst dinlərin və fəlsəfələrin əhəmiyyətli bir xüsusiyyəti idi və bunun bu gün müxtəlif formalarda mövcudluğu qədim, bütpərəst mənşəli olmasını göstərir.

## Həvarilikdən sonrakı inkişaf prosesləri

Müqəddəs yazılar üçlük doktrinasını öyrətmir, lakin trinitarizmin bütpərəstliyə gedib çıxan kökləri var. Bəs bu bütpərəst doktrina məsihçi dünyasına necə yol tapdı? Bu

suala cavab tapmaq üçün, ilk növbədə, Lüteran seminariya professorları Otto Heyk (Heick) və E.H.Klotşe (Klotsche), Yelsk (Yale) Universitetinin kilsə tarixi professoru Roland Bainton, universitet professoru Con (John) Noss, görkəmli filosof-tarixçi Uill Durantın fikirlərinə və Din və Etika Ensiklopediyasına istinad etmişik.
10-cu fəsildə qeyd etdik ki, erkən post-həvari ataları (eramızın 90-140-cı illərində) üçlük ideyasını qəbul etməmişlər. Əksinə, onlar Əhdi-ətiq monoteizminə, Məsihin ilahiliyinə və Məsihin bəşəriliyinə diqqət etmişlər. Yunan apologetləri (eramızın 130-180-ci illərində) də Tanrının vahidliyini qeyd etmişlər. Ancaq bəziləri trinitarizmə doğru yuvarlandılar.
Trinitarizm istiqamətində olan bu cərəyan Loqosu (Yəhyanın müjdəsi 1-ci fəsildəki Kəlamı) fərqli bir şəxs kimi təqdim etməklə başladı. Yunan fəlsəfəsində, xüsusən də Filonun təlimlərindəki bir düşüncənin ardından bəzi Yunan apologetləri Loqosu Atadan fərqli bir şəxs kimi görməyə başladılar. Bu, trinitarizm deyildi, ancaq binitarizmə oxşar bir cərəyan idi və Loqosu Ataya tabe olan formada təqdim edirdi. Onların düşüncəsinə görə yalnız Ata həqiqi Tanrı idi, Loqos isə ikinci dərəcəli yaradılmış bir ilahi varlıq idi. Nəhayət, Loqos Oğula bərabər oldu. Göründüyü kimi, üçvəhdət vəftiz formulu bəzi məsihçi kilsələri arasında bir təcrübə halına gəldi, baxmayaraq ki, buna edilən bir neçə erkən istinad ya Matta 28:19 ayəsinin hafizədən deyilməsi, ya da sonradan

yazının surətini köçürənlər tərəfindən əlavə edilmiş interpolyasiya (əlavə) ola bilər. Üstəlik, bu müddət ərzində Teofil adlı bir apologet Tanrını təsvir etmək üçün triada (triados) sözündən istifadə etdi. Lakin, o, bundan şəxslərin üçlüyünü yox, Tanrının fəaliyyətlərinin triadasını ifadə etmək üçün istifadə etmişdi.

İrenaeus (eramızın 200-ci ilində vəfat etmişdir) bu dövrün ilk həqiqi ilahiyyatçısı sayılır.[30] O, xilas (satın alma) naminə Məsihdə Tanrının zühurunu vurğulamışdır. Bəzi alimlər İrenaeusa aid olan inancları "iqtisadi trinitarizm" kimi xarakterizə etdilər. Bu, o deməkdir ki, o, əbədi üçlüyə və ya mahiyyətin üçlüyünə inanmırdı, ancaq təbiətcə müvəqqəti olan üçlüyə - yalnız Allahın fəaliyyət və ya əməliyyatlarnın üçlüyünə inanırdı. Yunan Logos doktrinasından istifadə etməyən İrenaeus, Loqosu Ata ilə eyniləşdirdi. Onun teologiyası üç əsas xüsusiyyətə malik idi: bibliyaya güclü aksent, həvari ənənəsinə hörmət və güclü xristosentrik aksent. Deyəsən, o, əsl trinitarist deyildi, ən çox halda keçid xadimi idi.

Xülasə, həvarilərdən sonrakı I əsrdə belə üçlük (üçbirlik) doktrinası inkişaf etməmişdi. Ancaq bəzi dairələrdə yunan fəlsəfi fikirlərinə əsaslanan tabeçilik binitarizminə bənzər bir forma meydana gəlmişdi ki, bu doktrina Yəhyanın müjdəsinin ilk fəslində rədd edilmişdir. *Yeni Katolik Ensiklopediyasında* bu zaman mövcud olmuş trinitarizm haqqında deyilir:

Həvari Atalar arasında belə bir zehniyyətə və ya dünyagörüşünə hətta uzaqdan yaxınlaşan heç bir şey yox

idi; ikinci əsr apologetləri arasında, nadir Tanrı daxilində çoxluq kimi problemə bir az daha çox diqqət artmışdı. . . . Son təhlildə, ikinci əsrdə teoloji nailiyyət məhdud idi. . . . Trinitar həll məsələsi hələ gələcəyin işi idi.[31]

## Tertullian: Məsihçi Trinitarizmin Atası

Tertullian (eramızın 150–225-ci illərində yaşamışdır) tarixdə adı yazılmış ilk şəxs oldu ki, Tanrı ilə əlaqəli üçlük (Latınca: trinitas), substansiya (substantia) və şəxs (persona) sözlərindən istifadə etmişdir.[32] O, ilk olaraq üç substansiyada bir şəxs barədə danışmışdır (Latınca: una subantantia et tres personae). Tertullian üçlüyün iqtisadi konsepsiyasına bağlı qaldı. Yəni üçlüyün yalnız vəhy məqsədləri üçün mövcud olduğuna inanırdı və düşünürdü ki, bu iş bitdikdən sonra şəxslər arasındakı fərq aradan qalxacaqdır. Bununla birlikdə, Yunan apologetlərinin Loqos doktrinasından istifadə etməsi ilə İrenaeusdən qətiliklə fərqlənirdi. Tertullian Loqosu Oğula bərabərləşdirdi. O, Atanın dünyanı yaratmaq üçün Loqosu gətirdiyinə və Loqosun Ataya tabe olduğuna inanırdı. Üçlük doktrinası Tertullian üçün heç bir problem yaratmadı, çünki bütün teologiyası belə bir düşüncəyə əsaslanıdırdı ki, iman obyekti nə qədər qeyri-mümkün olsa, bir o qədər də müəyyəndir. O, "inanıram, çünki bu, absurddur" ifadəsi ilə xarakterizə olunur.

Tertullianın trinitar ifadə tərzi ilə, xüsusən latınca persona sözündən istifadə etməsi ilə nə demək istəməsi barədə sual ortaya çıxır. Teoloji terminlərinin kitabına görə, Roma

qanununda bu söz hüquqi şəxs və ya tərəf demək idi.[33] Dramda bu, bir aktyorun geydiyi maska və ya daha ətraflı desək, bir aktyorun oynadığı rolu nəzərdə tuturdu. Bunların heç biri heç də şəxsin özünüdərk varlıq kimi müasir mənasını göstərmir. Məsələn, bir aktyor bir neçə rol (persona) oynaya bilər və bir hüquqi şəxs (persona) bir neçə fərddən ibarət ola bilər. Digər tərəfdən, söz həm də ayrı-ayrı insanları da müəyyən edə bilər.

Dördüncü əsrdə yunan dilində hipostaz sözü trinitar doktrinanın rəsmi ifadəsində istifadə edilmişdir. Nossun fikrincə, hipostaz dolanacaq (yaşayış) və ya fərdiləşdirilmiş təzahür mənasını verən mücərrəd bir söz idi. O deyirdi: "Bu ifadə latın dilinə tərcümə edilərkən, fərdiləşdirilmiş təzahür üçün olduqca mücərrəd yunan sözü daha konkret söz olan persona oldu və fərqli və özünəməxsus şəxsiyyətin məna çalarları orijinal yunan sözlərində nəzərdə tutulmayan bir şəkildə təklif edildi.[34] Lakin, bu konkret latın sözü əvvəllər Tertullianın istifadə etdiyi bir söz idi. Digər bir alim hipostazın persona kimi tərcümə edildiyi zaman iki sözün, əsasən, ekvivalent olduğunu, hər iki sözün "fərdi varlıq" mənasını verdiyini söylədi.[35]

Tertullianın zamanında bir çox insanın onun yeni ifadəsinə qarşı çıxdığı açıq-aydın görünür. Onun dövründə iman gətirənlərin əksəriyyəti onun doktrinasını iki əsasa görə rədd etdilər: Onların iman qaydaları (erkən inanc və ya etiqad ifadəsi) politeizmi qadağan etdi və onun doktrinası Tanrının birliyini böldü.[36] Erkən dövrün modalist möminləri Noetus və Prakseas haqqında biliklərimiz

Tertulliana qarşı güclü müxalifət və onlara qarşı Tertullianın güclü müxalifətindən qaynaqlanır. Tertullian Allahın yalnız üç rolu, maskası və ya təzahürü olduğunu ifadə etsəydi, Tertullian əbədi üçlüyə inanmadığı üçün modalizmlə qarşıdurma olmazdı. Buna görə, Nossun dediyi kimi, Tertullianın Tanrıda üç vacib fərqi nəzərdə tutduğu və personanın fərqli bir şəxsiyyəti bildirdiyi və ya ifadə etdiyi qənaətinə gəlirik. Hər halda, aydındır ki, Tertullianın günlərində yaşamış modalistlər onun doktrinasını dövrün əksəriyyətinin etiqad etdiyi özlərinin doktrinasına kəskin şəkildə əks olduğunu gördülər. Burada Tertullian haqqında yekun bir qeyd var. Dünyanın sonundan qabaq sonuncu peyğəmbər olduğunu iddia edən və institusional kilsənin dönük (kafir) hesab etdiyi Montanusun davamçısı oldu. Tertullian, nəhayət, subaylığı tərifləməyə və nigahı qınamağa başladı. Sonda, digər Montanistlərlə birlikdə kilsədən uzaqlaşdırıldı.

## Digər Erkən Trinitaristlər

Tertullian trinitarizmin terminologiyasını təqdim etdi və bunun Qərbdə ilk böyük tərəfdarı oldu, Origen (254-cü ildə vəfat etdi) isə Şərqdə ilk böyük tərəfdarı oldu.[37] Origen yunan fəlsəfəsini və xristianlığı tarixçilərin tez-tez xristian qnostisizmi kimi təsvir etdikləri ali biliklər sistemində birləşdirdi. O, yunan Loqos doktrinasını (yəni Loqosun Atadan fərqli bir şəxs olduğunu) qəbul etdi, lakin o zamana qədər təklif olunmamış nadir bir xüsusiyyət əlavə etdi. Bu əbədi Oğulun doktrinası idi. O öyrədirdi ki,

Oğul və ya Loqos bütün əbədiyyətdən fərqli bir şəxsdir. Bundan əlavə, o, Oğulun əbədiyyətdə və əbədi olaraq doğulduğunu söyləyirdi. O, mövcudluqda və ya başlanğıcda Oğulun Ataya tabe olması fikrini qoruyub saxlayırdı, lakin həm-bərabərlik doktrinasına daha çox yaxınlaşırdı.

Yunan fəlsəfəsindən gələn doktrinaları qəbul etməsi, imandan çox mistik biliyə vurğu etməsi və Müqəddəs yazıları həddən artıq alleqorik formada şərh etməsi səbəbindən Origen bir çox dönük inanclara malik idi. Məsələn, insanların qəlblərinin əvvəlcədən mövcudluğuna inanırdı, Məsihin satınalma (xilas) işinin zəruriliyini inkar edirdi və pislərin, o cümlədən şeytanın son qurtuluşuna inanırdı. Bu və digər dönük təlimlərə görə, o, kilsədən xaric edildi. Kilsə məclisləri 543 və 553-cü illərdə onun bir çox doktrinalarını rəsmi olaraq möhkəm tənqid etdilər (lənətlədilər).

Erkən kilsə tarixindəki digər görkəmli trinitaristlər Hippolit (Hippolytus) və Novatian idilər. Hippolit Sabelliusun trinitar opponenti idi. O, Roma yepiskopu olan Kallistə (Callistus) qarşı çıxdı və ona qarşı təfriqəçi bir qrupa rəhbərlik etdi. Buna baxmayaraq, Katolik Kilsəsi daha sonra onu müqəddəsləşdirdi. Novatian Müqəddəs Ruhu üçüncü bir şəxs kimi qeyd edənlərdən birincisi idi. O, Oğulun Ataya tabe olmasını öyrədirdi və deyirdi ki, Oğul fərqli bir şəxsdir, ancaq bir başlanğıcı var və Atadan gəlmişdir. Roma yepiskopu olan Kornelius, imana gəldikdən sonra bir sıra ciddi günahların

bağışlanmayacağına inandığı üçün Novatianı kilsədən xaric etdi.

## Nikeya Şurası

Üçüncü əsrin sonlarında trinitarizm məsihçi dünyasının əksəriyyəti tərəfindən qəbul edilmiş inanc kimi modalizmi əvəz etdi, baxmayaraq ki, trinitarizmin erkən baxışları müasir doktrina şəklində hələ mövcud deyildi. Dördüncü əsrin əvvəllərində Tanrıçılıq haqda böyük bir mübahisə pik bir nöqtəyə çatdı - Atanasius və Ariusun təlimləri arasında toqquşma yer aldı. Arius, Tanrının vahidliyini qorumaq və eyni zamanda loqosun müstəqil şəxsiyyət olduğu barədə fikir yürütmək istəyirdi. Trinitaristlər kimi, o, Loqosu Oğul və Məsihlə bərabərləşdirdi. O, Məsihin yaradılan bir varlıq olduğunu - İlahi bir varlıq olduğunu, ancaq Ata kimi eyni mahiyyətdə olmadığını və Ata ilə həm-bərabər olmadığını öyrədirdi.

Başqa sözlə, Məsih onun üçün yarıilahi idi.

Əslində Arius politeizmin yeni bir formasını öyrədirdi. Arius, şübhəsiz ki, vahidlik konsepsiyasına inanmırdı və buna görə də müasir vahidlik hərəkatı Arianizmin hər hansı bir formasını qətiyyətlə rədd edir.

Ariusa qarşı olan Atanasius, Oğulun Ataya həm-bərabər, həm-əbədi və bərabər mahiyyətli olduğu mövqeyini qəbul etdi. Bu, indi müasir trinitaristlərin baxışıdır. Buna görə Tertullian məsihçi dünyasına bir çox trinitar anlayış və terminlər təqdim edərkən, Atanasius müasir trinitarizmin əsl atası hesab edilə bilər.

Arius-Atanasius ixtilafı Roma İmperiyası boyunca yayılmağa başlayanda İmperator Konstantin müdaxilə etmək qərarına gəldi. O, yenicə məsihçiliyi qəbul edib, onu üstün bir dinə çevirəndən sonra imperiyanın rifahı naminə məsihçi dünyasının birliyini qorumaq zərurətini hiss etdi. Ənənəyə görə onun məsihçiliyə dönüşü həlledici döyüşdən əvvəl gördüyü bir görüntü nəticəsində baş vermişdi. Güman ki, göydə "Bu əlamətlə fəth et" mesajı ilə bir çarmıx gördü. O, döyüşdə qalib gəlməkdə davam etdi və eramızın 312-ci ildə imperator oldu, eramızın 324-cü ildə isə yeganə imperator oldu. Arius-Atanasius ixtilafı onun yenicə qalib gəlmiş imperiyasını bölüşdürmək və siyasi hakimiyyətin möhkəmləndirilməsi və saxlanılmasında Məsihçilikdən istifadə planını məhv etməklə təhdid etdiyi zaman kilsənin ilk ekumenik məclisini çağırdı. Bu məclis eramızın 325-ci ilində Nikeyada baş tutdu. Konstantin heç də Məsihçiliyin nümunəsi deyildi. 326-cı ildə oğlunu, qardaşı oğlunu və arvadını öldürdü. Həyatında bütün günahlardan təmizlənəcəyinə dair nəzəriyyəyə görə, ölümə bir az qalmış müddətə qədər vəftizi təxirə saldı. Durant onun haqqında demişdir: "Məsihçilik onun üçün bir vasitə idi, ancaq son deyildi. . . . Məsihçilik dünyanı dəyişdirərkən, dünya məsihçiliyi dəyişdirdi və bəşəriyyətin təbii bütpərəstliyini nümayiş etdirdi."[38]

Məsihçiliyi Roma İmperiyasının üstünlük verdiyi bir din olaraq (son nəticədə rəsmi dövlət dini halına gəldi) bərqərar etməklə Konstantin kilsəni kökündən dəyişdirdi

və bütpərəst ayinlərin və dönük doktrinaların qəbulunu sürətləndirdi. Kilsənin tarixçisi Ualter Niqqin dediyi kimi: "İmperator Konstantin şlüzları (qapıları) açdıqdan və xalq kütlələri açıq opportunizmdən dolayı kilsəyə doluşduqdan sonra məsihçi idealının ucalığına son qoyuldu"[39].
Nikeya Şurası toplandıqda, iştirakçılar razılığa gələnə qədər Konstantin heç bir konkret nəticə ilə maraqlanmadı. Bu baş verdikdən sonra Konstantin nəticədən öz hakimiyyəti üçün istifadə etdi.
Dini suallara yalnız siyasi nöqteyi-nəzərdən yanaşan Konstantin, imanın yeni qaydalarını imzalamayan bütün yepiskopları qovaraq, yekdilliyi təmin etdi. Bu yolla yekdillik əldə edildi. Ümumiyyətlə, eşidilməmişdi ki, ümumdünya bir etiqad toplusu yalnız imperatorun səlahiyyəti ilə qurulmalıdır. . . . Heç bir yepiskop bu dəhşətli şeyə qarşı bir söz demədi.[40]
Heyk (Heick) Nikeyadakı iştirakçıları üç qrupa ayırdı: azlıqda qalan Arianlar, azlıqda qalan Atanasyanlar və qarşıdurmanı anlamayan, amma sülh istəyən çoxluq.[41] Şura, nəhayət, Arianizmi açıq şəkildə rədd edən bir etiqad toplusu qəbul etdi, amma müsbət trinitar təlimə az yer verdi. Açar sözdə Məsihin Ata kimi eyni mahiyyətdə olduğu (yunanca: homoousios), amma mahiyyətə bənzər (homoiousios) olmadığı ifadə edildi. Maraqlısı budur ki, modalistlər İsanın Ata ilə kimliyini ifadə etmək üçün əvvəlcə seçilmiş bu sözdən (homoousios) istifadə etdilər. Sonuncu terminin (homoiousios) istifadəsini uğursuzcasına müdafiə edənlərin çoxu İsanın əslində

substansiyada Atadan fərqli olduğunu demək istəmədilər, əksinə, birinci terminin modalist təsirindən yayınmaq istədilər. Beləliklə, nəticə etibarı ilə ortaya çıxan etiqad toplusu Arianizmin açıq bir şəkildə rədd edilməsi idi, lakin modalizmi (və ya bu gün vahidlik konsepsiyası barədə fikri) açıq şəkildə rədd etmədi.Nikeya Şurası tərəfindən Tanrıçılığa münasibətdə tərtib edilmiş orijinal doktrinal bəyanat aşağıdakı kimidir:

Görünən və görünməyən hər şeyin yaradıcısı olan Qüdrətli Ata olan vahid Tanrıya, və bir Rəbb İsa Məsihə, Tanrıdan doğulmuş, yeganə doğulmuş, yəni Atanın təbiətindən olan Tanrının Oğluna inanırıq. Tanrının Tanrısı, Nurun Nuru, əsl Tanrının əsl Tanrısı, doğulmuş, yaradılmamış, Ata ilə eyni substansiyada olandır, göydə və yer üzündə hər şey Onun vasitəsilə yaradıldı; biz insanlar üçün və qurtuluşumuz üçün aşağı endi və bədəndə gələrək insanın təbiətini kəsb etdi, əziyyət çəkib üçüncü gün ölülərdən dirildi, göyə qalxdı və diriləri və ölüləri mühakimə etmək üçün yenidən qayıdacaqdır. Və Müqəddəs Ruha inanırıq. Lakin müqəddəs və həvari kilsəsi müəyyən bir zaman içində onun mövcud olmadığını və onun mövcud olmayan şeylərdən, ya da başqa bir şəxsdən və ya varlıqdan yaradıldığını deyən, Tanrının Oğlunun dəyişə bilən və ya dəyişkən olduğunu söyləyənləri sərt tənqid edir (lənətləyir).[42]

Bu etiqad toplusunda üçlüyün açıq-aşkar bir ifadəsi yoxdur, lakin Arianizmə əks olaraq İsanın Ata ilə bir substansiyada olduğunu təsdiqləyir. Tanrıçılıqda fərqli bir

şəxs kimi Müqəddəs Ruha istinad yoxdur, ancaq sadəcə Müqəddəs Ruha inamı ifadə edir. Bu orijinal Nikeya bəyanatı Ata ilə Oğul arasındakı şəxsi fərqi göstərir və Oğulun dəyişə bilmədiyini və dəyişdirilə bilmədiyini bildirir. Bu son ifadə, Oğulun bibliya doktrinasından uzaqlaşması deməkdir və əbədi Oğul barədə təlim verən müasir trinitarizm dəstəkləyir. Əsasən, o zaman Nikeya Şurasının üç mislə bərabər bir əhəmiyyəti var idi: bu Arianizmin rədd edilməsidir; bu, modalizmə (və ya vahidliyə) tam uyğun olmayan ilk rəsmi bəyanatdır; və bu, trinitarizmi dəstəkləyən ilk rəsmi bəyanatdır.

**Nikeyadan sonra**

Ancaq Nikeyanın trinitar qələbəsi tam deyildi. Növbəti altmış il arianlarla atanasianlar arasında gözə çarpan bir döyüş idi. Ansiranın yepiskopu olan Marsellus kimi məclisdəki bəzi iştirakçılar hətta Sabellianizmin lehinə çıxdılar.[43] Arius Konstantinə barışıq məktubu göndərdi və bu onun tərəfindən diskussiyanın yenidən canlanmasına səbəb oldu. Tirdə 335-ci ildə keçirilmiş bir məclisdə əslində Arianizmin xeyrinə Nikeya doktrinası dəyişdirildi.
Atanasius sürgün edildi, Arius isə bu hadisədən əvvəlki gecə ölməsəydi, yepiskop kimi işinə bərpa ediləcəkdi.[44]
Bu dövrdə Atanasius beş-altı dəfə qovuldu. Münaqişənin çox hissəsi siyasi vəziyyətlə bağlı idi. Məsələn, Konstantinin oğlu Konstantius hakimiyyətə gəldikdə, Arianlara dəstək verdi, Atanasian yepiskoplarının əvəzinə

Arianları təyin etdi. İxtilaf şiddətli siyasi çəkişmələrə və çoxlu qan tökülməsinə səbəb oldu.
Professor Heyk (Heick), Atanasianismin yekun müvəffəqiyyətini Atanasiusun özünün dilavərliyi və əzmkarlığı ilə əlaqələndirdi: “Qələbədə həlledici amil. . . Atanasiusun həyatında uzun sürən təqib və zülm dövründə dəyişməz bir qətiyyət idi."[45] Lakin İmperator Teodosius tərəfindən çağırılan və 381-ci ildə Konstantinopolda baş tutan ikinci ekumen şurasına qədər bu məsələ həll edilməmişdi. Atanasiusun ölümündən sonra keçirilən bu məclis (şura), Nikeya bəyanatını (etiqad toplusunu) təsdiq etdi. Bu şurada Nikeyadan sonra gərginliyə səbəb olan başqa bir böyük məsələ, yəni Müqəddəs Ruhun Tanrı ilə əlaqəsi məsələsi həll edildi. Müqəddəs Ruh Tanrıçılıqda fərqli bir şəxs idi ya yox? Bir çoxları Ruhun bir enerji, bir məxluq və ya bir mələk varlığı olduğunu düşünürdülər. Şura Müqəddəs Ruhun Ata və Oğul kimi fərqli bir şəxs olduğunu öyrətmək üçün orijinal Nikeya bəyanatına (etiqad toplusuna) təlimlər əlavə etdi.
381-ci ildə Konstantinopol Şurasında üçlüyün müasir doktrinası daimi qələbə qazandı. Bu məclis birmənalı şəkildə bildirmişdi ki, Ata, Oğul və Müqəddəs Ruh Tanrının üç fərqli, həm-bərabər, həm-əbədi və eyni zamanda vacib şəxsləridir. Nikeyada keçirilmiş 381-ci ildəki məclisdə yenidən işlənmiş etiqad toplusu təsdiq edildi. Təxminən 500-cü ildəki[46] Nikeya etiqad toplusunun hazırkı forması, yəqin ki, buna görə də orijinal Nikeya etiqad toplusu ilə müqayisədə daha güclü şəkildə trinitar təmayüllüdür.

Atanasianizm üçün başqa bir böyük təhlükə var idi. Roma imperiyası barbarların hücumları nəticəsində parçalanmağa başlamışdı və yüksəlişdə olan barbar qəbilələri Arianlar idi. Güman ki, arianizm barbar fəthləri nəticəsində qalib mövqe tuta bilərdi.
Lakin bu təhlükə, nəhayət, Franklar 496-cı ildə Atanasianlığı qəbul etdiyi zaman sona çatdı.
Bu müddət ərzində başqa bir vacib etiqad toplusu meydana gəldi - Atanasian etiqad toplusu. Bu heç də Atanasiusun özündən ortaya çıxmadı. Çox güman ki, bu, Avqustinin (354-430-cü illər) trinitar doktrinasının təsiri altına düşmüşdü, çünki onun dövründə və ya ondan sonrakı dövrdə inkişaf etmişdi. Bu etiqad toplusu qədim kilsə tarixindəki trinitarizmin ən geniş ifadəsidir. Məsihçilik dünyasının yalnız qərb hissəsi rəsmi olaraq bu etiqadı tanıyır. Üçlük doktrinası üzrə Şərqlə Qərb arasındakı fərqin əsas məqamları aşağıdakılar idi. Birincisi, Şərqdə Tanrının üçlüyünə aksent etmək təmayülü var idi. Məsələn, Kapadokyalılar üçün üç şəxsin necə bir ola biləcəyi böyük sirr idi. Qərbdə Tanrının birliyinə bir az daha çox diqqət yetirilirdi. İkincisi, Qərb Ruhun Atadan və Oğuldan (filiokve (filioque) doktrinası)) hərəkət etdiyinə, Şərq isə Ruhun yalnız Atadan qaynaqlandığına inanırdı. Bu nəticə etibarilə 1054-cü ildə Roma Katolik kilsəsi və Şərq Ortodoks kilsəsi arasındakı parçalanmaya səbəb olan əsas bir doktrinal məsələyə çevrildi.

## Atanasian Etiqad toplusu

Üçlük doktrinası haqqında oxucuya daha dolğun bir fikir vermək üçün, Atanasian etiqad toplusunun bir hissəsi aşağıda verilmişdir:

Kimlər xilas olacaq: hər şeydən əvvəl katolik inancına sahib olmaq lazımdır.

Hər kəs bu imanı bütöv və qüsursuz saxlamalıdır: əks halda onlar, şübhəsiz ki, əbədi olaraq yox olacaqlar. Katolik inancı budur: Biz üçlükdə bir Tanrıya və Birlik formasında olan Üçlüyə ibadət edirik. Nə şəxsləri qarışıq salır, nə də substansiyanı bölürük. Çünki Atanın bir Şəxsi var, Oğulun bir başqa, Müqəddəs Ruhun isə bir başqa. Ancaq Atanın, Oğulun və Müqəddəs Ruhun Tanrıçılığı birdir: İzzəti həm-bərabərdir, Cəlalı həm-əbədidir. Ata da, Oğul da, Müqəddəs Ruh da belədir: Ata yaradılmayıb, Oğul yaradılmayıb və Müqəddəs Ruh yaradılmayıb. Ata dərkedilməzdir, Oğul dərkedilməzdir, Müqəddəs Ruh dərkedilməzdir. Ata əbədidir, Oğul əbədidir və Müqəddəs Ruh əbədidir. Amma bunlar üç əbəd deyil, bir Əbədidir. Eləcə də üçü dərkedilməz olduğu kimi, üçü də yaradılmayandır: amma Bir yaradılmayan və Bir dərkedilməz var. Eynilə Ata da Qüdrətlidir, Oğul da Qüdrətlidir, Müqəddəs Ruh da Qüdrətlidir. Onlar üç Qüdrətlilər deyil, ancaq Bir Qüdrətlidir. Beləliklə, Ata Tanrıdır, Oğul Tanrıdır və Müqəddəs Ruh Tanrıdır. Onlar üç tanrı deyil, lakin vahid bir Tanrıdır. Eynilə Ata Rəbbdir, Oğul Rəbbdir, Müqəddəs Ruh Rəbbdir. Amma üç Rəbb yox, yalnız bir Rəbb var. Çünki biz məsihçi həqiqətinə

uyğun olaraq hər bir şəxsin Tanrı və Rəbb olduğunu tanımalıyıq: Katolik dinində üç tanrı ya da üç rəbbin olduğunu demək qadağan edilmişdir. Ata heç kimdən yaranmayıb: nə yaradılıb, nə də doğulub. Oğul yalnız Atadan gəldi, yaranmayıb və yaradılmayıb, amma doğulub. Müqəddəs Ruh Atadan və Oğuldan gəlir, nə yaradılıb, nə də doğulub, ancaq hərəkətdədir. Beləliklə, bir Ata var, üç Ata yox, bir Oğul var, üç Oğul yox və bir Müqəddəs Ruh var, üç Müqəddəs Ruh yox. Və bu Üçlükdə biri o birindən əvvəl və ya sonra deyildir: heç biri digərindən daha böyük və daha kiçik deyil. Ancaq bütün üç şəxs birlikdə həm-əbədi və həm-bərabərdirlər. Yuxarıda qeyd olunduğu kimi, hər şeydə Üçlük Birliyi və Birlikdəki Üçlük ibadət edilməlidir. Buna görə xilas olacaq şəxs Üçlük haqqında düşünməlidir.[47]

**Həvarilərin etiqad toplusu**

Bu fəsli bağlamazdan əvvəl, Həvarilərin etiqad toplusu ilə bağlı suallara cavab verməliyik. Bu, həvarilərdən yaranmışdırmı? Bu, trinitarizmi öyrədirmi? Hər iki suala verilən cavab xeyirdir. Bu etiqad toplusu başlanğıcını Roma kilsəsində istifadə edilən daha qədim bir iman etiqadından götürür. By Qədim Roma Simvolu (və ya Etiqadı) adlanırdı. Müxtəlif alimlər Qədim Roma Simvolunu eramızın 100-cü ilindən 200-cü ilinədək olan dövrə aid edirlər.
Orada deyilir:

Mən Qüdrətli Ata olan Tanrıya, Onun yeganə Oğlu, Rəbbimiz olan İsa Məsihə inanıram; O, bakirə Məryəmdən Müqəddəs Ruh tərəfindən dünyaya gəldi; Ponti Pilatın rəhbərliyi altında çarmıxa çəkilib, dəfn olundu; Üçüncü gün O, ölülərdən dirildi; O, göyə qalxdı; Atanın sağında oturur; Oradan da diriləri və ölüləri mühakimə etmək üçün gələcək. Müqəddəs Ruha; Günahların bağışlanmasına; Bədənin (cismin) dirilməsinə inanıram.[48]

Bu etiqad yeni doktrinal problemləri həll etmək üçün, beşinci əsrin sonuna yaxın mövcud formasını kəsb etməmiş yenidən işlənmişdir. Ən vacib dəyişikliklər aşağıdakıları təsdiqləyən əlavələr idi: Tanrı göyü və yeri yaradandır; İsa Müqəddəs Ruh tərəfindən bətnə düşdü; İsa əziyyət çəkdi və öldü; İsa cəhənnəmə (qəbirə) endi; müqəddəs katolik (ümumi) kilsəyə inam; müqəddəslərin birliyinə inam; və əbədi həyata inam.[48]

Orijinal və sonrakı versiyalar haqqında iki vacib məsələ var. Birincisi, heç birinin on iki həvari ilə birbaşa tarixi əlaqəsi yoxdur. Buna görə verilmiş versiyalar həvarilərin dövründən sonrakı ilk bir neçə əsrdən bəri yazılmış yazılardan daha müqəddəs və etibarlı deyildir. İkincisi, bunlar trinitar doktrinanı öyrətmir. Əksəriyyətinin dili bibiliyanın dilinə çox yaxındır. Onlar Tanrının Oğlunu yalnız inkarnasiya baxımından təsvir edirlər, heç bir yerdə Oğulun Tanrıçılıqda fərqli bir şəxs olduğuna və ya Oğulun əbədi olduğuna işarə etmirlər. Onlar Müqəddəs Ruha Tanrıçılıqda fərqli bir şəxs kimi deyil, ancaq Ona inandıqlarını təsdiqləyirlər. Bu təsdiq və xilasla əlaqəli

digər bəyanatlar bir götürülür, bu da bizə inanmağa əsas verir ki, onlar Müqəddəs Ruhun ənamı və ya vəftizindən və Müqəddəs Ruhun kilsədəki işlərindən bəhs edirlər. Beləliklə, terminləri Müqəddəs Kitabın istifadə etdiyi şəkildə müəyyənləşdirsək, dilin ifadə tərzində əsla etiraz ediləcək bir şey yoxdur.

Bununla birlikdə, trinitaristlər Həvarilərin Etiqad toplusunu yenidən şərh edərək bunun onların doktrinasını dəstəklədiyini iddia etdilər. Roma katolikləri və protestantları bu gün də trinitar inanclarını elan etmək üçün bundan istifadə edirlər. Bunu trinitarizmlə o dərəcədə əlaqələndirdilər ki, qeyri-trinitaristlər, ümumiyyətlə, səhv başa düşülmək qorxusundan irəli gələrək bundan istifadə etmirlər.

Aşağıdakı səbəblərə görə Həvarilərin etiqad toplusundan istifadəni müdafiə etmirik. (1) Adından göründüyü kimi, bu etiqad toplusu həvarilərdən başlanmamışdı. Bu başlıqdan istifadə etməklə insanlar arasında yanlış təəssürat yaratmaq istəmirik. (2) Əhdi-cədidin bütün vacib mövzularını, xüsusilə əsrlər boyu inkişaf etmiş saxta təlimlərin fonunda bu gün vurğulanılası vacib olan bəzi məqamları mütləq şəkildə vurğulamır. (3) Qəbulu vacib olan doktrinanı hərtərəfli ifadə edən bir etiqad sistemini formalaşdırmağa çalışmaq əvəzinə, biz doktrinanın xülasə şəklində ifadəsi üçün bibliyadan istifadə etməyə üstünlük veririk. (4) Bu etiqad toplusundan istifadə bu gün bizi trinitarizm ilə əlaqələndirə bilər. Yazarlar bu doktrinanı nəzərdə tutmasalar da, bu gün adi insanların böyük

əksəriyyəti bunu trinitar bir bəyanat hesab edəcəklər. Trinitarizm və Roma Katolikliyi ilə eyniləşməkdən yayınmaq üçün Həvarilərin Etiqad Toplusundan istifadə etmirik.

## Nəticə

Yekunda üçlük doktrinasının həm terminologiya, həm də tarixi mənşə baxımından bibliyaya uyğun olmadığına inanırıq. Bunun politeizm, bütpərəst din və bütpərəst fəlsəfədə kökləri vardır. Doktrina özü üçüncü əsrə qədər kilsə tarixində mövcud deyildi. Hələ o dövrdə, erkən trinitaristlər Ata və Oğulun həm-bərabərliyi və həm-əbədiliyi kimi indiki trinitarizmin bir çox təməl təlimlərini qəbul etmədilər. Trinitarizm təqribən 300-cü ilə qədər vahidlik inancı üzərində üstünlük əldə edə bilmədi. 300-cü illərin sonlarına qədər bu, Arianizm üzərində qələbə qazana bilmədi.

Trinitar doktrinaların ilk rəsmi tanınması 325-ci ildə Nikeya Şurasında baş verdi, lakin bu da natamam idi. Doktrinanın tam bərqərar olması 381-ci ildə Konstantinopol Şurasına qədər baş verməmişdi. Qısacası, dördüncü əsrin sonlarına qədər trinitarizm indiki formasına nail olmamışdı və bunun müəyyən etiqadları V əsrə qədər son şəklini almamışdı.

* * * * *

Daha geniş sənədləşmə, müzakirə və ilkin mənbələrin təhlili üçün David K. Bernardın müəllifi olduğu Vahidlik və Üçlük: Eramızın 100-300-cü illərində (Hazelwood, Mo.: Word Aflame Press nəşriyyatı, 1991) və David K.Bernardın müəllifi olduğu 4-cü əsrdə Trinitar İxtilaf (Hazelwood, Mo.: Word Aflame Press nəşriyyatı, 1993) əsələrinə baxın.

**YEKUN QEYDLƏR**
**11-ci FƏSİL**

[1]"Üçlük, Müqəddəs," 295.

[2]Van Harvey, *Teoloji terminlər məlumat kitabçası* (Nyu-York: MacMillan, 1964), 244.

[3]*Yenə orada.;* Uilliam Stevens, *Məsihçi dininin doktrinaları* (Nəşvil: Broadman, 1967), 119.

[4]Harvey, 245.

[5]Heyk 1:160; "Üçlük," 459-60.

[6]"Üçlük," 460.

[7]Bloeş 1:35.

[8]Heyk 1:160; Stevens, 119; "Üçlük, Müqəddəs," 295.

[9]Harvey, 246. Həmçinin baxın "Üçlük," 460.

[10]Stevens, 119.

[11]*Vebsterin lüğəti,* 1686.

[12]Heyk 1:161.

[13]Harvey, 182.

[14]Finis Deyk, *Deykin bibliya üzrə Annotasiyalı məlumat kitabı* (Lorensvil, Ga.: Dake's Bible Sales, 1963) NT: 280. Orijinalda Aksent.

[15]Cimmi Svaqqart, "İsa Yalnız" doktrinasının səhvi," *İvangelist (Müjdəçi),* aprel 1981, 6. Orijinalda Aksent.

[16]Karl Brumbak, *Tanrı üç Şəxsdə* (Kleveland, Tenn.: Pathway Press, 1959), 60-63.

[17]Heyk 1:127.

[18]Heyk 1:117-18.

[19]"Üçlük, Müqəddəs," 295-305.

[20]Emil Brunner, *Tanrının Məsihçi Doktrinası* (Filadelfia: Westminster Press, 1949), 236-39.

[21]"Üçlük, Müqəddəs," 295-305.

[22]Aleksander Hislop, İki Babilistan*,* 2-ci nəşri. (Neptun şəhəri, N.J.: Loizeaux Bros., 1959), 16-19.

[23]Uill və Ariel Durant, *Sivilizasiyanın Hekayəsi* (Nyu-York: Simon & Schuster, 1935) 1:201.

[24]"Üçlük," 458.

[25]Con Noss, İnsanın Dinləri*,* 5-ci nəşri. (Nyu- York: MacMillan, 1969), 202.

[26]*Yenə orada.,* 163.

[27]Hislop, 18.

[28]Noss, 268.

[29]"Üçlük," 458.

[30]Hayk 1:107-10.

[31]"Üçlük, Müqəddəs," 295-305.

[32]Hayk 1:123-29.

[33]Harvey, 181-82.

[34]Noss, 453.

[35]Harvey, 123.

[36]Tertullian, *Prakseasa qarşı,* 3.

[37]Hayk 1:112-23.

[38]Durant, 3 (1944): 653-64.

[39]Niqq, 102.

[40]*Yenə orada.,* 126-27.

[41]Heyk 1:156.

[42]Reinhold Seeburq, *Doktrinalar Tarixi Dərsliyi,* trans. Çarlz Hay (Qrand Rapids: Baker, 1954) 1:216-17.

[43]Klotşe, 67.

[44]Roland Bainton, *Erkən Məsihçilik* (Prinston, N.J.: Van Nostrand, 1960), 68-70.

[45]Hayk 1:157.

[46]*Yenə orada.* 1:163.

[47]Anna Fremantla baxın, nəşr, *Erkən Məsihçiliyin Xəzinəsi* (Nyu-York: Mentor Books, 1953); Seeburq 1:240-43. [48]Hayk 1:88. Tim Douleyə baxın, et al., eds., *Kilsənin tarixinə Eerdmanın məlumat kitabçası* (Qrand Rapids: Eerdmans, 1977), 145

# 12 TRİNİTARİZM: QIYMƏTLƏNDIRMƏ

Sonuncu fəsildə üçlük doktrinası və tarixi inkişafının faktiki tərəfi haqqında düzgün bir təqdimat verməyə çalışdıq. Doktrinaya aid bəzi problemləri də müzakirə etdik. Biz belə bir yekun fikrə gəldik ki, Trinitarizm bibliyadan kənar terminlərdən istifadə edir və bu təlim dördüncü əsrdə indiki vəziyyətinə və üstünlüyünə nail olmuşdur.Buna baxmayaraq, kimsə trinitarizmin ən azı bibliyaya uyğun olub olmadığını soruşa bilər. Bu fəsildə biz təsdiq edirik ki, üçlük doktrinası vahid Tanrı barədə bibliya doktrinası ilə ziddiyyət təşkil edir.

## Bibliyadan olmayan terminologiya

11-ci fəsildə müzakirə edildiyi kimi, trinitarizm terminologiyası bibliyadan deyildir. Bibliyada üçlük kəlməsi yoxdur və Tanrıya münasibətdə şəxslər kəlməsi qeyd edilmir. Bibliyada şəxs və üç sözləri heç bir mənada Tanrı ilə əlaqələndirilmir.Bibliyadan olmayan terminologiya özü-özlüyündə təsvir etdiyi bir doktrinanın mütləq saxta olması mənasını vermir, lakin bu, nəzərə çarpacaq dərəcədə şübhə yaradır. Bibliyadan olmayan termologiya bibliya termologiyasını əvəz edirsə və yeni anlayışlar öyrədirsə, yuxarıdakı fikir doğru səslənər. Bir sözlə, bibliyadan olmayan terminologiya, bibliyaya əsaslanmayan düşüncə tərzinə və nəticədə doktrinalara səbəb olarsa, bu təhlükəlidir. Trinitarizmdə şübhəsiz ki, bu problem var.

## Şəxs və şəxslər

Bir şəxs olaraq Tanrıdan danışmaq Onun üçün heç də doğru deyildir. Şəxs sözü bir insan haqqında təsəvvür yaradır və onun şəxsiyyəti, bədəni, qəlbi və ruhu olduğu barədə anlayış verir. Beləliklə, Tanrını bir şəxs kimi təsvir etsək, Onun haqqında təsəvvürümüzü, anlayışımızı məhdudlaşdırırıq. Bu səbəbdən, bu kitabda Tanrıçılıqda bir şəxsin olduğu və ya Tanrının bir şəxs olduğu qeyd edilməmişdir. Ən çox dediyimiz odur ki, İsa Məsih bir şəxsdir, çünki İsa bir insan kimi bədəndə təzahür etmiş Tanrı idi.

Şəxslərin cəmi formasında Tanrıdan danışmaq Tanrı barədə bibliya anlayışını daha da pozur. Qədim kilsə tarixində şəxslərin nəyi nəzərdə tutmağınızdan asılı olmayaraq, bu gün həmin söz mütləq mənada şəxslərin, şəxsiyyətlərin, düşüncələrin, iradələrin və cisimlərin çoxluğunu ifadə edir. Hətta qədim kilsə tarixində də, bzi göstərmişik k, imanlıların böyük əksəriyyəti bunu bibliyadakı monoteizmdən uzaqlaşma kimi görürdülər.

## Üç

Tanrıya münasibətdə üç rəqəminin istifadəsi də təhlükəlidir. Bu rəqəm Tanrıda əbədi fərqliliklər müəyyən etmək üçün istifadə edilərsə, bu, politeizmin bir forması olan triteizmə aparır, lakin Tanrının yeganə təzahürlərini və ya rollarını müəyyən etmək üçün istifadə olunursa, bu, Tanrının fəaliyyətini bibliyada göstərilməmiş bir şəkildə məhdudlaşdırır. Tanrı Özünü çoxsaylı şəkildə göstərdi və bunları hətta üçə qədər də məhdudlaşdıra bilmərik. (6-cə fəslə baxın.) Üç rəqəminin istifadəsi hər iki əhdin vahid Tanrı barədə ifadə etdiyi açıq fikrə ziddir.

## Triteizm

Trinitaristlərin etirazlarına baxmayaraq, onların doktrinası qaçılmaz olaraq triteizmin praktik formasına gətirib çıxarır. (11-ci fəslə baxın.) Yəhudilər və müsəlmanlar bunu başa düşürlər, bu səbəbdən də ənənəvi məsihçi dünyasını bu qədər qətiyyətlə rədd ediblər. Tarix boyu bir çox məsihçilər də bu problemi görüblər. Nəticədə, bəziləri

vahidlik inancının lehinə trinitarizmi rədd etdilər (10-cu fəslə baxın). Digərləri trinitarizmin səhvlərini gördülər, lakin Tanrının birliyini qoruyub saxlamaq üçün İsa Məsihin ilahiliyini inkar etməklə daha böyük səhvə yol verdilər (məsələn, Unitaristlər və Yehova Şahidləri). Bir sözlə, trinitarizm Tanrıdakı üçlüyü vurğulayır, bibliyada isə Tanrının vahidliyi vurğulanır. (1-ci fəslə baxın).

## Sirr

Trinitaristlər, ümumiyyətlə, öz doktrinalarını bir sirr kimi təsvir edirlər. Ancaq 4-cü fəsildə müzakirə olunduğu kimi, Tanrıçılığa aid olan yeganə sirr Tanrının cismani bədəndə təzahürüdür və bu da iman gətirənlərə aşkar edilmişdir. Müqəddəs yazıdakı sirr əvvəllər bilinməyən, lakin indi aşkar edilmiş ilahi bir həqiqətdir.

Əlbəttə ki, fani düşüncələrimiz Tanrı haqqında bütün bilikləri başa düşə bilməz, ancaq bir Tanrının olduğu sadə həqiqəti başa düşə bilərik. Tanrı insan məntiqini üstələyə bilər, amma O, əsla həqiqi məntiqə zidd getmir və heç də məntiqsiz deyildir. Bibliyada özünün vahidliyini xüsusi olaraq vurğulayaraq bu məsələdə hər hansı bir çaşqınlığı və sirri aradan qaldırdı.

Bibliyada heç vaxt Tanrının aşkar edilməmiş bir sirr olduğu və ya Tanrıçılıqdakı cəm məsələsinin bir sirr olduğu söylənilmir. Əksinə, bibliyada Tanrının bir olduğu ən güclü şəkildə təsdiqlənir. Müqəddəs yazılar bizə Tanrının tamamilə bir olduğuna dair sadə və birmənalı bir mesaj verəndə nəyə görə insan tərəfindən hazırlanmış bir

doktrinanı qorumaq üçün Tanrıçılığın dərkedilməz bir sirr olması barədə izahata müraciət edirik? Bibliyada Tanrının, sirri bizə açdığı açıq şəkildə bildirdiyi zaman Tanrıçılığın sirr olduğunu söyləmək yanlışdır (4-cü fəslə baxın).

## İsa Məsihin ilahiliyi

Trinitarizm Məsihin ilahiliyini təsdiqləyir. Bununla belə, bu, bibliyada təsvir olunan Məsihin ilahiliyinin tamlığından (dolğunluğundan) diqqəti yayındırır. Praktik bir məsələ olaraq, trinitarizm Tanrının dolğunluğunun İsada olduğunu inkar edir, çünki bu təlim İsanın Atanın və Müqəddəs Ruhun inkarnasiyası olduğunu inkar edir (11-ci fəslə baxın). Təlim İsanın adını və şəxsiyyətini kifayət qədər ucaltmır və ya bibliyanın Ona verdiyi tam tanınmanı vermir.

## Ziddiyyətlər

Əsas problem budur ki, trinitarizm bir sıra bibliya təlimlərinə və bir çox konkret ayələrə zidd olan qeyri-bibliya doktrinasıdır. Üstəlik, doktrinada bir sıra daxili ziddiyyətlər var. Ən açıq daxili ziddiyyət budur ki, yeganə Tanrının olduğu anlamda hər hansı bir mənada Tanrının üç şəxsi necə ola bilər.

Aşağıda biz trinitarizmlə əlaqəli bir sıra digər ziddiyyətləri və problemləri ortaya qoyduq. Bu siyahı tam deyil, ancaq doktrinanın bibliyadan nə qədər sapması barədə müəyyən bir ideya verir.

1. İsa Məsihin iki atası varmı? Ata Oğulun Atasıdır (1 Yəhya 1: 3), lakin Məryəmdən doğulan uşaq Müqəddəs Ruh tərəfindən bətnə düşmüşdür (Matta 1:18, 20; Luka 1:35). Həqiqi Ata kimdir? Bəzi trinitaristlər deyirlər ki, Müqəddəs Ruh bətnə düşmədə sadəcə Atanın vasitəsidir - onlar prosesi süni mayalanma ilə müqayisədə edirlər![1]
2. Neçə ruh var? Tanrı Ata Ruhdur (Yəhya 4:24), Rəbb İsa Ruhdur (2 Korinflilərə 3:17), Müqəddəs Ruh da adına görə Ruhdur. Amma bir Ruh var (1 Korinflilərə 12:13; Efeslilərə 4:4).
3. Ata və oğul bərabər şəxslərdirsə, niyə İsa Ataya dua etdi? (Matta 11:25). Tanrı Tanrıya dua edə bilərmi?
4. Eynilə, necə ola bilər ki, Oğul Ata qədər bilməsin? (Matta 24:36; Mark 13:32).
5. Eynilə, necə ola bilər ki, Oğul Atanın verdiyindən başqa heç bir gücə sahib ola bilməsin? (Yəhya 5:19, 30; 6:38).
6. Eynilə, Oğul və Atanın bərabərsizliyini göstərən Müqəddəs yazıların digər ayələri haqqında nə demək olar? (Yəhya 8:42; 14:28; 1 Korinflilərə 11: 3).
7. “Tanrı Oğul” öldü? Bibliyada Oğulun öldüyü bildirilir (Romalılara 5:10). Əgər belədirsə, Tanrı ölə bilərmi? Tanrının bir hissəsi ölə bilərmi?
8. Bibliya dünyaya gəlmiş Oğuldan bəhs edib, Oğulun başlanğıcı olduğunu açıq şəkildə göstərərkən əbədi bir Oğul necə ola bilər? (Yəhya 3:16; İbranilərə 1:5-6).
9. Əgər Oğul əbədidirsə və yaradılışda mövcud olubsa, o zaman Onun anası kim idi? Biz Oğulun qadından doğulduğunu bilirik (Qalatiyalılara 4: 4).

10. "Tanrı Oğul" yer üzündə olanda hər yerdə mövcudluğunu təhvil verdimi? Əgər belədirsə, o necə Tanrı ola bilər?
11. Əgər Oğul əbədi və dəyişməzdirsə (dəyişilməz), Oğulun hakimiyyətinin sonu necə ola bilər? (1 Korinflilərə 15: 24-28).
12. Əgər 3-11-ci suallara verilən cavablarda biz yalnız Tanrının bəşər Oğulunun bilikdə məhdud olduğunu, gücünün məhdud olduğunu və öldüyünü söyləsək, onda "Tanrı Oğul" barədə necə danışa bilərik? İki oğul var?
13. Kimə ibadət edirik və kimə dua edirik? İsa Ataya ibadət etməyi söylədi (Yəhya 4: 21-24), buna baxmayaraq Stefan İsaya dua etdi (Həvarilərin işləri 7: 59-60).
14. Tanrıçılıqda üçdən çox şəxs ola bilərmi? Əlbəttə ki, Əhdi-ətiqdə üç şəxs barədə öyrədilmir, ancaq vahidlik vurğulanır. Əhdi-cədid Əhdi-ətiqə məlumat əlavə edib üç şəxs barədə öyrədirsə, onda əlavə şəxslərin sonrakı açıqlamalarının (vəhylərinin) qarşısını nə alır? Müqəddəs yazıların bəzi ayələrini şərh etmək üçün trinitar məntiqi tətbiq etsək, biz dördüncü şəxs barədə təlim verə bilərik (Yeşaya 48:16; Koloslulara 1:3; 2:2; 1 Saloniklilərə 3:11; Yaqub 1:27). Eyni şəkildə, Müqəddəs yazıların bəzi ayələrini şərh edib daha altı şəxsin olması mənasını verə bilərik (Vəhy 3: 1; 5: 6).
15. Bir məsihçinin ürəyində üç ruh var? Ata, İsa və Ruh hamısı bir məsihçinin içində yaşayır (Yəhya 14:17, 23; Romalılara 8:9; Efeslilərə 3: 14-17). Amma yenə də bir Ruh var (1 Korinflilərə 12:13; Efeslilərə 4: 4).

16. Göydə yalnız bir taxt var (Vəhy 4:2). O taxtda kim oturur? İsanın oturduğunu bilirik (Vəhy 1:8, 18, 4:8). Ata və Müqəddəs Ruh harada oturur?
17. Əgər İsa taxtdadırsa, O necə Tanrının sağında otura bilər? (Mark 16:19). O, Tanrının sağında oturur yoxsa dayanır? (Həvarilərin işləri 7:55). Yoxsa O, Atanın qucağındadır? (Yəhya 1:18).
18. İsa Tanrıçılıqdadır, yoxsa Tanrıçılıq İsadadır? Koloslulara 2:9-da ikinci fikir söylənilir.
19. Matta 28:19 ayəsini nəzərə alaraq, nəyə görə həvarilər həm yəhudiləri, həm də başqa millətləri, hətta əvvəl vəftiz olunanları İsanın adından istifadə edərək yenidən vəftiz edirdilər? (Həvarilərin işləri 2:38; 8:16; 10:48; 19: 5; 22:16; 1 Korinflilərə 1:13).
20. İsanı ölülərdən kim diriltdi? Ata (Efeslilərə 1:20), yoxsa İsa (Yəhya 2: 19-21), yoxsa Ruh? (Romalılara 8:11).
21. Əgər Oğul və Müqəddəs Ruh Tanrıçılıqda bərabər şəxslərdirsə, niyə Müqəddəs Ruha küfr bağışlanılmaz, amma Oğula küfr etmək bağışlanar? (Luka 12:10).
22. Əgər Müqəddəs Ruh üçlüyün bərabərhüquqlu üzvüdürsə, niyə bibliyada həmişə Onun Atadan və ya İsadan göndərildiyi haqqında danışılır? (Yəhya 14:26; 15:26).
23. Elə bir şey varmı ki, Ata bilir, amma Müqəddəs Ruh bilmir? Əgər belədirsə, onda onlar necə həm-bərabər ola bilər? Məsihin ikinci gəliş gününü və saatını yalnız Ata bilir (Mark 13:32).

24. Köhnə və yeni əhdlərdəki əhdləri Üçlük bağladımı? Biz bunu Rəbbin (Yehovanın) etdiyini bilirik (Yeremya 31:31-34; İbranilərə 8:7-13). Əgər Yehova üçlükdürsə, onda yeni əhdin qüvvəyə minməsi üçün Ata, Oğul və Ruh olaraq hamısı ölməli idi (İbranilərə 9:16-17).
25. Ruh Atadan gəlirsə, Ruh Atanın da övladıdırmı (oğuludurmu)? Əgər belə deyilsə, niyə də belə olmasın?
26. Ruh Oğuldan gəlirsə, Ruh Atanın nəvəsidirmi? Əgər belə deyilsə, niyə də belə olmasın?

## Trinitarizmin qiymətləndirilməsi

Trinitarizmin bibliya doktrinası olmadığına və bir çox cəhətdən bibliyaya zidd olduğuna inanırıq. Müqəddəs yazılarda şəxslərin üçlüyü haqqında təlim verilmir. Üçlük doktrinasında Müqəddəs yazılarda istifadə olunmayan terminologiyadan istifadə olunur. Bibliyada Tanrının vahidliyi vurğulandığı halda, trinitarizmdə Tanrıçılıqdakı çoxluq barədə öyrədilir və vurğulanır. Bu təlim İsa Məsihin ilahiliyinin dolğunluğundan yayınır və Müqəddəs yazıların bir çox ayələrinə zidd gedir.
Bu məntiqli deyil. Heç kim hətta onu müdafiə edənlər də bunu rasional olaraq başa düşə və izah edə bilməz. Qısaca desək, trinitarizm Məsihçiliyə aid olmayan bir doktrinadır.

## Üçlük doktrinası Vahidliklə ziddiyyət təşkil edir

Trinitarizmin bibliyanın Tanrıçılıq təlimindən nə ilə fərqləndiyini aydın başa düşmək üçün biz bunu göstərən cədvəl hazırladıq. Sol tərəfdə Trinitarizmin əsas təlimləri

sadalanır. Sağ tərəfdə Vahidlik və ya Məsihçi monoteizmi (təkallahlığı) barədə təlimlər sadalanır. İnanırıq ki, sağ tərəfdə bibliya təlimləri əks olunur və bunlar bu kitab boyu təqdim etməyə çalışdığımız inanc sistemidir.

**Trinitarizm və Vahidlik müqayisəli formada**

| Trinitarizm | Vahidlik |
|---|---|
| 1. Bir Tanrıda üç şəxs var. Yəni Tanrının təbiətində üç əsas fərq var. Tanrı Müqəddəs Üçlükdür. | 1. Təbiətində əsaslı bölgüləri olmayan bir Tanrı var. O, şəxslərin çoxluğu deyil, amma Onun çoxlu təzahürləri, rolları, tituları, atributları və ya bəşəriyyətlə münasibətləri vardır. Üstəlik, bunlar üç ilə məhdudlaşmır. |
| 2. Ata, Oğul və Müqəddəs Ruh (və ya Müqəddəs Kabus) Tanrıçılıqda üç şəxsdir. Onlar fərqli şəxslərdir və onlar həm-bərabər, həm-əbədi və həm-vacibdirlər. Halbuki Tanrı Ata müəyyən mənada Üçlüyün başçısıdır, Oğul və Ruh müəyyən mənada Ondan hərəkət edir. | 2. Ata, Oğul və Müqəddəs Ruh (və ya Müqəddəs Kabus) vahid Tanrı üçün fərqli təyinatlardır. Tanrı Atadır. Tanrı Müqəddəs Ruhdur. Oğul bədəndə zühur edən Tanrıdır. Oğul termini həmişə inkarnasiyaya aiddir və bəşəriyyətdən ayrı olaraq heç vaxt ilahiliyə aid deyil. |

| | |
|---|---|
| 3. İsa Məsih Tanrı Oğulun inkarnasiyasıdır. İsa Ata və ya Müqəddəs Ruh deyil. | 3. İsa Məsih Tanrının Oğludur. O, Tanrının tamlığının inkarnasiyasıdır. İlahiliyində İsa Atanın və Müqəddəs Ruhun təzahürüdür |
| 4. Oğul əbədidir. Tanrı Oğul bütün əbədiyyətdən mövcuddur. Oğul əbədi olaraq Ata tərəfindən doğulub. | 4. Oğul doğulub, əbədi deyil. Tanrının Oğlu bütün əbədiyyətdən yalnız Tanrının düşüncəsində bir plan kimi mövcud idi. Tanrının Oğulu faktiki (əhəmiyyətli) bir mövcudluğa inkarnasiyada daxil olmuşdur, o zaman Oğul Tanrının Ruhu tərəfindən bətnə düşdü (doğuldu). |
| 5. Yəhyanın müjdəsinin 1-ci fəslində Kəlam (Loqos) Tanrıçılıqda ikinci şəxs, yəni Tanrı Oğuldur. | 5. Yəhyanın müjdəsi 1-ci fəsildə Kəlam (Loqos) fərqli bir şəxs deyil, ancaq Tanrının ağlı, düşüncəsi, planı, fəaliyyəti və ya Tanrının ifadəsidir. Kəlam Tanrının Oğlu kimi bədəndə ifadə edildi. |

| | |
|---|---|
| 6. İsa bədəndə zühur etmiş Tanrı Oğula verilmiş bəşər adıdır | 6. İsa (Yehova Xilaskar deməkdir) Tanrının Əhdi-cədiddə aşkar edilmiş adıdır. İsa Ata, Oğul və Müqəddəs Ruhun adıdır. |
| 7. Su vəftizi "Ata, Oğul və Müqəddəs Ruhun adı ilə" deməklə düzgün aparılır. | 7. Su vəftizi "İsanın adı ilə" deyilməklə düzgün aparılır. İsanın adı, adətən, Rəbb, Məsih titulları və ya hər ikisi ilə müşayiət olunur. |
| 8. Biz göydə Üçlüyü və ya Üçbirlik Tanrını görəcəyik. (Bir çox trinitaristlər deyirlər ki, üç bədən görəcəyik, bu da açıq triteizmdir. Digərləri isə belə bir əl yeri qoyurlar ki, biz bir bədəni olan bir Ruh varlıq görəcəyik. Əksər trinitaristər bu barədə nəyə inandıqlarını bilmir, bəziləri isə açıqca bilmədiklərini etiraf edirlər.[2]) | 8. Biz İsa Məsihi göydə görəcəyik. O, taxtda olan və görəcəyimiz tək Tanrıdır. |
| 9. Tanrıçılıq bir sirrdir. Üçlüyün görünən ziddiyyətlərinə baxmayaraq, biz Üçlüyün | 9. Tanrının vahidliyi kilsə (imanlı cəmiyyəti) üçün sirr deyil. Tanrı haqqında bilmək üçün hər şeyi başa |

| | |
|---|---|
| sirrini imanla qəbul etməliyik. | düşə bilmərik, lakin bibliyada Tanrının sayca tək olduğu və İsa Məsihin bədəndə təzahür etmiş yeganə Tanrı olduğu açıq şəkildə öyrədilir. |

**İmanlı Cəmityyətin (Kilsənin) sıravı üzvü nəyə inanır?**

Trinitarizmlə Vahidlik arasındakı ziddiyyətləri araşdırarkən soruşa bilərik: Özünü Məsihçi adlandıran sıravi bir şəxs nəyə inanır? Əlbəttə ki, məsihçi məzhəblərinin əksəriyyəti rəsmi olaraq trinitarizmi qəbul edir. Ancaq trinitarist alimlərin əksəriyyəti özlərini tritizmdən ehtiyyatla uzaqlaşdırırlar və bir çoxları demək olar ki, Vahidlik kimi səslənən terminologiyadan istifadə edirlər.

İmanlı cəmiyyətin (kilsənin) bir çox üzvləri trinitarizm doktrinasını əsla başa düşmürlər və praktik olaraq Vahidlik barədə inanca daha yaxındırlar. Bəzi suallar müsbət cavab verildiyi təqdirdə, Vahidliyə meyli və ya bunun funksional qəbul edildiyini göstərir. Bunlar aşağıdakılardır:

• Siz, adətən, birbaşa İsaya dua edirsinizmi? Siz Ataya dua edərkən, faktiki olaraq İsa haqqında düşündüyünüzü ifadə edən bir dilə keçirsinizmi (məsələn, "Rəbb", "sənin adınla" və ya "İsa" kəlmələrindən istifadə edirsinizmi)?

• Göydə yalnız bir Tanrını, yəni İsa Məsihi görəcəyinizi düşünürsünüzmü?

• Fərqli bir şəxs olaraq nadir hallarda Müqəddəs Ruha birbaşa dua etməyinizi və ya heç vaxt dua etməməyinizi söyləmək düzgündürmü?
• Üçlük doktrinası sizə çaşdırıcı və ya sirli gəlirmi?

Bu suallara verilən cavablara və buna oxşar digər cavablara əsaslanaraq, görünür ki, bibliyaya iman edənlərin əksəriyyəti olmasa da, çoxları instinktiv olaraq trinitarizm baxımından yox, Vahidlik baxımından düşünürlər. Üstəlik, bir adam Müqəddəs Ruhla vəftiz olduqda, həmin şəxs Vahidliyə inam baxımından instinktiv olaraq cavab verir.

Əksər katoliklər və protestantlar üçlük barədə yaxşı inkişaf etmiş bir konsepsiyaya malik deyillər və trinitarizmin nə öyrətdiyini ətraflı bilmirlər və bibliya ayələrini trinitarizm baxımdan izah edə bilmirlər. Bu gün bəzi trinitar Pentikost (əllinci) qruplarında trinitarizmə və trinitarizmin son dərəcə trititeist formalarına güclü aksent görürük. Bunun açıq səbəbi budur ki, onlar Vahidlik məsələsi ilə üzləşdikləri halda onu şüurlu şəkildə rədd ediblər və radikal trinitarizmə üz tutublar.

Sadə bir sual trinitar kilsə üzvünün öz inanclarını aydınlaşdırmasına kömək edəcəkdir. Sual: biz Tanrını göydə görəndə nəyi görəcəyik? Əgər o cavab versə ki, üç bədəni olan üç şəxsi görəcəyik, onda o, güclü, radikal trinitaristdir. Onun cavabı bibliyada olan güclü monoteizmi deyil, bütpərəst bir triteizmi göstərir (1-ci fəslə baxın). Əgər o cavab versə ki, bir bədəni olan bir Tanrı görəcəyik, o zaman o adam Vahidlik etiqadına

yaxındır. Bu cavabı nəzərə alaraq, görəcəyimiz şəxsin həqiqətən İsa Məsih olduğunu Vəhy kitabı nöqtəyi-nəzərindən nümayiş etdirmək asandır, çünki Tanrıçılığın bütün dolğunluğu bədəncə Onda yaşayır.

## Nəticə

Bibliyada üçlük təlimi öyrədilmir və trinitarizm əslində bibliyaya ziddir. Bu, məsihçi mesajlarına heç bir müsbət fayda gətirmir. İnsan tərəfindən hazırlanmış üçlük doktrinası olmadan biz İsanın ilahiliyini, İsanın bəşəriliyini, bakirədən dünyaya gəlişini, Məsihin ölümünü, dəfnini və dirilməsini, imanla günahların bağışlanmasını və kəffarəni, Müqəddəs yazının yeganə səlahiyyətli mənbə olmasını və həqiqi məsihçilik üçün lazım olan istənilən digər doktrinanı təsdiq edə bilərik. Əslində, İsanın bədəndə zühur etmiş vahid Tanrı olması barədə bibliya mesajına ciddi bağlı qaldıqda biz bu təlimləri daha da gücləndiririk. Vahidliyə sadiqlik Tanrının Oğul olaraq bədəndə gəldiyini və ya Tanrının Ata və Müqəddəs Ruhun rollarını yerinə yetirdiyini inkar etmək demək deyildir. Digər tərəfdən, üçlük doktrinası Tanrının vahidliyi və İsa Məsihin mütləq ilahiliyi ilə əlaqəli vacib bibliya mövzularından yayınır. Buna görə məsihçilik trinitarizm terminologiyasından istifadə etməyi dayandırmalı və əsas bibliya mesajını istifadə etməli və ona aksent etməlidir. Bibliyaya inananlaırın əksəriyyəti güclü trinitar baxımdan düşünmürlər, buna görə də ən azından fərdi səviyyədə bu təlimdən uzaqlaşmaq çox çətin olmazdı.

Digər tərəfdən, Vahidlik etiqadına ciddi bağlılıq çoxlu xeyirdua gətirir. Bu etiqad bibliya terminologiyasının, düşüncəsinin və mövzularının vacibliyinə xüsusi diqqət yetirir. Bu, məsihçiliyi yəhudiliyin əsl varisi və həqiqi monoteist bir inanc olaraq bərqərar edir. Bu bizə xatırladır ki, Atamız və Yaradanımız olan Tanrı bizi o qədər sevdi ki,, bədən kəsb edərək xilaskarımız kimi yanımıza gəldi. Bu bizə xatırladır ki, eyni Yaradanı və Xilaskarı Onun Ruhu vasitəsilə ürəklərimizdə qəbul edə bilərik.
Vahidlik təlimi İsa Məsihi izzətləndirir, Onun adını ucaldır, Onun kim olduğunu tanıyır və Onun tam ilahiliyini tanıyır. Vəzdə və ibadətdə İsanı və Onun adını ucaltmaq xeyirdua, qurtuluş, duaya cavab, möcüzələr, şəfa və xilasda Onun qüdrətli gücünün işini göstərir. Kimsə İsanın ilahiliyi, İsanın adı və Tanrının vahidliyi haqqında vəz edəndə möhtəşəm şeylər baş verir, lakin nadir hallarda üçlük mesajından kimsə ilham alır.
Tanrının vahidliyinə və İsa Məsihin mütləq ilahiliyinə güclü inam, bibliya inancının və həvari gücünün bərpasında olduqca həlledici bir vasitədir.

## Yekun qeydlər

### 12-ci FƏSİL

[1]Brumbak, 79.
[2]Ramm, 171.

# 13 NƏTİCƏ

Xülasə, Tanrı haqqında nə deyə bilərik? Bilirik ki, bölünməz bir Allah var (Qanunun təkrarı 6:4). Allah Ruhdur (Yəhya 4:24) və buna görə də insanlar üçün görünməzdir (Yəhya 1:18; 1 Timoteyə 6:16). O, hər şeyi biləndir, hər yerdə mövcuddur və hər şeyə qadirdir (Məzmur 139; Vəhy 19:6). Əhdi-ətiqdə Tanrı özünü dəfələrlə görünən formalarda göstərmişdir (Yaradılış 18:1; Çıxış 33: 22-23). Bu müvəqqəti, görünən təzahürlər teofaniyalar adlanır. Əhdi-cədiddə Tanrı Öz Oğlu İsa Məsih olaraq insan bədənində özünü göstərdi (Yəhya 1:1,14; 1 Timoteyə 3:16).

Əhdi-ətiqdə Tanrı Özünü Yehova və ya Yahveh adı ilə aşkar etdi, yəni Özlüyündə mövcud olan və ya Əbədi olan

mənasını verir. Əhdi-cədid çox vaxt tək Tanrını Ata kimi təsvir edir. Bu titul Onun rolunu Yaradan və hamının Atası (Malachi 2:10), yenidən doğulmuş imanlıların Atası (Romalılar 8:14-16) və yeganə doğulmuş Oğulun Atası kimi vurğulayır (Yəhya 3:16).
Bundan əlavə, bibliyada bir Tanrıya müraciət etmək üçün Müqəddəs Ruh və ya Müqəddəs Kabus terminindən istifadə edilir. Bu, Allahın nə olduğunu təsvir edir və fəaliyyətdə olan Allahı (Yaradılış 1:2), xüsusən də insanlar ilə əlaqəli, məsələn, yenidən yaratma, vəftiz, doldurma və məsh etmək kimi işlərdə (Həvarilərin işləri 1: 4-8; 2: 1-4) vurğulayır. Bibliyada ayrıca Tanrıya, xüsusən də Allahın düşüncəsinə, fikrinə, planına və ya ifadəsinə istinad etmək üçün Kəlam terminindən istifadə edilir (Yəhya 1: 1, 14).
Əhdi-cədiddə Tanrı İsa Məsihin şəxsində Özünü bədəndə göstərdi. Allahın bu təzahürü Allahın Oğlu (Allah Oğul yox) adlanır, çünki O, sözün həqiqi mənasında, Allah Ruhunun möcüzəvi hərəkəti ilə qadının bətninə düşmüşdür (Matta 1:18-20; Luka 1:35). Beləliklə, Oğul kəlməsi heç vaxt yalnız ilahiliyi bildirmir, amma həmişə Tanrının bədəndə, Məsihdə zühur etdiyini təsvir edir (Matta 25:31) və bəzən yalnız Məsihin bəşəriliyinə diqqət yetirir (Romalılara 5:10). Biz Atanın Oğul olduğunu demirik, amma Atanın Oğulda olduğunu söyləyirik. Biz Oğulu inkarnasiyadan ayıra bilmərik (Qalatiyalılara 4:4). Buna görə Oğul, Allahın düşüncəsindəki plan istisna olmaqla, inkarnasiyadan əvvəl mövcud deyildi. Söz əbədidir; Oğul əbədi deyil.

İsa Məsih Allahın Oğludur - Tanrı bədəndə (Matta 1:21-23). O, ikili bir təbiətə malikdir - insan və ilahi, ya da bədən və ruh. Başqa sözlə, tam ilahilik və bəşərilik İsa Məsihin şəxsində ayrılmaz şəkildə birləşdirilmişdir. Bəşəriliyində İsa Məryəmin oğludur. Eyni zamanda, İsa vahid Tanrının Özüdür (2 Korinflilərə 5:19; Koloslulara 2:9; 1 Timoteyə 3:16). İsa Atanın (Yeşaya 9:6; Yəhya 10:30; 14:6-11), Yehovanın (Yeremya 23:6), Kəlamın (Yəhya 1:14) və Müqəddəs Ruhun (2 Korinflilərə 3:17; Qalatiyalılara 4: 6; Efeslilərə 3: 16-17) inkarnasiyasıdır.
Bibliyada Tanrının vahidliyi və İsa Məsihin mütləq ilahiliyi haqqında açıq-aşkar təlim verilir. Erkən məsihçilər bu böyük həqiqətə inanırdılar və tarix boyu bir çox insanlar buna bağlı qaldılar. Tarix boyu trinitarizm məsihçi dünyasında üstünlük təşkil edən bir doktrinaya çevrilsə də, Müqəddəs yazılar bunu öyrətmir. Əslində, bibliyanın heç bir yerində üçlük, "bir substansiyada üç şəxs" və ya "bir Tanrıda üç şəxs" ifadəsinə işarə edilmir və ya qeyd edilmir. Üçlük doktrinasına müraciət etməyə ehtiyac duymadan biz hər iki əhddə bütün Müqəddəs yazıları adekvat şəkildə izah edə bilərik.
Trinitarizm vacib bibliya təlimləri ilə ziddiyyət təşkil edir və onlardan yayınır. Bu, bibliyada Tanrının mütləq vahidliyinin vurğulamasından və İsa Məsihin tam ilahiliyindən yayınır. Bu gün mövcud olan trinitarizm doktrinası tam inkişaf etməmiş və məsihçi dünyasının əksəriyyəti Məsihdən sonra dördüncü əsrə qədər bunu tam qəbul etməmişdir.

Məsihçi monoteizmi barədə bibliya doktrinasını hazırda mövcud olan trinitarizm doktrinasından fərqləndirən beş xüsusi cəhət var. (1) bibliyada əbədi mövcud olan "Oğul Allah" dan bəhs edilmir, çünki Oğul yalnız inkarnasiyaya aiddir.(2) "Vahid Tanrıda üç şəxs" ifadəsi səhih deyildir, çünki Tanrıdakı şəxslər arasında heç bir fərq qoyulmur. "Şəxslər" şəxsiyyətlərin, iradələrin, zehinlərin, varlıqların və ya görünən cisimlərin çoxluğunu göstərirsə, bu səhvdir, çünki Tanrı bir şəxsiyyəti, iradəsi və ağılı olan bir varlıqdır. Onun bir görünən bədəni var - İsa Məsihin izzətli insan bədəni. (3) "Üç şəxs" termini səhvdir, çünki Tanrı haqqında həqiqi üçlük yoxdur. Tanrıya aid olan yeganə say bir rəqəmidir. Onun müxtəlif rolları, titulları, təzahürləri və ya atributları var və biz bunları üç ilə məhdudlaşdıra bilmərik. (4) İsa Ata, Oğul və Müqəddəs Ruhun adıdır, çünki İsa Əhdi-cədiddə Allahın aşkar edilmiş adıdır (Yəhya 5:43; Matta 1:21; Yəhya 14:26). Buna görə də, İsanın adından istifadə edərək su vəftizini düzgün aparırıq (Həvarilərin işləri 2:38). (5) İsa Tanrının tamlığının inkarnasiyasıdır. O, Atanın (Kəlam, Ruh, Yehova) inkarnasiyasıdır, yalnız "Oğul Tanrı" adlanan bir şəxsin inkarnasiyası deyildir.

Bibliyanın öyrətdiyi Tanrı doktrinasının - Vahidlik adlandırdığımız doktrinanın mahiyyəti nədir? Birincisi, şəxslərə fərq qoyulmadan bir bölünməz Tanrı var. İkincisi, İsa Məsih Tanrıçılığın inkarnasiyasının dolğunluğudur. O, Tanrı Atadır - Əhdi-ətiqin Yehovası - bədən kəsb etmişdir. Allah bütünlüklə İsa Məsihdədir və bizə lazım olan hər şeyi

Onda tapırıq. Göydə görəcəyimiz yeganə Tanrı İsa Məsihdir.
Bütün bunları söyləyərək, bir sual ortaya çıxır: bu doktrinanı düzgün anlamaq və buna düzgün inanmaq niyə bu qədər vacibdir? Burada dörd səbəb var: (1) Bütün bibliyada bu doktrina öyrədildiyi və vurğulandığı üçün vacibdir. (2) İsa özünü kim olduğunu - Əhdi-ətiqin Yehovası olduğunu anlamağımızın bizim üçün nə qədər vacib olduğunu vurğuladı: "Mən Oyam, buna iman etməsəniz, günahlarınız içində öləcəksiniz" (Yəhya 8:24). Kinq Ceyms versiyasındakı "O" əvəzliyi italik formada verilmişdir, bu da göstərir ki, yunan dilində həmin əvəzlik yoxdur, lakin tərcüməçilər tərəfindən əlavə edilmişdir. Beləliklə də, İsa Özünü "Mənəm" (Mən Oyam) adlandırdı, bu da Çıxış 3:14-15-də Yehovanın istifadə etdiyi addır. İsa deyirdi: "Mən Oyam, buna iman etməsəniz, günahlarınız içində öləcəksiniz". Bir insanın xilas olmas üçün Tanrıçılığa aid bütün sualları hərtərəfli dərk etməsi məcburi deyil, ancaq bir Tanrının olduğuna və İsanın Tanrı olduğuna inanmalıdır. (3) Vahidlik barədə mesaj İsanın adı ilə su vəftizi üçün qaydanı müəyyən edir (Həvarilərin işləri 2:38). (4) Vahidlik haqqında fikir Müqəddəs Ruhla vəftizin, həqiqətən, nə qədər vacib olduğunu öyrədir. Tanrının yalnız bir Ruhu olduğu və Müqəddəs Ruh Məsihin Ruhu olduğu üçün biz Müqəddəs Ruhla dolanda və ya vəftiz edildikdə Məsihi tam olaraq həyatımıza qəbul edirik (Romalılara 8:9).

Bibliya Tanrının vahidliyini və İsa Məsihin tam ilahiliyini belə açıq şəkildə öyrətdiyindən, nəyə görə bir çox insan üçün, xüsusən məsihçi dünyasında olanlar üçün bu məsələ qaranlıq qalır? Cavab budur ki, bu sadəcə intellektual araşdırma yolu ilə deyil, Müqəddəs yazıların ilahi nurlandırılması yolu ilə gəlir. Bu da dua edərək öyrənmək, səylə axtarış etmək və həqiqətə olan həvəs yolu baş verir. Peter İsanın ilahiliyi barədə böyük etirafını edərkən İsa dedi: "Çünki bunu sənə bildirən ət və qan deyil, göylərdə olan Atamdır" (Matta 16: 16-17). Buna görə də Məsihdə olan Qüdrətli Tanrını anlamaq istəyiriksə, insan təlimlərini, ənənələrini, fəlsəfələrini və nəzəriyyələrini kənara qoymalıyıq. Onların yerinə Allahın təmiz Kəlamını qoymalıyıq. Allahdan bu böyük həqiqəti Kəlamı ilə bizə açmasını istəməliyik. Kəlamını nurlandırmaq və bizi bütün həqiqətlərə yönəltmək üçün Ruhundan istəməliyik (Yəhya 14:26; 16:13). Kilsə ehkamlarına güvənmək kifayət deyil, çünki kilsə ehkamları yalnız Müqəddəs yazıya uyğun öyrədildiyi təqdirdə etibarlıdır. Biz bibliyanın özünə müraciət etməli, onu araşdırmalı və Tanrıdan Ruhu ilə nurlandırmasını istəməliyik.

Bu kitabı Koloslulara 2:8-10 ayəsi ilə yekunlaşdırmaq yaxşı olardı. Bu parça Allahın vahidliyi və İsa Məsihin ilahiliyi barəsində dəyərli həqiqətləri ilə bağlı böyük bir xəbərdarlıq, təlimat və ilham mənbəyidir. *"Diqqətli olun ki, Məsihə deyil, insan ənənəsinə, dünyanın ibtidai qüvvətlərinə əsaslanaraq, fəlsəfə və boş hiyləgərliklə kimsə sizi əsir almasın. Çünki ilahi təbiətin bütün*

*dolğunluğu bədəncə Məsihdə yaşayır. Siz də Onda dolğunluğa maliksiniz. O hər cür rəyasət və hakimiyyətin Başçısıdır.”* Amin!

# BİBLIOGRAFİYA

Gücləndirilmiş (Amplified) Bibliya, Qrand Rapids: Zondervan nəşriyyatı, 1965. Ser Anderson Norman. Dünya Dinləri,
4-cü nəşr. Grand Rapids: Eerdmans nəşriyyatı, 1975.
"Vəftiz (Erkən Məsihçi)" Din və Etika Ensiklopediyası. Ceymz Hastinqz et al. (eds.). Nyu-York: Charles Scribner's Sons nəşriyyatl, 1951.
Bainton Roland. Erkən məsihçilik. Prinston, N.J .: Van Nostrand, 1960.
Bethune-Baker, J. F. Məsihçilik Doktrinasının Erkən Tarixinə Giriş. London: Methuen and Company Limited nəşriyyatı, 1933.
Bloesch Donald. Evangelist teologiyasının əsasları.
San Fransisko: Harper and Row nəşriyyatı, 1978.
Brumbak Karl. Tanrı üç şəxsdə. Klivlend, Tenn: Pathway Press, 1959.
Brunner Emil. Tanrının məsihçi doktrinası.
Filadelfiya: Westminster Press, 1949.
Busuell Ceymz, Jr. Məsihçilik Dininin Sistemli Teologiyası.
Qrand Rapids: Zondervan, 1980.
Kampbell David. Bütün Dolğunluq. Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı,
1975.
Kampbell David. Əbədi Oğulluq (Adam Klarka görə bir təkzib). Hazelwood, Mo.: Word Aflame Press, 1978.
Çalfant Uilliam. Vahidliyin Qədim Çempionları, 1979. Rpt. Hazelvood, Mo: Word Aflame Press nəşriyyatı, 1982.
Deyk (Dake) Finis. Deykin bibliya üzrə Annotasiyalı məlumat kitabı, Kinq Ceymz Versiyası. Lorensvil Corcia (Georgia): Dake's Bible Sales, 1963.
Derk Fransis. Məsihin adları, 2-ci nəşr.Minneapolis: Betani Təqaüdü, 1969.
Dorner J. A. Məsihin Şəxsinin doktrinası.
Edinburq: T. və T. Klark, 1870.

Douli (Dowley) Tim və s. (redaktəsi ilə.). Kilsənin tarixinə dair Eerdmanın məlumat kitabçası. Qrand Rapids: Eerdmans nəşriyyatı, 1977.

Durant Uill və Ariel. Sivilizasiyanın hekayəsi. Nyu-York: Simon və Şuster, 1935-1967.

Dirness (Dyrness) Uilyam. Əhdi-ətiq Teologiyasında mövzular.

Douners Qrouv (Downers Grove), İll.: InterVarsity Press nəşriyyatı, 1979.

Ferquson Paul. Məsih İsada Tanrı. Stokton Kalif.: Apostolic Press nəşriyyatı, n.d.

Flanders Henry Jr. və Bryüs (Bruce) Kresson. Bibliyaya giriş. Nyu-York: John Wiley and Sons nəşriyyatı, 1973.

Foster Fred. Onların hekayəsi: 20-ci əsrin Pentikostları.Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı, 1981.

Fremantle Anne (redaktəsi ilə.). Erkən Məsihçiliyin Xəzinəsi. Nyu-York: Mentor Books nəşriyyatı, 1953.

Qeisler Norman və Uilliam Niks. Bibliyaya ümumi giriş. Çikaqo: Moody Press nəşriyyatı, 1968. Qreyvz (Graves) Robert Brent. İki Əhdin Tanrısı, təkrar redaktə). Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı, 2000.

Harnak Adolf. Doqma tarixi. London: Williams and Norgate nəşriyyatı, 1897.

Harvey Van. Teoloji terminlər məlumat kitabçası. Nyu-York: MacMillan nəşriyyatı, 1964.

Heyk (Heick) Otto. Məsihçi Düşüncələrinin Tarixi. Filadelfiya: Fortress Press nəşriyyaı, 1965.

Hippolytus. Bir Noetusun Dönüklüyünə (Heretikliyinə) qarşı və bütün dönüklüyün (küfrlərin) təkzib edilməsi Yeni nəşr. Nikeya Atalarına qədər, cild 5. Aleksandr Roberts və Ceymz (James) Donaldson (redaktəsi ilə.). Yeni nəşr. Qrand Rapids: Eerdmans, 1977.

Hislop Aleksandr. İki Babilistan, 2-ci nəşr. Neptun, N.J.: Loizeaux Bros., 1959.

Müqəddəs bibliya, Yeni beynəlxalq versiya. Qrand Rapids: Zondervan, 1978.
Klotşe (Klotsche) E. H. Məsihçi Doktrinasının Tarixi, yeni nəşr. Qrand Rapids: Baker Kitab Evi nəşriyyatı, 1979. Latourette Kenneth. Məsihçiliyin tarixi. Nyu-York: Harper və Row nəşriyyatı, 1953.
Lebreton Jules və Jak Zeiller. Dönüklük (Heretika) və Ortodoksluq, Erkən kilsənin Tarixi kitabının 4-cü cildi. Nyu-York: Collier nəşriyyatı, 1962.
Magee Gordon. İsa Tanrıçılıqdadırmı, yoxsa Tanrıçılıq İsadadır? Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı, tarix yoxdur.
Marşal Alfred. Sətirlərarası yunanca-ingiliscə Əhdi-cədid. Qrand Rapids: Zondervan, 1958.
Miller Con (John). Tanrı üçlükdürmü? 1922. Yeni nəşr. Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı, 1975.
"Monarxianizm", Britannika ensiklopediyası. Çikaqo: Uilyam Benton, 1964.
"Monarxianizm", Din və Etika Ensiklopediyası,1962.
"Monarxianizm", Dini Biliklərin Yeni (Schaff-Herzog) Şaf-Hertsoq Ensiklopediyası. Samuel Cekson (redaktəsi ilə.). Qrand Rapids: Baker, 1963.
Nigg Ualter. Dönüklük (Heretika). Nyu-York: Alfred A. Knopf, 1962.
Noss Con (John). İnsanın Dinləri, 5-ci nəşr. Nyu-York: MacMillan, 1969.
Paterson Con (John). Tanrı Məsih İsada. Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı, 1966.
Paterson Con (John). İsanın adı ilə vəftiz haqqında əsl həqiqət. Hazelvood, Mo.: Word Aflame Press nəşriyyatı, 1953.
Ramm Bernard. Protestant Bibliya təfsiri.Qrand Rapids: Baker nəşriyyatı, 1965.
Reeves Kenneth. Tanrıçılıq. Qranit şəhəri, İll.: Müəllif tərəfindən, 1971.
"Sabellius," Britannika Ensiklopediyası, 1964. Seeburg Reinhold. Doktrinalar tarixi dərsliyi.

Çarles Hay, trans. Qrand Rapids: Baker nəşriyyatı, 1954. "Servetus Maykl (Michael)," Britannika Ensiklopediyası, 1964. Servetus Maykl(Michael). Üçlüyün səhvləri haqqında (1531) və Üçlüyə dair Dialoqlar (1532). Yeni nəşr. Ceyms Ropes və Kirsopp Leyk (Lake) (redaktəsi ilə) Üçlük haqqında Servetusun iki traktatı. Earl Morse Uilburn, trans. 1932. Yeni nəşr. Nyu-York: Kraus Yeni nəşr, 1969.
Spens H. D. M. və Yusif (Joseph) Eksell (redaktəsi ilə). Pulpit şərhi. yeni nəşr. Qrand Rapids: Eerdmans, 1977. Stevens Uilliam. Məsihçi dininin doktrinaları.
Nəşvil (Nashville): Broadman, 1967.
Stronq Ceyms. Bibliyanın Mükəmməl Uyğunluq İzahlı Lüğəti.Nəşvil: Abinqdon, 1890.
Svaggart Jimmy. "'İsa Yalnız' doktrinasının səhvləri." İvangelist. Aprel 1981-ci il.
Svedenborq Emmanuel. Tanrının sirri, 1771. Yeni nəşr. Portland, və ya.: Apostol Book Publishers, n.d. Svedenborq Emmanuel. Əsl Məsihçi dini.Nyu-York: Houghton Mifflin nəşriyyatı, 1907.
Tertullian. Prakseasa qarşı. Yeni nəşr. Nikeya Atalarına qədər. Aleksandr Roberts və Ceymz (James) Donaldson (redaktəsi ilə). Yeni nəşr. Qrand Rapids: Eerdmans, 1977.
"Üçlük," Din və Etika Ensiklopediyası, 1951. "Üçlük, Müqəddəs" Yeni Katolik Ensiklopediyası. Nyu-York: McGraw Hill nəşriyyatı, 1967.
"Üçlük, Müqəddəs (Bibliyada)", Yeni Katolik Ensiklopediyası, 1967.
"Unitarianizm", Din və Etika Ensiklopediyası,1962.
Urşan Endryu (Andrew). Rəbb İsa Məsihdə Qüdrətli Tanrı. Portland, Or.: Apostol Book Corner nəşriyyatı, 1919. Vaughn Kurtis (redaktəsi ilə). 26-dan Əhdi-cədid
Tərcümələr. Qrand Rapids: Zondervan, 1967.
Vinsent Marvin. Əhdi-Cədiddə Söz Tədqiqatları.1887. Yeni nəşr. Qrand Rapids: Eerdmans, 1975.
Vine U (W). E. Əhdi-cədid Sözlərin İzahlı lüğəti. Old Tappan, N.J.: Fleming H. Revell, 1940. Vebsterin İngilis Dilinin 3-cü yeni Beynəlxalq lüğəti, sərbəst. Filip Gove,

et al. (redaktəsi ilə). Sprinqfild Mass.: G. and C. Merriam, 1976.Ueisser, Tomas. Dönüklük (Heretika) adlanan Yoldan sonra. N.p., 1981.Uolfson, H.A. Kilsə atalarının fəlsəfəsi.Kembric Mass.: Harvard Universiteti Press nəşriyyatı, 1970.

## MƏTNDƏKİ ÇƏTİN SÖZLƏR

*Adopsionizm.* Texniki cəhətdən, səkkizinci əsrdə mövcud olmuş və İspan ilahiyyatçıları tərəfindən əsası qoyulmuş doktrina öyrədirdi ki, insan İsa Tanrı tərəfindən övladlığa götürülmüşdür. Ümumiyyətlə, İsanın həyatın bir məqamında ilahliyə ucalmış bir insan olduğuna dair hər hansı bir inancdır.

*Aqnostisizm.* Tanrının mövcudluğuna aid hər hansı bir bilikdən imtina. Adətən, agnostiklər Tanrının mövcud olub-olmadığını bilmə ehtimalını da rədd edirlər.

*Antropomorfizm.* Tanrını təsvir etmək üçün insan xarakteristikalarından istifadə; məsələn, insan duyğularının və insan bədən hissələrinin Tanrıya aid edilməsi. Bu, ümumiyyətlə, insanlara Tanrının təbiətini anlamaqda kömək etmək üçün simvolik və ya məcazi dil hesab olunur.

*Apollinarizm*. Lodikiya yepiskopu Apollinarisin xristoloji mövqeyi (390-cı ildə vəfat etmişdir?). Ümumiyyətlə, O, Məsihin natamam bir insan təbiəti olmasına inanırdı; Xüsusilə deyirdi ki, Məsihin insan ruhu yox, bir insan bədəni var idi. İnsan ruhu əvəzində o, ilahi Ruh və ya loqosa malik idi. 381-ci ildə Konstantinopol Şurası Apollinarizmi qınadı.

*Apologet*. Məsihçiliyi intellektual etirazlara qarşı müdafiə edən bir cərəyan. Kilsə erkən tarixində yunan apologetləri təxminən 130-cü ildən 180-ci illərə qədər məsihçi rəhbərləri idilər. Onlar yunan dilində traktat yazaraq məsihçiliyi bütpərəst filosofların hücumlarından qoruyurdular.

*Arianizm*. İsgəndəriyyədəki keşiş Ariusun (280? -336-cı illər) xristoloji görüşləri. Arius yalnız bir Tanrının olduğunu və Oğul və ya Loqosun Tanrı kimi bir ilahi varlıq olduğunu, ancaq Tanrı tərəfindən yaradıldığını iddia edirdi. Beləliklə, İsa yarıtanrı idi. Bu görüş dördüncü əsrdə məsihçi dünyasını cənginə almağa çox yaxın idi, lakin 325-ci ildə Nikeya Məclisində və 381-ci ildə yenidən Konstantinopol Şurasında pislənildi.

*Atanasian Etiqad toplusu*. Atanasius tərəfindən formalaşdırılmamış qədim trinitar bir etiqad. Bu təlim beşinci əsrdə inkişaf etdi və ehtimal ki, Avqustinin teologiyasının təsiri altına düşdü. Məsihçi dünyasının qərb hissəsi (Roma Katolik Kilsəsi) rəsmi olaraq bunu qəbul etdi və protestantlar, ümumiyyətlə, onu qoruyub saxladılar, lakin Şərq Ortodoksluğu bunu heç vaxt qəbul etməmişdir, çünki Müqəddəs Ruhun yalnız Atadan gəldiyini demək əvəzində Atadan və Oğuldan qaynaqlandığını bildirir. Bu, üçlük doktrinasının qədim kilsə tarixindəki ən tam ifadəsidir. Bu etiqad toplusunun mətninin bir hissəsi üçün 11-ci fəslə baxın.
*Atanasianizm*. İsgəndəriyyə yepiskopu Atanasiusun (293-373-cü illərdə) trinitar doktrinası. 325-ci ildə Nikeya Şurası bu doktrinaya ilk rəsmi təsdiq verdi və 381-ci ildə Konstantinopol Şurası onu daha da dərindən bərqərar etdi. Bu, Roma Katoliklərinin və Protestantlarının eyni ortodoks görüşüdür. Əsasən, bu təlim Tanrıçılıqda üç əbədi şəxsin olduğunu qeyd edir: Tanrı Ata, Tanrı Oğul və Tanrı Müqəddəs Ruh. Bu üç şəxs həm-bərabər, həm-əbədi və həm-vacibdir.
*Ateizm*. Tanrının olmaması haqqında iddia və ya inam.
*Binitarizm*. Tanrıçılıqda iki şəxsə inam: Tanrı Ata və Tanrı Oğul. Bu doktrinanın bir forması yunan apologetləri arasında yayılmışdı. Bu gün də mövcuddur.
*Serintianizm*. Birinci əsrdə mövcud olmuş Qnostik bir doktrina, Serintusun adı ilə bağlıdır. Bu təlimin erkən tərəfdarı olmuşdur. O iddia edirdi ki, İsa və Məsih ayrı bir varlıqdırlar. Bu görüşə görə, İsa təbii olaraq (bakirədən deyil) doğulmuş bir insan idi, Məsih isə vəftiz zamanı İsanın üzərinə gəlmiş və çarmıxa çəkilməzdən əvvəl tərk etmiş bir ruh idi.
*Xristosentrik*. Məsihin şəxsinin və işinin hər şeyin təməli və mərkəzi olduğu bir teoloji sistemdir.
*Xristologiya*. İsa Məsih və inkarnasiya doktrinası. 451-ci ildə Xalkidon Şurası İsa Məsihin iki təbiətli bir şəxs (bəşər və ilahi) olduğunu təsdiqlədiyi zaman bu mövzuda ənənəvi məsihçi tərifinin nədən ibarət olduğunu ifadə etdi.

*Diteizm*. İki ayrı və fərqli tanrıya inam.
*Doketizm*. Birinci əsrdə mövcud olmuş Qnostik inanc. Onlar Məsihin yalnız bir ruh varlıq olduğuna inanırdılr. Bu görüşə görə Məsih əsl insan bədəninə malik olmaq üçün peyda oldu, amma əslində olmadı.
*Dinamik monarxianizm*. Monarxianizmə baxın.
*Ebionitizm*. Birinci əsrdə yəhudi məsihçilərindən yaranmış bir bidət (heretika, dönüklük). Ebionitlər Pavelin təlimlərini rədd etdilər və Musanın qanununun vacibliyini vurğuladılar. Ümumiyyətlə, onlar İsanı Tanrı kimi yox, ilahi olaraq ilham almış bir peyğəmbər kimi qəbul etdilər.
*Qnostisizm*. Məsihdən sonrakı ilk bir neçə əsrdə geniş düşüncə tərzini əhatə edən bir termin. Bu, bütpərəstlikdən yaranmışdı, lakin bir çox məsihçi ünsürlərini qəbul etdi və məsihçilik üçün böyük bir təhlükə oldu. Ümumiyyətlə, Qnostisizm ruhun yaxşı olduğunu, materiyanın pis olduğunu, qurtuluşun ruhun materiyadan xilas olmasından ibarət olduğunu və qurtuluşun gizli və ya daha yüksək bir bilik (yunananca, gnosis) yolu ilə əldə edildiyini iddia edir. Tanrıçılığa və xristologiyaya tətbiq olunan qnostisizm aşağıdakılara uyğundur: Ali Tanrı transendental və əlçatmaz idi, ancaq Ondan bir sıra daha aşağı (aeon - əbədilik adlandırılan) emanasiyalar çıxdı. Bu aeonların ən aşağısı Yehova idi. Məsih ən yüksək aeonlardan biridir. Bütün materiya pis olduğuna görə Məsih yalnız bir ruh varlıq idi və yalnız aşkar bir bədənə (doketizm doktrinası) malik idi. Və ya bəziləri öyrədirdilər ki, Məsih, vəfat etmiş insan İsa ilə müvəqqəti şəkildə əlaqəli olan bir ruh varlıq olub (Serintianizm doktrinası). Tanrıçılıq barədə bu Qnostik görüşlərə Yəhyanın yazılarında və Pavelin Koloslulara məktubunda etiraz edilmişdir.
*Tanrıçılıq*. İlahilik sözünün sinonimi. Tanrı olma vəziyyətinə və Tanrının cəmi təbiətinə aiddir.
*Yunan Apologetləri.* Apologetə baxın.
*Homoiousios.* "Təbiətdəki kimi" və ya "təbiətdə oxşar" kimi tərcümə olunan yunan sözü. Arianlar İsanın Tanrı ilə əlaqəsini təsvir etmək

üçün istifadə edirdilər. Nikeya Şurasında bunun istifadəsinin tərəfdarı olanların çoxu, şübhəsiz ki, Arianlar deyildilər, lakin onlar alternativ söz olan homoousiosun Sabellian nöqtəyi-nəzərdən anlayışına qarşı çıxdılar. Nikeya Arianizmi və homoiousiosun istifadəsini rədd etdi.

*Homoousios.* Yunan sözü olub "təbiətcə eyni" kimi tərcümə olunur. Atanasius bunun istifadəsini müdafiə etdi və Nikeya Şurası İsanın Tanrı ilə əlaqəsini təsvir etmək üçün bu sözü qəbul etdi, baxmayaraq ki, bəziləri əvvəllər bu sözdən Sabellianlar tərəfindən istifadə edildiyi üçün buna qarşı çıxdılar. Beləliklə, bu söz modalist bir söz olaraq başladı, lakin trinitaristlər tərəfindən qəbul edildi.

*Hipostaz*. (cəm forması: hipostazlar) yaşayış və ya fərdiləşdirilmiş təzahür mənasını verən və adətən "şəxs" kimi tərcümə olunan yunan sözü. Üçlük doktrinasına görə, Tanrı üç hipostaz olaraq mövcuddur. Ənənəvi Xristologiyaya görə, İsa Məsihin iki təbiəti var, lakin yalnız bir hipostazdır. İbranilərə 1:3-də deyilir ki, Oğul ikinci hipostaz deyil, Tanrının hipostazının birbaşa təcəssümüdür.

*Dəyişməz*. Əbədi olaraq dəyişilməz. Yalnız Tanrıya məxsus bir keyfiyyətdir.

*İnkarnasiya*. Ümumiyyətlə, bir ruhun insan şəklində təcəssümü. Xüsusilə, bədən olmaqda Tanrının hərəkəti; yəni İsa Məsihdə ilahiliyin və bəşəriliyin birliyi.

*İslam*. Ərəbistanda VII əsrdə Məhəmməd tərəfindən əsası qoyulan monoteist (təkallahlı) din. Davamçılarına müsəlman deyilir. İslam inancı belədir: "Allahdan başqa Tanrı yoxdur və Məhəmməd Allahın peyğəmbəridir". İslam Allahı İbrahimin Tanrısı olaraq müəyyən edir və bibliyanı Allahın Kəlamı kimi qəbul edir. Ancaq bu din İsanı sadəcə yaxşı bir peyğəmbər hesab edir, Məhəmmədin isə bütün peyğəmbərlərdən ən böyüyü olduğunu iddia edir. Bundan əlavə, Məhəmmədin kitabı olan Quran və ya Qur’an bu gün insanlara verilən Allahın Kəlamının son vəhyidir. İslam Orta Şərqdə, Şimali Afrikada və bir sıra Asiya ölkələrində dominant dindir.

*İudaizm*. Tövrata (Musanın qanunu) ya da Məsihçi Əhdi-ətiqinə əsaslanan monoteist (təkallahlı) din. İudaizm Tanrının say baxımdan tamamilə bir olduğunu, Musanın qanununu bu gün üçün Tanrının Sözü olaraq qəbul etdiyini və Nazaretli İsanın Tanrı və ya Məsih rolunu tamamilə rədd etdiyini öyrədir.
*Kenosis*. Yunanların "kenoo" sözündən götürülmüşdür, bu, Filippilərə 2: 7-də yer alır və "heç nə etməmək, boşaltmaq və ya soymaq, soyun(dur)maq", məhrum etmək deməkdir. Bu söz insan olaraq bədəndə zühur etmək üçün Tanrıya məxsus üstünlüklərindən və ləyaqətindən Tanrının imtina etmək seçimini təsvir edir. Bəzi trinitaristlər bir kenotik nəzəriyyədən çıxış edərək deyirdilər ki, "Tanrı Oğul" inkarnasiya edərkən Özünün ilahi atributlarından imtina etmişdir.
*Loqos*. Yunanca "Söz", Kəlam mənasını bildirir. Yəhya 1:1-də "Kəlam" olaraq tərcümə edilmişdir. Bu ayədə Kəlam ağıl, düşüncə, plan, fəaliyyət, ifadə və ya Tanrının ifadəsi deməkdir. Burada Kəlam Tanrının ifadə olunmamış düşüncəsinə və ya Tanrının Oğulu İsa Məsih vasitəsi ilə bədəndə ifadə olunan Tanrının düşüncəsinə aid ola bilər. Qədim Yunan fəlsəfəsində bu, kainatın idarə edilməsi prinsip olaraq ağıl mənasını verirdi. Neo-Platonik fəlsəfə, xüsusən də Yunan-Yəhudi filosofu İskəndəriyyədən olan Filonun təsiri altında Kəlamı şəxsləndirdi və onu Tanrı tərəfindən yaradılan və ya zamanında Tanrıdan gələn ikinci bir ilahi kimi təsvir etdi. Yunan apologetlərindən bəziləri bu görüşü qəbul etdilər və Loqosu Oğula bərabər tutdular. Trinitarizm bu inancı özündə birləşdirərək, Loqosu "Tanrı Oğul" ilə bərabərləşdirdi, lakin son nəticədə Loqosun Tanrı Ata ilə həm-bərabər və həm-əbədi olduğuna inandı. Yəhyanın yazıları xüsusilə Loqos və Oğul haqqında bu yalançı anlayışları təkzib etmək üçün hazırlanmışdır.
*Zühur*. Zühur etmək "göstərmək, aşkar etmək, nümayiş etdirmək, açıqlamaq və ya aydın etmək" deməkdir. Təzahür zühur etmə aktı və ya anıdır. 1 Timoteyə 3:16-da deyilir: "Allah bədəndə zühur etdi" Bu kitabda Tanrı tərəfindən insanlara özünü aşkar edən hər hansı

bir üsulu, rejimi, rolu və ya əlaqəni təsvir etmək üçün təzahür, zühur kəlməsi istifadə olunur. Beləliklə, Ata, Oğul və Müqəddəs Ruh şəxslərdən daha çox Tanrının zühurlarıdır, çünki şəxsiyyət sözündə fərdi şəxsiyyətlərin bibliyadan kənar məna çalarları var. Zühur sözündə isə bu məna yoxdur.
*Modallıq*. Bu termin erkən kilsə tarixində Ata, Oğul və Ruhun Tanrının təbiətindəki əbədi fərqlər deyil, sadəcə olaraq Tanrının fəaliyyətinin rejimləri (metodları və ya təzahürləri) olduğuna dair bir inancı təsvir etmək üçün istifadə olunur. Başqa sözlə, Tanrı tək bir fərdi varlıqdır və Onu təsvir etmək üçün istifadə olunan müxtəlif terminlər (məsələn, Ata, Oğul və Müqəddəs Ruh) Onun hərəkətlərinin müxtəlif formalarına və ya insanlara münasibətdə fərqli münasibətlərə tətbiq olunan təyinatlardır.. Əlavə tarixi müzakirə üçün 10-cu fəslə baxın. Buna həmçinin Modalist monarxianizm, Patripassianizm və Sabellianizm də deyilir. Əsasən, modalizm vahidliyin müasir doktrinası ilə eyni əsasları dəstəkləyir.
*Modalist monarxianizm.* Monarxianizmə baxın.
*Rejim*. Bir ifadə forması və ya tərzi; bir zühur, təzahür; Tanrının təbiətində vacib və ya əbədi bir fərq deyil.
*Monarxianizm*. Termin erkən kilsə tarixində Tanrının bölünməz birliyini və suverenliyini (monarxiya) vurğulayan bir inamı təsvir etmək üçün istifadə olunurdu. Bu, Allahın varlığındakı vacib fərqləri rədd etdi və bununla da üçlük təlimini inkar etdi. Tarixçilər iki kəskin fərqli inancın - dinamik monarxianizmin və modalist monarxianizmin təsvir edilməsi üçün bu termindən istifadə edirlər, lakin bu, iki qrup və ya doktrina arasında heç bir tarixi bağlılığı ifadə etmir. Dinamik monarxianizm təsdiq edir ki, İsa bir insan idi, içində ilahi hikmət və ya Loqos məskunlaşdığından Tanrının Oğlu oldu. Göründüyü kimi, dinamik monarxianlar İsanı, sözün ciddi mənasında, Tanrı hesab etməkdən imtina etdilər və Ona Tanrı kimi ibadət etmədilər. Modalist monarxianizm (modalizm) tarixən dinamik monarxianizmdən daha təsirli idi. Modalist monarxianizm Tanrının tək bir varlıq olduğunu, Ata, Oğul və Müqəddəs Ruhun tək

Tanrının müxtəlif fəaliyyət rejimlərinə tətbiq olunan terminlər olduğunu söyləyirdi. Dinamik monarxianizmdən fərqli olaraq, modalist monarxianizm İsa Məsihi bədəndə zühur edən Tanrının Özü (Ata) olaraq müəyyən etdi.

*Monofizitizm*. 451-ci ildə Xalkedon Şurasından sonra ortaya çıxan və Məsihdə iki təbiətin olması barədə fikir səsləndirən Xalkedon bəyannaməsinə qarşı çıxan xristoloji doktrina. Monofizitlər Məsihin yalnız bir dominant təbiətə malik olduğunu və bunun ilahi təbiət olduğunu düşünürdülər.

*Monoteizm (Təkallahlıq)*. Yunan sözü olub "vahid Allah" mənasını verən, yalnız bir Tanrıya inam deməkdir. Bibliyada ciddi monoteizm öyrədilir. Dünyanın yalnız üç böyük dini monoteistdir: iudaizm, məsihçilik və islam. Yəhudilər və müsəlmanlar üçlük təlimini həqiqi monoteizmin rədd edilməsi kimi görürlər. Vahidliyə inananlar da trinitarizmi bibliyadakı monoteizmdən uzaqlaşan təlim kimi rədd edirlər.

*Monotelitizm (və ya monoteleitizm)*. Yeddinci əsrdə Məsihin yalnız bir iradəsi olduğunu iddia edən məsihçi doktrinası. Məsihçilikdə əksəriyyətin fikrincə, Məsihin insan və ilahi olaraq bir-biri ilə əməkdaşlıq edən iki iradəsi var, lakin monoteletlər Məsihin bir ilahi-bəşəri iradəyə malik olduğuna inanırdılar.

*Təbiət*. "Bir şəxsə və ya bir şeyə xas olan xarakter və ya əsas quruluşu" (Vebsterin lüğəti). Bu söz tez-tez Məsihin bəşəriliyini və ilahiliyini təsvir etmək üçün istifadə olunur. Bunu Məsihin ikili təbiətli olduğunu və ya Məsihin iki təbiətə malik olduğunu söyləməklə ifadə edə bilərik. Məsih bütöv bir bəşəri təbiətə (5-ci fəslə baxın) və eyni zamanda tam ilahi təbiətə (4-cü fəslə baxın) malik idi. Həm bəşərilik, həm də ilahilik İsa Məsih varlığının vacib hissələridir.

*Nestorianizm*. Nestoriusun Xristologiyası (Konstantinopolun patriarxı, 428-431-cü illər). Nestorius Məsihin iki bütöv bir təbiətə malik olduğunu - insan və ilahi olduğunu söyləyirdi. Bu təlim öyrədirdi ki, Məryəmə "Tanrının Anası" demək olmaz, çünki o, yalnız

bəşəriyyətin anası idi. 431-ci ildə Efes Şurası Nestoriusu Məsihi iki şəxsə bölməsinə görə qınadı, lakin Nestorius ittihamı rədd etdi. Ola bilsin ki, o, Məsihin iki təbiətinin mahiyyətcə və ya fiziki olaraq deyil, mənəvi və ya yalnız məqsəd baxımından birləşməsini öyrədirdi. Bununla birlikdə, bir çox tarixçilər belə bir qənaətə gəldilər ki, Nestorius bir şəxsdə iki təbiət olduğunu öyrədirdi, lakin iki təbiət arasındakı fərqləri vurğuladığına və Məryəmi Tanrının anası adlandırmaqdan imtina etdiyinə görə anlaşılmazlığın və müxalifətin qurbanına çevrildi.

*Nikeya Etiqad toplusu*. Təxminən 500-cü ildən etibarən mövcud olmuş nüfuzlu trinitar bir etiqad. Bu, əsasən 325-ci ildə Nikeya Şurasının və 381-ci ildə Konstantinopol Şurasının qərarlarına söykənir. Nikeyanın orijinal forması Arianizmi pislədi və bəyan edirdi ki, Oğul Ata kimi eyni təbiətə (homoousios) malikdir. Bu topluda həmçinin Oğulun əbədi olduğu göstərilir, Ata və Oğulun Tanrıçılıqdakı fərqli şəxslər kimi əbədi mövcudluğu nəzərdə tutulur. Konstantinopol Şurasında Müqəddəs Ruhun da Tanrıçılıqda əbədi olaraq fərqli bir şəxs olduğunu təsdiqləyən ifadələrdən istifadə edilmişdir. Beləliklə, Nikeyanın əsas ifadə forması üç səbəbə görə vacibdir: Bu, Arianizmi rədd etdi, bu, Tanrı barədə trinitar bir mənzərəni ifadə edən, həm də modalizmə tam uyğun olmayan ilk rəsmi bəyanat idi.

*Hər şeyə qadir olma*. Yalnız Tanrıya xas olan bir atributdur və bütün gücə malik olması deməkdir.

*Hər yerdə mövcud olma*. Yalnız Tanrıya xas olan bir atributdur və eyni anda hər yerdə mövcud olması mənasını verir. Bu, istənilən vaxt istənilən yerdə görünmək və ya bir anda çox yerdə olmaq qabiliyyətindən daha çox imkanı özündə ehtiva edir.

*Hər şeyi bilmə*. Yalnız Tanrıya xas olan bir atributdur və hər şey haqqında bütün biliyə malik olması, o cümlədən qabaqcadan hər şeyi bilməsi mənasını verir.

*Vahidlik*. Tanrıya istinadən vahidlik sözü mütləq və bölünməz olaraq vahid, ya da say baxımından vahid mənasını verir. Həm də Tanrı ilə

insanlar arasında, eləcə də ağıl, iradə və məqsəd birliyi mənasında insanlar arasında vahidlik ola bilər. Bu kitab Vahidlik (böyük hərflə) terminindən istifadə edərək say baxımından Tanrının tamamilə vahid olması, İsanın tək Tanrı olması və Tanrının şəxslərin cəmi olmaması mənasını verir.

*Ousia*. Yunan sözü olub substansiya, təbiət və ya varlıq mənasını verir. "Bir substansiyada üç şəxs" trinitar ifadəsi olaraq "substansiya" kimi tərcümə olunur.

*Panteizm*. Tanrını təbiət və ya kainatın substansiya və qüvvələri ilə bərabərləşdirən bir inancdır. Bu təlimdə rasional, intellektual bir Tanrının mövcudluğu inkar edilir. Əksinə, Allahın hər şey olduğunu və hər şeyin Tanrı olduğunu iddia edir.

*Patripassianizm*. Modalizm, modalist monarxianizm və ya Sabellianizmə verilən bir addır, latın sözlərindən yaranmışdır, mənası "Ata əziyyət çəkdi" deməkdir. Bəzi tarixçilər bundan modalizmi təsvir etmək üçün istifadə edirlər, çünki Tertullian modalistləri Atanın əziyyət çəkib öldüyünə inandıqlarına görə ittiham edirdi. Ancaq modalistlər Tertullian tərəfdarlarının ittihamlarını rədd etdilər. Buna görə də bu söz trinitaristlərin modalizm haqqında yanlış şərhini əks etdirir, çünki modalizm Atanın Oğul olduğunu deyil, Atanın Oğulda olduğunu öyrədirdi. Bədən Ata deyildi, amma Ata cismdə (bədəndə) idi. Beləliklə, modalizm Atanın fiziki olaraq əziyyət çəkdiyini və ya öldüyünü öyrətmirdi.

*Şəxs*. Bu sözün əsas mənası fərd olaraq insan, ya da bir insanın fərd olaraq şəxsiyyəti deməkdir. Xristologiyada bu termin Məsihin iki təbiətinin birliyini təsvir edir; yəni Məsihin şəxsində iki təbiət var. Trinitaristlər Tanrıda (Ata, Oğul və Müqəddəs Ruh) üç əbədi mahiyyət fərqini göstərmək üçün bu termindən istifadə edirlər. Beləliklə, "bir substansiyada üç şəxs" və ya "üç şəxsdə bir Tanrı" trinitar ifadə formamız var. Trinitaristlər, adətən, Tanrının üç ayrı şəxsiyyətə və ya ağıla malik olmadığını söyləsələr də, şəxs sözü şəxsiyyət, ağıl və iradə fərdiliyinin güclü məna çalarlarını ifadə edir.

"Şəxs" kimi tərcümə olunan yunan və latın sözlərinin müzakirəsi üçün müvafiq olaraq Hipostaz və Personaya baxın.

*Persona*. (cəm forması: personae.) Latın sözü olub "şəxs" kimi tərcümə olunur. Tertullian bu sözü "una substantia et tres personae" ("bir substansiyada üç nəfər") trinitar ifadə formasında istifadə etmişdir. Bu sözün latın dilində erkən istifadəsi sözü özünüdərk bir varlığın müasir mənası ilə məhdudlaşdırmırdı. O zaman bu, aktyorun geydiyi maska, aktyorun dramdakı rolu və ya müqavilədə iştirak edən hüquqi bir tərəf mənasını bildirirdi. Bununla birlikdə, bu söz ayrı-ayrı şəxslərə də aid edilə bilərdi. Bu söz yunan dilində hipostaz sözünün ilkin olaraq bildirmədiyi fərdiləşdirilmiş şəxsiyyət məna çalarlarını ifadə etmirdi (11-ci fəslə baxın). Nikeya Şurası sonradan persona kimi tərcümə olunan hipostaz sözündən istifadə etsə də, Tertullian üçlüyün üzvlərini təsvir etmək üçün persona sözündən çox əvvəl istifadə etmişdi.

*Politeizm*. Yunan sözlərindən olub "bir çox tanrı" mənasını verən birdən çox tanrıya inam deməkdir. Diteizm və triteizm politeizmin formalarıdır. Bibliya politeizmi qətiyyətlə rədd edir. Mesopotamiya, Misir, Kənan, Yunanıstan və Roma dinləri də daxil olmaqla qədim dinlərin əksəriyyəti polyistist idi.

*Həvarilikdən sonrakı atalar*. On iki həvaridən sonrakı günlərdə məsihçi kilsəsinin (imanlı cəmiyyətinin) rəhbərləri. Bu kitabda bu termin təxminən eramızın 90-140-cı illərindən olan liderlərdən bəhs edir. Onların arasında ən məşhurları Polikarp, Romanın Klementi, İqnatius və Hermas idilər.

*Sabellianizm*. Modalizm və ya modalist monarxianizm üçün başqa bir termin. Bu termin qədim kilsə tarixinin ən görkəmli nümayəndəsi Sabelliusdan irəli gəlir. Sabellius Romada təxminən eramızın 215-ci ilində təbliğ edirdi.

*Subordinatizm*. Tanrıçılıqdakı bir şəxsin Tanrıçılıqda digər bir şəxsə tabe olduğuna və ya yaradıldığına inam. Əlbəttə ki, bu, Tanrıçılıqda şəxslərin cəminə inamı nəzərdə tutur. Erkən trinitarizmdə bu, Loqosun ilahi Oğul olduğuna və Ataya tabe olduğuna inam kimi

meydana gəldi. Bu bəzi yunan apologetlərin, Tertullian və Origenin görüşü idi. Arianizm bu doktrinanın həddindən artıq inkişaf etdirilmiş formasıdır. Bu termin həm də Müqəddəs Ruhun Ataya və ya Oğula tabe olduğunu iddia edən istənilən bir inama aiddir. Nikeya və Atanasian etiqad toplularının ifadə etdiyi ortodoksal trinitarizm subordinatizmin hər hansı bir formasını nəzəri olaraq rədd edir, lakin buna meyl qalmaqdadır. (11-ci fəslə baxın)

*Substantia*. Latın sözü olub substansiya mənasını verir və "bir substansiyada 3 şəxs" formasında Tertullian tərəfindən trinitar ifadə kimi istifadə olunur.

*Teofaniya*. Adətən, təbiətcə müvəqqəti anlamda başa düşülən Tanrının görünən bir təzahürü. Əhdi-ətiqdə Tanrının insan və ya mələk şəklində meydana çıxması teofaniyalar idi. İsa Məsih teofaniyadan daha çox məna kəsb edir, çünki O, sadəcə insan şəklində görünən Tanrı deyil, əslində həqiqi bir insan kimi gəlmiş Tanrıdır.

*Trinitarizm*. Bir Tanrıda üç şəxsin olduğuna inam. Tarix Tertullianı (vəfat edib 225-ci ildə?) məsihçi trinitarizmin atası hesab edir, çünki o, latın dilində Tanrı üçün trinitas (üçlük) sözünü işlətmiş ilk insan oldu. O, eyni zamanda "una substantia et tres personae" ("bir substansiyada üç şəxs") ifadəsindən ilk dəfə istifadə etmişdir. Müasir trinitarizm tək Tanrıda - Tanrı Ata, Tanrı Oğul və Tanrı Müqəddəs Ruh olan Tanrıda 3 şəxs olduğunu və bu üç şəxsin həm-bərabər, həm-əbədi və həm-vacib olduğunu iddia edir. Beləliklə, trinitarizm Tanrının təbiətindəki üç əbədi fərqlilik barədə öyrədir, lakin üç ayrı tanrı olduğunu inkar edir. Eramızın 325-ci ilində Nikeya Şurası məsihçilik tərəfindən trinitarizmin ilk rəsmi təsdiqini (qismən) qeyd etdi. 381-ci ildə Konstantinopol Şurası doktrinanı bir daha təsdiqlədi və daha da aydınlaşdırdı. Qədim kilsə tarixindəki trinitarizmin ən tam ifadəsi V əsrdən başlayan Atanasian etiqad toplusunda öz əksini tapmışdır.

*Üçlük*. Trinitar inancda olan tanrıçılıq; xüsusən Tanrı Ata, Tanrı Oğul və Tanrı Müqəddəs Ruh. Triteizm. Üç tanrıya inam. Bu şəkildə bu,

politeizmin bir formasıdır. Trinitarizmin tərəfdarları triteist olduqlarını inkar edirlər; Bununla birlikdə, trinitarizm, şübhəsiz ki, triteistik meyllərə malikdir və trinitarizmin bəzi ekstremal formaları triteistdir (11-ci fəslə baxın). Məsələn, Tanrıçılıqda üç özünüdərk ağlın və ya üç əbədi cismin olduğuna hər hansı bir inam xüsusi olaraq triteizm adlandırıla bilər.

*Unitarianizm.* Ümumiyyətlə, Tanrıçılıqda yalnız bir şəxsə inam. Xüsusilə, bu termin, adətən, Tanrıçılığın birliyini vurğulayan, lakin bununla belə İsa Məsihin ilahiliyini inkar edən bir hərəkatı təsvir edir. Bu, protestantçılıqda antitrinitar bir hərəkat olaraq meydana gəldi və indi Unitar-Universalist Assosiasiyası adlanan bir denominasiya olaraq təşkil edildi. İsa Məsihin tanrılığını inkar etməkdən əlavə, unitarianizm İsanın bakirədən doğulması və günahlar üçün əvəzedici kəffarə də daxil olmaqla bir sıra digər müjdə ilə əlaqəli və ya fundamental inancları rədd edir. Unitarianizmi iki səbəbə görə Vahidlik konsepsiyası ilə eyniləşdirmək yanlış ola bilər. Birincisi, Vahidlik konsepsiyası Tanrının tək bir "şəxs" olmasını demir, əksinə bir Tanrının olduğunu deyir. İkincisi, Vahidlik konsepsiyasına inananlar müasir Unitarian-Universalist məzhəbindən fərqli olaraq İsanın tam ilahiliyini, onun bakirədən doğulmasını və günahlar üçün əvəzedici kəffarə olmasını təsdiqləyirlər.

Bu bestsellerdə Tanrının vahidliyi və İsa Məsihin ilahiliyi hərtərəfli, bibliyaya uyğun şəkildə açıqlanır, Müqəddəs yazıların çətin anlaşılan yerlərinə dair etirazlara cavablar və izahlar verilir. Müəllif mətndə sadəliyi qorumaqla intellektual bir yanaşma ortaya qoyur. Tanrıçılıq anlayışına olan yanaşma asanlıqla başa düşüləndir, amma həqiqətlər dərin, elmi və qiymətsizdir.

1

Tanrının vahidliyi

DAVID K. BERNARD



**David K. Bernard** Beynəlxalq Birləşmiş Əllincilər Kilsəsinin ümumi rəhbəridir. Texasın Ostin şəhərində Yeni Həyat Birləşmiş Əllincilər Kilsəsinin yaradıcısı və Urşan İlahiyyat Ali Məktəbinin qurucu prezidentidir. O hüquq üzrə fəlsəfə doktoru dərəcəsi üzrə fərqlənmə diplomunu (Texas Universiteti), ilahiyyət üzrə fəlsəfə doktoru (Cənubi Afrika Universiteti) diplomunu və bakalavr təhsili üzrə yüksək fərqlənmə diplomunu (Rays Universiteti) almışdır. Onun otuz bir kitabı təxminən qırx dildə nəşr edilmişdir. O və həyat yoldaşı Konninin üç övladı və bir neçə nəvəsi var.

**David K.Bernardın** müəllifi olduğu kitablar:
Əllinci İlahiyyat Seriyası
Cild 1: Tanrının Vahidliyi*
Cild 2: Yeni doğuluş*
Cild 3: Müqəddəslik axtarışında*
Cild 4: Praktik Müqəddəslik:İkinci baxış
Tanrının Vahidliyinə dair təlim kitabı
Yeni doğuluşa dair təlim kitabı
Müqəddəsliyin axtarışına dair təlim kitabı
Praktik Müqəddəsliyə dair təlim kitabı
Tanrının Vahidliyi və təlim kitabı
Yeni doğuluş və təlim kitabı
Müqəddəslik axtarışında və təlim kitabı
Praktik Müqəddəslik: İkinci Baxış və təlim kitabı

**Digər kitablar**
Həvari Həyatı
Tanrının Dəyişilməz Kəlamı
Kilsə böyütmə
Əsas doktrinalara dair kitabça*
Məsihçi doktrinasının tarixi, cild. 1, 2 və 3
İsanın adı ilə
Bəraət və Müqəddəs Ruh
Vahidlik və Üçlük, eramızın 100-300-cü illərində
Vahidlik barədə İsa Məsihin görüşü
Ruhani ənamlar*
Dördüncü əsrdə Trinitar ziddiyyət
Tanrının Kəlamını dərk etmək

**Bukletlər**
Vahidlik İlahiyyatının Əsasları
Yeni Doğuluşun Əsasları*
Müqəddəsliyin Əsasları
Bibliyanın əsas doktrinaları*
İnam Simvolunu başa düşmək

**Şərhlər**
Koloslulara və Filimona məktublar
Romalılara məktub

**CD-ROM**
Həvarilərin Əllincilik İlahiyyatına giriş
Əllincilərin Rəqəmsal Kitabxanası, cild. 1
David K. Bernardın Tam Əsərləri
Əllincilərin Kafedra (Minbər) Seriyası, Cild 3.
Həvarilərin imanını təbliğ etmək
Həvarilərin imanını öyrətmək*

*İspan dilində olan ədəbiyyat

WORD AFLAME PRESS
8855 Dunn Road, Hazelwood, MO 63042
www.pentecostalpublishing.com

ISBN-13: 978-0-912315-12-6
ISBN-10: 0-912315-12-1